بِسْمِ اللهِ الرَّحْمٰنِ الرَّحِيمِ

**BAĞIŞLAYAN VƏ MEHRİBAN ALLAHIN ADI İLƏ**

قَالَ اللَّهُ تَعَالَى:

﴿ إِنَّمٰا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ اَهْلَ الْبَيْتِ وَ يُطَهِّرَكُمْ تَطْهِيرًا﴾

*“Allahın istək və iradəsi bu olmuşdur ki, yalnız siz Əhli-beytdən hər nøv çirkinliyi aradan aparıb sizi pak-pakizə qərar versin.”*

(Əhzab surəsi, 33-cü ayə)

Şiə və sünnü kitablarında nəql edilmiş Nəbəvi hədislərin əksəriyyəti bu ayənin Ali-Əbanın beş üzvünə aid olduğunu deyirlər. “Əhli-Beyt” Ali-Əbanın üzvlərinə, yə`ni həzrət Muhəmməd Œ, Əli, Fatimə, Həsən və Hüsen (*əleyhimus-salam*)-a şamil edilir. Daha geniş mə`lumat üçün aşağıdakı mənbələrə müraciət edə bilərsiniz: “Müsnəd”, Əhməd (vəfat tarixi: 241-ci hicri-qəməri): 1-331, 4-107, 6-292 və 304; “Səhih”, Muslim (vəfat tarixi: 261 h.q.): 7-130; “Sunən”, Tirmizi (vəfat tarixi: 279 h.q.): 5-361 və ...; “Əzzurriyyətut-tahirətun-Nəbəviyyə”, Dulabi (vəfat tarixi: 310 h.q.): 108; “Əs-Sunənul-Kubra”, Nəsai (vəfat tarixi: 303 h.q): 5-108 və 113; “Əl-mustədrəku ələs-Səhihəyn”, Hakim Nişapuri (vəfat tarixi: 405 h.q.) 2-416, 3-133 və 146 və 147, “Əl-burhan”, Zərkeşi (vəfat tarixi: 794 h.q.): 197; “Fəthul-Bari” “Səhihi Buxari”nin şərhi, İbn Həcər Əsqəlani (vəfat tarixi: 852 h.q.), 7-104; “Usuli Kafi”, Kuleyni (vəfat tarixi: 328 h.q.) 1-287; “Əl-İmamə vət-Təbsirə”, İbn Babəveyh (vəfat tarixi: 329 h.q.): 47-29; “Dəaimul-İslam”, Məğribi (vəfat tarixi: 363 h.q.): 35 və 37, “Əl-Xisal”, Səduq (vəfat tarixi: 381 h.q.): 403 və 550; “Əl-Əmali”, Tusi (vəfat tarixi: 460 h.q.): 438 və 482 və 783.

Həmçinin, bu ayənin təfsiri haqqında bu kitablara müraciət edə bilərsiniz: “Camiul-Bəyan”, Təbəri (vəfat tarixi: 310 h.q.); “Əhkamul-Qur`an”, Cəssas (vəfat tarixi: 370 h.q.); “Əsbabun-nuzul”, Vahidi (vəfat tarixi: 468 h.q); “Zadul-məsir”, İbn Covzi (vəfat tarixi: 597 h.q.); “Əl-camiu liləhkamil-Qur`an”, Qurtəbi (vəfat tarixi: 671 h.q.); “Təfsiri İbn Kəsir” (vəfat tarixi: 774 h.q.); “Təfsiri Səalibi” (vəfat tarixi: 825 h.q.); “Əd-durrul-Mənsur”, Süyuti (vəfat tarixi: 911 h.q.); “Fəthul-Qədir”, Şovkani (vəfat tarixi: 1250 h.q.); “Təfsiri Əyyaşi” (vəfat tarixi: 320 h.q.); “Təfsiri Qummi” (vəfat tarixi: 329 h.q.); “Təfsiri Fərat”, Kufi (vəfat tarixi: 352 h.q.) “Ulul əmr” ayəsinin ardınca; “Məcməul-Bəyan” Təbərsi (vəfat tarixi: 560 h.q.) və bir çox başqa mənbələr.

# ƏHLİ-BEYT (əleyhimus-salam) ŞİƏSİ

قالَ رَسُولُ اللهِ ﷺ:

**إنِّي تَارِكٌ فِيكُمُ الثَّقَلَيْنِ: كِتَابَ اللهِ وَعِتْرَتِي أهْلَ بَيْتِي، مَا إنْ تَمَسَّكْتُمْ بِهِمَا لَنْ تَضِلُّوا بَعْدِي أبَداً، وَإنَّهُمَا لَنْ يَفْتَرِقَا حَتَّى يَرِدَا عَلَيَّ الْحَوْضَ.**

(صحيح مسلم، ج٧، ص١٢٢، سنن دارمي، ج٢، ص٤٣٢، مسند احمد، ج٣، ص١٤، ١٧، ٢٦، ٥٩، ج٤، ص٣٦٦، ٣٧١، ج٥، ص ١٨٢، مستدرك حاكم، ج٣، ص١٠٩، ١٤٨، ٥٣٣، و....)

Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurmuşdur:

*“Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm: Allahın Kitabını və Əhli-beytim olan itrətimi. Bu ikisinə sarıldığınız vaxta qədər heç vaxt yolunuzu azmazsınız və bu iki (əmanət) Hovuzun yanında mənə gəlib çatana qədər bir-birindən ayrılmayacaqlar.”*

“Səhihi Müslüm”, 7-ci cild, səh.122; “Sünəni Darəmi”, 2-ci cild, səh.432; “Müsnədi Əhməd”, 3-cü cild, səh.14, 17, 26, 59, 4-cü cild, səh.366, 371, 5-ci cild, səh.182; “Müstədrəki Hakim”, 3-cü cild, səh.109, 148, 533 və s.

# ƏHLİ-BEYT (əleyhimus-salam) ŞİƏSI

**Müəllif: Ayətullah Məhəmməd Mehdi Asifi**

**Mütərcim: Mə`sum Əlizadə**

***"Ümumdünya Əhli-beyt (əleyhimus-salam) cəmiyyəti"***


نام كتاب:شيعة اهل البيت (عليهم السلام)

نويسنده: محمد مهدي آصفي

مترجم:معصوم علي زاده

زبان ترجمه:آذري

*Kitabın adı:* **"Əhli-beyt (əleyhimus-salam) şiəsi"**

*Müəllif:* **Ayətullah Məhəmməd Mehdi Asifi**

*Mütərcim*: **Mə`sum Əlizadə**

*Redaktor:* **İftixar Məhəmmədov**

*Yekun nəzər:* **Vəfa Nabatova**

*Hazırlayan:* **"Ümumdünya Əhli-beyt (əleyhimus-salam) cəmiyyəti"nin tərcümə idarəsi**

*Nəşr edən:* **"Ümumdünya Əhli-beyt (əleyhimus-salam) cəmiyyəti"**

*Çap tarixi:* 2008

*Çapxana: "Leyla"*

*Tiraj:* 3000

Ünvanımız:

www.ahl-ul-bayt.org

info@ahl-ul-bayt.org

ISBN: 978-964-529-420-3



***Kitabın çap və sair hüquqları qorunur***

# MÜNDƏRİCAT


**MÜNDƏRİCAT-7**

**BİRİNCİ FƏSİL-19**

**ƏHLİ-BEYT (əleyhimus-salam) ŞİƏLƏRİ KİMLƏRDİR?-19**

*1. ƏHLİ-BEYT (əleyhimus-salam)-IN SİYASİ İMAMƏTLİYİ (RƏHBƏRLİKLƏRİ)-20*

*2. ƏHLİ-BEYT(əleyhimus-salam)-IN FİQHİ VƏ MƏDƏNİ-MAARİF CƏHƏTİNDƏN MÜRACİƏT YERİ OLMALARI-24*

*İKİNCİ FƏSİL-29*

*ƏHLİ-BEYT (əleyhimus-salam) VİLAYƏTİ VƏ ONLARA TABEÇİLİK VƏ MƏNSUB EDİLMƏYİN DƏYƏRİ-29*

*ALLAHIN VƏ PEYĞƏMBƏR (səlləllahu əleyhi və alihi və səlləm)-İN NƏZƏRİNDƏ ƏHLİ-BEYTİN VİLAYƏTİNİN DƏYƏRİ-29*

*NİCAT TAPANLAR VƏ QURTULUŞA NAİL OLANLAR YALNIZ ƏLİ (əleyhis-salam)-IN ŞİƏLƏRİDİRLƏR-29*

*ƏLİ VƏ ONUN ŞİƏLƏRİ YARANMIŞLARIN ƏN YAXŞISIDIR-31*

*ƏHLİ-BEYT (əleyhimus-salam) VİLAYƏTİNİN İSLAMDAKİ MÖVQEYİ-33*

*RAFİZİLƏR KİMDİR?-34*

*ƏHLİ-BEYT (əleyhimus-salam)-I SEVDİYİNİ İDDİA EDƏN, AMMA ƏHLİ-BEYT ŞİƏSİ OLMAYAN ŞƏXS-36*

*SƏMA ULDUZLARIN VASİTƏSİ İLƏ İŞIQLANDIĞI KİMİ, MÖ'MİNLƏR DƏ CƏNNƏT ƏHLİ ÜÇÜN İŞIQLANIR-37*

*MÖ'MİNLƏR ALLAH NURU İLƏ NƏZƏR EDƏRLƏR-38*

**ƏHLİ-BEYT (əleyhimus-salam)-IN NƏZƏRİNDƏ ŞİƏLƏRİN MÖVQEYİ-39**

*ƏHLİ-BEYT (əleyhimus-salam) ÖZ ŞİƏLƏRİNİ SEVİRLƏR-39*

*HƏR KƏS ONLARIN ŞİƏLƏRİ İLƏ DÜŞMƏNÇİLİK ETSƏ, ONLARIN ÖZÜ İLƏ DÜŞMƏN OLAR, HƏR KƏS ONLARIN ŞİƏLƏRİNİ SEVSƏ, ONLARIN ÖZÜNÜ SEVƏR-42*

**ƏHLİ-BEYT (əleyhimus-salam)-LA ŞİƏLƏR ARASINDA QARŞILIQLI ÜNSİYYƏT-45**

**ÜÇÜNCÜ FƏSİL-47**

**ƏHLİ-BEYT (əleyhimus-salam)-A TABEÇİLİK, MƏNSUB EDİLMƏ VƏ VİLAYƏTİN ŞƏRTLƏRİ-47**

*ƏHLİ-BEYT (əleyhimus-salam)-IN VİLAYƏTİNİ QƏBUL ETMƏK VƏ ONLARA TABEÇİLİK VƏ MƏNSUB EDİLMƏYİN ÜMUMİ ŞƏRTLƏRİ-47*

*BİZİM ÜÇÜN ZİNƏT OLUN, RÜSVAYÇILIQ VƏ AR SƏBƏBİ OLMAYIN!-48*

*ƏHLİ-BEYT (əleyhimus-salam) ALLAH DƏRGAHINDA ŞƏFAƏT EDƏCƏK, LAKİN ALLAH DƏRGAHINDA HEÇ BİR ŞEYDƏN EHTİYACSIZ ETMƏYƏCƏKDİR-50*

*VƏRƏ' VƏ TƏQVA-52*

*TƏƏBBÜD (İMAMLARIN SÖZLƏRİNƏ QEYDSİZ-ŞƏRTSİZ ƏMƏL ETMƏK)-57*

*GECƏNİN İBADƏTÇİLƏRİ, GÜNDÜZÜN ŞİRLƏRİ-65*

*GECƏ-GÜNDÜZ ƏRZİNDƏ ƏLLİ BİR RƏK'ƏT NAMAZ SAHİBLƏRİ-66*

*BİR-BİRİNƏ SİLEYİ-RƏHİM ETMƏK VƏ NƏVAZİŞ GÖSTƏRMƏK-75*

*MÖ'MİNLƏR ARASINDA QARŞILIQLI HÜQUQLAR-78*

*MÖ'MİNƏ HÖRMƏT BƏSLƏMƏK, SEVMƏK, NƏSİHƏT ETMƏK VƏ ONUNLA MEHRİBAN DAVRANMAQ-87*

*MÖ'MİNLƏR ARASINDA QARŞILIQLI GÜZƏŞT-89*

*BİZİM DOSTLARIMIZA ƏZAB-ƏZİYYƏT VERMƏYİN VƏ BƏ'ZİLƏRİNİZ BƏ'ZİLƏRİNİZİ YORMAYİN (DİL YARASI VURMAYIN)-90*

*MÖ'MİN MÖ'MİN İLƏ VAHİD BİR BƏDƏN KİMİDİR-93*

*BÜTÜN MÜSƏLMANLARLA QARŞILIQLI SİLEYİ-RƏHİM ETMƏK, ONLARLA QAYNAYIB-QARIŞMAQ VƏ EHSAN, YAXŞILIQ ETMƏK-94*

*MÖ'TƏDİLLİK, ORTA MÖVQEDƏ OLMAQ VƏ MÜVAZİNƏT (TARAZLIQ)-99*

*ASAYIŞ VƏ SİYASİ İNZİBATÇILIQ-100*

**DÖRDÜNCÜ FƏSİL-106**

*ƏHLİ-BEYT (əleyhimus-salam)-IN VİLAYƏTİ VƏ ONLARA TABEÇİLİK VƏ MƏNSUB ELİDLMƏ İLƏ ƏLAQƏDAR BƏ'Zİ MƏQAMLAR-106*

*VİLAYƏTİN MƏ'NA VƏ MƏFHUMU-106*

*TƏSDİQ-108*

*ÜZVİ MƏNSUBİYYƏT-109*

*BƏRAƏT (BİZARLIQ)-113*

**VİLAYƏT DAİRƏSİNDƏ QARŞILIQLI TOVHİD ƏLAQƏSİ-115**

*SALAM VƏ NƏSİHƏT-120*

*SALAM-120*

**NƏSİHƏT-124**

*RƏHBƏRLİK VƏ ÖRNƏK-126*

*QƏM–QÜSSƏ VƏ SEVİNC-128*

**MƏİYYƏT (BİRGƏLİK) VƏ TABEÇİLİK-131**

**MƏDƏNİ-MAARİFDƏ TABEÇİLİK-132**

*İTAƏT VƏ TƏSLİM-140*

*İTAƏTDƏ TOVHİD-141*

*TƏSLİM-142*

*KÖMƏK VƏ İNTİQAM-145*

*MƏ`HƏBBƏT VƏ MƏVƏDDƏT-146*

*HAQQI DİRÇƏLTMƏK VƏ BATİLİ ARADAN APARMAQ-151*

*MİRAS VƏ İNTİZAR-151*

**ZİYARƏT-159**

**BEŞİNCİ FƏSİL-163**

**ƏHLİ–BEYT (əleyhimus-salam) MƏKTƏBİNƏ MƏNSUB OLMAĞIN ƏLDƏ EDİLMƏ YOLLARİ-163**

**DÜNYA VƏ AXİRƏTDƏ MÜHƏMMƏD VƏ ALİ–MÜHƏMMƏD (səllallahu ələyhi və alihi və səlləm)-LƏ BİRLİKDƏ YAŞAMAQ-163**

**ALLAH-TƏALA ONLARA ÖZ KƏRAMƏTİNİ ƏTA EDƏR-165**

*ŞİƏLƏR BİZİM ƏTƏYİMİZDƏN, BİZ DƏ PEYĞƏMBƏRİN ƏTƏYİNDƏN YAPIŞARIQ-165*

**AXİRƏTDƏ ALLAHIN ŞİƏLƏRƏ ƏTA ETDİYİ NE'MƏTLƏR-166**

**BİZİMLƏ VƏ BİZDƏN-168**

**QURTULUŞ VƏ XİLAS OLMAQ-170**

**VİLAYƏT VƏ BƏRAƏTDƏ ŞƏHİDLƏRLƏ ŞƏRİK OLMAQ-170**

**ALTINCI FƏSİL: ƏLAVƏLƏR-179**

**ƏHLİ–BEYT KİMLƏRDİR?-179**

**PEYĞƏMBƏRDƏN SONRA ON İKİ İMAMA DƏLALƏT EDƏN HƏDİSLƏR-180**

**TƏTHİR AYƏSİ-181**

## *MÜQƏDDİMƏ*

*“Ümumdünya Əhli-beyt (əleyhimus-salam)” cəmiyyətindən*

*Şübhəsiz, Əhli-beyt (əleyhimus-salam) məktəbinin nəfis inci xəzinələrindən olan və ardıcıllarının vasitəsilə qorunub saxlanılan mədəni-maarif mirası İslami maarifin müxtəlif yönlərində olan hərtərəfli bir məktəbdir. Bu məktəb qeyd olunan zülal çeşməsindən mümkün qədər su içməyə qabiliyyəti olan iste’dadlı insanları tərbiyə etmiş, İslam ümmətinə bu məktəbin yolunu gedən böyük alimlər və dahi şəxsiyyətlər təqdim etmişdir. Bu böyük alimlər də mütəmadi olaraq əsrlər boyu – həm İslam cəmiyyətinin daxilində, həm də xaricində – müxtəlif ideologiyalar və məzhəblər müqabilində düzgün mövqe seçərək, onlara ən dolğun və qənaətbəxş cavablar vermişlər.*

*“Ümumdünya Əhli-beyt (əleyhimus-salam)” cəmiyyəti öhdəsinə aldığı bu məs’uliyyətli vəzifəni yerinə yetirmək və İslamla müxalif olan müxtəlif firqə və məzhəb başçıları tərəfindən risalət hüdudları və onun həqiqətlərinə qarşı yönələn ardıcıl hücumlar qarşısında onu müdafiə etmək üçün Əhli-beyt (əleyhimus-salam) və bu haqq məktəbinin davamçılarının üslubunu davam etdirmək əzmindədir.*

*Bu xüsusda Əhli-beyt (əleyhimus-salam) məktəbi alimlərinin dəyərli kitablarında mövcud olan təcrübələr öz növbəsində misilsizdir. Çünki onlar əql və bürhan əsasında olan dərin elmi üsullara arxalanır və boş təəssübkeşlikdən və nəfsani istəklərdən uzaqdır, onun dinləyiciləri mütəxəssis alimlər və mütəfəkkirlərdir ki, onlara sağlam fitrətin qəbul etdiyi və əqlin bəyəndiyi bir tərzdə xitab edir.*

*“Ümumdünya Əhli-beyt (əleyhimus-salam)” cəmiyyəti həqiqət aşiqləri üçün bu məktəb alimlərinin, yaxud bu şərəfli məktəbin ardıcılı olmaq və Allahın ne’mət verdiyi şəxslərin yazdığı müasir zəngin elm və mə’rifət xəzinəsini onlara təqdim etmək üçün yeni bir mərhələni*



*qarşıya qoymuşdur. Bundan əlavə, qədim şiə alimlərinin də bu məqsədlə yazdığı nəfis əsərlər onların ixtiyarına verilir ki, haqq axtaranlar üçün bir hədiyyə olmuş, “Ümumdünya Əhli-beyt (əleyhimus-salam)” cəmiyyətinin bəşərin əqli səviyyəsinin yüksələrək təkamülə çatdığı, ruhun çox sür’ətlə inkişaf etdiyi bir əsrdə bütün dünyaya təqdim etmək istədiyi həqiqətlərə yol açılmış olsun.*

*Əziz oxuculardan xahiş edirik ki, özlərinin dəyərli tənqid və təkliflərini yazıb bizə göndərsinlər. Eləcə də, bütün alimləri, müəllif və mütərcimləri, mədəni-maarif mərkəzlərini də’vət edirik ki, əsl İslam mədəniyyətinin yayılmasında öz köməklərini əsirgəməsinlər.*

*Allah-təaladan aciz surətdə istəyirik ki, bu azacıq işi bizdən qəbul etsin, bizi Özünün xüsusi nəzərləri sayəsində və yer üzündəki höccətinin-İmam Məhdi (əleyhis-salam)-in himayəsində qərar versin!*

*Bu dəyərli kitabın müəllifi Ayətullah Məhəmməd Mehdi Asifi və onu Azərbaycan dilinə tərcümə edən Mə’sum Əlizadə cənablarına, eləcə də kitabın çapa hazırlanmasında zəhmət çəkən bütün şəxslərə, xüsusilə, tərcümə bölməsinin əməkdaşlarına dərin minnətdarlığımızı bildiririk.*

***“Ümumdünya Əhli-beyt (əleyhimus-salam)”***
***cəmiyyətinin mədəni-maarif şö’bəsi***

## ƏHLİ-BEYT (əleyhimus-salam) QUR’ANİ KƏRİMDƏ

﴿إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أهل البيت وَيُطَهِّرَكُمْ تَطْهِيرًا﴾

*“Allahın istək və iradəsi bu olmuşdur ki, yalnız siz Əhli-beytdən hər növ çirkinliyi aradan aparıb sizi pak-pakizə qərar versin.”*

## ƏHLİ-BEYT (əleyhimus-salam) PEYĞƏMBƏR (səlləllahu əleyhi və alihi və səlləm) SÜNNƏSİNDƏ

اِنِّي تٰارِكٌ فِيكُمُ الثَّقَلَيْنِ كِتٰابَ اللهِ وَ عِتْرَتِي اَهْلَ بَيْتِي مٰا اِنْ تَمَسَّكْتُمْ بِهِمٰا لَنْ تَضِلُّوا بَعْدِي اَبَدًا

*“Mən sizin aranızda iki şeyi əmanət qoyuram: Alahın kitabını və Əhi-beytim olan itrətimi. Onlara sarıldığınız vaxta qədər məndən sonra yolunuzu heç vaxt azmayacaqsınız”.*

QISA MÜNDƏRİCAT


(1) GİRİŞ: ƏHLİ-BEYT (əleyhimus-salam) ŞİƏLƏRİ KİMLƏRDİR?

(2) MÜQƏDDİMƏ: ƏHLİ-BEYT (əleyhimus-salam)-A MƏNSUB OLMA VƏ VİLAYƏTİN DƏYƏRİ

(3) ŞƏRTLƏR: ƏHLİ-BEYT (əleyhimus-salam)-A VİLAYƏT VƏ MƏNSUB OLMANIN ŞƏRTLƏRİ

(4) ƏHLİ-BEYT (əleyhimus-salam)-A VİLAYƏT VƏ MƏNSUB OLMA İLƏ ƏLAQƏDAR SÖZLƏRİN İZAHI

(5) ƏHLİ-BEYT (əleyhimus-salam) MƏKTƏBİNƏ MƏNSUB OLUNMANIN ƏLDƏ OLUNMA YOLLARI

(6) ƏLAVƏLƏR

BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

“ŞURA” SURƏSİ, AYƏ 23:

قُل لاٰ أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا اِلاَّ الْمَوَدَّةَ فِي الْقُرْبٰى

*“Ey Peyğəmbər! Ümmətə de: Bu risalət müqabilində sizdən, ən yaxın adamlarıma (Əhli-beytimə) məhəbbət bəsləməkdən başqa bir əcr və muzd istəmirəm.”*

“MAİDƏ” SURƏSİ, AYƏ 55:

إِنَّمٰا وَلِيُّكُمُ اللّٰهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاٰةَ وَيُؤْتُونَ الزَّكٰاةَ وَهُمْ رٰاكِعُونَ

*“Həqiqətən, sizin vəliniz yalnız Allah, Onun Peyğəmbəri, iman gətirən, namaz qılan və rüku halında zəkat verənlərdir.”*

“MAİDƏ” SURƏSİ, AYƏ 67:

يٰا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مٰا أُنزِلَ الَيْكَ مِنْ رَبِّكَ وَاِنْ لَمْ تَفْعَلْ فَمٰا بَلَّغْتَ رِسٰالَتَهُ وَاللّٰهُ يَعْصِمُكَ مِنَ النّٰاسِ

*“Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanları (Əlinin vilayət məsələsini) camaata çatdır, əgər bu işi etməsən, risaləti tamam-kamal surətdə yerinə yetirməmiş olursan”.*

## BİRİNCİ FƏSİL

## ƏHLİ-BEYT (əleyhimus-salam) ŞİƏLƏRİ KİMLƏRDİR?

"Əttəşəyyö" (التَّشَيُّعْ) mənsubiyyət, müşayiət, tabeçilik və vilayət mə'nalarına gəlmişdir." Qur'ani-Kərimdə buyurulur:

وَإِنَّ مِن شِيعَتِهِ لَإِبْرَاهِيمَ إِذْ جَاءَ رَبَّهُ بِقَلْبٍ سَلِيمٍ

Yə'ni Həzrət İbrahim (əleyhis-salam) Həzrət Nuh (əleyhis-salam)-ın şiələrindən, onun yoluna – tovhid və ədalətə – çağırışda davamçısı idi.
Bu kəlmə özünün tarixi seyrində Əliyyibni Əbi Talib (əleyhis-salam)-a və ondan sonra da o Həzrətin nəslindən olan imamlara (əleyhimus-salam) tabeçilik və onları sevmək mə'nasında işlədilmişdir. Onlar da Peyğəmbər Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in Əhli-beytidir ki, "Təthir" və "Məvəddət" ayələri məhz onların barəsində nazil olmuşdur.
Bu kəlmə İslam tarixi boyunca Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in Əhli-beytinə mənsub olma və onların vilayətini qəbul etmə mə'nasında məşhurlaşmışdır. Bu mənsubiyyət və vilayətin də iki mə'nası vardır:
1. Siyasi mənsubiyyət və vilayət (siyasi imamət);
2. Mədəni-maarifdəki tabeçilik və mənsubiyyət (fiqhi və mədəni-maarif işlərində müraciət yeri).
Bu iki məsələ də Əhli-beyt şiələrinin başqa müsəlman firqələrindən seçilməsində ən bariz xüsusiyyətdir.
İndi iki mühüm məsələni araşdıraq:



## 1. ƏHLİ-BEYT (əleyhimus-salam)-IN SİYASİ İMAMƏTLİYİ (RƏHBƏRLİKLƏRİ)

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) "Həccətül-vida"dan qayıdarkən "Qədir Xum" adlı bir yerdə (ora hacıların müxtəlif ölkələrə yola düşəcəkləri bir yer idi) imam Əli (əleyhis-salam)-ı bütün müsəlmanlara özündən sonra rəhbər və imam tə'yin etdi və ondan qabağa keçəcək hər kəsin rədd olunmasını buyurdu.
Nəhayət, həmin gün o Həzrətin ətrafına böyük saylı bir dəstə yığışdı. Halbuki, həmin vaxt hava çox qızmar idi, onlar həmin günə qədər belə bir qızmar hava müşahidə etməmişdilər. Camaat əbasının bir tərəfini altına salmış, digər tərəfini isə üstünə çəkmişdi ki, istiliyin şiddəti azalsın. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) zöhr namazını qıldı, sonra camaata xitab edərək onlara bildirdi ki, artıq əcəli yaxınlaşmışdır. Sonra Əli (əleyhis-salam)-ın əlindən tutub o qədər qaldırdı ki, qoltuğunun altındakı ağlıq görünməyə başladı. Sonra buyurdu: "Ey insanlar! Mən sizə, sizin özünüzdən artıq ixtiyar sahibi (mövla) deyiləmmi?!" Dedilər: "Əlbəttə ki!" Sonra Həzrət buyurdu: "Mən hər kəsin mövlasıyamsa, bu Əli də onun mövlasıdır. (Sonra dua edərək belə dedi:) "Pərvərdigara, onu sevənləri Sən də sev, onunla düşmən olanlarla Sən də düşmən ol, ona kömək edənlərə Sən də kömək et, onu xar edənləri xar et!"
Allah-təala bundan qabaq da Öz Rəsuluna həmin məsələni camaata çatdırmağı əmr etmişdi:

يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَبِّكَ وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللَّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللَّهَ لاَ يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ

Allah-təala bu ayədə Peyğəmbərə, özündən sonrakı vilayət və vəsilik məsələsini camaata çatdırmağı əmr etmişdir. Halbuki, bu ayədəki xitab növü daha kəskin və şiddətlidir.

Allahın kitabında bu xitabdan daha güclü və şiddətli xitab edilən ikinci bir ayə tanımırıq.

Allah-təala Peyğəmbəri-Əkrəm (səllallahu ələyhi və alihi və səlləm)-ə belə bir xitab edərək buyurur: “***Və in ləm təf’əl fə ma bəlləğtə risalətəh”*** *(yə’ni “əgər bu işi yerinə yetirməsən, Onun risalətini yerinə yetirməmisən”).* Bundan sonra yenidən Peyğəmbəri-Əkrəm (səllallahu ələyhi və alihi və səlləm)-ə xitab edir; bu məkanda və bu növ xitabla camaatı qorxudur, onların bu işi rədd edəcəkləri təqdirdə ***“Vəllahu yə’simukə minən-nas”*** -yə’ni “Allah-təala səni camaatın şərrindən qoruyacaqdır” - deyə buyurur.”

Peyğəmbəri-Əkrəm (səllallahu ələyhi və alihi və səlləm) camaata vilayət və vəsiyyət (vəsilik) məsələlərini bu xitabla çatdırdıqdan, təbliğ işini kamala yetirdikdən sonra Allah-təala belə buyurdu:

اَلْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الْإِسْلَامَ دِينًا

*“Bu gün dininizi sizin üçün kamil etdim, ne’mətimi sizə tamamladım və İslamı sizin üçün bir din olaraq bəyəndim.”*

Bu böyük tarixi hadisə barəsində rəvayətlər təvatür həddinə çatmış, səhabə dövründən indiyə qədər bu məsələ bütün təbəqələrdə və sənədlərdə çoxlu sayda nəql olunmuşdur.

Bu hadisəni səhabələrdən 110 nəfərdən artığı (birinci təbəqədən), tabeinlərdən isə (ikinci təbəqədən) 84 nəfər nəql etmiş, bundan sonra onların ravilərinin təbəqələrinin sayı artmışdır. Mərhum Şeyx Əbdül-Hüseyn Əmini (rəziyəl-lahu ənh) özünün “Əl-Qədir” adlı dəyərli kitabının birinci cildində onların sayını bəyan etmiş, mühəqqiq seyyid Əbdül Əziz Təbatəbai (rəziyəl-lahu ənh) də əsl mənbə kimi onlara səhabə, tabein və tabeinlərin tabeinlərindən bir neçəsinin adını əlavə etmişdir.

Bu rəvayətin nəql olunma təriqi də elə yüksək dərəcəli səhihliyə malikdir ki, onda heç bir şəkk-şübhə icad edilə bilməz. Bunları Qur’an və hədis hafizləri, mühəddislər, müfəssirlər, son zamanın alimləri və saysız-hesabsız insanlar (onları saymaqla qurtarmaz) nəql etmişlər. O



cümlədən: Termizi “Səhih” kitabında, İbni Macə “Sünən” kitabında, Əhməd ibni Hənbəl “Müsnəd” kitabında, Nəsai “Xəsais”də, Hakim “Müstədrək”də, Müttəqi Hindi “Kənzül-Ümmal”da, Mənavi “Feyzül-Qədir”də, Heysəmi “Məcməuz-zəvaid”də, Mühibb Təbəri “Riyazun-nüzrət”də, Xətib “Tarixi Bağdad”da, İbni Əsakir “Tarixi Dəməşq”də, İbni Əsir Cəzəri “Usdul-ğabə”də, Təhavi “Muşkilul-asar”da, Əbu Nəim “Hilyətül-övliya”da, İbni Həcər “Əs-səvaiqul-muhriqə”də, İbni Həcər Əsqəlani “Fəthül-Bari”də və s. alimlər nəql etmişlər ki, onların hamısının adının bu müqəddimədə qeyd edilməsi kitabın həcminə sığmaz.

İbni Həcər “Təhzibut-təhzib” kitabında “Qədir Xum” hədisini rəvayət edən səhabələrdən bir çoxunun adını qeyd etdikdən sonra deyir: İbni Cərir Təbəri “Muvalat” hədisini öz kitabında bir yerə yığmış, bizim qeyd etdiklərimizdən qat-qat artıq ravinin adını gətirərək bu hədislərin “səhih” olduğunu demiş və sonra əlavə etmişdir: Bu təriqlərin hamısına Əbul-Əbbas ibni Üqbə e’tina və bu hədis barəsində yetmiş, yaxud daha artıq səhabənin adını nəql etmişdir.[1]

“Fəthul-Bari” kitabında deyilir: Amma “***Mən kuntu movlahu fə Əliyyun movlahu”*** hədisinə gəldikdə isə, onu Termizi və Nəsai nəql etmişlər və bu hədisin nəql olunma təriqləri olduqca çoxdur. İbni Üqbə onu ayrıca bir kitabda bir yerə yığmışdır. Onun sənədlərindən çoxu “səhih” və “həsən”dir.[2]

Bu hədisin sənəd və mətni barəsində heç kim şəkk edə bilməz. Çünki onun düzlüyünə dəlalət edən şahidlər

---

[1] “Təhzibut-təhzib”, 7-ci cild, səh.339, Əliyyibni Əbi Talib (ələyhis-salam)-ın tərcümeyi-halı.

[2] “Fəthul-Bari”, 8-ci cild, səh.76, Əliyyibni Əbi Talibin fəzilətləri bölməsi

(qərinələr) o qədər çoxdur ki, onda şəkk-şübhə etmək əsla mümkün deyildir.

Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm) çox saylı səhabələrin iştirak etdiyi belə bir mühüm vaxtda, onları yol ayrıcında bir yerə yığaraq qabaqda gedənlərin qayıtmasını və arxada qalanların gəlib çatmasını yalnız bu ümmətin həyatında mühüm və həyati əhəmiyyət kəsb edən bir işin bəyan edilməsi üçün əmr etmişdi.

Həzrət Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm), Əliyyibni Əbi Talib (ələyhis-salam)-ın əlini yuxarı qaldırıb ***"Mən kuntu movlahu fə haza Əliyyun movlahu"*** deməzdən öncə, camaatdan soruşdu: "***Ələstu ovla bikum min ənfusikum?"*** *("Mən sizin özünüzə, özünüzdən artıq ixtiyar sahibi deyiləmmi?")* Onların hamısı müsbət cavab verərək bu məsələni iqrar etdi. Bu da Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm)-in bütün müsəlmanlara qeydsiz-şərtsiz hakimiyyət və vilayətini çatdırırdı. Məhz bundan sonra Həzrət buyurdu: ***"Mən kuntu movlahu fə haza Əliyyun movlahu*** *– Mən hər kəsin mövlası – ixtiyar sahibiyəmsə, bu Əli də onların ixtiyar sahibidir."*

Həmin gündə böyük səhabələrdən çoxu Əli (ələyhis-salam)-ın ətrafına toplaşaraq Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-dən sonrakı vilayət və xəlifəliyi ona təbrik deyirdilər. Belə ki, Əbubəkr və Ömər də onlardan idi.

Bəli, bu mövqelərin və hədislərin, bu dəlalətin və eləcə də məşhur şahidlərin və aşkar buyruqların bə'ziləri Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-dən sonra vilayət və vəsiyyət məsələsinin aşkar olmasında kifayət idi. Həmçinin, bununla Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm)-in Əli (ələyhis-salam)-ı özündən sonrakı müsəlmanlara imam və xəlifə tə'yin etməsində heç bir şəkk-şübhə yoxdur. Amma siyasi şərait buna mane oldu və hakim dairələr, bu hədisin sənədində şəkk-şübhə icad edilməsi qeyri-mümkün olduqdan sonra, camaatı bu hədisin dəlalət və məzmunu barəsində şəkkə düçar etdilər.



Tarix boyu Əhli-beyt şiələri bu hədisdən və digər düzgün, aşkar dəlalətli hədislərdən Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-dən sonra siyasi imamətin Əli (ələyhis-salam) və ondan sonra da onun övladlarına məxsus olmasını başa düşürdülər.

## 2. ƏHLİ-BEYT (ələyhimus-salam)-IN FİQHİ VƏ MƏDƏNİ-MAARİF CƏHƏTİNDƏN MÜRACİƏT YERİ OLMALARI

Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm) öz həyatında Qur'andan sonra öz Əhli-beytini müsəlmanlar üçün halal-haram, hidayətə yönəlmək, zəlalətdən qorunmaq və s. kimi məsələlərdə mərcə' (mənbə və müraciət yeri) kimi təqdim etmişdir.

Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm) öz Əhli-beytini Qur'anla yanaşı zikr etmişdir. Bu da "Səqəleyn" hədisində buyurulmuşdur ki, onun məzmunu bütün mühəddislər arasında məşhurlaşmış, sünnü və şiə alimlərinin nəzərində "səhih" sayılmış və onun Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-dən nəql olunması təvatür həddinə çatmışdır. Bu da Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm)-in, həmin hədisin özündən sonra yayılması üçün ciddi sə'y göstərməsi nəticəsində olmuşdur. Bu hədisi rəvayət edənlərdən biri də Müslüm ibni Həccacdır. O, öz "Səhih" kitabında "Əliyyibni Əbi Talib (ələyhis-salam)-ın fəzilətləri babı"nda Zeyd ibni Ərqəmdən nəql edir ki, bir gün Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) Məkkə ilə Mədinə arasında olan "Xum" adlı bir suyun yanında ayağa qalxıb xütbə oxudu, Allaha həmd-səna edib, bizə moizə və nəsihət etdikdən sonra buyurdu:

قٰالَ رَسُولُ اللهِ ﷺ أَمّٰا بَعْدُ أَيُّهَا النّٰاسُ، فَإِنَّمٰا اَنَا بَشَرٌ يُوشِكُ أَنْ يَاْتِيَ رَسُولُ رَبِّي، فَأُجِيبَ، اِنِّي تٰارِكٌ فِيكُمْ ثَقَلَيْنِ، أَوَّلُهُمٰا كِتٰابُ اللهِ فِيهِ الْهُدٰي وَالنُّورُ، فَخُذُوا بِكِتٰابِ اللهِ،

وَاسْتَمْسِكُوا بِهِ، – فَحَثَّ عَلَىٰ كِتَابِ اللهِ، وَرَغَّبَ فِيهِ ثُمَّ قَالَ: – وَاَهْلُ بَيْتِي، اُذَكِّرُكُمُ اللهَ فِي اَهْلِ بَيْتِي، اُذَكِّرُكُمُ اللهَ فِي اَهْلِ بَيْتِي، اُذَكِّرُكُمُ اللهَ فِي اَهْلِ بَيْتِي

*"Əmma bə'd! Ey insanlar, mən də sizin kimi bir insanam. Yaxın zamanlarda Rəbbimin elçisi (Əzrail) mənim yanıma gələcək, mən də ona müsbət cavab verəcəyəm. Mən sizin yanınızda iki ağır əmanət qoyub gedirəm: onlardan biri Allahın kitabıdır ki, onda hidayət və nur vardır, Allahın kitabından möhkəm yapışıb ona sarılın! (Sonra Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) camaatı Allahın kitabına əməl etməyə təşviq etdikdən və onları bu işə rəğbətləndirdikdən sonra buyurdu:) İkincisi isə Əhli-beytimdir. Əhli-beytim barəsində Allahı sizə xatırladıram, Əhli-beytim barəsində Allahı sizə xatırladıram, Əhli-beytim barəsində Allahı sizə xatırladıram!"*[1]

Bu hədisi Termizi də eyni ilə öz "Səhih" kitabında Zeyd ibni Ərqəmdən nəql edərək demişdir ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurdu:

قَالَ رَسُولُ اللهِ ﷺ اِنِّي تَارِكٌ فِيكُمْ مَا اِنْ تَمَسَّكْتُمْ بِهِ لَنْ تَضِلُّوا بَعْدِي. أَحَدُهُمَا أَعْظَمُ مِنَ الْآخَرِ كِتَابُ اللهِ حَبْلٌ مَمْدُودٌ مِنَ السَّمَاءِ اِلَي الْأَرْضِ، وَعِتْرَتِي اَهْلَ بَيْتِي وَلَنْ يَفْتَرِقَا حَتّيٰ يَرِدَا عَلَيَّ الْحَوْضَ. فَانْظُرُوا كَيْفَ تَخْلُفُونِي فِيهَا

"Mən sizin aranızda elə bir şey qoyub gedirəm ki, əgər ona sarılsanız, məndən sonra heç vaxt yolu azıb zəlalətə düşməyəcəksiniz. Onlardan biri digərindən böyükdür: Allahın kitabı – ki, səmadan yer üzünə çəkilmiş bir ipdir, ikincisi isə itrətim – Əhli-beytimdir. Onlar Hovuzun yanında gəlib mənə çatana qədər bir-birindən ayrılmazlar.

[1] "Səhihi Müslüm", Fəzailüs-səhabə kitabı, Əliyyibni Əbi Talib (əleyhis-salam)-ın fəzilətləri babı



Baxın görün, Əhli-beytim barəsində mənimlə necə rəftar edəcəksiniz!"1

Termizi də Cabir ibni Əbdüllahdan belə nəql edir: "Ərəfə" günündə Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-i gördüm; o, "Qusva" adlı dəvəsinə minmişdi və xitabə oxuyurdu. O Həzrətin belə dediyini eşitdim:

اِنِّي تَارِكٌ فِيكُمْ مَا اِنْ تَمَسَّكْتُمْ بِهِ لَنْ تَضِلُّوا كِتَابَ اللهِ وَعِتْرَتِي أَهْلَ بَيْتِي

*"Ey insanlar! Mən sizin aranızda elə bir şeyi əmanət qoyuram ki, əgər ona sarılsanız, heç vaxt yolunuzu azmazsınız: Allahın kitabı və itrətim olan Əhli-beytim."*[2]

Bu hədisi Hakim də "Müstədrəküs-səhiheyn" kitabında öz sənədi ilə Zeyd ibni Ərqəmdən bir neçə təriqlə nəql etmişdir. Əhməd ibni Hənbəl də öz "Müsnəd"inin müxtəlif yerlərində Əbu Səid Xudridən[3] və Zeyd ibni Ərqəmdən,[4] eləcə də Zeyd ibni Sabitdən iki təriq ilə[5] nəql etmişdir. Bu hədisin çoxlu təriqləri vardır, sənədləri səhihdir. Bu da rəvayətlərin müstəfiz həddinə çatdığı bir həddədir. Müslüm və Termizinin öz "Səhih" kitablarında onu nəql etməsi kifayət edər.

Əllamə Mir Hamid Hüseyn Lakhənəvi bu hədisin nəql olunma yollarını müfəssəl şəkildə araşdırıb bir yerə toplamışdır. Böyük həcmli bu kitabın ikinci cildində hədisin məzmunu və dəlaləti barəsində bəhs aparmışdır. Bu iki cild kitab son zamanlar on hissədə çap olunmuşdur. Allah

[1] "Sünəni Termizi", 2-ci cild, səh.308, "Kitabu mənaqibi Əhli-beytin-Nəbi", hədis 3788
[2] "Sünəni Termizi", 2-ci cild, səh. 308
[3] "Müsnədi Əhməd", 3-cü cild, səh. 17
[4] Yenə orada, 4-cü cild, səh.371
[5] Yenə orada, 5-ci cild, səh.181

Seyyid Mir Hamid Hüseyniyə rəhmət eləsin, bu böyük elmi müvəffəqiyyəti ondan qəbul etsin!
Bu hədisdə:
1-Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm) öz Əhli-beytini Qur'anla yanaşı və onunla bir yerdə qeyd etmişdir.
2-Bu ikisinin məhz birlikdə insanları zəlalətdən qoruyub-saxlayacağını buyurmuşdur.
3-Öz ümmətinə əmr edir ki, bu ikisinə birlikdə sarılsınlar və bunu tə'kidlə buyurur.
4-Ümmətə xəbər verir ki, bu ikisi (Kitab və İtrət) o Həzrətin yanına – "Kövsər" hovuzuna daxil olan vaxta qədər bir-birindən ayrılmayacaqdır. Deməli, bu ikisi məhz birlikdə Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-dən sonra ümmətin bütün məsələlərdə müraciət yeri olmalıdır ki, dinin öz hüdudları, hökmləri, üsul və füruları bu yolla tanınsın.
Heysəmi "Səvaiq" kitabında yazır: Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-in öz ümmətini Əhli-beytinə sarılmağa təşviq etməsində Qiyamət gününə qədər onlara sarılmaq üçün, onlardan (Əhli-beytdən) bu işə layiq olanların ardıcıl olaraq – biri-digərindən sonra gəlməsinə işarə vardır, necə ki, Allahın kitabı da belədir. Buna görə də onlar yer üzünün əmin-amanlıq vasitəsidirlər. Buna yuxarıda qeyd olunan

فِي كُلِّ خَلَفٍ مِنْ أُمَّتِي عُدُولٌ مِنْ أَهْلِ بَيْتِي

*"Mənim ümmətimin hər bir dövründə Əhli-beytimdən olan adil şəxslər vardır"*[1] – hədisi dəlalət edir.

---

[1] "Əs-səvaiqul-muhriqə", səh.151, Misir çapı, 1965-ci il.
Bu müqəddiməni oxuyan hər bir şəxs "Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-in Əhli-beyti kimlərdir?" - deyə sual edə bilər və onların şəxsiyyəti barədə əlavə mə`lumat almaq istəyər... Bu sualın cavabını vermək üçün bu kitabın axırında əlavələr qeyd etmişik ki, bu məqalə barəsində oxucuların fikrində bir-birindən asılı olan çoxlu suallar yaranmasın.



Son dərəcə qısa və müxtəsər şəkildə qeyd etdiklərimiz Əhli-beyt şiələrini başqa məzhəb ardıcıllarından seçib ayıran mühüm səciyyəvi xüsusiyyətlərdir. Bu hədis barəsindəki mühüm mətləbləri bəyan etmək üçün bu miqdar bizə kifayət edər, çünki burada Əhli-beyt şiələrinin əqidə əsasları barəsində söhbət açmaq əzmində deyilik; biz bu mövzuda qeyd edilən iki mühüm məsələnin – Əhli-beytin vilayəti ilə əlaqədar aşağıdakı dörd məsələnin araşdırılmasına müqəddimə olaraq xülasə şəkildə söhbət aparacağıq. O nöqtələr aşağıdakılardır:
1-Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) Əhli-beytinin vilayəti və onlara tabeçilik və mənsub edilmənin dəyər və qiyməti;
2-Əhli-beyt məktəbinə tabeçilik və mənsub edilməyin və onların vilayətini ümumi şəkildə qəbul etməyin şərtləri;
3-Vilayət kəlməsinin mə'nası və vilayəti təşkil edən ünsürlər;
4-Əhli-beyt məktəbinə tabeçilik və mənsub edilmək və vilayətin kəsb edilməsi.
Aşağıda qeyd olunacaq bəhslərdə bu dörd mühüm məsələni tərtiblə araşdıracağıq. İnşaallah!

# İKİNCİ FƏSİL

## ƏHLİ-BEYT (əleyhimus-salam) VİLAYƏTİ VƏ ONLARA TABEÇİLİK VƏ MƏNSUB EDİLMƏYİN DƏYƏRİ

## ALLAHIN VƏ PEYĞƏMBƏR (səlləllahu əleyhi və alihi və səlləm)-İN NƏZƏRİNDƏ ƏHLİ-BEYTİN VİLAYƏTİNİN DƏYƏRİ.

Aşağıda qeyd olunan İslami mənbələrdə Əhli-beytin vilayətinin dəyərini göstərən aşkar buyrqlardan bir qismini bəyan edəcəyik.

## NİCAT TAPANLAR VƏ QURTULUŞA NAİL OLANLAR YALNIZ ƏLİ (əleyhis-salam)-IN ŞİƏLƏRİDİRLƏR

Məşhur sünnü alimi Süyuti "Əd-durrul-mənsur" adlı təfsirində "***İnnəl-ləzinə amənu və əmilus-salihati ulaikə hum xəyrül-bəriyyəh"*** - ayəsinin ("Bəyyinə" surəsi, 7-ci ayə) təfsirində belə deyir:
İbni Əsakir, Cabir ibni Əbdüllah Ənsaridən belə nəql edir: Biz Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in yanında idik, Əli (əleyhis-salam) da gəldi, bu zaman Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurdu:

وَالَّذِي نَفْسِي بِيَدِهِ: اِنَّ هٰذٰا وَشِيعَتَهُ لَهُمُ الْفٰائِزُونَ يَوْمَ الْقِيٰامَةِ. وَنَزَلَتْ: إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصّٰالِحٰاتِ اُولـٰئِكَ هُمْ خَيْرُ الْبَرِيَّةِ

*"Canım əlində olan Allaha and olsun! Həqiqətən Qiyamət günündə bu və onun şiələri nicat tapanlardır."* Bundan sonra ***"İnnəl-ləzinə amənu və əmilus-salihati ulaikə hum xəyrül-bəriyyəh"*** ayəsi nazil oldu.



Əli (əleyhis-salam) Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in səhabələrinə tərəf gələndə onlar həmişə deyirdilər: "Xəyrül-bəriyyə gəldi".
Bu rəvayəti Əllamə Əbdür-Rəuf Mənavi "Künuzul-həqaiq" kitabının 82-ci səhifəsində nəql etmişdir: onun nəqlində ***"şiətu Əliyyin humul-faizun"*** kimidir. Sonra demişdir ki, Deyləmi də bunu nəql etmişdir.
Heysəmi "Məcməuz-zəvaid" kitabının mənaqib bölməsinin Əliyyibni Əbi Talibin fəzilətləri fəslində (9-cu cild, səh.131) Əli (əleyhis-salam)-dan belə nəql edir:

إِنَّ خَلِيلِي قٰالَ: يٰا عَلِيُّ اِنَّكَ سَتَقْدُمُ عَلَىٰ اللّٰهِ وَشِيعَتَكَ رٰاضِينَ مَرْضِيِّينَ، وَيَقْدُمُ عَلَيْهِ عَدُوُّكَ غِضٰابًا مُقْمَحِينَ...

"Həqiqətən, mənim xəlilim (Rəsulullah (səlləllahu əleyhi və alihi və səlləm)) dedi: "Ya Əli! Həqiqətən sən və sənin şiələrin Allahın hüzuruna, Allahın sizdən razı olduğu və sizin də Allahdan razı olduğunuz halda gələcəksiniz. Sənin düşmənlərin isə Allahın hüzuruna, Allahın onlara qəzəbləndiyi və boyunlarına zəncir salınmış, boğulan vəziyyətdə gələcəklər."
Təbərani də bunu "Ovsət" kitabında nəql etmişdir.
İbni Həcər Heysəmi "Əs-səvaiq" kitabının 96-cı səhifəsində yazır: Deyləmi nəql etmişdir ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurub:

يٰا عَلِيُّ اِنَّ اللّٰهَ قَدْ غَفَرَ لَكَ وَلِذُرِّيَّتِكَ وَوُلْدِكَ وَلِأَهْلِكَ وَشِيعَتِكَ وَلِمُحِبِّي شِيعَتِكَ فَأَبْشِرْ

*"Ya Əli! Həqiqətən Allah sənin özünü, zürriyyəni, övladlarını, əhlini, şiəni və şiələrini sevənləri bağışlamışdır. Bu sənə müqdə olsun!"*[1]

---

[1] "Fəzailul-xəmsə minəs-sihahis-sittə", 2-ci cild, səh.117-118

Əbu Əyyub Səcistani, Əbi Qulabədən nəql edir ki, Ümmü Sələmə belə demişdir ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in belə dediyini eşitdim:

شِيعَةُ عَلِيٍّ هُمُ الْفائِزُونَ يَوْمَ الْقِيامَةِ

*"Qiyamət günü yalnız Əlinin şiələri nicat tapanlardır."*[1]

## ƏLİ ´ VƏ ONUN ŞİƏLƏRİ YARANMIŞLARIN ƏN YAXŞISIDIR

İbni Cərir Təbəri öz təfsirində (sənədi ilə) Əbi Caruddan, o da Məhəmməd ibni Əlidən ***"Ulaikə hum xəyrül-bəriyyəh"*** ayəsinin təfsirində demişdir ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) belə buyurmuşdur:

أَنْتَ يا عَلِيُّ وَشِيعَتُكَ

*"Ya Əli! (Bu ayədə deyilənlər) sən və sənin şiələrindir."*[2]
Süyuti "Əd-durrul-mənsur" təfsirində Cabir ibni Əbdüllah Ənsaridən bu hədisi nəql etmiş, sonra demişdir: İbni Ədi və İbni Əsakir ***"Əliyyun xəyrul-bəriyyəh"*** - hədisini mərfu' şəkildə nəql etmişlər. Həmçinin demişdir ki, İbni Ədi, İbni Abbasdan belə nəql edir: ***"İnnəl-ləzinə amənu və əmilus-salihati ulaikə hum xəyrul-bəriyyəh"*** ayəsi nazil olanda Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) Əli (əleyhis-salam)-a belə buyurdu:

اَنْتَ وَشيعَتُكَ يَوْمَ الْقِيامَةِ راضِينَ مَرْضِيِّينَ

*"Sən və sənin şiələrin Qiyamət günündə (Allahdan) razısınız və sizdən də (Allah) razıdır."*[3]

---

1 "Bişarətül-Müstəfa", sh.197
2 "Təfsiri Təbəri", 9-cu cild, səh.171, "Bəyyinə" surəsinin təfsiri
3 "Əd-dürrül mənsur", Süyuti, "Bəyyinə" surəsinin təfsiri



Həmçinin, demişdir: İbni Mərdəveyh Əli (əleyhis-salam)-dan nəql edir ki, o Həzrət belə buyurmuşdur:

قالَ لِي رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَآلِه: اَلَمْ تَسْمَعْ قَوْلَ اللهِ عَزَّ وَجَلَّ: إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصّالِحاتِ اُولـئِكَ هُمْ خَيْرُ الْبَرِيَّةِ؟ اَنْتَ وَشيعَتُك، وَمَوْعِدِي وَمَوْعِدُكَ الْحَوْضُ. اِذا جاءَتِ الْاُمَمُ لِلْحِسابِ، تُدْعَوْنَ عِزًّا وَتَجْلِسُونَ.

*"Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) mənə buyurdu: Allah-taalanın belə buyurduğunu eşitməmisənmi* ***"İnnəl-ləzinə amənu və əmilus-salihati ulaikə hum xəyrul-bəriyyəh"*** *(Bu ayədə məqsəd) sən və sənin şiələrindir. O gün səninlə mənim və'dəgahım Hovuzdur. Ümmətlər hesab üçün gələndə, siz izzətlə də'vət olunacaq və oturacaqsınız."*
İbni Həcər "Əs-səvaiqul-muhriqə" kitabında yazır:
11-ayə: Allah-təalanın buyurduğu ***"İnnəl-ləzinə amənu və əmilus-salihati ulaikə hum xəyrul bəriyyəh"*** **-** ayəsidir. O demişdir: Cəmaluddin Zərəndi ibni Abbasdan nəql etmişdir ki, bu ayə nazil olan zaman Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) Əli (əleyhis-salam)-a buyurdu:

هُوَ اَنْتَ وَشِيعَتُكَ يَوْمَ الْقِيامَةِ راضِينَ مَرْضِيِّينَ وَيَاْتِي عَدُوُّكَ غضاباً مُقْمَحِينَ

*"Bu (ayədə məqsəd) sən və sənin şiələrindir ki, Qiyamət günündə Allah onlardan razı olacaq, onlar da Allahdan; sənin düşmənlərin isə Allahın onlara qəzəbləndiyi və boyunlarına zəncir salınmış halda gələcəklər."*[1]

---

1 "Əs-səvaiqul-muhriqə", səh.96

Bu rəvayəti Şəblənci "Nurul-əbsar" kitabında qeyd etmişdir.[1]

## ƏHLİ-BEYT (əleyhimus-salam) VİLAYƏTİNİN İSLAMDAKİ MÖVQEYİ

Məhəmməd ibni Yə'qub Kuleyni öz sənədləri ilə Əbu Həmzə Somalidən nəql edir ki, Əbu Cə'fər Baqir (əleyhis-salam) buyurmuşdur:

بُنِيَ الْإِسْلامُ عَلَىٰ خَمْسٍ: عَلَىٰ الصَّلاةِ والزَّكاةِ وَالصَّوْمِ وَالْحَجِّ وَالْوِلايَةِ، وَلَمْ يُنادَ بِشَيْءٍ، كَما نُودِيَ بِالْوِلايَةِ

*"İslam dini beş şeyin üzərində bina olunmuşdur: namaz, zəkat, oruc, həcc və vilayət. Onların heç birisinə vilayət kimi nida olunmamışdır."*[2]

Yenə də Məhəmməd ibni Yə'qub Kuleyni öz sənədləri ilə Əclan Əbi Salehdən nəql edir ki, İmam Cə'fər Sadiq (əleyhis-salam)-a ərz etdim: "İmanın hüdudlarını mənə bəyan et." Həzrət buyurdu:

شَهادَةُ لاَ إِلـٰهَ الاَّ اللهُ وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللهِ، وَالْإِقْرارُ بِما جاءَ مِنْ عِنْدِ اللهِ، وَصَلاةُ الْخَمْسِ، وَصَوْمُ شَهْرِ رَمَضانَ، وَحَجُّ الْبَيْتِ، وَوِلايَةُ وَلِيِّنا وَعَداوَةُ عَدُوِّنا وَالدُّخُولُ مَعَ الصّادِقِينَ

*"Allahdan başqa heç bir mə'budun olmamasına və Muhəmməd (səlləllahu ələyhi və alihi və səlləm)-in Allahın Rəsulu olmasına şəhadət verməkl, o Həzrətin Allah tərəfindən gətirdiklərini iqrar etmək,*

[1] "Nurul-əbsar", 7-ci cild, səh.70 və 110. Biz bu rəvayətləri Firuzabadinin "Fəzailül-xəmsə minəs-sihahis-sittə" kitabından nəql etdik (1-ci cild, səh.328-329, "Əhli-beyt çapı).

[2] "Biharul-ənvar", 68-ci cild, səh.329; "Üsuli-Kafi"dən nəqlən, 2-ci cild, səh.18



*(gündəlik) beş namazı qılmaq, Ramazan ayının orucunu tutmaq, Allah evinin həccinə getmək, bizim dostlarımızla dost, düşmənlərimizlə düşmən olmaq və doğruçularla birlikdə daxil olmaq."*[1]

Həmçinin Kuleyni sənədləri ilə Zürarədən nəql edir ki, imam Baqir (əleyhis-salam) buyurdu:

بُنِيَ الْإِسْلامُ عَلَىٰ خَمْسَةِ أَشْياء: عَلَىٰ الصَّلاةِ وَالزَّكاةِ وَالصَّوْمِ وَالْحَجِّ وَالْوِلايَةِ

*"İslam beş şeyin üzərində qurulmuşdur: namaz, zəkat, oruc, həcc və vilayət."*[2]

## RAFİZİLƏR KİMDİR?

İmam Cə'fər Sadiq (əleyhis-salam)-a dedilər: Bu gün Əmmar Dəhni, Kufənin qazisi ibni Əbi Leylanın yanında şəhadət verdi və qazi ona dedi: "Qalx ayağa, ey Əmmar! Biz səni yaxşı tanıyırıq: sənin şəhadətin qəbul olunmur, çünki sən rafizisən!" Əmmar ayağa qalxdı, bədəni lərzəyə düşdü və ağlamağa başladı.

İbni Əbi Leyla ona dedi: "Sən elm və hədis əhlindən olan bir şəxsiyyətsən. Sənə "rafizi" deyilməsi acığına gəlirsə, rafizilikdən üz çevir; onda bizim qardaşlarımızdan olarsan."

Əmmar dedi: "Ey filankəs! Allaha and olsun ki, mən elə öz məzhəbimdəyəm; lakin həm sənə, həm də özümə ağlamağım gəlir. Özümə ağlamağımın səbəbi budur ki, sən məni ləyaqətim olmayan yüksək bir mərtəbəyə mənsub etdin və mənim rafizi olmağımı güman etdin. Vay olsun sənə! İmam Cə'fər Sadiq (əleyhis-salam) mənə belə buyurmuşdur:

[1] "Biharul-ənvar", 68-ci cild, səh.329; "Üsuli-Kafi", 2-ci cild, səh.18-dən nəqlən

[2] "Biharul-ənvar", 2-ci cild, səh.332; "Üsuli-Kafi", 2-ci cild, səh.21-dən nəqlən

إنَّ أَوَّلَ مَنْ سُمِّيَ الرّافِضَةَ اَلسَّحَرَةُ الَّذِينَ لَمّا شاهَدُوا آيَةَ مُوسٰي فِي عَصاهُ آمَنُوا بِهِ وَاتَّبَعُوهُ، وَرَفَضُوا أَمْرَ فِرْعَوْنَ، وَاسْتَسْلَمُوا لِكُلِّ ما نَزَلَ بِهِمْ، فَسَمّاهُمْ فِرْعَوْنُ الرّافِضَةَ لِما رَفَضُوا دِينَهُ، فَالرّافِضِيُّ كُلُّ مَنْ رَفَضَ جَمِيعَ ما كَرِهَ اللهُ، وَفَعَلَ كُلَّ ما أَمَرَ اللهُ

*“Rafizi adlandırılan ilk şəxslər Fir’onun gətirdikləri sehrkarlar idilər. Onlar Musa (əleyhis-salam)-ın ilahi ayələrini onun əsasında müşahidə etdikləri zaman ona iman gətirib tabe oldular və Fir’onun əmrindən çıxdılar. (Rəfəzə – əmrdən çıxmaq.) Onlara qarşı rəva görülən bütün bəlalara təslim oldular. Fir’on da onun dinindən çıxdıqlarına görə onları rafizi adlandırdı. Deməli, rafizi Allahın xoşlamadığı bütün şeyləri tərk edən, Onun əmrlərinin hamısını yerinə yetirən şəxsə deyilir.”* Bu zamanda belə bir şəxs haradan tapılar?! Özümə də ona görə ağladım ki, qorxdum, Allah-təala mənim qəlbimdən agah olaraq bu şərif ismi öz adıma çıxdığıma görə məni cəzalandırsın və desin: “Ey Əmmar! Sən batil şeylərdən uzaq gəzən, vacib əməllərə, sənə deyilən kimi əməl edən idinmi?!” Bu da mənim üçün yüksək dərəcələrdə təqsir ola bilərdi. Belə ki, əgər Allah mənim barəmdə güzəştə getsəydi, onda heç; amma əgər mənimlə dəqiq hesab aparsaydı, onda şiddətli cəzaya giriftar olardım, yalnız Əhli-beytin və mənim mövlalarımın şəfaəti ilə bu iş düzələ bilərdi.

Sənə ağlamağımın səbəbinə gəldikdə isə, sənin böyük yalanına – məni öz adımdan başqa bir adla çağırdığına görə ağladım, Allahın əzabından sənə ürəyim yandı. Buna görə ki, sən ən böyük və şərəfli adları mənə aid edərək onların məqamını ən aşağı bir səviyyəyə gətirib çıxartmısan. Sənin bədənin bu kəlmələrinə görə ilahi əzaba necə dözəcəkdir?!”

İmam Cə’fər Sadiq (əleyhis-salam) buyurur:



لَوْ أَنَّ عَلَىٰ عَمّارٍ مِنَ الذُّنُوبِ ما هُوَ أَعْظَمُ مِنَ السَّماواتِ وَالْأَرَضِينَ لَمُحِيَتْ عَنْهُ بِهٰذِهِ الْكَلِماتِ وَانَّها لَتَزِيدُ فِي حَسَناتِهِ عِنْدَ رَبِّهِ عَزَّ وَجَلَّ حَتّىٰ يُجْعَلَ كُلُّ خَرْدَلَةٍ مِنْها أَعْظَمَ مِنَ الدُّنْيا اَلْفَ مَرَّةٍ

*“Əgər Əmmarın üzərində yerlərdən və göylərdən də böyük günahlar olsaydı, bu kəlmələrə görə onun üzərindən təmizlənər və onun həsənələri (yaxşı işlari) Allah yanında çox-çox artardı, hətta onlardan xərdəl dənəsi qədər olan bir həsənə, dünyadan min dəfə böyük olardı.”*[1]

## ƏHLİ-BEYT (əleyhimus-salam)-I SEVDİYİNİ İDDİA EDƏN, AMMA ƏHLİ-BEYT ŞİƏSİ OLMAYAN ŞƏXS

Musa ibni Cə’fər (əleyhis-salam)-a dedilər ki, biz bazarda bir nəfəri görürük, o nida edərək deyir: “Mən Mühəmməd və Ali-Mühəmmədin muxlis şiələrindənəm.” O satdığı paltarlara nida edib deyir: – Mən yəziduh? (Kim daha artıq pul verər?) İmam Musa (əleyhis-salam) buyurdu:

ما جَهِلَ وَلا ضاعَ امْرُؤٌ عَرَفَ قَدْرَ نَفْسِهِ، أَتَدْرُونَ ما مِثْلُ هٰذا ؟ هٰذا شَخْصٌ قالَ اَنا مِثْلُ سَلْمانَ، وَاَبِي ذَرٍّ، وَالْمِقْدادِ وَعَمّارٍ، وَهُوَ مَعَ ذٰلِكَ يُباخِسُ فِي بَيْعِهِ وَيُدَلِّسُ عُيُوبَ الْمَبِيعِ عَلَيٰ مُشْتَرِيهِ، وَيَشْتَرِي الشَّيْءَ بِثَمَنٍ، فَيُزايِدُ الْغَرِيبَ، يَطْلُبُهُ فَيُوجِبُ لَهُ ثُمَّ اِذا غابَ الْمُشْتَرِي قالَ لا أُرِيدُهُ اِلاّ بِكَذا بِدُونِ ما كانَ طَلَبَهُ مِنْهُ، أَيَكُونُ هٰذا كَسَلْمانَ وَاَبِي ذَرٍّ وَالْمِقْدادِ وَعَمّارٍ؟ حاشَ لِلّهِ أَنْ يَكُونَ هٰذا كَهُمْ، وَلٰكِنْ ما يَمْنَعُهُ مِنْ أَنْ يَقُولَ إِنِّي مِنْ مُحِبِّي مُحَمَّد وَآلِ مُحَمَّد وَمَنْ يُوالِي أَوْلِيائَهُمْ وَيُعادِي أَعْدائَهُمْ

*“Öz nəfsinin qədir-qiymətini bilən bir şəxs cəhalətdə olmaz və onu zay etməz. Bu kimi şəxsin məsəlinin nə olduğunu*

[1] “Biharul-ənvar”, 68-ci cild, səh.156 və 157

*bilirsinizmi?! Belə bir şəxs demək istəyir ki, mən Salman, Əbuzər, Miqdad və Əmmar kimi adamam, amma bununla belə, al-ver zamanı camaatı aldadır: müştərilərdən öz malının eyblərini gizlədir, bir şeyi bir qiymətə satdığı zaman yad adamlara qiymətini artırır, onlardan çox pul alır, al-veri onun üçün məcburi edir, sonra müştəri getdikdən sonra belə deyir: "O məndən istədiyi qiyməti demədiyi halda, mən yalnız bu qiymətə satmaq istəyirdim." Belə bir şəxs Salman, Əbuzər, Miqdad və Əmmar kimi ola bilərmi?! Allaha and olsun ki, bu şəxs onlar kimi olsun! Amma onun "mən Mühəmməd və Ali-Mühəmmədi sevənlərdənəm; onların dostlarını dost tutur, düşmənləri ilə düşmənçilik edirəm" - deməsinin heç bir eybi yoxdur."*[1]

## SƏMA ULDUZLARIN VASİTƏSİ İLƏ İŞIQLANDIĞI KİMİ, MÖ'MİNLƏR DƏ CƏNNƏT ƏHLİ ÜÇÜN İŞIQLANIR

İmam Əli (əleyhis-salam) buyurur:

إِنَّ اَهْلَ الْجَنَّةِ لَيَنْظُرُونَ اِلَيٰ شِيعَتِنٰا كَمٰا يَنْظُرُ الْإِنْسٰانُ اِلَي الْكَوٰاكِبِ فِي السَّمٰاءِ

*"Həqiqətən, insan göydəki ulduzlara baxdığı kimi, Cənnət əhli də bizim şiələrimizə baxar."*[2]

İmam Cə'fər Sadiq (əleyhis-salam) buyurur:

إِنَّ الْمُؤْمِنَ لَيَزْهَرُ نُورُهُ لِأَهْلِ السَّمٰاءِ كَمٰا تَزْهَرُ نُجُومُ السَّمٰاءِ لِأَهْلِ الْأَرْضِ

*"Həqiqətən göyün ulduzları yer əhli üçün işıqlandığı kimi, mö'minin də nuru səma əhli üçün işıq verir."*[1]

[1] "Biharul-ənvar", 68-ci cild, səh.156-157

[2] "Biharul-ənvar", 68-ci cild, səh.18; "Xisal"dan nəqlən (Səduq, səh.167).



Musa ibni Cə'fər (əleyhis-salam)-dan nəql olunur ki, İmam Cə'fər Sadiq (əleyhis-salam)-ın xüsusi doslarından olan bir dəstə adam aylı bir gecədə onun hüzurunda oturmuşdu. Onlar dedilər: "Ey Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-in övladı, bu səmanın altı necə də gözəl, bu ulduzların və səyyarələrin nuru necə də qəşəngdir!"

İmam Cə'fər Sadiq (əleyhis-salam) buyurdu:

إِنَّكُمْ لَتَقُولُونَ هٰذٰا وَاِنَّ الْمُدَبِّرٰاتِ الْأَرْبَعَةَ جَبْرٰائِيلَ وَمِيكٰائِيلَ وَإِسْرٰافِيلَ وَمَلَكَ الْمَوْتِ يَنْظُرُونَ اِلَىٰ أَهْلِ الْأَرْضِ، فَيَرَوْنَكُمْ وَإِخْوٰانَكُمْ فِي أَقْطٰارِ الْأَرْضِ، وَنُورُكُمْ اِلَىٰ السَّمٰاوٰاتِ وَاِلَيْهِمْ أَحْسَنُ مِنْ نُورِ هٰذِهِ الْكَوٰاكِبِ وَاِنَّهُمْ لَيَقُولُونَ، كَمٰا تَقُولُونَ: مٰا أَحْسَنَ أَنْوٰارَ هٰؤُلاٰءِ الْمُؤْمِنِينِ

*"Siz bunu deyirsiniz, halbuki, Allahın əmrini icra edən dörd mələk – Cəbrail, Mikail, İsrafil və Əzrail yer əhlinə baxır, sizi və (din) qardaşlarınızı yerin müxtəlif yerlərində görürlər. Sizin asimanlara və onlara doğru gedən nurunuz bu ulduzların saçdığı nurdan daha da yaxşı və daha gözəldir. Onlar, siz dediyiniz kimi, belə deyirlər: "Bu mö'minlərin nuru necə də gözəldir!"*[2]

## MÖ'MİNLƏR ALLAH NURU İLƏ NƏZƏR EDƏRLƏR

İbni Əbi Nəcrandan nəql olunur ki, imam Əbul-Həsən (əleyhis-salam)-ın belə buyurduğunu eşitmişdir:

[1] "Biharul-ənvar", 74-cü cild, səh.243; "Üsuli Kafi", 2-ci cild, səh.170-dən nəqlən

[2] "Biharul-ənvar", 68-ci cild, səh.243; "Üyuni əxbarir-Riza", 2-ci cild, səh.2-dən nəqlən

مَنْ عادىٰ شِيعَتَنٰا، فَقَدْ عٰادٰانٰا، وَمَنْ وٰالاٰهُمْ فَقَدْ وٰالاٰنٰا، لِأَنَّهُمْ مِنّٰا، خُلِقُوا مِنْ طِينَتِنٰا مَنْ أَحَبَّهُمْ فَهُوَ مِنّٰا وَمَنْ أَبْغَضَهُمْ فَلَيْسَ مِنّٰا.شِيعَتُنٰا يَنْظُرُونَ بِنُورِ اللهِ، وَيَتَقَلَّبُونَ فِي رَحْمَةِ اللهِ، وَيَفُوزُونَ بِكَرٰامَةِ اللهِ، وَمٰا مِنْ أَحَدٍ مِنْ شِيعَتِنَا اغْتَمَّ اِلاّٰ اغْتَمَمْنٰا لِغَمِّهِ وَلاٰ يَفْرَحُ الاّٰ فَرِحْنٰا لِفَرَحِهِ

*"Hər kəs bizim şiələrimizlə düşmənçilik etsə, şübhəsiz ki, bizimlə düşmənçilik etmişdir; hər kəs onları sevsə, həqiqətən bizi sevmişdir. Çünki onlar bizdəndir və bizim tinətimizdən xəlq edilmişlər. Hər kəs onları sevsə, bizdəndir; hər kəs onlarla düşmən olsa, bizdən deyildir. Bizim şiələrimiz Allah nuru ilə nəzər edir, Allahın rəhmətinə çulğalaşır və Allahın kəraməti ilə qurtuluşa nail olurlar. Bizim şiələrimizdən qəm-qüssəli olan elə bir kəs yoxdur ki, biz onun qəm-qüssəsi ilə qüssələnməyək; elə bir sevinən şiə yoxdur ki, biz onun sevincinə görə sevinib fərəhlənməyək."*[1]

## ƏHLİ-BEYT (əleyhimus-salam) -IN NƏZƏRİNDƏ ŞİƏLƏRİN MÖVQEYİ

## ƏHLİ-BEYT (əleyhimus-salam) ÖZ ŞİƏLƏRİNİ SEVİRLƏR

Şiələr Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) Əhli-beytini sevdiyi kimi, Əhli-beyt (əleyhimus-salam) da öz şiələrini səmimi-qəlbdən sevirlər; hətta onlar şiələrin ətirlərini, ruhlarını, onları görüb ziyarət etməyi sevir və onlara şövq bəsləyirlər, necə ki, sevənlər bir-birlərinə müştaq olarlar. Bu da təbii bir məsələdir, çünki məhəbbət qarşılıqlı olan məfhumdur. Bir kəsdə başqasına

[1] "Biharul-ənvar", 68-ci cild, səh.167 hədis-25; "Sifatuş-şiə", səh.163-dən nəqlən



qarşı həqiqi və doğruçu məhəbbət də yalnız o vaxt ola bilər ki, qarşı tərəf də ona qarşı məhəbbət göstərmiş olsun.
İshaq ibni Əmmar, Əli ibni Əbdül Əzizdən nəql edir ki, Əbu Əbdillah (əleyhis-salam)-ın belə buyurduğunu eşitdim:

وَاللهِ اِنِّي لَأُحِبُّ رِيحَكُمْ وَاَرْوٰاحَكُمْ وَرُؤْيَتَكُمْ وَزِيٰارَتَكُمْ، وَاِنِّي لَعَلَىٰ دِينِ اللهِ وَدِينِ الْمَلاٰئِكَةِ فَأَعِينُوا عَلَيَّ ذٰلِكَ بِوَرَعٍ. اَنَا فِي الْمَدِينَةِ بِمَنْزِلَةِ الشَّعِيرِ. أَتَقَلْقَلُ حَتّىٰ أَرَىٰ الرَّجُلَ مِنْكُمْ فَأَسْتَرِيحَ اِلَيْهِ

*"Allaha and olsun! Mən sizin ətrinizi, ruhunuzu, sizinlə görüşüb ziyarət etməyi sevirəm. Həqiqətən mən Allahın dinində, mələklərin dinindəyəm, bu işdə mənə vərə' ilə kömək edin. Mən Mədinədə qara arpaların içində olan bir ağ arpa dənəsi kimiyəm; sizdən olan bir nəfəri görüncəyə qədər iztirabdayam, sizlərdən birini gördükdə isə rahat oluram."* (Bu hədisdəki "şəir", yaxud "şə'rə" dedikdə arpa dənəsinə bənzətmə nəzərdə tutulub).[1]
Əbdüllah ibni Vəlid deyir ki, Əbu Əbdillah (əleyhis-salam)-ın bizə belə buyurduğunu eşitdim:

وَاللهِ اِنِّي لَأُحِبُّ رُؤْيَتَكُمْ، وَاَشْتٰاقُ اَلىٰ حَدِيثِكُمْ

*"Allaha and olsun ki, mən sizin görüşünüzü sevirəm və sizinlə söhbət etməyə müştaqam."*[2]
Nəsr ibni Müzahim, Məhəmməd ibni İmran ibni Əbdüllahdan, o da atasından, o da Cə'fər ibni Mühəmməd (əleyhis-salam)-dan belə nəql edir: Atam məscidə daxil oldu, bizim şiələrdən bir dəstə adam da orada idi. Atam onlara yaxınlaşıb salam verdi və sonra dedi:

[1] "Əl məhasin", səh.163; "Biharul-ənvar", 68-ci cild, səh.28
[2] "Biharul-ənvar", 68-ci cild, səh.29

وَاللهِ اِنِّي لَأُحِبُّ رِيحَكُمْ وَاَرْوٰاحَكُمْ، وَإِنِّي لَعَلَىٰ دِينِ اللهِ.وَمٰا بَيْنَ أَحَدِكُمْ وَبَيْنَ أَنْ يَغْتَبِطَ بِمٰا فِيهِ اِلاّٰ أَنْ تَبْلُغَ نَفْسُهُ هٰاهُنٰا، (وَاَشٰارَ بِيَدِهِ إِلَيٰ حَنْجَرَتِهِ)، فَأَعِينُونِي بِوَرَعٍ وَاجْتِهٰادٍ. وَمَنْ يَأْتَمُّ مِنْكُمْ بِإِمٰامٍ فَلْيَعْمَلْ بِهِ. أَنْتُمْ شُرَطُ اللهِ، وَاَنْتُمْ أَعْوٰانُ اللهِ،وَأَنْتُمْ أَنْصٰارُ اللهِ

*“Allaha and olsun! Mən sizin ətrinizi və ruhlarınızı sevirəm. Həqiqətən, mən Allahın dinindəyəm. Sizin hər birinizlə onun sevdiyi, yaxud qibtə etdiyi şey arasında yalnız bu qədər fasilə vardır ki, ruhlarınız buraya çatsın (bu zaman barmaqları ilə boğazına işarə etdi, yə’ni ruhunuz alınan kimi bunları görəcəksiniz, mütərcim). Siz mənə vərə’ və ictihad (sə’y) ilə kömək edin! Sizlərdən hər kəs bir imama iqtida etsə, gərək onun sözlərinə əməl etsin. Siz Allahın ordususunuz, siz Allahın köməkçilərisiniz, siz Allahın ənsarlarısınız.”*

Məhəmməd ibni İmran öz atasından, o da Əbu Əbdillah (əleyhis-salam)-dan nəql edir ki, o Həzrət belə buyurmuşdur: Mən bir gün atamla birlikdə məscidə getdim. İmam (əleyhis-salam)-ın səhabələrindən olan bir dəstə adam Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in qəbri ilə minbər arasında oturmuşdu. İmam onlara yaxınlaşıb salam verdi və buyurdu:

وَاللهِ اِنِّي لَأُحِبُّ رِيحَكُمْ وَاَرْوٰاحَكُمْ فَأَعِينُونِي عَلَىٰ ذٰلِكَ بِوَرَعٍ وَاجْتِهٰادٍ

*“Allaha and olsun ki, mən sizin ətrinizi, ruhunuzu sevirəm; belə isə, bu işdə vərə’ və ictihadla mənə kömək edin!”*[1]

Burada iki kəlmə insanın diqqətini cəlb edir:

1- اِنِّي لَأُحِبُّ رِيحَكُمْ وَاَرْوٰاحَكُمْ

*“İnni uhibbu rihəkum və ərvahəkum”.*

2- فَأَعِينُونِي عَلَىٰ ذٰلِكَ بِوَرَعٍ وَاجْتِهٰادٍ

[1] “Biharul-ənvar”, 65-ci cild, səh. 118



*“Və əinuni bivərəin vəctihadin”.*

Birinci cümlədə məhəbbət və şövqün ən yüksək dərəcəsinə işarə edir; belə ki, onlar öz şiələrindən sanki Cənnət iyini və ətrini hiss edirlər.

Mən məhəbbət barəsində bu tə’birdən gözəl və şəffaf bir ifadə tanımıram.

İkinci cümlədə isə bu məhəbbətin həddi-hüdudu təyin edilmişdir, çünki bu məhəbbət adi insanların bir-birinə göstərdiyi məhəbbətdən fərqli olub, Allah məhəbbəti davamındadır ki, bu da məhəbbətin ən yüksək və ən güclü dərəcələrindən ibarətdir. Lakin itaət, bəndəçilik, vərə’ və təqvada olan dəqiq miqyaslara uyğun olaraq azalır və ya bu dərəcələrin yüksəlməsi ilə bu məhəbbət də yüksəlir. O Həzrət öz şiələrindən istəyir ki, sizi sevməyimiz üçün vərə’, təqva, itaət və Allah qarşısında layiqli bəndəçiliklə bizə kömək edin. Məhz bu xislətlə olan insanlar onların şiələridir. Əhli-beyt (əleyhimus-salam) öz şiələrinin onlara nə dərəcə məhəbbət bəslədiyini bilir və istəyirlər ki, bu məhəbbəti onun kimi, yaxud ondan da güclü olan bir məhəbbət hissi ilə mübadilə etsinlər. Buna görə də onlardan istəyirlər ki, özlərini bu məhəbbətə layiqli etsinlər. Bu qarşılıqlı məhəbbətə layiq olmaq da yalnız vərə’, təqva və Allah qarşısında bəndəçiliklə kamilləşər. Belə olan halda onların öz şiələrinə bəslədiyi məhəbbət Allaha məhəbbətin davamında olur.

Onların qarşılıqlı olaraq öz şiələrinə məhəbbət bəsləməsini öz övladını sevən bir ataya bənzətmək olar. Ata həmişə istəyir ki, övladı ədəb, əxlaq və davranışı ilə özünü bu məhəbbətə layiq etsin və elə bir iş görməsin ki, atanın ona qarşı məhəbbəti onun qəlbindən çıxsın və valideyninə qarşı ağ olsun.

## HƏR KƏS ONLARIN ŞİƏLƏRİ İLƏ DÜŞMƏNÇİLİK ETSƏ, ONLARIN ÖZÜ İLƏ DÜŞMƏN OLAR, HƏR

## KƏS ONLARIN ŞİƏLƏRİNİ SEVSƏ, ONLARIN ÖZÜNÜ SEVƏR

Məhəbbət və ədavət qarşılıqlı məfhum olduğuna görə, onu bir tərəfə yalnız o vaxt aid etmək olar ki, digər tərəf də onun oxşarı olan məhəbbətə malik olsun. Həmçinin, sevmək və ya nifrət bəsləmək də qarşılıqlı məfhumdur. Biz Əhli-beyt (əleyhimus-salam)-ın düşmənləri ilə düşmənçilik edib onlara nifrət bəslədiyimiz, eləcə də onların dostlarını sevib, məhəbbət bəslədiyimiz kimi Əhli-beyt (əleyhimus-salam) da onların şiələri ilə düşmən olanları düşmən tutur, onların şiələrini sevənləri isə sevirlər.

İbni Əbi Nəcran nəql edir ki, Əbul-Həsən (əleyhis-salam) belə buyurardı:

مَنْ عادىٰ شِيعَتَنا فَقَدْ عاداٰنا، وَمَنْ واٰلاهُمْ فَقَدْ واٰلاٰنا، لِأَنَّهُمْ مِنّا. خُلِقُوا مِنْ طِينَتِناٰ. مَنْ أَحَبَّهُمْ فَهُوَ مِنّا، وَمَنْ أَبْغَضَهُمْ فَلَيْسَ مِنّا، شِيعَتُناٰ يَنْظُرُونَ بِنُورِ اللهِ، وَيَتَقَلَّبُونَ فِي رَحْمَةِ اللهِ، وَيَفُوزُونَ بِكَراٰمَةٍ

*"Hər kəs bizim şiələrimizlə düşmən olsa, bizimlə düşməndir; hər kəs onları sevsə, bizi sevmişdir. Çünki onlar bizdəndir, bizim tinətimizdən_xəlq olunmuşlar. Hər kəs onları sevsə, bizdəndir, hər kəs onlarla düşmən olsa, bizdən deyildir. Bizim şiələrimiz Allah nuru ilə nəzər edər, Allahın rəhmətinə çulğalaşar və Allahın kəraməti ilə qurtuluşa nail olarlar."*[1]

Əbul-Həsən (əleyhis-salam) buyurmuşdur:

مَنْ عادىٰ شِيعَتَنا فَقَدْ عاداٰنا، وَمَنْ واٰلاهُمْ فَقَدْ واٰلاٰنا، لِأَنَّهُمْ مِنّا. خُلِقُوا مِنْ طِينَتِناٰ. مَنْ أَحَبَّهُمْ فَهُوَ مِنّا، وَمَنْ أَبْغَضَهُمْ فَلَيْسَ مِنّا، شِيعَتُناٰ يَنْظُرُونَ بِنُورِ اللهِ، وَيَتَقَلَّبُونَ فِي رَحْمَةِ

[1] "Biharul-ənvar" 68-ci cild, səh.168



اللهِ، وَيَفُوزُونَ بِكَراٰمَةِ اللهِ، ماٰ مِنْ أَحَدٍ مِنْ شِيعَتِناٰ يَمْرُضُ اِلاّٰ مَرِضْناٰ لِمَرَضِهِ، وَلاَ اغْتَمَّ الاّٰ اغْتَمَمْناٰ لِغَمِّهِ، وَلاٰ يَفْرَحُ اِلاّٰ فَرِحْناٰ لِفَرَحِهِ، وَلاٰ يَغِيبُ عَنّاٰ أَحَدٌ مِنْ شِيعَتِناٰ أَيْنَ كاٰنَ فِي شَرْقِ الْأَرْضِ أَوْغَرْبِهاٰ وَ مَنْ تَرَكَ دَيْنًا فَهُوَ عَلَيْناٰ، وَمَنْ تَرَكَ مِنْهُمْ ماٰلاً فَهُوَ لِوَرَثَتِهِ. شِيعَتُنَا الَّذِينَ يُقِيمُونَ الصَّلاٰةَ وَيُؤْتُونَ الزَّكاٰةَ، وَيَحُجُّونَ الْبَيْتَ الْحَراٰمَ، وَيَصُومُونَ شَهْرَ رَمَضاٰنَ وَ يُواٰلُونَ اَهْلَ الْبَيْتِ، وَيَتَبَرَّءُونَ مِنْ أَعْداٰئِهِمْ، اُولـٰئِكَ اَهْلُ الْإِيماٰنِ وَالتُّقىٰ، وَاَهْلُ الْوَرَعِ وَالتَّقْوىٰ مَنْ رَدَّ عَلَيْهِمْ فَقَدْ رَدَّ عَلَي اللهِ، وَمَنْ طَعَنَ عَلَيْهِمْ فَقَدْ طَعَنَ عَلَي اللهِ، لِأَنَّهُمْ عِباٰدُ اللهِ حَقًّا، وَاَوْلِياٰئُهُ صِدْقًا، وَاللهِ اِنَّ أَحَدَهُمْ لَيَشْفَعُ فِي مِثْلِ رَبِيعَةَ وَمُضَرَ، فَيُشَفِّعُهُ اللهُ فِيهِمْ لِكَراٰمَتِهِ عَلىٰ اللهِ عَزَّ وَجَلّ

*"Hər kəs bizim şiələrimizlə düşmən olsa, şübhəsiz, bizimlə düşməndir; hər kəs onları sevsə, şübhəsiz, bizi sevmişdir. Çünki onlar bizdəndir və bizim tinətimizdən (xəlq olunduğumuz maddədən) xəlq olunmuşlar. Hər kəs onları sevsə bizdəndir, hər kəs onlarla düşmən olsa, bizdən deyildir. Bizim şiələrimiz Allahın nuru ilə nəzər edir, Allahın rəhmətində çulğalaşır və Allahın kəraməti ilə qurtuluşa nail olarlar. Bizim şiələrimizdən xəstə olan elə bir şəxs yoxdur ki, biz də onun xəstəliyinə görə xəstələnməyək, onun qəm-qüssəsinə görə qəmlənməyək; onlardan fərəhlənib sevinən elə bir şəxs yoxdur ki, biz də onun fərəhinə görə sevinməyək. Şiələrimiz harda olurlarsa olsunlar – istər yerin şərqində, istərsə də qərbində – heç bir şəxs bizdən qaib olmaz və borclu halda (dünyadan) getmiş olarsa, o borc bizim üzərimizə gələr, hər kəs onlardan (ölüb özündən) mal-dövlət qoysa, onun öz vərəsələrinə çatar.*

*Bizim şiələr o kəslərdir ki, namazı bərqərar edər, zəkat verər, Beytüllahil-Həramın həccinə gedər, Ramazan ayının orucunu tutar, Əhli-beytin vilayətini qəbul edib, onları sevər, onların düşmənlərindən bezarlıq edər. Həqiqətən onlar iman və pəhrizkarlıq əhli, vərə və təqva əhlidirlər.*

*Hər kəs onları rədd etsə, şübhəsiz, Allaha qarşı çıxmışdır, hər kəs onlara tə'nə vurub, eyb tutsa, şübhəsiz, Allaha tə'nə vurmuşdur. Çünki onlar haqq olaraq Allahın bəndələridirlər. Doğrudan da, onlar Allahın övliyalarıdır. Allaha and olsun! Həqiqətən, onlardan hər biri "Rəbiə" və "Müzər" qəbilələri qədər insana şəfaət edəcək, Allah da həmin mö'min bəndənin Allah üzərində olan kəramətinə görə, həmin şəxsləri onların barəsində şəfaətçi qərar verəcək."*[1]

## ƏHLİ-BEYT (əleyhimus-salam)-LA ŞİƏLƏR ARASINDA QARŞILIQLI ÜNSİYYƏT

Əhli-beyt (əleyhimus-salam)-ın öz şiələrinə qarşı məhəbbət və vilayəti, onların öz şiələrini sevməsi, düşmənlərinə ədavət, bəraət və bezarlıqdan əlavə, onların üzərində qarşılıqlı hüquqları da vardır. Əhli-beyt (əleyhimus-salam)-ın öz şiələrini, Allah yoluna hidayət edib, yol göstərmək, İlahi qayda-qanunları onlara öyrətmək, bəndəçilik ədəblərini onlara tə'lim vermək və sair kimi işlərdən əlavə, onların üzərində (şiələr üçün) müəyyən hüquqlar da vardır.
Əbu Qütadə, Əbu Əbdillah (əleyhis-salam)-dan belə nəql edir:

حُقُوقُ شِيعَتِنَا عَلَيْنَا أَوْجَبُ مِنْ حُقُوقِنَا عَلَيْهِمْ

*"Şiələrimizin bizim üzərimizdə olan haqları, bizim onların üzrində olan haqlarından daha vacibdir."*
Soruşuldu: "Ey Peyğəmbər övladı! Bu necə ola bilər?"
Buyurdu:

[1] "Biharul-ənvar", 68-ci cild, səh. 168; "Sifatuş-şiə", səh.163-dən nəqlən.



لِأَنَّهُمْ يُصَابُونَ فِينَا وَلَا نُصَابُ فِيهِمْ

*"Çünki onlar bizim xatirimizə müsibətlərə düçar olurlar, lakin biz onların barəsində müsibət görmürük."*[1]

[1] "Biharul-ənvar", 68-ci cild, səh.24, "Əmali"dən (Şeyx Tusi) nəqlən, 1-ci cild, səh.363.

# ÜÇÜNCÜ FƏSİL

## ƏHLİ-BEYT *(ələyhimus-salam)*-A TABEÇİLİK, MƏNSUB EDİLMƏ VƏ VİLAYƏTİN ŞƏRTLƏRİ

## ƏHLİ-BEYT *(ələyhimus-salam)*-IN VİLAYƏTİNİ QƏBUL ETMƏK VƏ ONLARA TABEÇİLİK VƏ MƏNSUB EDİLMƏYİN ÜMUMİ ŞƏRTLƏRİ

Əhli-beyt *(ələyhimus-salam)*-ın yoluna tabe olmaq, onlara tabeçilik və mənsub edilməyin dəyəri barəsində söhbət etdiyimiz zaman onun bir neçə ümumi şərtini qeyd edirik. Bu şərtlər mövcud olmayınca, insan özünü Əhli-beytə mənsub edə bilməz. O şərtlərdən bə’ziləri təfəqqüh (dinin əsasları barəsində dərin mə’lumata malik olmaq), təəbbüd (Əhli-beytin sözlərinə itaət edib, qeydsiz-şərtsiz olaraq tabe olmaq), təqva, vərə, mö’minlər və müsəlmanlarla gediş-gəliş və mehribançılıq etmək, nizam-intizama riayət etmək, ədəbli olmaq, insanlarla gözəl şəkildə rəftar edib davranmaq, əmanətdarlıq və danışanda düz danışmaqdan ibarətdir.

Bunlar olmadan Əhli-beyt *(ələyhimus-salam)*-ın vilayətini qəbul etmək, həqiqi vilayət olmayacaqdır. Çünki həqiqi vilayət Əhli-beyt *(ələyhimus-salam)* -a sidqi-qəlbdən və tam mə’nada tabe olmaqdan ibarətdir.

Bu qeyd edilənlər Əhli-beyt *(ələyhimus-salam)* -ın öz şiələrinə və ardıcıllarına tə’lim verdiyi məsələlərdir ki, aşağıda onların bə’zilərini qeyd edirik:



## BİZİM ÜÇÜN ZİNƏT OLUN, RÜSVAYÇILIQ VƏ AR SƏBƏBİ OLMAYIN!

Əhli-beyt imamları öz şiələrindən istəmişlər ki, onlar üçün zinət vasitəsi olub, onların əleyhinə rüsvayçılıq yaratmasınlar. Çünki onlar İslam əxlaqına tam yiyələnib, İslam ədəbinə sahib olduqları zaman camaat Əhli-beyti tə’rifləyərək onların barəsində deyəcəklər: “Onlar öz şiələrini necə də gözəl tərbiyə etmiş, nəfs və ruhlarını necə paklamışdır!” Amma camaat şiələrdən əxlaq, davranış və ədəb qaydalarında pislik gördükləri, Allahın qoyduğu qayda-qanunlara riayət etmədiklərini, halal və harama məhəl qoymadıqlarını gördüyü zaman onların yaramaz əməllərinin hesabına Əhli-beytə eyib tutacaqlar.

Süleyman ibni Mehran deyir ki, imam Cə’fər ibni Mühəmməd Sadiq *(ələyhis-salam)*-ın yanına daxil oldum. Onun yanında şiələrdən bir dəstə adam var idi. O Həzrət şiələrə buyururdu:

كُونُوا لَنٰا زَيْنًا، وَلاٰ تَكُونُوا عَلَيْنٰا شَيْنًا. قُولُوا لِلنّاسِ حُسْنًا، وَاحْفَظُوا اَلْسِنَتَكُمْ وَكَفُّوهٰا عَنِ الْفُضُولِ وَقُبْحِ الْقَوْلِ

*“Ey şiələr! Bizim üçün gözəllik və zinət olun, lakin bizim əleyhimizə rüsvayçılıq və ar səbəbi olmayın! Camaatla gözəl danışın, dilinizi qoruyub-saxlayın, artıq söhbətlərdən və pis sözlərdən dilinizi saxlayın!”*[1]

İmam Cə’fər Sadiq *(ələyhis-salam)* yenə buyurmuşdur:

يٰا مَعْشَرَ الشِّيعَةِ اِنَّكُمْ قَدْ نُسِبْتُمْ اِلَيْنٰا،كُونُوا لَنٰا زَيْنًا، وَلاٰ تَكُونُوا عَلَيْنٰا شَيْنًا...

---

[1] “Əmali” (Şeyx Tusi), 2-ci cild, səh.55; “Biharul-ənvar”, 67-ci cild, səh.151.

*"Ey şiələr! Həqiqətən, siz bizə mənsub edilirsiniz, ona görə də bizim üçün zinət olun, bizim əleyhimizə rüsvayçılıq (ar) səbəbi olmayın!"*[1]

O Həzrət yenə buyurur:

رَحِمَ اللهُ عَبْداً حَبَّبَنا اِلىٰ النّاسِ، وَلا يُبَغِّضُنا اِلَيْهِمْ، وَاَيْمُ اللهِ لَوْ يَرَوْنَ مَحاسِنَ كَلامِنا لَكانُوا أَعَزَّ، وَما اسْتَطـاعَ أَحَدٌ أَنْ يَتَعَلَّقَ عَلَيْهِمْ بِشَيْءٍ

*"Allah rəhmət etsin o bəndəyə ki, bizi camaata sevdirər və onları bizə qarşı nifrətli etməz. And olsun Allaha! Əgər onlar bizim kəlamımızın gözəlliklərini bilsələr, hökmən sözlər onlar üçün ən əziz olar və bu sözlərdən başqa heç bir şey onlara yaxınlıq tapa bilməz."*[2]

O Həzrət yenə buyurmuşdur:

رَحِمَ اللهُ عَبْداً حَبَّبَنا اِلىٰ النّاسِ، وَلا يُبَغِّضُنا اِلَيْهِمْ، وَاَيْمُ اللهِ لَوْ يَرَوْنَ مَحاسِنَ كَلامِنا لَكانُوا أَعَزَّ، وَما اسْتَطـاعَ أَحَدٌ أَنْ يَتَعَلَّقَ عَلَيْهِمْ بِشَيْءٍ وَلـٰكِنَّ أَحَدَهُمْ يَسْمَعُ الْكَلِمَةَ فَيَحُطُّ اِلَيْها عَشْرًا

*"Allah rəhmət etsin o bəndəyə ki, bizi camaata sevdirər və bizi onların nəzərində nifrətli etməz. Allaha and olsun ki, əgər onlar bizim kəlamımızın gözəlliklərini görsələr, hökmən (bu sözlər onlar üçün) ən əziz olar və bu sözlərdən başqa heç bir şey onlara üçün yaxınlıq tapa bilməz. Lakin onlardan biri bir kəlmə eşitdikdə on dənə artığını da eşitmək istəyər..."*[3]

Yenə buyurmuşdur:

---

[1] "Mişkatul-ənvar", səh.67.
[2] "Mişkatul-ənvar", səh.180.
[3] "Rovzatul-Kafi", səh.293.



يٰا عَبْدَ الْأَعْلىٰ... فَأَقْرَاُهُمُ السَّلامَ وَرَحْمَةَ اللهِ – يَعْنِي الشِّيعَةَ – وَقُلْ: قٰالَ لَكُمْ: رَحِمَ اللهُ عَبْداً اِسْتَجَرَّ مَوَدَّةَ النّاسِ اِلىٰ نَفْسِهِ وَاِلَيْنٰا، بِاَنْ يُظْهِرَ لَهُمْ مٰا يَعْرِفُ وَيَكُفُّ عَنْهُمْ مٰا يُنْكِرُونَ

*"Ya Əbdəl-Ə'la! Onlara (şiələrə) salam və Allah rəhmətini göndər və onlara de: "Allah rəhmət etsin o bəndəyə ki, camaatın məhəbbətini özünə və bizə cəlb edər." Yəni, onların tanıdıqları (qəbul etdikləri) şeyi aşkar edər, inkar etdikləri şeyləri isə gizlədər."*[1]

İmam Cə'fər Sadiq (əleyhis-salam) başqa bir hədisdə buyurmuşdur:

مَعٰاشِرَ الشِّيعَةِ كُونُوا لَنٰا زَيْنٰا، وَلا تَكُونُوا عَلَيْنٰا شَيْنًا، قُولُوا لِلنّاسِ حُسْنًا، وَاحْفَظُوا اَلْسِنَتَكُمْ، وَكَفُّوهٰا عَنِ الْفُضُولِ وَقَبِيحِ الْقَوْل

*"Ey şiələr! Bizim üçün zinət olun, bizim əleyhimizə rüsvayçılıq (ar) səbəbi olmayın, camaatla yaxşı danışın, dillərinizi artıq söhbətlərdən və pis sözlərdən saxlayın!"*[2]

## ƏHLİ-BEYT (əleyhimus-salam) ALLAH DƏRGAHINDA ŞƏFAƏT EDƏCƏK, LAKİN ALLAH DƏRGAHINDA HEÇ BİR ŞEYDƏN EHTİYACSIZ ETMƏYƏCƏKDİR

Həqiqətən, Əhli-beyt (əleyhimus-salam) Allahın iznilə şəfaət edəcəklər, amma Onun tərəfindən heç bir iş görməyəcəkdir. Allahın iznilə və Onun dərgahında şəfaət edəcəklər, Onun izni olmadan heç kəs üçün şəfaət etməyəcəkdir.

Hər kəs onlara məhəbbət, vilayət və onlara tabeçilik və mənsub edilmək bəhanəsilə Allaha ibadət, itaət, təqva və vərədən (təqvanın ən yüksək mərtəbəsi) boyun qaçırmaq

---

[1] "Biharul-ənvar", 3-cü cild, səh.77.
[2] Yenə orada, 81-ci cild, səh.310.

istəsə, onda Əhli-beyt (əleyhimus-salam) yolundan tam başqa bir yol getmiş, onların məzhəbindən başqa bir məzhəb seçmiş olar. Belə olan təqdirdə, Əhli-beyt (əleyhimus-salam)-a vilayət və onlara məhəbbətdən təvəqqe etdiyi şeyləri heç vaxt əldə edə bilməz.

Əmr ibni Səid ibni Bilal deyir ki, bir dəstə adamla Əbu Cə'fər (əleyhis-salam)-ın yanına daxil olduq. O Həzrət buyurdu:

كُونُوا النَّمْرَقَةَ الْوُسْطيٰ )النَّمْرَقَةُ: النَّمَطُ وَالطَّرِيقَةُ( يَرْجِعُ اِلَيْكُمُ الْغٰالِي وَيَلْحَقُ بِكُمُ التّٰالِي وَاعْلَمُوا يٰا شِيعَةَ آلِ مُحَمَّدٍ مٰا بَيْنَنٰا وَبَيْنَ اللهِ مِنْ قَرٰابَةٍ، وَلاٰ لَنٰا عَلَىٰ اللهِ حُجَّةٌ، وَلاٰ يُقَرَّبُ اِلَىٰ اللهِ اِلاّٰ بِالطّٰاعَةِ مَنْ كٰانَ مُطِيعًا نَفَعَتْهُ وِلاٰيَتُنٰا، وَمَنْ كٰانَ عٰاصِيًا لَمْ تَنْفَعْهُ وِلاٰيَتُنٰا. (ثُمَّ اِلْتَفَتَ اِلَيْنٰا وَقٰالَ:) لاٰ تَغْتَرُّوا وَلاٰ تَفْتَرُوا

*"Siz orta (mö'tədil) bir yolda olun! Qalilər (ifratçılar) qayıdıb sizə tərəf gələr, talilər (təfrit edənlər, arxada qalanlar) sizə gəlib qoşular. Ey Ali-Mühəmmədin şiələri! Bilin ki, bizimlə Allah arasında heç bir qohumluq əlaqəsi yoxdur, bizim də Allahın üzərində heç bir höccətimiz yoxdur. Allah dərgahına yalnız itaətlə yaxınlaşmaq olar. Hər kəs Allahın əmrinə müti olsa, bizim vilayətimizin ona faydası olacaq, hər kəs Allaha asi olsa, bizim vilayətimizin ona heç bir faydası olmayacaqdır.* (Sonra bizə tərəf nəzər salıb buyurdu:) *"Dünyaya aldanmayın və iftira yaxmayın!"*[1]

Hər kəs Əhli-beyt (əleyhimus-salam)-ı sevib özünü onların məktəblərinə tabeçilik və mənsub etmək, onları özünə vəli seçmək istəsə, onda bilməlidir ki, onlar Allahın izni və məşiyyəti olmadan nə özləri, nə də başqaları üçün heç bir fayda və ya zərərə malik deyildirlər, onlar da Allahın yaratdığı məxluqdurlar, lakin Allah dərgahına yaxındırlar. Hər kəs Əhli-beyti sevsə və onlara məhəbbət vasitəsilə Allah dərgahına yaxınlaşıb,

[1] "Biharul-ənvar", 68-ci cild, səh.178.



Onun dərgahında şəfaətə nail olmaq istəyirsə, gərək Allah qarşısında təqvalı olsun və salehlərin yolu ilə getsin.

İmam Əli (əleyhis-salam) buyurmuşdur:

اِتَّقُوا اللهَ، وَلاٰ يَخْدَعَنَّكُمْ اِنْسٰانٌ، وَلاٰ يَكْذِبَنَّكُمْ اِنْسٰانٌ، فَإِنَّمٰا دِينِي دِينٌ وٰاحِدٌ، دِينُ آدَمَ الَّذِي ارْتَضٰاهُ اللهُ، وَإِنَّمٰا اَنَا عَبْدٌ مَخْلُوقٌ، وَلاٰ أَمْلِكُ لِنَفْسِي نَفْعًا وَلاٰ ضَرًّا، اِلاّٰ مٰا شٰاءَ اللهُ، ومٰا أَشٰاءَ اِلاّٰ مٰا شٰاءَ الله

*"Allah qarşısında təqvalı olun və heç bir insan sizi məkrlə aldatmasın (xüd'ə) və heç bir şəxs sizi aldatmasın (kizb). Həqiqətən, mənim dinim vahid bir din – Adəmin dinidir ki, Allah-təala onu Adəm üçün bəyənmişdir. Həqiqətən, mən də məxluq (xəlq olunmuş) bir bəndəyəm ki, Allahın istəyi olmadan özüm üçün heç bir fayda və ya zərərə malik deyiləm; və Allahın istədiyindən başqa da heç bir şey istəmirəm."*[1]

# VƏRƏ' VƏ TƏQVA

Əhli-beyt (əleyhis-salam)-ın öz şiələrinə etdiyi tövsiyələrində təqva və vərəyə olan tövsiyədən çox olacaq bir şey tapmadıq. Əhli-beyt (əleyhimus-salam) şiələri o kəslərdir ki, Əhli-beytə tabe olaraq bu işdə onlara kömək etsinlər, onlar camaat arasında hamıdan artıq vərə və təqvaya malikdirlər, onlara hamıdan artıq yaxındırlar. Çünki şiəliyin əsl mahiyyəti Əhli-beytə tabe olub, onları özünə nümunə götürmək və onlara iqtida etməkdən ibarətdir. Hər kəs Əhli-beyt (əleyhimus-salam)-a iqtida etmək istəyirsə, onda bilməlidir ki, bu iş üçün Allaha itaət, vərə və təqvadan başqa heç bir yol tapmaz.

[1] "Biharul-ənvar", 68-ci cild, səh. 89, Bərqinin "Məhasin" kitabından, səh.148.

Əbi Səbah Kən’ani söyləyir ki, Əbu Əbdillah (əleyhis-salam)-a dedim: “Sizə görə Kufədə bizə eyb tutur və deyirlər ki, siz Cə’fərisiniz.”
İmam (əleyhis-salam) qəzəblənib buyurdu:

إِنَّ أَصْحابَ جَعْفَرٍ مِنْكُمْ لَقَليلٌ. اِنَّما أَصْحابُ جَعْفَرٍ مَنِ اشْتَدَّ وَرَعُهُ وَعَمِلَ لِخالِقِهِ

*“Həqiqətən, Cə’fərin səhabələri sizin aranızda çox azdır. Cə’fərin səhabələri o kəslərdir ki, vərəsi çox şiddətli olsun və yalnız Xaliqinə xatir əməl etsin.”*[1]
Əmr ibni Yəhya ibni Bəssam nəql edir ki, imam Cə’fər Sadiq (əleyhis-salam)-ın belə buyurduğunu eşitdim:

إِنَّ أَحَقَّ النّاسِ بِالْوَرَعِ آلُ مُحَمَّد وَشيعَتُهُمْ

*“Həqiqətən, vərəyə daha layiqli olanlar Ali-Mühəmməd (əleyhimus-salam) və onların şiələridir.”*[2]
İmam Cə’fər Sadiq (əleyhis-salam) yenə buyurmuşdur:

شِيعَتُنا اَهْلُ الْوَرَعِ وَالاِجْتِهادِ، وَاَهْلُ الْوَفاءِ وَالْأَمانَةِ، وَاَهْلُ الزُّهْدِ وَالْعِبادَةِ. أَصْحابُ اِحْدىٰ وَخَمْسُونَ رَكْعَةً فِي الْيَوْمِ وَاللَّيْلَةِ، اَلْقائِمُونَ بِاللَّيْلِ، الصّائِمُونَ بِالنَّهارِ، يَحُجُّونَ الْبَيْتَ... وَيَجْتَنِبُونَ كُلَّ مُحَرَّمٍ

*“Bizim şiələrimiz vərə və ictihad əhli, vəfa və əmanət əhli, zöhd və ibadət əhlidirlər. Onlar gecə-gündüz ərzində əlli bir rəkət namaz qılır, gecələri (ibadət üçün) ayağa qalxır, gündüzləri oruc tutur, Allah Evinin həccini yerinə yetirirlər... və bütün haram işlərdən də çəkinirlər.”*[3]
O Həzrət yenə buyurmuşdur:

---
[1] “Biharul-ənvar”, 68-ci cild, səh.166.
[2] “Bişarətul-Mustəfa”, səh.171.
[3] “Biharul-ənvar”, 67-ci cild, səh.167.



وَاللهِ ما شِيعَةُ عَلِيٍّ اِلاّ مَنْ عَفَّ بَطْنَهُ وَفَرْجَهُ، وَعَمِلَ لِخالِقِهِ، وَرَجا ثَوابَهُ، وَخافَ عِقابَه

*“Allaha and olsun! Əlinin şiəsi yalnız o kəsdir ki, qarnını və cinsiyyət alətini haramlardan qorusun, yalnız Xaliqinə xatir əməl etsin, onun savabına ümid bəsləsin və cəzasından qorxsun.”*[1]
O Həzrət yenə də buyurmuşdur:

يا شِيعَةَ آلِ مُحَمَّدٍ، اِنَّهُ لَيْسَ مِنّا مَنْ لَمْ يَمْلِكْ نَفْسَهُ عِنْدَ الْغَضَبِ، وَلَمْ يُحْسِنْ صُحْبَةَ مَنْ صَحِبَهُ، وَمُرافَقَةَ مَنْ رافَقَهُ وَمُصالَحَةَ مَنْ صالَحَهُ

*“Ey Ali-Mühəmmədin şiələri! Qəzəbləndiyi zaman nəfsini cilovlaya bilməyən, həmsöhbət olduğu şəxslə yaxşı davranmayan, yoldaşlıq etdiyi şəxslə yaxşı yoldaşlıq etməyən və saziş etdiyi şəxslə (yaxşı) müsalihə etməyən (razılaşmayan) şəxs bizdən deyildir.”*[2]
Yenə buyurmuşdur:

لَيْسَ مِنْ شِيعَتِنا مَنْ يَكُونُ فِي مِصْرٍ، يَكُونُ فِيهِ آلافٌ وَيَكُونُ فِي الْمِصْرِ أَوْرَعُ مِنْهُ

*“Əgər bir şəxs əhalisi min nəfər olan bir şəhərdə olsa və həmin şəhərdə ondan da vərəli bir şəxs tapılsa, o şəxs bizdən deyildir. (Yə’ni, bizim şiəmiz hər bir şəhərdə hamıdan artıq təqvalı və vərə sahibi olmalıdır.)”*[3]
Küleyb ibni Müaviyə Əsədi deyir ki, Əbu Əbdillah (əleyhis-salam)-ın belə buyurduğunu eşitdim:

وَاللهِ اِنَّكُمْ لَعَلىٰ دِينِ اللهِ وَدِينِ مَلائِكَتِهِ فَأَعِينُونِي بِوَرَعٍ وَاجْتِهادٍ

---
[1] “Biharul-ənvar”, 68-ci cild, səh.168.
[2] “Biharul-ənvar”, 68-ci cild, səh.266.
[3] “Biharul-ənvar”, 68-ci cild, səh.164.

*“Allaha and olsun ki, siz Allahın və Onun mələklərinin dinindəsiniz. Belə isə, mənə vərə və ictihadla kömək edin!”*[1]
Küleyb Əsədi deyir ki, İmam Cə’fər Sadiq (əleyhis-salam) buyururdu:

أَمٰا وَاللهِ اِنَّكُمْ لَعَلَىٰ دِينِ اللهِ وَمَلاٰئِكَتِهِ، فَأَعِينُونِي عَلَىٰ ذٰلِكَ بِوَرَعٍ وَاجْتِهٰادٍ. عَلَيْكُمْ بِصَلاٰةِ اللَّيْلِ وَالْعِبٰادَةِ، عَلَيْكُمْ بِالْوَرَعِ

*“Agah olun! Allaha and olsun ki, siz Allahın və Onun mələklərinin dinindəsiniz. Belə isə, bu işdə vərə və ictihadla mənə kömək edin. Amandır, gecə namazını və ibadəti tərk etməyin! Amandır, vərəni tərk etməyin!”*[2]
“Bəsairud-dərəcat” kitabının müəllifi Mürazimdən belə nəql edir: Mədinəyə daxil oldum, bir evin qapısının ağzında bir kənizi gördüm. Onun gözəlliyi məni heyrətə gətirdi və mən ona evlənmək təklifi etdikdə, mənimlə evlənməkdən imtina etdi. Onun ardınca gedib qapını döydüm, kəniz gəlib qapını açdı, mən əlimi onun sinəsinə qoydum. Mənimlə razılaşdı, evə daxil oldum. Sübh açılanda Əbül-Həsən (əleyhis-salam)-ın yanına getdim. Buyurdu:

يٰا مُرٰازِمُ لَيْسَ مِنْ شِيعَتِنٰا مَنْ خَلاٰ ثُمَّ لَمْ يَرِعْ قَلْبُهُ

*“Ey Mürazim! Xəlvətdə olan zaman qəlbində vərə olmayan şəxs bizdən deyildir!”*[3]
Bir nəfər Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-ə ərz etdi: “Ya Rəsuləllah! Filankəs qonşusunun həyətinə (yaxud evinə) baxır. Əgər onda harama düşmək imkanı olsa, bu işdən çəkinməz.”

---

[1] “Biharul-ənvar”, 68-ci cild, səh.78.
[2] “Bişarətul-Müstəfa”, səh. 55 və 174; “Biharul-ənvar”, 68-ci cild, səh.87.
[3] “Biharul-ənvar”, 68-ci cild, səh.153, “Bəsairud-dərəcat” kitabından nəqlən, səh.247.



Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) qəzəbləndi. Başqa bir şəxs dedi: “O, elə bir şəxsdir ki, səni və Əlini sevir, sizin düşmənlərinizdən bezarlıq edir.”
Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurdu:

لاٰ تَقُلْ اِنَّهُ مِنْ شِيعَتِنٰا، فَإِنَّهُ كِذْبٌ، اِنَّ شِيعَتَنٰا مَن تَبِعَنٰا فِي أَعْمٰالِنٰا، وَلَيْسَ هٰذَا الَّذِي ذَكَرْتَهُ فِي هٰذَا الرَّجُلِ مِنْ أَعْمٰالِنٰا

*“Sən demə ki, o, sizin şiələrinizdəndir; çünki bu söz yalandır. Bizim şiələrimiz o kəslərdir ki, əməllərimizdə bizə tabe olsun, halbuki, sənin bu kişi barəsində dediklərin bizim əməllərimizdən deyildir.”*[1]
Həmçinin, bir kişi Həsən ibni Əli (əleyhis-salam)-a dedi: “Mən sizin şiələrinizdənəm.” Həsən ibni Əli (əleyhis-salam) buyurdu:

يٰا عَبْدَ اللهِ، اِنْ كُنْتَ تٰابِعًا لَنٰا فِي أَوٰامِرِنٰا وَزَوٰاجِرِنٰا مُطِيعًا فَقَدْ صَدَقْتَ، وَاِنْ كُنْتَ بِخِلاٰفِ ذٰلِكَ فَلاٰ تَزِدْ فِي ذُنُوبِكَ بِدَعْوٰاكَ مَرْتَبَةً شَرِيفَةً لَسْتَ مِنْ أَهْلِهٰا. لاٰ تَقُلْ لَنٰا اَنَا مِنْ شِيعَتِكُمْ، وَلٰـكِنْ قُلْ اَنَا مِنْ مَوٰالِيكُمْ وَمُحِبِّيكُمْ وَمُعٰادِي أَعْدٰائِكُمْ

*“Ey Allahın bəndəsi! Əgər Allahın əmr və nəhylərində bizə tabe olaraq Allaha müti olsan, onda düz demişsən. Əgər bunun əksinə olsan, onda sahibi olmadığın halda böyük bir mərtəbəni özün üçün iddia etdiyin üçün günahlarının üstünə günə artırıma! Sən demə ki, mən sizin şiələrinizdənəm, lakin “mən sizi sevirəm və düşmənlərinizlə düşmənəm” - de.”*[2]
Bir nəfər imam Hüseyn (əleyhis-salam)-a dedi: “Ey Peyğəmbərin övladı! Mən sizin şiələrinizdənəm.” Həzrət buyurdu:

إِنَّ شِيعَتَنٰا مَنْ سَلِمَتْ قُلُوبُهُمْ مِنْ كُلِّ غَشٍّ وَغِلٍّ دَغَلٍ

---

[1] “Biharul-ənvar”, 68-ci cild, səh.155.
[2] “Biharul-ənvar”, 68-ci cild, səh.156.

*"Həqiqətən, bizim şiələrimiz o kəslərdir ki, onların qəlbləri hər bir aldatmadan, xəyanətdən, kindən, fəsaddan salamat olsun!"*[1]

Əbül-Qasim ibni Quləveyh öz kitabında Məhəmməd ibni Ömər ibni Hənzələdən nəql edir ki, Əbu Əbdillah (əleyhis-salam) buyurdu:

**لَيْسَ مِنْ شِيعَتِنٰا مَنْ قٰالَ بِلِسٰانِهِ، وَخٰالَفَنٰا فِي أَعْمٰالِنٰا وَآثٰارِنٰا، لـٰكِنَّ شِيعَتَنٰا مَنْ وٰافَقَنٰا بِلِسٰانِهِ وَقَلْبِهِ وَتَبِعَ آثٰارَنٰا وَعَمِلَ بِأَعْمٰالِنٰا اُولـٰئِكَ شِيعَتُنٰا**

*"Bir kəs dili ilə dediyi şeylərdə əməlləri və əsərləri ilə müxalifət etsə, o, bizim şiələrimizdən deyildir. Lakin bizim şiələrimiz o kəslərdir ki, dili və qəlbi bizimlə uyğun olsun, bizim əsərlərimizə tabe olsun, əməllərimiz kimi əməl etsin. Bizim şiələrimiz məhz onlardır!"*[2]

## TƏƏBBÜD (İMAMLARIN SÖZLƏRİNƏ QEYDSİZ-ŞƏRTSİZ ƏMƏL ETMƏK)

Əbül-Miqdam deyir ki, Əbu Cə'fər (əleyhis-salam) mənə buyurdu:

**يٰا أَبَا الْمِقْدٰامِ اِنَّمٰا شِيعَةُ عَلِيٍّ الشّٰاحِبُونَ، النّٰاحِلُونَ، الذّٰابِلُونَ، الذّٰابِلَةُ شَفٰاهُهُمْ، نَحِيفَةٌ بُطُونُهُمْ، مُتَغَيِّرَةٌ اَلْوٰانُهُمْ، مُصْفَرَّةٌ وُجُوهُهُمْ، اِذٰا جَنَّهُمُ اللَّيْلُ اتَّخَذُوا الْأَرْضَ فِرٰاشًا وَاسْتَقَلُّوا الْأَرْضَ بِجِبٰاهِهِمْ. كَثِيرٌ سُجُودُهُمْ، كَثِيرَةٌ دُمُوعُهُمْ، كَثِيرٌ دُعٰاؤُهُمْ، كَثِيرٌ بُكٰاؤُهُمْ، يَفْرَحُ النّٰاسُ وَهُمْ مَحْزُونُون**

*"Ya Əbəl-Miqdam! Həqiqətən, Əlinin şiələri yalnız o kəslərdir ki, rəngləri (çox oruc tutduğuna görə arıqlıqdan, yaxud aclıqdan) dönmüş, özləri arıqlamış, dodaqları (zikrdən) qurumuş, qarınları (çoxlu oruc tutmaqdan)*

[1] Yenə orada.
[2] "Biharul-ənvar", 68-ci cild, səh.164, hədis: 13.



*naziklәşmiş, rəngləri dəyişmiş, üzləri saralmışdır. Gecə gəlib çatan zaman torpağı özləri üçün yorğan-döşək edərək üzlərini yerə qoyarlar, onların səcdələri uzun-uzadı, göz yaşları çox, duaları həddindən artıq, ağlamaqları da çoxdur. Camaat sevincli olan halda, onlar (əsl mə'şuqun fərağından, yaxud günahlarının qorxusundan) qəm-qüssəyə batırlar."*[1]

Rəvayət olunmuşdur ki, Əmirəl-mö'minin Əli (əleyhis-salam) aylı bir gecə məsciddən çıxdı. Bir dəstə adam da onun ardınca getməyə başladı. Həzrət onların qarşısında dayanıb buyurdu: "Siz kimsiniz?"

Dedilər: "Sənin şiələrinik, ya Əmirəl-mö'minin!"

Həzrət onların üzlərinə baxıb buyurdu: "Bəs nə olmuşdur ki, sizin üzünüzdə şiələrin simasını görmürəm?"

Dedilər: "Ya Əmirəl-mö'minin! Şiələrin siması necədir?"

Həzrət buyurdu:

**صفرُ الْوُجُوهِ مِنَ السَّهَرِ، عمشُ الْعُيُونِ مِنَ الْبُكٰاءِ، حدبُ الظُّهُورِ مِنَ الْقِيٰامِ، خمصُ الْبُطُونِ مِنَ الصِّيٰامِ، ذبلُ الشَّفٰاهُ مِنَ الدُّعٰاءِ، عَلَيْهِمْ غَبْرَةُ الْخٰاشِعِينَ**

*"(Gecələri səhərə qədər ibadət etmək nəticəsində) üzləri saralar, gözləri ağlamağın çoxluğundan süstləşər, belləri namaz qılmaq nəticəsində əyilər, oruc tutmaq nəticəsində qarınları boşalar, dua etməyin şiddətindən dodaqları quruyar və onların üzərində xaşe'lərin toz-qübarı olar."*[2]

Əbu Nəsir, İmam Cə'fər Sadiq (əleyhis-salam)-dan belə nəql edir:

[1] "Biharul-ənvar", 68-ci cild, səh.149-150.
[2] "Biharul-ənvar", 68-ci cild, səh.150-151; "Əmali" (Şeyx Tusi), 1-ci cild, səh.219.

شِيعَتُنا اَهْلُ الْوَرَعِ وَالْاِجْتِهادِ، وَاَهْلُ الْوَفاءِ وَالْأَمانَةِ، وَاَهْلُ الزُّهْدِ وَالْعِبادَةِ، أَصْحابُ اِحْدىٰ وَخَمْسِينَ رَكْعَةً فِي الْيَوْمِ وَاللَّيْلَةِ، اَلْقائِمُونَ بِاللَّيْلِ، الصّائِمُونَ بِالنَّهارَ، يُزَكُّونَ أَمْوالَهُمْ وَيَحُجُّونَ الْبَيْتَ، وَيَجْتَنِبُونَ كُلَّ مُحَرَّمٍ

*"Bizim şiələrimiz vərə və ictihad əhli, vəfa və əmanət əhli, zöhd və iibadət əhlidirlər. Onlar gecə-gündüz ərzində əlli bir rəkət namaz qılar, gecələr ibadətlə məşğul olub gündüzlər oruc tutar, mal-dövlətlərinin zəkatını verər, Allah evinin həccini yerinə yetirər və bütün haram işlərdən çəkinərlər."*[1]

Şeyx Səduq "Sifatuş-şiə" kitabında sənədlərilə Məhəmməd ibni Salehdən, o da Əbu Abbas Dinəvəridən, o da Məhəmməd ibni Hənifədən nəql edir ki, o belə demişdir:

Həzrət Əli (əleyhis-salam) Cəməl müharibəsindən sonra Bəsrəyə gələn zaman Əhnəf ibni Qeys o Həzrət üçün yemək hazırladı. Sonra yeməyi o Həzrətə və onun səhabələrinə göndərdi. O Həzrət gəlib dedi: "Ya Əhnəf! Mənim səhabələrimi çağır!"

O Həzrətin yanına sifətləri köhnəlmiş (buruşmuş) tuluğa bənzər, üzlərindən qorxu sezilən bir dəstə adam daxil olduqda Əhnəf ibni Qeys dedi: "Ya Əmirəl-mö'minin! Bunlara nə olmuşdur?! (Bu hal onlarda) Yeməyin azlığındandır, yoxsa müharibənin dəhşətindən?"

Həzrət Əli (əleyhis-salam) buyurdu:

لا يا أَحْنَفُ اِنَّ اللهَ سُبْحانَهُ أَجابَ أَقْوامًا تَنَسَّكُوا لَهُ فِي دارِ الدُّنْيا تَنَسُّكَ مَنْ هَجَمَ عَلىٰ يَوْمِ الْقِيامَةِ، مِنْ قَبْلِ أَنْ يُشاهِدُوها، فَحَمَلُوا أَنْفُسَهُمْ عَلَيٰ مَجْهُودِها، وَكانُوا اِذا ذَكَرُوا صَباحَ يَوْمِ الْعَرْضِ عَلَىٰ اللهِ سُبْحانَهُ تَوَهَّمُوا خُرُوجَ كِتابٍ يَبْدُو فِيهِ عَلَىٰ رُؤُوسِ الْأَشْهادِ فَضايِحُ ذُنُوبِهِمْ، فَكادَتْ أَنْفُسُهُمْ تَسِيلُ سَيَلانًا، أَوْتَطِيرُ قُلُوبُهُمْ بِاَجْنِحَةِ الْخَوْفِ طَيَرانًا، وَتُفارِقُهُمْ عُقُولُهُمْ اِلَىٰ اللهِ سُبْحانَهُ غَلَيانًا. فَكانُوا يَحُنُّونَ حَنِينَ الْوالِهِ فِي دُجَىٰ الظُّلَمِ،

[1] "Biharul-ənvar", 68-ci cild, səh.167; "Sifatuş-şiə", səh.162-164.



وَكانُوا يَفْجَعُونَ مِنْ خَوْفِ ما أَوْقَفُوا عَلَيْهِ أَنْفُسَهُمْ، فَمَضَوْا ذبلَ الْأَجْسامِ. حَزِينَةٌ قُلُوبُهُمْ، كالِحَةٌ وُجُوهُهُمْ، ذابِلَةٌ شَفاهُهُمْ، خامِصَةٌ بُطُونُهُمْ، تَراهُمْ سُكارىٰ، سُمارٌ وَحْشَةَ اللَّيْلِ، مُتَخَشِّعُونَ كَاَنَّهُمْ شَنانٌ بَوالِي. قَدْ أَخْلَصُوا لِلّٰهِ أَعْمالاً سِرًّا وَعَلانِيَةً، فَلَمْ تَأْمَنْ مِنْ فَزَعِهِ قُلُوبُهُمْ. فَلَوْ رَاَيْتَهُمْ فِي لَيْلَتِهِمْ وَقَدْ نامَتِ الْعُيُونُ، وَهَدَأَتِ الْأَصْواتُ، وَسَكَنَتِ الْحَرَكاتُ، وَقَدْ نَهْنَهَهُمْ هَوْلُ يَوْمِ الْقِيامَةِ بِالْوَعِيدِ عَنِ الرُّقادِ كَما قالَ سُبْحانَهُ: أَفَامِنَ اَهْلُ الْقُرىٰ أَنْ يَاْتِيَهُمْ بَاْسُنا بَياتًا وَهُمْ نائِمُونَ فَاسْتَيْقَظُوا لَها فَزِعِينَ، وَقامُوا اِلَىٰ صَلَواتِهِمْ مُعْوِلِينَ، باكِينَ تارَةً، وَاُخْرىٰ مُسَبِّحِينَ، يَبْكُونَ فِي مَحارِيبِهِمْ وَيَرِنُّونَ، يَصْطَفُوْنَ لَيْلَةً مُظْلِمَةً بِهِماءِ يَبْكُونَ، فَلُوْ رَاَيْتَهُمْ يا أَحْنَفُ فِي لَيْلَتِهِمْ، قِيامًا عَلَىٰ أَطْرافِهِمْ مُنْحَنِيَةً ظُهُورُهُمْ، يَتْلُونَ أَجْزاءَ الْقُرْآنِ لِصَلَواتِهِمْ، قَدِ اشْتَدَّتْ اِعْوالُهُمْ وَنَحِيبُهُمْ وَزَفِيرُهُمْ، اِذا زَفِرُوا خَلَتِ النّارُ قَدْ أَخَذَتْ مِنْهُمْ اِلَيٰ حَلاقِيمِهِمْ، وَاِذا أَعْوَلُوا حَسِبْتَ السَّلاسِلَ قَدْ صَفِدَتْ فِي أَعْناقِهِمْ. فَلَوْ رَاَيْتَهُمْ فِي نَهارِهِمْ اِذًا لَرَاَيْتَ قَوْمًا يَمْشُونَ عَلَي الْأَرْضِ هَوْنًا، وَيَقُولُونَ لِلنّاسِ حُسْنًا وَاِذا خاطَبَهُمُ الْجاهِلُونَ قالُوا سَلامًا، وَاِذا مَرُّوا بِاللَّغْوِ مَرُّوا كِرامًا قَدْ قَيَّدُوا أَقْدامَهُمْ مِنَ التُّهَماتِ، وَأَبْكَمُوا اَلْسِنَتَهُمْ أَنْ يَتَكَلَّمُوا عَنْ أَعْراضِ النّاسِ، وَسَجَمُوا أَسْماعَهُمْ أَنْ يَلِجَها خَوْضُ خائِضٍ، وَكَحِلُوا أَبْصارَهُمْ بُغَضَ الْبَصَرِ عَنِ الْمَعاصِي، وَاقْتَحَمُوا دارَ السَّلامِ الَّتِي مَنْ دَخَلَها كانَ آمِنًا مِنَ الرَّيْبِ وَالْأَحْزانِ.

*"Xeyr, ey Əhnəf! Həqiqətən Allah-təala, gözlənilmədən Qiyamət günü gəlib çatandan və o günləri müşahidə etməzdən öncə Ona ibadət edən şəxslərin ibadəti kimi ibadət edən bə'zi qövmlərin duasını icabət edir.*[1] *Belə ki, bu zaman onlar özlərinə, o gün üçün qüdrət tədarük görərlər, Allah-təalanın hüzurunda (məhşərdə) dayanacaqları günü xatırladıqları, öz əməl kitablarının aşkar olaraq şahidlərin başı üzərində dayandığı bir zamanı düşünüb, öz günahlarının rüsvayçılıqlarını yada salanda az qalır ki, qəlbləri əriyib suya dönsün, yaxud qəlbləri xovf qanadları*

[1] Bə`zi nüsxələrdə "savab verər", mətbu nüsxədə isə "sevər" kimidir.

*ilə uçmağa başlasın və əqlləri (beyinləri) qaynayıb Allah dərgahına doğru qalxsın.*

*Bu zaman, gecə zülmətlərində sərgərdan qalan şəxslər kimi, öz mə'şuqunun ayrılığından ah-nalə edir, öz nəfslərini vaqe elətdirdikləri şeylərdən qorxur, nəticədə onların cəsədləri saralıb-solur, qəlbləri hüznlü, üzləri qəmgin, dodaqları quru, qarınları boş olar; sən onları sərxoş adam kimi hesab edərsən, halbuki onlar gecə vəhşətinin müsahibidirlər, Allahın əzəmətinin qorxusundan, sanki köhnəlmiş tuluğa bənzəyirlər. Əməllərini gizlində də, aşkarda da Allah üçün xalisləşdirir, qəlblərin fəzə' etdiyi (dəhşətə gəldiyi) günün qorxusundan əmin-amanlıq hissi keçirmirlər. Əgər onları, camaatın yatdığı, səslərin kəsildiyi və hərəkətlərin dayandığı halda – gecə zamanı görsən... Qiyamətin qorxularına dair verilən və'dələr onların yuxusunu almışdır. Necə ki, Allah-təala buyurur:* ***"Yoxsa qəryələrin əhalisi Bizim əzabımızın yatdıqları halda onlara gəlməsindən amandadırlar?!"***[1] *Buna görə də bu gecələrdə vəhşətli halda oyaq qalır, şivən edir və ucadan ağlamaqla namaza başlayırlar. Bir dəfə ağlayır, digər dəfə təsbih deyirlər, öz mehrablarında daim ağlayaraq (ümid) gözlərini Allahın (mərhəmətli) dərgahına dikir, qaranlıq zülmətli gecələri köhnəlib cırılmış paltarlarda ağlayırlar.*

*Ey Əhnəf! Əgər onları gecə vaxtı görsən... Allah üçün qiyam halında durmuş, belləri (ibadətin çoxluğundan) əyilmişdir, namazda Allah ayələrini tilavət edirlər. Onların ah-şivən və ağlamaq səsləri və nalələri şiddətli olar. Onlar şivən etdikləri zaman elə güman edərsən ki, cəhənnəm odu onların hülqumlarını tutmuşdur; və onlar nalə etdiyi zaman elə*

[1] "Ə`raf" surəsi, ayə:97



*hesab edərsən ki, zəncirlər möhkəm düyünlərlə onların boğazına salınmışdır.*

*Əgər gündüzlər onları görsən... elə bir qövmü görmüş olarsan ki, yer üzərində təvazökarlıqla gedərək camaata yaxşı sözlər deyir:* ***"Cahillər onlara xitab etdikləri zaman onlar salam deyər, ləğv (əbəs) sözlər danışanların yanından keçən zaman alicənablıqla keçərlər."*** *("Furqan" surəsi, ayə:63). Onlar öz qədəmlərini töhmət yerlərinə getməkdən qoruyub-saxlamış, dillərini camaatın abır-heysiyyəti barədə (pis sözlər) danışmaqdan kəsmiş və qulaqlarını oyunçuların oyuna qərq olmalarından hifz etmişlər; günah əməllər qarşısında gözlərinə düşmənçilik sürməsi çəkmiş, hər kəsin daxil olduğu zaman şəkk-şübhədən və kədərdən əmin-amanlıqda olduqları Darus-sələmı (Behişti) əldə etmişlər"...*[1]

Əbu Əbdillah (əleyhis-salam) buyurmuşdur ki, Əliyyibni Hüseyn (əleyhis-salam) öz evində oturmuşdu. Bir dəstə adam onun qapısını döydükdə, Həzrət öz kənizinə buyurdu ki, bax gör qapıdakılar kimdir. Ona xəbər verib dedilər ki, sənin şiələrindən bir neçə nəfər gəlmişdir. Həzrət tələm-tələsik halda durub onları qarşılamağa çıxdı, elə tələsirdi ki, az qalırdı yıxılsın. Lakin qapını açıb onlara baxdıqda qayıtdı və buyurdu:

**فَأَيْنَ السِّمَةُ فِي الْوُجُوهِ؟ أَيْنَ أَثَرُ الْعِبادَةِ؟ أَيْنَ سِيماءُ السُّجُودِ؟ اِنَّما شِيعَتُنا يُعْرَفُونَ بِعِبادَتِهِمْ وَشَعَثِهِمْ. قَدْ قَرحَتِ الْعِبادَةُ مِنْهُمُ الْآناَفَ، وَدَثَرَتِ الْجِباهَ وَالْمَساجِدَ، خَمصُ الْبُطُونِ، وَذبلُ الشَّفاهِ، قَدْ هَيَّجَتِ الْعِبادَةُ وُجُوهَهُمْ، وَاَخْلَقَ سَهَرُ اللَّيْلِ وَقطعُ الْهَواجِرِ**

[1] "Biharul-ənvar", 68-ci cild, səh.170-171; "Sifatuş-şiə"dən nəqlən, səh.183

جُثَثَهُمْ، اَلْمُسَبِّحُونَ اِذٰا سَكَتَ النّاسُ، وَالْمُصَلُّونَ اِذٰا نٰامَ النّاسُ، وَالْمَحْزُونُونَ اِذٰا فَرِحَ النّاسُ

*"Bəs onların üzündəki (şiənin ibadət) əsərləri hardadır?! İbadətin əsərləri hanı?! Səcdənin əsər-əlaməti hanı?! Həqiqətən bizim şiəmiz ibadət və pərişan halları ilə tanınar, onların ibadətləri (uzun səcdələri) alınlarında pinə əmələ gətirər, səcdəgahları və alınları sanki köhnəlmiş olar, qarınları arıqlayar, dodaqları quruyar, ibadət onların üzlərini həyəcana gətirər, gecəni (ibadətlə) sübhə çıxarmaq, yaxud günortanın istiliyində (oruc tutmaq) nəticəsində cüssələri və bədənləri qurumuş olar, camaat sakit olduğu zaman onlar təsbih deyər, camaat yatdıqda onlar namaz qılar və camaat sevindiyi zaman onlar (ilahi eşqin fərağından, yaxud günahların səbəbinə) qəm-qüssəyə batarlar."*[1]

Nuf ibni Əbdüllah Bəkkali deyir ki, Əli (əleyhis-salam) mənə buyurdu:

يٰا نُوفُ خُلِقْنٰا مِنْ طِينَةٍ طَيِّبَةٍ، وَخُلِقَ شِيعَتُنٰا مِنْ طِينَتِنٰا، فٰإذٰا كٰانَ يَوْمُ الْقِيٰامَةِ أُلْحِقُوا بِنٰا. قٰالَ نُوفُ، فَقُلْتُ: صِفْ لِي شِيعَتَكَ يٰا أَمِيرَ الْمُؤْمِنِينَ فَبَكَيٰ لِذِكْرِ شِيعَتِهِ وَقٰالَ: يٰا نُوفُ شِيعَتِي وَاللهِ اَلْحُلَمٰاءُ، الْعُلَمٰاءُ بِاللهِ وَدِينِهِ، اَلْعٰامِلُونَ بِطٰاعَتِهِ وَاَمْرِهِ، اَلْمُهْتَدُونَ بِحُبِّهِ، أَنْضٰاءُ عِبٰادَةً، أَحْلاٰسُ زَهٰادَةً، صُفرُ الْوُجُوهِ مِنَ التَّهَجُّدِ، عُمشُ الْعُيُونِ مِنَ الْبُكٰاءِ، ذُبلُ الشِّفٰاهِ مِنَ الذِّكْرِ، خُمصُ الْبُطُونِ مِنَ الطَّوْيِ، تُعْرَفُ الرَّبّٰانِيَّةُ فِي وُجُوهِهِمْ وَالرُّهْبٰانِيَّةُ فِي سِمَتِهِمْ، مَصٰابِيحُ كُلِّ ظُلْمَةٍ، وَرَيْحٰانُ كُلِّ قَبِيلٍ، شُرُورُهُمْ مَكْنُونَةٌ، وَقُلُوبُهُمْ مَحْزُونَةٌ، وَاَنْفُسُهُمْ عَفِيفَةٌ وَحَوٰائِجُهُمْ خَفِيفَةٌ، أَنْفُسُهُمْ مِنْهُمْ فِي عَنٰاءٍ، وَالنّاسُ مِنْهُمْ فِي رٰاحَةٍ، فَهُمُ الْكٰاسَةُ الْأَلِبّٰاءُ، وَالْخٰالِصَةُ النُّجَبٰاءُ، اِنْ شَهِدُوا لَمْ يُعْرَفُوا، وَاِنْ غٰابُوا لَمْ يَفْتَقَدُوا، اُولٰئِكَ شِيعَتِي الْأَطْيَبُونَ وَإِخْوٰانِي الْأَكْرَمُونَ، الاآه شُوقًا اِلَيْهِم

[1] "Biharul-ənvar", 68-ci cild, səh.169, hədis 30



*"Ey Nuf! Biz (Əhli-beyt) pak-pakizə tinətdən yaradılmışıq, bizim şiələrimiz də bizim tinətimizdən yaradılmışdılar. Qiyamət günü olan zaman onlar bizə qovuşdurularlar."*

(Nuf deyir:) Mən dedim ki, ya Əmirəl-mö'minin, mənim üçün şiələrin vəsfini de.

Həzrət "şiə" sözünü eşitdiyi zaman ağlayıb buyurdu: *"Ey Nuf! Allaha and olsun ki, bizim şiələrimiz həlim (helmli, tez əsəbiləşməyən), Allaha və Onun dininə alim, Allahın itaət və əmrlərinə əməl edən, Onun məhəbbəti ilə hidayət olunan, ibadətin tə'sirindən bədənləri arıqlayan, həmişə zöhd içində keçinənlərdir, gecəni sübhə qədər ibadətlə keçirdiklərinə görə üzləri saralar, Allahın əzəmətinin qorxusundan ağlamaqdan gözlərinin görmə qabiliyyəti zəifləyər, çoxlu zikr dediklərinə görə dodaqları quruyar, aclıqdan (oruc tutmaqdan) qarınları nazikləşib boşalar; onların rəbbaniyyətləri (ilahi şəxsiyyət olmaları) üzlərində, röhbaniyyətləri (dünyaya məftun olmamaları) isə yaxşı üslubu özlərinə vacib bilmələri ilə tanınar. Onlar bütün zülmətlərin çıraqları, hər bir qəbilənin reyhanıdır; onların şərləri gizlənmiş, qəlbləri qəm-qüssəli, nəfsləri iffətli, hacətləri yüngüldür, özləri camaatdan ehtiyacsızdır, camaat onların əlindən rahatlıqdadır, onlar huşyar (ayıq), ağıllı, xalis və nəcib insanlardır. Əgər müşahidə olunsalar tanınmazlar; əgər qaib olsalar itməzlər. Həqiqətən, onlar mənim pak şiələrim və əziz qardaşlarımdır, onlara şövqdən. Ah, ah! Onları görməyə necə də şövqlüyəm!"*[1]

[1] "Biharul-ənvar", 68-ci cild, səh.177; "Əmali"dən (Şeyx Tusi) nəqlən, 2-ci cild, səh.188

## GECƏNİN İBADƏTÇİLƏRİ, GÜNDÜZÜN ŞİRLƏRİ

Nuf nəql edir ki, bir gün Əli (əleyhis-salam) ilə evinin damında yatmışdıq. İmam namaz qılmaq üçün ayağa qalxdı, heyran adamlar kimi səmanın ulduzlarına baxmağa başladı və sonra buyurdu: – Ey Nuf! Yatmısan, yoxsa oyaqsan?
Dedim: – Oyağam.
Həzrət buyurdu:

أَتَدْرِي مَنْ شِيعَتِي، شِيعَتِي الذّبلُ الشَّفٰاهِ، اَلْخمصُ الْبُطُونِ، الَّذِي تُعْرَفُ الرُّهْبٰانِيَّةُ وَالرَّبّٰانِيَّةُ فِي وُجُوهِهِمْ رُهْبٰانٌ بِاللَّيْلِ، اُسْدٌ بِالنَّهٰارِ، الَّذِينَ اِذٰا جَنَّهُمُ اللَّيْلُ اتَّزَرُوا عَلَىٰ أَوْسٰاطِهِمْ وَارْتَدُّوا عَلَىٰ أَطْرٰافِهِمْ، وَصَفُّوا أَقْدٰامَهُمْ، وَافْتَرَشُوا جِبٰاهَهُمْ، تَجْرِي دُمُوعُهُمْ عَلَىٰ خُدُودِهِمْ، يُجٰارُونَ اِلَىٰ اللهِ فِي فَكٰاكِ رِقٰابِهِمْ، أَمَّا النَّهٰارُ فَحُلَمٰاءُ عُلَمٰاءُ أَبْرٰارٌ أَتْقِيٰاءُ

*“Bilirsənmi, mənim şiələrim kimdir?! Mənim şiələrim o kəslərdir ki, dodaqları (çox zikr etməkdən) qurumuş, qarınları (çox oruc tutmaqdan) nazikləşmişdir; o kəslərdir ki, rəbbaniyyətləri (ilahi şəxsiyyət olmaları)və röhbaniyyətləri (dünyaya məftun olmamalları) üzlərindən mə’lumdur. Snlar gecələrin ibadətçiləri və gündüzlərin şirləridir. O kəslərdir ki, gecə qaranlığı düşən zaman (ibadətin çoxluğundan) öz bellərinə ağırlıq gətirirlər,öz əsil hallarına dövərlər, qədəmlərini (namaz üçün) səf halına gətirərlər (cütləyərlər), alınlarını yerə qoyarlar, göz yaşları onların yanaqlarından caridir, cəhənnəm (odunun) əzabından xilas olmaq üçün Allah dərgahına pənah aparırlar; amma gündüzlər isə, helmli, alim, yaxşı insanlar və təqvalılardırlar.”*[1]

Onların “gecənin ibadətçiləri və gündüzün şirləri” kimi tə’bir olunması çox gözəl bir tə’bir olub gecə-gündüz

[1] “Biharul-ənvar”, 68-ci cild, səh.191



ərzində davranışlarını dəqiq şəkildə bəyan edir. Onlar “gecə dövləti”nin səhabələridir, gecə qaranlıqlaşdığı zaman onları rüku və səcdə halında görərsən. Allahın hüzurunda xüşu edər, cəhənnəm odundan xilas olmaq üçün Allah dərgahında təzərrö edərlər.
Gündüz olan zaman camaat arasında pəhləvanlara, alimlərə, həlimlərə, təqvalılara çevrilirlər, müqavimət göstərib səbir edirlər və çətinliklərə sinə gərirlər.

سِمَةُ الْعَبِيدِ مِنَ الْخُشُوعِ عَلَيْهِمْ لِلّهِ أَنْ ضَمَّتْهُمُ الْأَسْحٰارُ

فَاِذٰا تَرَجَّلَتِ الضُّحَىٰ شَهِدَتْ لَهُمْ بِيضُ الْقَوٰاضِبِ أَنَّهُمْ أَحْرٰارٌ

**“Bəndələrin Allah qarşısındakı xüşu nəticəsində yaranan əlamətləri budur ki, səhər onları öz ağuşuna çəkər, amma gün-günorta olanda isə, ucu iti olan qılıncların ağlığı onlara şəhadət verir ki, onlar azad insanlardırlar (Allahdan başqasının qulu deyildirlər).”**
Gecə zikrlə məşğul olmaq, gündüzlər isə ilahi təqvaya sahib olmaq onların həyatında gecə ilə gündüz arasında müvazinət ruhunu təşkil edir.

## GECƏ-GÜNDÜZ ƏRZİNDƏ ƏLLİ BİR RƏK’ƏT NAMAZ SAHİBLƏRİ

İmam Cə’fər Sadiq (əleyhis-salam) buyurmuşdur:

شِيعَتُنٰا اَهْلُ الْوَرَعِ وَالْاِجْتِهٰادِ، وَاَهْلُ الْوَفٰاءِ وَالْأَمٰانَةِ، وَاَهْلُ الزُّهْدِ وَالْعِبٰادَةِ، أَصْحٰابُ اِحْدَىٰ وَخَمْسِينَ رَكْعَةً فِي الْيَوْمِ وَاللَّيْلَةِ، اَلصّٰائِمُونَ بِالنَّهٰارِ، يُزَكُّونَ أَمْوٰالَهُمْ، وَيَحُجُّونَ الْبَيْتَ، وَيَجْتَنِبُونَ كُلَّ مُحَرَّمٍ

*“Bizim şiələrimiz vərə’ və ictihad, vəfa və əmanət, zöhd və ibadət əhli olub gecə-gündüz ərzində əlli bir rək’ət namaz qılar, gündüzləri oruc tutar, mal-dövlətinin zəkatını verər,*

*Allah evinin həccinə gedər və bütün haram işlərdən çəkinərlər."*[1]
İmam Baqir (əleyhis-salam) buyurub:

ما شِيعَتُنَا اِلاّ مَنِ اتَّقَىٰ اللهَ وَاَطـاعَهُ، وَما كانُوا يُعْرَفُونَ اِلاّ بِالتَّوَاضُعِ وَالتَخَشُّعِ وَاَداءِ الْأَمانَةِ وَكَثْرَةِ ذِكْرِ اللهِ...

*"Bizim şiələrimiz yalnız o kəsdir ki, Allah qarşısında təqvalı olub Ona itaət etsinlər; onlar yalnız təvazö, xüşu, əmanəti sahibinə qaytarmaq və Allaha çox zikr eləməklə tanınarlar...."*[2]
İmam Cə'fər Sadiq (əleyhis-salam) buyurur:

شِيعَتُنَا الشّاحِبُونَ الذّابِلُونَ النّاحِلُونَ، الَّذِينَ اِذا جَنَّهُمُ اللَّيْلُ اسْتَقْبَلُوهُ بِحَزَنٍ

*"Bizim şiələrimiz (çoxlu oruc tutduğundan) arıqlamış, (çox zikr dediklərinə görə) saralıb-solmuş, arıqlamışdır; o kəslərdir ki, gecə qaranlığı düşəndə onu hüzn və qəm-qüssə ilə qarşılayarlar."*[3]
Əbu Həmzə Somali, Yəhya ibni Ümmü Təvildən, o da Nuf Bəkkalidən nəql edir ki, mənim Əli (əleyhis-salam) -a bir hacətim var idi, Cündəb ibni Züheyr və Rəbi ibni Xeysəm və onun bacısı oğlu Həmmam ibni İbadə ibni Xeysəmdən xahiş etdim, birlikdə imam Əli (əleyhis-salam) görməyə getdik, (məsciddə) imam-camaat olmaq üçün hazırlaşdığı zaman onu gördük. Biz də onunla birlikdə məscidə daxil olduq. Orada oturanların bə'ziləri bir-biri ilə söhbət edir, zarafatlaşaraq vaxtlarını keçirirdilər. Əli (əleyhis-salam) onların yanına gəldikdə dərhal ayağa qalxıb salam verdilər, Həzrət onların salamını aldı və buyurdu: – Bunlar kimdir?

[1] "Biharul-ənvar", 67-ci cild, səh.167
[2] "Tuhəful-üqul", səh.215
[3] "Biharul-ənvar", 68-ci cild, səh.186



Dedilər: – Sənin şiələrindəndir, ya Əmirəl-mö'minin.
Həzrət onlara buyurdu: – Xeyir ola?! Sizə nə olub ki, biz Əhli-beyti sevənlərin xüsusiyyətlərini və zinətlərini (üzünüzdə) görmürəm?!
Onlar utanaraq susdular.
Nuf deyir ki, Cündəb və Rəbi o Həzrətin yanına gəlib dedilər: – Ya Əmirəl-mö'minin sizin şiələrinizin əlamətləri və xüsusiyyətləri nədir?
Həzrət bir neçə anlıq sükut etdi, sonra buyurdu: – Allah qarşısında təqvalı olub yaxşı işlər görün, çünki Allah-təala təqvalı olub ehsan edən və yaxşı işlər görənlərlədir.
Həmmam ibni İbadə mücahid və abid bir şəxs idi, o (məsciddən çıxanda) imama dedi: – Səni and verirəm o kəsə ki, siz Əhli-beyti əzizləmiş, Özünün xüsusi bəndələrindən qərar vermiş və sizi himayə etmişdir! Şiələrinizin xüsusiyyətlərini mənə bəyan et.
Həzrət buyurdu: – And vermə, hamısını sənə deyəcəyəm.
Sonra Həmmamın əlindən tutub məscidə daxil oldu, iki rəkət namaz qılıb tamamladı, oturduqdan sonra üzünü bizə çevirdi. Bir neçə nəfər də onun ətrafını tutdu. Həzrət Allah-təalaya həmd-səna etdikdən, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-ə salam və salavat göndərdikdən sonra buyurdu:[1]

أَمّا بَعْدُ فَإِنَّ اللهَ جَلَّ ثَناؤُهُ، وَتَقَدَّسَتْ أَسْماؤُهُ، خَلَقَ خَلْقَهُ فَأَلْزَمَهُمْ عِبادَتَهُ وَكَلَّفَهُمْ طـاعَتَهُ، وَقَسَمَ بَيْنَهُمْ مَعايِشَهُمْ، وَوَضَعَهُمْ فِي الدُّنْيا بِحَيْثُ وَضَعَهُمْ، وَهُوَ فِي ذٰلِكَ غَنِيٌّ عَنْهُمْ، لا تَنْفَعُهُ طـاعَةُ مَنْ أَطـاعَهُ، وَلا تَضُرُّهُ مَعْصِيَةُ مَنْ عَصاهُ مِنْهُمْ، لـكِنَّهُ عَلِمَ تَعالىٰ قُصُورَهُمْ عَمّا تَصْلحُ عَلَيْهِ شُؤُونُهُمْ، وَتَسْتَقِيمُ بِهِ دَهْماؤُهُمْ فِي عاجِلِهِمْ وَآجِلِهِمْ، فَارْتَبَطَهُمْ بِإِذْنِهِ فِي أَمْرِهِ وَنَهْيِهِ، فَأَمَرَهُمْ تَخْيِيرًا، وَكَلَّفَهُمْ يَسِيرًا، وَاَثابَهُمْ كَثِيرًا، وَاَمازَ

[1] "Biharul-ənvar", 68-ci cild, səh.192-195; Seyyid Şərif Rəzi bu rəvayəti "Nəhcül-bəlağə"də azacıq ixtilafla nəql etmişdir.

سُبْحانَهُ بِعَدْلِ حُكْمِهِ وَحِكْمَتِهِ، بَيْنَ الْمُوجِفِ مِنْ أَنامِهِ اِلَيٰ مَرْضاتِهِ وَمَحَبَّتِهِ، وَبَيْنَ الْمُبطِي عَنْها وَالْمُسْتَظْهِرِ عَلَيٰ نِعْمَتِهِ مِنْهُمْ بِمَعْصِيَتِهِ. فَذٰلِكَ قَوْلُ اللهِ عَزَّ وَجَلَّ: أَمْ حَسِبَ الَّذِينَ اجْتَرَحُوا السَّيِّئاتِ أَنْ نَجْعَلَهُمْ كَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصّالِحاتِ سَواءً مَحْياهُمْ وَمَماتُهُمْ ساءَ ما يَحْكُمُونَ

ثُمَّ وَضَعَ أَمِيرُ الْمُؤْمِنِينَ يَدَهُ عَلَيٰ مَنْكِبِ هَمّامِ بْنِ عِبادَةَ فَقالَ: أَلا مَنْ سَأَلَ عَنْ شِيعَةِ اَهْلِ الْبَيْتِ، الَّذِينَ أَذْهَبَ اللهُ عَنْهُمُ الرِّجْسَ وَطَهَّرَهُمْ فِي كِتابِهِ مَعَ نَبِيِّهِ تَطْهِيرًا، فَهُمُ الْعارِفُونَ بِاللهِ، الْعامِلُونَ بِاَمْرِ اللهِ، اَهْلُ الْفَضائِلِ وَالْفَواضِلِ مَنْطِقُهُمُ الصَّوابُ، وَمَلْبَسُهُمُ الْاِقْتِصادُ، وَمَشْيُهُمُ التَّواضُعُ، بَخَعُوا لِلّٰهِ تَعالىٰ بِطـاعَتِهِ، وَخَضَعُوا لَهُ بِعِبادَتِهِ، فَمَضَوْا غاضِينَ أَبْصارَهُمْ عَمّا حَرَّمَ اللهُ عَلَيْهِمْ، واقِفِينَ أَسْماعَهُمْ عَلَىٰ الْعِلْمِ بِدِينِهِمْ، نَزَلَتْ أَنْفُسُهُمْ مِنْهُمْ فِي الْبَلاءِ كَالَّذِي نَزَلَتْ مِنْهُمْ فِي الرَّخاءِ، رَضُوا عَنِ اللهِ بِالْقَضاءِ، فَلَوْلاَ الْآجالُ الَّتِي كَتَبَ اللهُ لَهُمْ لَنْ تَسْتَقِرَّ أَرْواحُهُمْ فِي أَجْسادِهِمْ طَرْفَةَ عَيْنٍ، شَوقًا اِلىٰ لِقاءِ اللهِ وَالثَّوابِ، وَخَوْفاً مِنَ الْعِقابِ. عَظُمَ الْخالِقُ فِي أَنْفُسِهِمْ، وَصَغُرَ ما دُونَهُ فِي أَعْيُنِهِمْ، فَهُمْ وَالْجَنَّةُ كَمَنْ رَآها فَهُمْ عَلَىٰ أَرائِكِها مُتَّكِئُونَ، وَهُمْ وَالنّارُ كَمَنْ أُدْخِلَها فَهُمْ فِيها يُعَذَّبُونَ، قُلُوبُهُمْ مَحْزُونَةٌ، وَشُرُورُهُمْ مَأْمُونَةٌ، وَاَجْسادُهُمْ نَحِيفَةٌ، وَحَوائِجُهُمْ خَفِيفَةٌ، وَاَنْفُسُهُمْ عَفِيفَةٌ وَمَعُونَتُهُمْ فِي الْإِسْلامِ عَظِيمَةٌ. صَبَرُوا أَيّامًا قَلِيلَةً فَأَعْقَبَتْهُمْ راحَةٌ طَوِيلَةٌ، تِجارَةٌ مُرْبِحَةٌ يَسَّرَها لَهُمْ رَبٌّ كَرِيمٌ، أُناسٌ أَكْياسٌ، أَرادَتْهُمُ الدُّنْيا فَلَمْ يُرِيدُونَها، وَطَلَبَتْهُمْ فَأَعْجَزُوها

أَمَّا اللَّيْلُ فَصافُّونَ أَقْدامَهُمْ، تالُونَ لِأَجْزاءِ الْقُرْآنِ يُرَتِّلُونَهُ تَرْتِيلاً، يَعِظُونَ أَنْفُسَهُمْ بِاَمْثالِهِ، وَيَسْتَشْفُونَ لِدائِهِمْ بِدَوائِهِ، تارَةً، وَتارَةً مُفْتَرِشُونَ جِباهَهُمْ وَاَكُفَّهُمْ وَرُكَبَهُمْ وَاَطْرافَ أَقْدامِهِمْ، تَجْرِي دُمُوعُهُمْ عَلَىٰ خُدُودِهِمْ، يُمَجِّدُونَ جَبّارًا عَظِيمًا وَيَجْأَرُونَ اِلَيْهِ جَلَّ جَلالُهُ فِي فَكاكِ رِقابِهِمْ. هٰذا لَيْلُهُمْ، فَأَمَّا النَّهارُ فَحُلَماءُ عُلَماءُ بَرَرَةٌ أَتْقِياءُ، بَراهُمْ خَوْفُ بارِيهِمْ فَهُمْ أَمْثالُ الْقِداحِ، يَحْسَبُهُمُ النّاظِرُ اِلَيْهِمْ مَرْضىٰ وَما بِالْقَوْمِ مِنْ مَرَضٍ، أَوْقَدْ خُولِطُوا، وَقَدْ خالَطَ الْقَوْمَ مِنْ عَظَمَةِ رَبِّهِمْ، وَشَدَّةِ سُلْطـانه أَمْرٌ عَظِيمٌ طـاشَتْ لَهُ قُلُوبُهُمْ، وَذَهَلَتْ مِنْهُ عُقُولُهُمْ. فَاِذَا اسْتَقامُوا مِنْ ذٰلِكَ بادَرُوا اِلَىٰ اللهِ تَعالَيٰ بِالْأَعْمالِ الزّاكِيَةِ، لا يَرْضَوْنَ لِلّٰهِ بِالْقَلِيلِ وَلا يَسْتَكْثِرُونَ لَهُ الْجَزِيلَ. فَهُمْ لِأَنْفُسِهِمْ مُتَّهِمُونَ، وَمِنْ



أَعْمالِهِمْ مُشْفِقُونَ، اِنْ زُكِّيَ أَحَدُهُمْ خافَ مِمّا يَقُولُونَ، وَقالَ: اَنَا أَعْلَمُ بِنَفْسِي مِنْ غَيْرِي، وَرَبِّي أَعْلَمُ بِي، اَللَّهُمَّ لا تُؤاخِذْنِي بِما يَقُولُونَ، وَاجْعَلْنِي خَيْرًا مِمّا يَظُنُّونَ، وَاغْفِرْ لِي ما لا يَعْلَمُونَ، فَإِنَّكَ عَلاّمُ الْغُيُوبِ، وَساتِرُ الْعُيُوبِ. هٰذا وَمِنْ عَلامَةِ أَحَدِهِمْ أَنْ تَرَى لَهُ قُوَّةً فِي دِينٍ، وَحزمًا فِي لِينٍ، وَإِيمانًا فِي يَقِينٍ، وَحَرصًا عَلَى عِلْمٍ، وَفَهْمًا فِي فِقْهٍ، وَعِلْمًا فِي حِلْمٍ، وَقَصْداً فِي غِنًى وَتَجَمُّلاً فِي فاقَةٍ، وَصَبْرًا فِي شِدَّةٍ، وَخُشُوعًا فِي عِبادَةٍ، وَإِعْطـاءً فِي حَقٍّ، وَرِفْقًا فِي كَسْبٍ، وَطَلَبًا فِي حَلالٍ، وَنشاطًا فِي هُدًى، وَاعْتِصامًا فِي شَهْوَةٍ، وَبرًّا فِي اسْتِقامَةٍ. لا يَغُرُّهُ ما جَهِلَهُ، وَلا يَدَعُ اِحْصاءُ ما عَمِلَهُ، يَسْتَبْطِئُ نَفْسَهُ فِي الْعَمَلِ، وَهُوَ مِنْ صالِحِ عَمَلِهِ عَلَى وَجِلٍ. يُصْبِحُ وَشُغْلُهُ الذِّكْرُ، وَيُمْسِي وَهَمُّهُ الشُّكْرُ، يَبِيتُ حَذَرًا مِنْ سِنَّةِ الْغَفَلَةِ، وَيُصْبِحُ فَرِحًا لِما أَصابَ مِنَ الْفَضْلِ وَالرَّحْمَةِ. إِنِ اسْتَصْعَبَتْ عَلَيْهِ نَفْسُهُ فِيما تَكْرَهُ، لَمْ يُعْطِها سُؤْلَها فِيمَا اِلَيْهِ تَشْرَحُ. رَغْبَتُهُ فِيما يَبْقَى، وَزَهادَتُهُ فِيما يَفْنىٰ. قَدْ قَرَنَ الْعَمَلَ بِالْعِلْمِ وَالْعِلْمَ بِالْحِلْمِ. دائِمًا نَشاطُهُ، بَعِيداً كَسَلُهُ، قَرِيبًا أَمَلُهُ. قَلِيلاً زَلَلُهُ، مُتَوَقِّعًا أَجَلَهُ، خاشِعًا قَلْبُهُ، ذاكِرًا رَبَّهُ، قانِعَةً نَفْسُهُ، عازِبًا جَهْلُهُ، مُحْرِزًا دِينَهُ، مَيِّتًا داؤُهُ، كاظِمًا غَيْظَهُ، صافِيًا خُلُقَهُ، آمِنًا مِنْهُ جارُهُ، سَهْلاً أَمْرُهُ، مَعْدُومًا كِبْرَهُ، بَيِّنًا صَبْرُهُ، كِثِيرًا ذِكْرُهُ، لا يَعْمَلُ شَيْئًا مِنَ الْخَيْرِ رِياءً، وَلا يَتْرُكُهُ حَياءً. اَلْخَيْرُ مِنْهُ مَأْمُولٌ، وَالشَّرُّ مِنْهُ مَأْمُونٌ، إِنْ كانَ بَيْنَ الْغافِلِينَ كُتِبَ فِي الذّاكِرِينَ، وَإِنْ كانَ مَعَ الذّاكِرِينَ لَنْ يُكْتَبَ مِنَ الْغافِلِينَ، يَعْفُوا عَمَّنْ ظَلَمَهُ، وَيُعْطِي مَنْ حَرَمَهُ، وَيَصِلُ مَنْ قَطَعَهُ.

قَرِيبٌ مَعْرُوفُهُ، صادِقٌ قَوْلُهُ، حَسَنٌ فِعْلُهُ، مُقْبِلٌ خَيْرُهُ مُدْبِرٌ شَرُّهُ، غائِبٌ مَكْرُهُ، فِي الزَّلازِلِ وَقُورٌ، وَفِي الْمَكارِهِ صَبُورٌ، وَفِي الرَّخاءِ شَكُورٌ، لا يَحِيفُ عَلَى مَنْ يُبْغِضُ، وَلا يَأْثَمُ فِيمَنْ يُحِبُّ، وَلا يَدَّعِي ما لَيْسَ لَهُ، وَلا يَجْحَدُ ما عَلَيْهِ، يَعْتَرِفُ بِالْحَقِّ قَبْلَ أَنْ يُشْهَدَ بِهِ عَلَيْهِ، لا يُضَيِّعُ مَا اسْتَحْفَظَهُ، وَلا يُنابِزُ بِالْأَلْقابِ. لا يَبْغِي عَلَى أَحَدٍ، وَلا يَغْلِبُهُ الْحَسَدُ، وَلا يُضارُّ بِالْجارِ، وَلا يُشْمِتُ بِالْمُصابِ، مُؤَدٍّ لِلْأَماناتِ، عامِلٌ بِالطـاعاتِ، سَرِيعٌ اِلَى الْخَيْراتِ بَطِيءٌ عَنِ الْمُنْكَراتِ، يَأْمُرُ بِالْمَعْرُوفِ وَيَفْعَلُهُ، وَيَنْهى عَنِ الْمُنْكَرِ وَيَجْتَنِبُهُ، لا يَدْخُلُ فِي الْأُمُورِ بِجَهْلٍ وَلا يَخْرُجُ مِنَ الْحَقِّ بِعَجْزٍ إِنْ صَمَتَ لَمْ يعيه الصُّمْتُ، وَإِنْ نَطَقَ لَنْ يعيه اللَّفْظُ، وَإِنْ ضَحِكَ لَمْ يَعْلُ بِهِ صَوْتُهُ قانِعٌ بِالَّذِي قُدِّرَ لَهُ، لا يَجْمَحُ بِهِ الْغَيْظُ، وَلا

**يَغْلِبُهُ الْهَوَى، وَلا يَقْهَرُهُ الشُّحُّ، يُخالِطُ النّاسَ بِعِلْمٍ، وَيُفارِقُهُمْ بِسِلْمٍ، يَتَكَلَّمُ لِيَغْنَمَ، وَيَسْاَلُ لِيَفْهَمَ، نَفْسُهُ مِنْهُ فِي عِناءٍ وِالنّاسُ مِنْهُ فِي راحَةٍ، أَراحَ النّاسَ مِنْ نَفْسِهِ، وَاتَّعَبَها لِآخِرَتِهِ. إنْ بُغِيَ عَلَيْهِ صَبَرَ، لِيَكُونَ اللهُ تَعالى هُوَ الْمُنْتَصِرَ لَهُ، يَقْتَدِي بِمَنْ سَلَفَ مِنْ اَهْلِ الْخَيْرِ قَبْلَهُ، فَهُوَ قُدْوَةٌ لِمَنْ خَلَفَ بَعْدَهُ اُولـئِكَ عُمّالُ اللهِ، وَمَطـايا أَمْرِهِ وَطـاعَتِهِ، وَسُرُجُ أَرْضِهِ وَبَرِيَّتِهِ، اُولـئِكَ شِيعَتُنا وَاَحِبَّتُنا، وَمِنّا وَمَعَنا، اَلاآه شَوْقًا اِلَيْهِمْ.**

*Əmma bə’d. Həqiqətən bütün eyb və nöqsanlardan pak və münəzzəh, adları müqəddəs olan Allah məxluqatı yaradıb ibadəti (insanlara) vacib və ibadətə mükəlləf etdi. Onların məişətini (asayiş vəsaitlərini) öz aralarında böldü, onları dünyada qərar verdiyi kimi (hər kəsi bir mərtəbədə) qərar verdi. Halbuki, bu işdə onların itabətindən ehtiyacsız idi.*

*Pəhrizkarlar dünyada fəzilətlərə malikdirlər (başqalarından üstündürlər). (Çünki) danışıqları doğruluğa əsaslanır (Allahın və Peyğəmbərin razılığına müvafiq şəkildə danışırlar), geyimləri ortadır (həyatlarında ifrata varmaq və ya həddən aşağı olmaq yoxdur) və (xalq arasında) təvazökarlıqla davranarlar. Onlar Allahın onlara rəva bilmədiyi şeyə göz yumar (harama mürtəkib olmaz) və onlara xeyir verən elmə qulaq verərlər. Çətinlik zamanı başqalarının asayiş və rahatlıqda olduqları kimidirlər (ilahi təqdirə boyun əyərək Allahın istədiyinə razıdırlar və onlar üçün çətinliklə rahatlıq birdir). Əgər Allahın onlar üçün (dünyada) müəyyənləşdirdiyi əcəl olmasaydı, savab şövqü və əzabın qorxusundan canları bir göz qırpımı belə bədənlərində qalmazdı. Onların nəzərində Allah böyük, Ondan başqası isə (hər nə olmasından asılı olmayaraq) kiçikdir. Onların Cənnətə olan yəqin və inamları sakinlərinin rahatlıq içində olmalarını görən şəxsin yəqin və inamı kimidir. Həmçinin, oda imanları onu sakinlərini əzaba düçar halda görən şəxsin imanı kimidir. Qəlbləri qəmgin, zərər-ziyanları təhlükəsiz (hamı onların zərər-ziyanından xatircəm və qorxusuzdur, çünki başqalarını incitmək və hər bir günahın mənşəyi dünyanı sevməkdir ki, onların da ona meyilləri yoxdur ), bədənləri (oruc tutmaq, çoxlu ibadət və bəndəlik*



*etmək və qənaət nəticəsində) arıq, (dünyadakı) istəkləri az (naçarlıqdan möhtac olduqlarından artıq bir şey istəmirlər) və nəfsləri pak və təmizdir (şəhvət arxasınca getmirlər). (Dünyada olan) bir neçə qısa günü səbirlə başa çatdırarlar və onun arxasınca həmişəlik rahatlığı (sonsuz Cənnət ne’mətini) əldə edərlər. Bu iş Rəbblərinin onlar üçün hazırladığı çox qazanclı və mənfəətli bir ticarətdir. (Onlar özlərini ibadət və bəndəliyə hazırladıqları üçün Allah da səadətə qovuşmaq yolunu onlara göstərmişdir.) Dünya onlara üz tutdu (öz mal və bər-bəzəyini onlara göstərdi), onlar isə ondan üz döndərdilər (ona göz yumdular); onları çətinliklərə əsir etdi, onlar isə canlarını qurban verərək (onun çətinliklərinə dözdülər və sonda) özlərini ondan qurtardılar. Gecə olanda (namaz üçün) ayaq üstə duraraq Qur’anın ayələrini diqqət və düşüncə ilə oxuyarlar və onu oxumaq və barəsində düşünməklə özlərini qəmləndirərlər. Onun vasitəsi ilə öz dərdlərinə əlac etməyə çalışarlar (Qur’anı oxumaq və ona əməl etməklə qiyamətin əzab və çətinliklərindən nicat tapmaq istəyərlər). Beləliklə, şövqə gətirən və ümidverici (yaxşı əməl sahiblərinin mükafatını bəyan edən) bir ayə ilə rastlaşanda ona tamah salarlar və şövqlə ona baxarlar, sanki ayənin, barəsində xəbər verdiyi mükafat onların gözləri önündədir və onu görürlər. Həmçinin, qorxulu və vahiməli (pis əməl sahiblərinin cəzasından danışan) bir ayə ilə rastlaşanda qəlblərinin qulaqlarını ona elə açarlar ki, sanki cəhənnəmin (onun əhlinin) nalə və fəryadları qulaqlarının dibindədir. (Allah qarşısında rüku etmək üçün) qamətlərini əyər və (səcdə etmək üçün) alın, əllərinin içi, diz və barmaqlarının uclarını yerə qoyaraq Allah-təaladan özlərinin (qiyamət əzabından) azad olmalarını istəyərlər. Gündüz olanda isə səbrli, alim, yaxşı əməlli və pəhrizkardırlar. Qorxu (Allah qorxusu) bədənlərini, yonulmuş oxların nazikliyi kimi arıqladıb. Görən onların xəstə olduqlarını güman edər, halbuki heç bir xəstəlikləri yoxdur (əksinə, əzabın qorxusundan arıqlayıblar), (onlardan eşitdiyi sözləri başa düşmədiyi üçün) sərsəri və*

*dəli olduqlarını deyərlər, halbuki dəli deyildirlər, bəlkə böyük iş (qiyamətin fikri) fikirlərini qarışdırıb. Özlərinin az işlərindən razı olmurlar və çoxu çox saymırlar. Beləliklə, özlərini (itaətdə səhlənkarlıq gümanı ilə) günahlandırarlar və öz əməllərindən qorxarlar (ki, məbada bəyənilməyə). Əgər onlardan birini (yaxşı əməlinə görə) tə'rifləsələr, barəsində deyilənlərdən qorxar və deyər: "Mən özümü başqalarından daha yaxşı tanıyıram və Rəbbim məni mənim özümdən də yaxşı tanıyır. Allahım, (özündənrazılığa səbəb olan bu) deyilənlərə görə məni cəzalandırma, məni onların güman etdiklərindən də üstün et və onların bilmədikləri günahlarımı bağışla!"*

*Pəhrizkarların nişanəsi budur ki, sən onu din işində güclü, yumşaqlıq və gözəl xasiyyətdə uzaqgörən, imanda yəqin sahibi, elmdə (elm axtarışında) həris, səbirlilikdə alim, zənginlikdə mö'tədil (israf etməyib varını yersiz xərcləməyən), ibadət və bəndəlikdə təvazökar görərsən və o, yoxsulluq və imkansızlığında bəzənmiş görünər (ki, heç kəs onun yoxsulluğundan xəbərdar olmasın). Onlar çətinlikdə səbirli, halal axtaran, hidayət və qurtuluşda şad, tamah və hərislikdən uzaqdırlar. (Beləsi) yaxşı işlər görməsinə baxmayaraq qorxu içindədir. Gecə, onun sə'yi (Allah-təalanın ne'mətlərinə görə) şükür etməyə sərf olunur. Gündüz, istəyi Allahı zikr etmək, yada salmaqdır. Gecəni öz qəflətindən qorxan halda (ki, məbada vəzifələrində səhlənkarlıq etmiş olar) başa vurar və gündüz Allahın lütf və mehribançılığından (onu müsəlman və Məhəmmədə (səlləllahu əleyhi və alih) və onun əhli-beytinə tabe olanlardan etməsindən) şad və sevincək olar. Əgər nəfsi meyilli olmadığı şeydə ona qarşı itaətsizlik etsə (ibadət və bəndəlikdə çətinliklə ram olsa, o da) nəfsin sevdiyi şey barəsindəki istəyini yerinə yetirməz. Onun gözünün işığı əbədi olan şeydir və çiyrindiyi qalmayan şeydir (gözünü axirətə dikib və dünyaya arxa çevirib). O, səbri elmlə və sözü əməl ilə qarışdırır. (Çünki elm və ağla əsaslanmayan səbir və əməl ilə birgə olmayan söz xoşagəlməzdir.) Onu arzusu qısa (məhdud),*



*səhv və xətası az, qəlbi təvazökar, nəfsi qane, yeməyi az, işi asan, dini qorunmuş, şəhvət və istəyi yox və qəzəbi yatırılmış görərsən. Xalq onun yaxşılığına göz dikib və pisliyindən rahat və xatircəmdir. Əgər (Allah və Peyğəmbərdən) qafil və xəbərsiz insanlar içərisində olsa, xəbərdarların zümrəsində sayılar. (Çünki onun qəlbi Allahı zikr etməklə məşğuldur.) Əgər xəbərdarların içərisində olsa qafillərdən sayılmaz. Ona zülm edəni bağışlayar, onu məhrum edənə yaxşılıq və ehsan edər və ondan ayrılana birləşər. Söyüş söyməkdən və çirkin sözdən uzaqdır və sözü mülayim olar. Ondan xoşagəlməz bir iş görünməyib və bəyənilən işi aşkardır. Onun yaxşılığı üz tutub və pisliyi arxa çevirib. Çətinliklərdə vüqarlı və dözümlü, acı anlarda səbirli, dinclik və rahatlıqda şükür edəndir. Nifrət etdiyi kimsəyə zülm etməz və sevdiyi şəxsə görə günaha düşməz. (Öz nəfsi istəklərinə tabe olan və zalım insanların əksinə olaraq sevmək və ya nifrət bəsləmək onun öz şər'i vəzifəsini yerinə yetirməsinə mane olmur.) Şahid gətirilməmişdən qabaq haqqı qəbul edər. Ona tapşırılan şeyi zay etməz və yadına salınan şeyi unutmaz. Heç kəsi xoşagəlməz ləqəblərlə (kafir, fasiq, münafiq və çirkin kəlmələrlə) çağırmaz və qonşuya ziyan vurmaz. İnsanların başına gələn acı hadisələrə sevinməz. Batil və nahaq yola qədəm qoymaz və haqq yoldan kənara çıxmaz. Əgər sakit otursa, sakitliyi onu qəmləndirməz və əgər gülsə, gülüş səsi ucalmaz. Ona zülm edilsə, Allah onun intiqamını alana kimi səbir edər. Nəfsi onun əlindən əzab və çətinliyə düçardır. (Çünki onun istəklərinə zidd davranır.) Xalq onun əlindən rahatlıqdadır. (Çünki xalqı incitmək nəfsi istəklərə tabe olmaq nəticəsində mümkündür.) Axirət işində özünü əziyyətə salar və xalqı özündən (öz işindən) dincliyə çatdırar. Onun şəxslərdən uzaqlaşması (dünyapərəstlərə) rəğbətinin olmamasına və (onlardan) uzaq olmasına görədir. Tanışlarla yaxın olması (Allah adamları ilə) xoşrəftar və mehriban olmağa görədir. Uzaqlaşmasının səbəbi özündən razılıq və özünü böyük*

*tutmaq deyil və yaxınlaşması (ikiüzlü adamlarda olduğu kimi) hiylə və kələk yolu ilə deyil.*

Bu xütbəni nəql edən deyir: “(Söz bu yerə çatanda) Həmmam özündən getdi və elə həmin özündən getməklə də dünyadan köçdü. Sonra Əmirəl-mö’minin əleyhis-salam buyurdu: – Bilin! Vallah onun üçün bundan (belə bir hadisənin baş verməsindən) qorxurdum. Daha sonra buyurdu: Düzgün nəsihətlər əhlinə belə (tə’sir) edir. Orada olanlardan biri (Xəvaricdən olan Abdullah ibn Kəvva) dedi: Ey Əmirəl-mö’minin, sənin vəziyyətin necədir? (Nə üçün bu nəsihətlər sənə tə’sir etmir və ya əgər belə olacağını bilirdinsə, nə üçün onun ölümünə səbəb oldun?) İmam əleyhis-salam buyurdu: Vay olsun sənə! Hər bir əcəlin öz vaxtı var ki, ondan keçmir (gec və tez olmur) və səbəbi var ki, onu aşmır. Odur ki, özünü şeytanın sənin dilinə üfürdüyü bu cür sözlərdən saxla (bir daha demə. Çünki İmama etiraz etmək şeytanın azdırmaları və göstərişlərindəndir).”

## BİR-BİRİNƏ SİLEYİ-RƏHİM ETMƏK VƏ NƏVAZİŞ GÖSTƏRMƏK

Bu şərtlərdən biri də öz aralarında sileyi-rəhim edib bir-birinə köməklik və mehribançılıq göstərməkdir. Hər vaxt sileyi-rəhim və bir-birinə qarşılıqlı kömək etməkdə bu həddə çatsalar, Allah da onların hamısına kömək və arxa olar, düşmənləri qarşısında onlara əmin-amanlıq bağışlayar, onları qoruyar, Allahın qüdrət əli onların əllərinin üzərində və onların əlləri ilə birlikdə olar – o zamana kimi ki, onların əlləri (müttəhid) cəm olsun.

Sədir Seyrəfi Əbi Əbdillah (əleyhis-salam)-ın yanına gəldi. O Həzrətin yanında səhabələrindən bir neçəsi var idi. Həzrət ona buyurdu:



يٰا سَدِيرُ لاٰ تَزٰالُ شِيعَتُنٰا مَرْعِيِّينَ مَحْفُوظِينَ مَسْتُورِينَ مَعْصُومِينَ مٰا أَحْسَنُوا النَّظَرَ لِأَنْفُسِهِمْ فِيمٰا بَيْنَهُمْ وَبَيْنَ خٰالِقِهِمْ وَصَحَّتْ نِيّٰاتُهُمْ لِأَئِمَّتِهِمْ وَبَرُّوا اِخْوٰانَهُمْ فَعَطَفُوا عَلَى ضَعِيفِهِمْ وَتَصَدَّقُوا عَلَى ذَوِي الْفٰاقَةِ مِنْهُمْ إِنّٰا لاٰ نَأْمُرُ بِظُلْمٍ وَلٰكِنْ نَأْمُرُكُمْ بِالْوَرَعِ. اَلْوَرَعَ، اَلْوَرَعَ، وَالْمُوٰاسٰاةَ، الْمُوٰاسٰاةَ لِإِخْوٰانِكُمْ، فَإِنَّ أَوْلِيٰاءَ اللهِ لَمْ يَزٰالُوا مَسْتَضْعَفِينَ مُنْذُ خَلَقَ اللهُ آدَمَ

*“Ey Sədir, bizim şiələrimiz o zamana qədər qorunub hifz olunar, örtülər və günahlar qarşısında ismətli olarlar ki, özləri ilə Xaliqləri arasında olan əməllərini gözəlləşdirsinlər, öz imamlarına olan niyyətlərini səhih etsinlər və qardaşlarına ehsan və yaxşılıq etsinlər, zəiflərinə nəvaziş göstərsinlər, onlardan əliboş və kasıb olanlarına sədəqə versinlər. Çünki biz (heç vaxt) zülmə əmr etmərik; lakin sizə vərə’li olmağı, vərə’li olmağı, vərə’li olmağı; qardaşlarınıza qarşı bərabərlik etməyi... əmr edirik. Çünki Allah Adəmi xəlq etdiyi zamandan bəri Allah övliyaları həmişə müstəz’əf olmuşlar.”*[1]

Məhəmməd ibni Əclan deyir ki, Əbu Əbdillah (əleyhis-salam)-ın yanında idim. Bir kişi daxil olub salam verdi və Həzrət ondan soruşdu: – Öz (din) qardaşlarınızla necə rəftar edirsiniz?

O vəziyyəti tə’riflədikdə, Həzrət buyurdu: – Varlılarınızın fəqirlərin əyadətinə (görüşünə) getməsi necə?

Dedi: – Çox azdır.

Həzrət buyurdu: – Varlılarınızın öz əlində olanlardan fəqirlərə verməklə sileyi-rəhim etməsi necə?!

Dedi: Siz elə əxlaq və xislətləri zikr edirsiniz ki, bizim yanımızda belə şeydən xəbər yoxdur.

---

[1] “Əl-məhasin”, səh.158; “Biharul-ənvar”, 68-ci cild, səh.153-154

Həzrət buyurdu: Bəs onlar bizim şiəmiz olmağı necə güman edirlər?![1]

İmam Həsən Əskəri (əleyhis-salam) buyurmuşdur:

شِيعَةُ عَلِيٍّ هُمُ الَّذِينَ لا يُبالُونَ فِي سَبِيلِ اللهِ أَوَقَعَ الْمَوْتُ عَلَيْهِمْ أَوْوَقَعُوا عَلَى الْمَوْتِ، وَشِيعَةُ عَلِيٍّ هُمُ الَّذِينَ يُؤْثِرُونَ اِخْوانَهُمْ عَلَى أَنْفُسِهِمْ وَلَوْ كانَ بِهِمْ خَصاصَةٌ، وَهُمُ الَّذِينَ لا يَراهُمُ اللهُ حَيْثُ نَهاهُمْ، وَلا يَفْقِدُهُمْ حَيْثُ أَمَرَهُمْ، شِيعَةُ عَلِيٍّ هُمُ الَّذِينَ يَقْتَدُونَ بِعَلِيٍّ فِي اِكْرامِ اِخْوانِهِمُ الْمُؤْمِنِينَ

*"Əli (əleyhis-salam)-ın şiələri yalnız o kəslərdir ki, Allah yolunda heç nədən qorxmazlar: istər ölüm onlara gəlib çatsın, istərsə də onların özü ölümdə qərar tutsunlar. Əli (əleyhis-salam)-ın şiələri yalnız o kəslərdir ki, öz din qardaşlarını (malda) özlərindən qabağa keçirirlər, hətta o mala ehtiyaclarl olsa da belə. Onlar yalnız o kəslərdir ki, Allah-təala onları nəhy etdiyi yerlərdə görməz, əmr etdiyi yerdə olmadıqlarını da tapmaz. Əli (əleyhis-salam)-ın şiələri yalnız o kəslərdir ki, mö'min qardaşlarını əzizləyib ikram etməkdə Əli (əleyhis-salam)-a iqtida etmiş olsunlar."*[2]

İmam Cə'fər Sadiq (əleyhis-salam) buyurmuşdur:

تَواصَلُوا وَتَبارُّوا وَكُونُوا اِخْوَةً بَرَرَةً كَما أَمَرَكُمُ اللهُ عَزَّ وَجَلَّ

*"Bir-birinizə sileyi-rəhim, qarşılıqlı yaxşılıq edin və yaxşı qardaş olun, necə ki, Allah-təala sizə bunu əmr etmişdir."*[3]

Həzrət yenə buyurur:

اِتَّقُوا اللهَ وَكُونُوا اِخْوَةً بَرَرَةً مُتَحابِّينَ فِي اللهِ مُتَواصِلِينَ مُتَراحِمِينَ

[1] "Biharul-ənvar", 68-ci cild, səh.168
[2] "Mizanul-hikmət", 5-ci cild, səh.231
[3] "Üsuli-Kafi", 2-cü cild, səh.175



*"Allah qarşısında təqvalı olun və Allah yolunda bir-birini sevən, bir-birinə sileyi-rəhim edən və bir-birinə mərhəmət göstərən yaxşı qardaşlardan olun!"*[1]

Əla ibni Füzeyl İmam Cə'fər Sadiq (əleyhis-salam)-dan nəql edir ki, Əbu Cə'fər (əleyhis-salam) belə buyurmuşdur:

عَظِّمُوا أَصْحابَكُمْ وَوَقِّرُوهُمْ وَلا يَتَهَجَّمُ بَعْضُكُمْ لِبَعْضٍ، وَلا تَضارُّوا، وَلا تَحاسَدُوا وَإِيّاكُمْ وَالْبُخْلَ، وَكُونُوا عِبادَ اللهِ الْمُخْلِصِينَ

*"Öz səhabələrinizə tə'zim göstərin və onları vüqarlandırın, bə'ziləriniz bə'zilərinizi əziyyətə (məşəqqətə) salmasın; və bir-birinizə zərər vurub həsəd etməyin. Amandır, paxıllıqdan uzaq olun! Allahın müxlis (ixlaslı) bəndələri olun!"*[2]

Əbu İsmail nəql edir ki, Əbu Cə'fər (əleyhis-salam)-a dedim: Şiələr bizim tərəflərdə çoxdur!

Həzrət buyurdu: Varlılar kasıblara nəvaziş göstərirmi? Ehsan sahibləri, onlara pislik edənlərin günahından güzəştə gedib onlara kömək edirmi?

Dedim: Xeyr.

Həzrət buyurdu: Onlar şiə deyillər! Şiələr mən deyən əməlləri edənlərdir.[3]

## MÖ'MİNLƏR ARASINDA QARŞILIQLI HÜQUQLAR

Siqətül-İslam Kuleyni, Əbil-Mə'mun Harisidən nəql edir ki, Əbi Əbdillah (əleyhis-salam)-dan soruşdum: Mö'minin mö'min üzərində olan haqqı hansıdır?

[1] "Üsuli-Kafi", 2-cü cild, səh.120
[2] "Üsuli-Kafi", 2-ci cild, səh.173
[3] "Biharul-ənvar", 74-cü cild, səh.254

Həzrət buyurdu:

**اِنَّ مِنْ حَقِّ الْمُؤْمِنِ عَلَى الْمُؤْمِنِ اَلْمَوَدَّةَ لَهُ فِي صَدْرِهِ، وَالْمُواساةَ لَهُ فِي مالِهِ، وَالْخلفَ لَهُ فِي أَهْلِهِ، وَالنُّصْرَةَ لَهُ عَلَى مَنْ ظَلَمَهُ، وَإِنْ كانَ نافِلَةٌ فِي الْمُسْلِمِينَ وَكانَ غائِبًا، أَخَذَ لَهُ بِنَصِيبِهِ، وَاِذا ماتَ الزِّيارَةُ اِلَى قَبْرِهِ، وَاَنْ لا يَظْلِمَهُ وَاَنْ لا يَغُشَّهُ وَاَنْ لا يَخُونَهُ وَاَنْ لا يَخْذُلَهُ وَاَنْ لا يُكَذِّبَهُ وَاَنْ لا يَقُولَ لَهُ أُفٍّ، وَاِنْ قالَ لَهُ أُفٍّ فَلَيْسَ بَيْنَهُما وِلايَةٌ، وَاِذا قالَ لَهُ اَنْتَ عَدُوِّي فَقَدْ كَفَرَ أَحَدُهُما، وَاِذَا اتَّهَمَهُ انْماثَ الْإِيمانُ فِي قَلْبِهِ كَما يَنْماثُ الْمِلْحُ فِي الْماءِ**

*“Mö’minin başqa mö’min üzərində olan haqqından biri budur ki, qəlbində ona məhəbbət bəsləsin, malında onu şərik etsin, əhli-əyalı arasında onun canişini olsun, zülm edənlər qarşısında ona kömək etsin, əgər müsəlmanlar arasında pay (hədiyyə) olsa və mö’min qardaşı orada olmasa, onun payını alsın, vəfat edərkən onun qəbrinin ziyarətinə getsin, ona zülm etməsin, ona ğəşş (qatqı) eləməsin, ona xəyanət etməsin, onu xar eləməsin, təkzib eləməsin, ona “səndən bezmişəm, uf!” deməsin, əgər ona “uf!” desə, onların arasında vilayət yoxdur. Əgər “sən mənim düşmənimsən!” - deyərsə, onlardan biri kafir olar. Onu müttəhim edərsə, duz suda həll olduğu kimi iman da onun qəlbindən həll olub aradan gedər.*[1]

Mərhum Kuleyni həmçinin Əban ibni Təğlibdən belə nəql edir: Əbi Əbdillah (əleyhis-salam)-la birlikdə təvafa məşğul idik. Səhabələrimizdən bir kişi gəlib mənə işarə ilə başa saldı ki, onunla bir iş yerinə yetirmək üçün gedək. O mənə işarə etdi, mən isə Əbu Əbdillah (əleyhis-salam)-dan ayrılıb onunla getmək istəmədim. Təvaf etdiyimiz zaman yenidən mənə işarə etdi. Bu zaman Əbu Əbdillah (əleyhis-salam) onu görüb buyurdu: Ey Əban, o kişi səni istəyirmi?

[1] “Üsuli Kafi”, 2-ci cild, səh.171; “Biharul-ənvar”, 74-cü cild, səh.248



Dedim: – Bəli.
Buyurdu: – Kimdir?
Dedim: – Bizim dostlardandır.
Həzrət buyurdu: – Get onun işini gör.
Dedim: – Təvafı yarımçıq saxlayımmı?!
Buyurdu: – Bəli.
Dedim: – Hətta vacib təvafı yerinə yetirmiş olsam belə?!
Buyurdu: – Bəli.
O deyir: – Mən onunla birlikdə getdim.
Sonra o Həzrətin yanına gəlib dedim: – Mö’minin mö’min üzərində olan haqqını mənə bəyan et.
Həzrət buyurdu: – Ey Əban, onu rədd etməzsənmi?
Dedim: – Əlbəttə ki yox, sənə fəda olum!
Həzrət buyurdu: – Ey Əban onu rədd etməzsənmi?
Dedim: – Əlbəttə ki, yox, sənə fəda olum!
Bu sual-cavab bir neçə dəfə təkrar olunduqdan sonra mənə buyurdu: Ey Əban, öz malını mö’min qardaşınla bölüşərsənmi?
Sonra mənə baxıb məndə baş verən halı müşahidə etdikdən sonra buyurdu: – Ey Əban, məgər bilmirsənmi ki, Allah-təala (mö’min qardaşlarını) özlərindən qabağa keçirənləri yad etmişdir?
Dedim: – Əlbəttə, sənə fəda olum!
Həzrət buyurdu: – Sən onunla malını bölüşdürdüyün zaman “isar” məqamına çatmamısan. Bu halda səninlə o bərabər olur. Sən yalnız o zaman hələ “isar” (öz haqqından keçib onu başqasına vermək) məqamına çatarsan ki, özün üçün götürdüyün digər yarısını da ona hədiyyə edəsən.[1]
İmam Riza (əleyhis-salam)-dan “mö’minin mö’min üzərindəki haqqı nədir?” - deyə soruşulduqda, Həzrət buyurdu:

[1] “Üsuli Kafi”, 2-ci cild, səh.171; “Biharul-ənvar”, 74-cü cild, səh.249

إِنَّ مِنْ حَقِّ الْمُؤْمِنِ عَلَى الْمُؤْمِنِ: اَلْمَوَدَّةَ لَهُ فِي صَدْرِهِ، وَالْمُواسٰاةَ لَهُ فِي مٰالِهِ، وَالنُّصْرَةَ لَهُ عَلَى مَنْ ظَلَمَهُ، وَإِنْ كٰانَ نٰافِلَةٌ فِي الْمُسْلِمِينَ وَكٰانَ غٰائِبًا أَخَذَ لَهُ بِنَصِيبِهِ، وَاِذٰا مٰاتَ فَالزِّيٰارَةُ اِلَيٰ قَبْرِهِ، وَ اَنْ لا يَظْلِمَهُ، وَلا يَغُشَّهُ، وَلا يَخُونَهُ، وَلا يَخْذُلَهُ، وَلا يَغْتٰابَهُ، وَلا يُكَذِّبَهُ، وَلا يَقُولُ لَهُ أُفٍّ فِإذٰا قٰالَ لَهُ أُفٍّ فَلَيْسَ بَيْنَهُمٰا وِلٰايَةٌ، وَاِذٰا قٰالَ لَهُ اَنْتَ عَدُوِّي فَقَدْ كَفَرَ أَحَدُهُمٰا، وَاِذَا اتَّهَمَهُ أنْمٰاثَ الْإِيمٰانُ فِي قَلْبِهِ كَمٰا يَنْمٰاثُ الْمِلْحُ فِي الْمٰاءِ. وَمَنْ أَطْعَمَ مُؤْمِنًا كٰانَ أَفْضَلَ مِنْ عِتْقِ رَقَبَةٍ، وَمَنْ سَقٰى مُؤْمِنًا مِنْ ظَمَاٍ سَقٰاهُ اللهُ مِنَ الرَّحِيقِ الْمَخْتُومِ، وَمَنْ كَسىٰ مُؤْمِنًا مِنْ عَرَيٍ كَسٰاهُ اللهُ مِنْ سُنْدُسٍ وَحَرِيرِ الْجَنَّةِ، وَمَنْ أَقْرَضَ مُؤْمِنًا قَرْضًا يُرِيدُ بِهِ وَجْهَ اللهِ عَزَّ وَجَلَّ حُسِبَ لَهُ بِحِسٰابِ الصَّدَقَةِ حَتّى يُؤَدِّيَهُ اِلَيْهِ، وَمَنْ فَرَّجَ عَنْ مُؤْمِنٍ كُرْبَةً مِنْ كُرَبِ الدُّنْيٰا فَرَّجَ اللهُ عَنْهُ كُرْبَةً مِنْ كُرَبِ الْآخِرَةِ، وَمَنْ قَضىٰ لِمُؤْمِنٍ حٰاجَةً كٰانَ أَفْضَلَ مِنْ صِيٰامِهِ وَاعْتِكٰافِهِ فِي الْمَسْجِدِ الْحَرٰامِ، وَإِنَّمَا الْمُؤْمِنُ بِمَنْزِلَةِ السّٰاقِ مِنَ الْجَسَدِ

*“Mö’minin mö’min üzərində olan haqlarından biri budur ki, qəlbində onu sevsin, malını onunla bərabər bölüşsün, zülm edən şəxs qarşısında ona kömək etsin, əgər mö’minlərin içərisində pay (hədiyyə) verilsə və onun mö’min qardaşı orada olmazsa, onun payını götürsün, öldüyü zaman onun qəbrinin ziyarətinə getsin, ona zülm etməsin, ona ğəşş (qatqı) etməsin, xəyanət etməsin, onu xar etməsin, qeybətini etməsin, təkzib etməsin, ona “uf” (bezmişəm!) deməsin. Əgər ona “uf” deyərsə, deməli, onların arasında heç bir vilayət yoxdur. Əgər “sən mənim düşmənimsən!” deyərsə, onda o ikisindən biri kafir olmuşdur. Əgər onu müttəhim edərsə, duz suda həll olub aradan getdiyi kimi, iman da onun qəlbindən əriyib gedər.*

*Əgər bir şəxs mö’minə təam versə, bu iş onun qul azad etməsindən fəzilətlidir, əgər bir kəs mö’minə su verib susuzluğunu yatırsa, Allah-təala onu rəhiqi məxtumdan sirab edər. Hər kəs bir paltarsız mö’mini geyimlə tə’min etsə, Allah-təala Cənnətin sündüs və həririndən ona paltar geydirər. Hər kəs mö’minə borc verərək Allahın razılığını cəlb etmək istəsə, borcu ona qaytardığı vaxta qədər onun (borc verən şəxs) üçün sədəqə savabı yazılar. Hər kəs mö’minin dünya qəm-qüssələrindən birini aradan aparарsa, Allah-təala onun axirət qəm-qüssələrindən birini aradan aparar. Hər kəs mö’minin bir hacətini yerinə yetirsə, bu iş onun Məscidül-Həramda e’tikaf saxlayıb oruc tutmasından fəzilətlidir. Həqiqətən, mö’min bədəndəki ayaq kimidir. (Yə`ni bədən üzvləri onun üzərində qərar tapır, ona söykənirlər, müt)*



*Həqiqətən Əbu Cə’fər (əleyhis-salam) Kə’bə ilə üzbəüz dayanıb buyurmuşdur: “Həmd olsun o Allaha ki, səni kəramətli edib şərafət bağışlamış, əzəmətli etmiş və səni camaat üçün sığınacaq və əmin-amanlıq yeri qərar vermişdir. Allaha and olsun ki, mö’minin hörməti sənin hörmətindən daha fəzilətlidir (artıqdır)!”*

Cəbəl əhlindən olan bir nəfər o Həzrətin yanına gəlib salam verdi, vidalaşan zaman dedi: Mənə nəsihət ver.

Həzrət buyurdu:

أُوصِيكَ بِتَقْوَى اللهِ وَبِرِّ أَخِيكَ الْمُؤْمِنِ فَأَحْبِبْ لَهُ مٰا تُحِبُّ لِنَفْسِكَ، وَإِنْ سَأَلَكَ فَأَعْطِهِ، وَاِنْ كَفَّ عَنْكَ فَاعْرِضْ عَلَيْهِ، وَلا تُمِلَّهُ فَاِنَّهُ لا يُمِلُّكَ، وَكُنْ لَهُ عَضُداً، فَإِنْ وَجَدَ عَلَيْكَ فَلا تُفٰارِقْهُ حَتّىٰ تَسِلَّ سَخِيمَتُهُ، فَإِنْ غٰابَ فَاحْفَظْهُ فِي غَيْبَتِهِ وَإِنْ شَهِدَ فَاكْنُفْهُ، وَاعْضُدْهُ، وَزُرْهُ وَاَكْرِمْهُ، وَأَلْطِفْ بِهِ، فَإِنَّهُ مِنْكَ وَاَنْتَ مِنْهُ، وَفِطْرُكَ لِأَخِيكَ الْمُؤْمِنَ، وَإِدْخٰالُ السُّرُورِ عَلَيْهِ أَفْضَلُ مِنَ الصِّيٰامِ وَأَعْظَمُ أَجْرًا

*“Sənə tövsiyə edirəm ki, Allah qarşısında təqvalı olub mö’min qardaşına yaxşılıq edəsən, onun üçün, özün üçün istədiyin şeyləri istəyəsən, o səndən bir şey istəyəndə verəsən, sənə bir şeyi verməkdən imtina edərsə, həmin şeyi sən ona təqdim edəsən və onun (istəklərindən) bezib usanmayasan, çünki o səndən bezib usanmır. Onun üçün köməkçi ol, əgər sənə qəzəblənsə, ondan ayrılma, o vaxta qədər ki, onun vasitəsi ilə onun kin-küdurəti qəlbindən*

*çıxsın. Əgər qaib olsa, qeybdə olduğu vaxtda onu qoruyub hifz elə, əgər hüzurunda olsa, ona kömək ol, onu himayə et, ziyarət edib əzizlə, ona qarşı mehribançılıq göstər. Çünki o səndən, sən də ondansan. Sənin mö'min qardaşına iftar (təam) verməyin, onun qəlbinə sevinc daxil etməyin əcr və savab baxımından (müstəhəb) orucdan daha fəzilətli və əzəmətlidir."*[1]

Həmçinin, mö'minlərin qarşılıqlı hüquqları ilə əlaqədar İbrahim ibni Ömər Yəmani İmam Cə'fər Sadiq (əleyhis-salam)-dan belə nəql etmişdir:

لا يَشْبَعُ وَيَجُوعُ أَخُوهُ، وَلا يَرْوَي وَيَعطشُ أَخُوهُ، وَلا يَكْتَسِي وَيَعْرَى أَخُوهُ، وَاِذَا احْتَجْتَ فَسَلْهُ وَإِنْ سَأَلَكَ فَأَعْطِهِ وَلا تُمِلَّهُ خَيْرًا وَلا يُمِلُّهُ لَكَ، كُنْ لَهُ ظَهْرًا فَإِنَّهُ لَكَ ظَهْرٌ. اِذٰا غٰابَ فَاحْفَظْهُ فِي غَيْبَتِهِ، وَاِذٰا شَهِدَ فَزُرْهُ، وَأَجِلَّهُ وَاَكْرِمْهُ، فَإِنَّهُ مِنْكَ وَاَنْتَ مِنْهُ، فَإِنْ كٰانَ عَلَيْكَ عٰاتِبًا فَلا تُفٰارِقْهُ، حَتّٰي تَسِلَّ سَخِيمَتُهُ، وَإِنْ أَصٰابَهُ خَيْرٌ فَاحْمَدْ اللّٰهَ، وَإِنِ ابْتَلي فَأَعْضِدْهُ، وَإِنْ تَمَحَّلَ لَهُ فَأَعِنْهُ، وَاِذٰا قٰالَ الرَّجُلُ لِأَخِيهِ أُفٍّ، انْقَطَعَ مٰا كٰانَ بَيْنَهُمٰا مِنَ الْوِلاٰيَةِ، وَاِذٰا قٰالَ : اَنْتَ عَدُوِّي كَفَرَ أَحَدُهُمٰا، فَاِذَا اتَّهَمَهُ انْمٰاثَ الْإِيمٰانُ فِي قَلْبِهِ كَمٰا يَنْمٰاثُ الْمِلْحُ فِي الْمٰاءِ

*"(O haqlardan biri budur ki, ) Din (mö'min) qardaşın ac olan halda sən tox olmayasan, mö'min qardaşın susuz olan halda sən sirab olmayasan, mö'min qardaşın paltarsız olanda sən libas geyməyəsən. Əgər (bir şeyə) ehtiyacın olsa, ondan istəyəsən, səndən bir şey istəyəndə verəsən və xeyir işlərdə ondan usanmayasan – çünki o səndən usanmır; onun üçün arxa olasan, çünki o sənin üçün arxadır. Əgər sənin yanında olmazsa, həmin dövrdə onun (abır-heysiyyətini) qoruyub saxla, vətəndə olanda ziyarətinə get, onu əzizləyib ikram elə, çünki o səndən, sən də ondansan. Əgər səni danlayıb məzəmmət etsə, ondan ayrılma, o vaxta qədər ki,*

[1] "Biharul-ənvar", 74-cü cild, səh.233



*kin-küdurəti bunun vasitəsilə onun qəlbindən çıxsın. Əgər ona bir xeyir çatsa, Allah-təalaya həmd-səna et, əgər ona bir müsibət üz versə, onun köməyinə tələs. Əgər onu çətinliyə salsalar, ona kömək ol. Əgər bir nəfər öz mö'min qardaşına "uf" desə, onların arasında olan vilayət kəsilər. Əgər "sən mənim düşmənimsən!" deyərsə, ikisindən biri kafir olar. Əgər mö'min qardaşını müttəhim edərsə, duz suda həll olub aradan getdiyi kimi, iman da onun qəlbindən silinər."*[1]

Müəlla ibni Xüneys deyir ki, Əbu Əbdillah (əleyhis-salam)-dan soruşdum: – Mö'minin mö'min üzərində olan haqqı nədir?

Həzrət buyurdu:

سَبْعُ حُقُوقٍ وٰاجِبٰاتٍ، مٰا فِيهٰا حَقٌّ اِلاّٰ وَهُوَ عَلَيْهِ وٰاجِبٌ، إِنْ خٰالَفَهُ خَرَجَ مِنْ وِلٰايَةِ اللهِ وَتَرَكَ طـٰاعَتَهُ، وَلَمْ يَكُنْ لِلّٰهِ عَزَّ وَجَلَّ فِيهِ نَصِيبٌ

*"Yeddi vacib hüquq vardır ki, onlardan elə biri yoxdur ki, vacib olmasın. Əgər o hüquqla müxalifət edərsə, Allahın vilayət dairəsindən çıxaraq Ona itaəti tərk edər və Allah yanında onun üçün heç bir nəsib olmaz."*

Müəlla deyir ki, soruşdum: – Sənə fəda olum, de görüm bunlar hansılardır?

Buyurdu: – Ey Müəlla, mənim sənə ürəyim yanır və qorxuram ki, onu zay edəsən, hifz etməyəsən; öyrənib əməl etməyəsən.

Dedim: – Allahın köməyi ilə (əməl edərəm) – la qüvvətə illa billah!

Həzrət buyurdu:

أَيْسَرُ حَقٍّ مِنْهٰا أَنْ تُحِبَّ لَهُ مٰا تُحِبَّ لِنَفْسِكَ، وَتَكْرَهَ لَهُ مٰا تَكْرَهُ لِنَفْسِكَ.

وَالْحَقُّ الثّٰانِي: أَنْ تَمْشِيَ فِي حٰاجَتِهِ، وتَبْتَغِيَ رِضٰاهُ، وَلا تُخٰالِفَ قَوْلَهُ.

وَالْحَقُّ الثّٰالِثُ: أَنْ تَصِلَهُ بِنَفْسِكَ وَمٰالِكَ، وَيَدِكَ وَرِجْلِكَ، وَلِسٰانِكَ.

[1] "Biharul-ənvar", 74-cü cild, səh.234

وَالْحَقُّ الرّابِعُ: أَنْ تَكُونَ عَيْنَهُ وَدَلِيلَهُ وَمِرْآتَهُ.

وَالْحَقُّ الْخامِسُ: أَنْ لا تَشْبَعَ وَيَجُوعَ، وَلا تَلْبسَ وَيَعْرَى، وَلا تَرْوَي وَ يَظْمَاَ.

وَالْحَقُّ السّادِسُ: أَنْ تَكُونَ لَكَ امْرَاَةٌ وَخادِمٌ وَلَيْسَ لِأَخِيكَ امْرِاَةٌ وَلا خادِمٌ أَنْ تَبْعَثَ خادِمَكَ فَتَغْسِلَ ثِيابَهُ، وَتَصْنَعَ طَعامَهُ، وَتُمَهِّدَ فِراشَهُ، فَإِنَّ ذٰلِكَ كُلَّهُ اِنَّما جُعِلَ بَيْنَكَ وَبَيْنَهُ.

وَالْحَقُّ السّابِعُ: أَنْ تَبَرَّ قَسَمَهُ، وَتُجِيبَ دَعْوَتَهُ، وَتَشْهَدَ جَنازَتَهُ، وَتَعُودَهُ فِي مَرَضِهِ، وَتشْخَصَ بَدَنَكَ فِي قَضاءِ حاجَتِهِ، وَلا تَحُوجَهُ اِلَيٰ أَنْ يَسْاَلَكَ، وَلٰكِنْ تُبادِرُ اِلَيٰ قَضاءِ حاجَتِهِ، فَاِذا فَعَلْتَ ذٰلِكَ بِهِ، وَصَلْتَ وِلايَتَكَ بِوِلايَتِهِ، وَوِلايَتَهُ بِوِلايَةِ اللهِ عَزَّ وَجَلَّ

*"Onlardan* ***ən kiçiyi*** *budur ki, özün üçün istədiyin şeyləri onun üçün də istəyəsən, özün üçün xoşlamadığın şeyləri onun üçün də rəva görməyəsən.*

***İkinci haqq*** *budur ki, onun hacətini tə'min etmək üçün çalışasan, razılığını əldə edəsən, onun sözünə müxalif çıxmayasan.*

***Üçüncü haqq*** *budur ki, özün, canın, malın, əlin, ayağın və dilinlə ona sileyi-rəhim edəsən.*

***Dördüncü haqq*** *budur ki, sən onun gözü, yol göstərəni və güzgüsü olasan.*

***Beşinci haqq*** *budur ki, o, ac ola-ola sən tox olmayasan, o, çılpaq ola-ola sən libas geyməyəsən və o, susuz olan zaman sən sirab olmayasan.*

***Altıncı haqq*** *budur ki, sənin xanımın və xadimin ola-ola gərək din qardaşın xanımsız və xadimsiz olmasın; əgər belə olarsa, xadimini göndərəsən ki, onun paltarlarını yusun, ona yemək hazırlasın, yorğan-döşəyini (yataq yerini) salsın. Həqiqətən bunların hamısı onunla sənin aranda (vacib bir haqq kimi) qərar verilmişdir.*

***Yeddinci haqq*** *budur ki, onun andını qəbul edəsən, də'vətini icabət edəsən, cənazəsinə hazır olasan, xəstə olan zaman əyadətinə gedəsən (baş çəkəsən), öz bədəninlə onun hacətinin rəva olunmasında ciddi çalışasan, onun səndən bir şey istəməsinə imkan verməyəsən, lakin (o istəməzdən qabaq) hacətini yerinə yetirəsən. Əgər onun qarşısında bu işləri yerinə yetirsən, öz vilayətini onun vilayətinə, onun vilayətini isə Allahın vilayətinə birləşdirmiş olarsan."*[1]



Əmirəl-mö'minin Əliyyibni Əbi Talib (əleyhis-salam) buyurur:

لا يَكُلِّفُ الْمُؤْمِنُ أَخاهُ الطَّلَبَ اِلَيْهِ اِذا عَلِمَ حاجَتَهُ، تَزاوَرُوا، وَتَعاطَفُوا، وَتَبادَلُوا، وَلا تَكُونُوا بِمَنْزِلَةِ الْمُنافِقِ الَّذِي يَصِفُ ما لا يَفْعَلُ

*"Mö'min öz mö'min qardaşının hacətini bildiyi zaman, ondan istəməsi qədər belə, çətinliyə salmamalıdır. Bir-birinizi ziyarət edin, bir-birinizə mehribalnlıq göstərin, mübadilə edin və etmədiyi əməlləri vəsf edən münafiq kimi olmayın!"*[2]

Məhəmməd ibni Müslüm deyir ki, Cəbəl əhlindən bir nəfər mənim yanıma gəldi, birlikdə İmam Cə'fər Sadiq (əleyhis-salam)-ın yanına getdik, vidalaşan zaman Həzrətə ərz etdi: Mənə nəsihət (tövsiyə) et.

Həzrət buyurdu:

أُوصِيكَ بِتَقْوَى اللهِ وَبِرِّ أَخِيكَ الْمُسْلِمِ، وَاَحِبَّ لَهُ ما تُحِبُّ لِنَفْسِكَ، وَاكْرَهْ لَهُ ما تَكْرَهُ لِنَفْسِكَ، وَإِنْ سَأَلَكَ فَأَعْطِهِ، وَإِنْ كَفَّ عَنْكَ فَاعْرِضْ عَلَيْهِ، لا تُمِلَّهُ خَيْرًا فَإِنَّهُ لا يُمِلُّكَ، وَكُنْ لَهُ عَضُداً فَإِنَّهُ لَكَ عَضُدٌ، وَإِنْ وَجَدَ عَلَيْكَ فَلا تُفارِقْهُ حَتّيٰ تَسِلَّ سَخِيمَتُهُ وَإِنْ غابَ فَاحْفَظْهُ فِي غَيْبَتِهِ، وَإِنْ شَهِدَ فَاكْنُفْهُ وَاَعْضِدْهُ وَازِرْهُ وَلاطِفْهُ وَاَكْرِمْهُ، فَإِنَّهُ مِنْكَ وَاَنْتَ مِنْهُ

*"Sənə tövsiyə edirəm ki, Allah qarşısında təqvalı olub müsəlman qardaşına yaxşılıq edəsən, özün üçün sevdiyin şeyləri onun üçün sevəsən, özün üçün xoşlamadığın şeyləri onun üçün də rəva bilməyəsən; əgər səndən bir şey istəsə, əta edəsən, əgər o sənə bir şeyi verməkdən imtina edərsə, sən ona təqdim edəsən, xeyir işlərdə usanmayasan, çünki o sənin xeyir işlərindən usanmır; sən ona kömək ol, çünki o sənin*

[1] "Xisal", 2-ci cild, səh.6
[2] "Xisal", 2-ci cild, səh.157

*köməyindir. Əgər sənə qəzəblənsə, ondan ayrılma, o vaxta qədər ki, sənə qarşı olan kin-küdurəti aradan getsin; əgər qaib olsa, qeybət dövründə onu qoruyub hifz elə, əgər hüzurunda olsa, himayə edib köməklik göstər və ona mehribançılıq, yaxşılıq edib ikram elə, çünki o səndən, sən də ondansan."*[1]

Cabir, Əbu Cə'fər (əleyhis-salam)-ın belə buyurduğunu nəql edir:

لِيُعِنْ قَوِيُّكُمْ ضَعِيفَكُمْ، وَلْيَعْطِفْ غَنِيُّكُمْ عَلَىٰ فَقِيرِكُمْ. وَلْيَنْصَحِ الرَّجُلُ أَخاهُ كَنُصْحِهِ لِنَفْسِهِ، وَاكْتُمُوا أَسْرارَنا. وَلا تُحَمِّلُوا النّاسَ عَلَىٰ أَعْناقِنا

*"Güclüləriniz zəiflərinizə kömək etsin, varlılarınız fəqirlərinizə mehribançılıq göstərsin. İnsan öz yaxşılığını istədiyi kimi, mö'min qardaşının da yaxşılığını istəsin. Bizim sirlərimizi gizlədin və camaatı bizim boynumuza mindirməyin."*[2]

## MÖ'MİNƏ HÖRMƏT BƏSLƏMƏK, SEVMƏK, NƏSİHƏT ETMƏK VƏ ONUNLA MEHRİBAN DAVRANMAQ

Cə'fər ibni Mühəmməd (əleyhis-salam) buyurur:

ما عُبِدَ اللهُ بِشَيْءٍ أَفْضَلَ مِنْ أَداءِ حَقِّ الْمُؤْمِنِ

*"Allah-təalaya, mö'minin haqqını əda etməkdən də fəzilətli bir şeylə ibadət olunmaz."*

Yenə buyurmuşdur:

إِنَّ لِلّهِ تَبارَكَ وَتَعالىٰ حُرُماتٍ: حُرْمَةَ كِتابِ اللهِ، وَحُرْمَةَ رَسُولِ اللهِ وَحُرْمَةَ بَيْتِ الْمَقْدِسِ، وَحُرْمَةَ الْمُؤْمِنِ

[1] "Əmali" (Şeyx Tusi), 1-ci cild, səh.95
[2] "Əmali" (Şeyx Tusi), 1-ci cild, səh. 236



*"Həqiqətən, Allah-təala üçün hörmətlər vardır: Allah Kitabının hörməti, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in hörməti, Beytül-müqəddəsin hörməti və mö'min bəndənin hörməti."*[1]

Əbdül-Mö'min Ənsari deyir ki, Əbul-Həsən Musa (əleyhis-salam)-ın yanına getdim. Məhəmməd ibni Əbdüllah ibni Mühəmməd Co'fi də orada idi. Mən onun üzünə baxıb təbəssüm etdim. Həzrət buyurdu: – Onu sevirsənmi?
Dedim: – Bəli. Mən onu yalnız sizin xatirinizə sevirəm.
Həzrət buyurdu: – O sənin qardaşındır, mö'min mö'minin ata-anadan bir olan qardaşı kimidir.[2]

Ravəndinin "Nəvadir" kitabında sənədlə Musa ibni Cə'fər (əleyhis-salam)-dan, o da ata-babalarından, o da Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən belə nəql etmişdir:

اَلْمُؤْمِنُ مِرْآةٌ لِأَخِيهِ الْمُؤْمِنِ، يَنْصَحُهُ إِذا غابَ عَنْهُ، وَيُمِيطُ عَنْهُ ما يَكْرَهُ إِذا شَهِدَ، وَيُوَسِّعُ لَهُ فِي الْمَجْلِسِ

*"Mö'min öz mö'min qardaşının güzgüsüdür – ondan qaib olan zaman onun xeyrini istəyər, xoşagəlməz şeyləri müşahidə etdiyi zaman onları ondan uzaqlaşdırar və məclisdə ona yer verər."*

Əbu Səid Hüseyn Əhvazinin "Əl-mö'min" kitabında sənədlərlə İmam Cə'fər Sadiq (əleyhis-salam)-dan belə nəql olunur:

لا وَاللهِ لا يَكُونُ الْمُؤْمِنُ مُؤْمِنًا أَبَداً حَتّىٰ يَكُونَ لِأَخِيهِ مِثْلَ الْجَسَدِ، إِذا ضَرَبَ عَلَيْهِ عِرْقٌ واحِدٌ تَداعَتْ لَهُ سائِرُ عُرُوقِهِ

*"Xeyr, Allaha and olsun! Mö'min öz din qardaşı üçün bədən misalında olmayınca, heç vaxt mö'min sayılmaz: Cəsəddə bir damar vuranda, sair damarlar da döyünməyə başlayar."*[3]

[1] "Biharul-ənvar", 74-cü cild, səh.232
[2] "Biharul-ənvar", 74-cü cild, 232
[3] "Biharul-ənvar", 74-cü cild, səh.233

## MÖ’MİNLƏR ARASINDA QARŞILIQLI GÜZƏŞT

İmam Həsən Əskəri (əleyhis-salam)-ın təfsirində buyurulur:

مٰا مِنْ عَبْدٍ وَلاٰ أَمَةٍ وٰالىٰ مُحَمَّداً وَ آلَ مُحَمَّدٍ، وَعٰادىٰ مَنْ عٰادٰاهُمْ اِلاّٰ كٰانَ قَدِ اتَّخَذَ مِنْ عَذٰابَ اللهِ حِصْنًا مَنيعًا وَجَنَّةً حَصينَةً، وَلاٰ مِنْ عَبْدٍ وَلاٰ أَمَةٍ دٰارىٰ عِبٰادَ اللهِ بٰاحْسَنِ الْمُدٰارٰاةِ، وَلَمْ يَدْخُلْ بِهٰا فِي بٰاطِلٍ، وَلَمْ يَخْرُجْ بِهٰا مِنْ حَقٍّ اِلاّٰ جَعَلَ اللهُ نَفَسَهُ تَسْبيحًا وَزَكّىٰ عَمَلَهُ وَاَعْطٰاهُ لِصَبْرِهِ عَلَىٰ كِتْمٰانِ سِرِّنٰا، وَإحْتِمٰالِ الْغَيْظِ لِمٰا يَسْمَعُهُ مِنْ أَعْدٰائِنٰا، ثَوٰابَ الْمُتَشَحِّطِ بِدَمِهِ فِي سَبِيلِ اللهِ تَعٰالىٰ.

وَمٰا مِنْ عَبْدٍ أَخَذَ نَفْسَهُ بِحُقُوق اِخْوٰانِهِ فَوَفّٰاهُمْ حُقُوقَهُمْ جُهْدَهُ، وَاَعْطٰاهُمْ مُمْكِنَهُ وَرَضِيَ مِنْهُمْ بِعَفْوِهِمْ، وَتَرَكَ الْاِسْتِقْصٰاءَ عَلَيْهِ، فَمٰا يَكُونُ مِنْ زَلَلِهِم غَفَرَهٰا لَهُمْ، اِلاّٰ قٰالَ اللهُ عَزَّ وَجَلَّ لَهُ يَوْمَ الْقِيٰامَةِ: يٰا عَبْدِي قَضَيْتَ حُقُوقَ إِخْوٰانِكَ، وَلَمْ تَسْتَقْصِ عَلَيْهِمْ فِيمٰا لَكَ عَلَيْهِم، فَأَنَا أَجْوَدُ وَاَكْرَمُ وَاَوْلىٰ بِمِثْلِ مٰا فَعَلْتَهُ مِنَ الْمُسٰامَحَةِ وَالتَّكَرُّمِ فَأَنَا أَقْضِيكَ الْيَوْمَ عَلَىٰ حَقٍّ وَعَدْتُكَ بِهِ، وَاَزِيدُكَ مِنْ فَضْلِي الْوٰاسِعِ، وَلاٰ اَسْتَقْصِي عَلَيْكَ فِي تَقْصِيرِكَ فِي بَعْضِ حُقُوقِي قٰالَ :فَيُلْحِقُهُ بِمُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَاَصْحٰابِهِ، وَيَجْعَلُونَهُ مِنْ خِيٰارِ شِيعَتِهِمْ

*“Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) və Ali-Mühəmmədi sevən, onların düşmənləri ilə düşmənçilik edən elə bir mö’min və mö’minə bəndə yoxdur ki, ilahi əzab qarşısında özü üçün alınmaz bir qala və möhkəm bir sipər seçməmiş olsun. Allah bəndələri ilə gözəl şəkildə davranan, bu davranış nəticəsində batilə daxil olmayan və onun səbəbilə haqdan xaric olmayan elə bir mö’min və mö’minə bəndə yoxdur ki, Allah-təala onun nəfəsini təsbih qərar verməsin, əməlini paklamasın, bizim sirrimizi gizlətmək müqabilində səbir etməsinə, bizim düşmənlərimizdən eşitdiyi şeylər müqabilində qeyzə gəlməyinə görə Allah yolunda (cihadda) qanına qəltan olan şəhidin savabı kimi bir savab əta etməsin.*

*Öz mö’min qardaşlarının hüququna riayət edən və onların hüququnu əda etməyə çalışan, imkanı olan şeyləri onlara verən, onların əfvindən razı olan və onların hacətinin yerinə yetirilməsində yorulmadan çalışan, onların sapmalarından güzəştə gedən elə bir bəndə yoxdur ki, Allah-təala Qiyamət günü ona belə deməsin: “Ey Mənim bəndəm! Mö’min qardaşlarının hüquqlarını əda etdin, onların sənin üzərində olan haqlarını yerinə yetirməkdə yorulmadan çalışdın. Sənin bu cür işlərin – güzəştə getməyin və onlara hörmət etməyin müqabilində Biz (savab verməyə) daha ehsançı və kərəm sahibiyik. Çünki Biz sənə və’də verdiyimiz şeyləri bu gün yerinə yetirəcəyik. Mən Öz geniş fəzlimdən sənə artıracağam və Mənə aid olan bə’zi hüquqlarda yol verdiyin təqsirlərdə səndən dəqiq hesab almayacağam.” Sonra Allah onu Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) və Ali-Mühəmmədə və onların səhabələrinə mülhəq edərək onların şiələrinin ən yaxşılarının cərgəsində qərar verər.”*[1]



## BİZİM DOSTLARIMIZA ƏZAB-ƏZİYYƏT VERMƏYİN VƏ BƏ’ZİLƏRİNİZ BƏ’ZİLƏRİNİZİ YORMAYIN (DİL YARASI VURMAYIN)

Həsən ibni Əli (əleyhis-salam) buyurmuşdur:

إِنَّ تَقِيَّةً يُصْلِحُ اللهُ بِهٰا اُمَّةً، لِصٰاحِبِهٰا مِثْلُ ثَوٰابِ أَعْمٰالِهِمْ، وَتَرْكِهٰا بِمٰا أَهْلَكَ اُمَّةً، تٰارِكُهٰا كَشَرِيكِ مَنْ أَهْلَكَهُمْ، وَاِنَّ مَعْرِفَةَ حُقُوقِ الْإِخْوٰانِ تُحَبِّبُ اِلَى الرَّحْمٰانِ، وَيُعَظِّمُ الزُّلْفىٰ لَدَى الْمَلِكِ الدَّيّٰانِ، وَاِنَّ تَرْكَ قَضٰائِهٰا يُمْقِتُ الرَّحْمٰانَ، وَ يُصَغِّرُ الرُّتْبَةَ عِنْدَ الْكَرِيمِ الْمَنّٰانِ

*“Həqiqətən, Allah-təalanın bir ümməti islah etdiyi təqiyyə, o təqiyyənin sahibi üçün o əməllərin savabı qədərdir; və bir ümmətin həlak etdiyi təqiyyənin tərk olunması da onu tərk*

---

[1] “Təfsiri imam Həsən Əsgəri (əleyhis-salam)”, səh.16; “Biharul-ənvar”, 74-cü cild, səh.238

*edən şəxsin, Allahın həlak etdiyi şəxslərlə şərik olması deməkdir. (Mö'min) Qardaşlarının hüquqlarını tanımaq insanı Allah dərgahına yaxınlaşdırır, onun Dəyyan və Məlik Allahın dərgahındakı məqamını əzəmətli edir. Onun əda olunmasının tərk edilməsi isə Rəhman Allahı qəzəbləndirir, (insanın) Kərim və Mənnan Allah yanında olan rütbəsini kiçildir."*[1]

Əbdül-Əzim Həsəni (əleyhis-salam)-dan rəvayət olunmuşdur ki, Əbul-Həsən Riza (əleyhis-salam) buyurmuşdur:

يٰا عَبْدَ الْعَظِيمِ أَبْلِغْ عَنِّي أَوْلِيٰائِي السَّلاٰمَ، وَقُلْ لَهُمْ: أَنْ لاٰ تَجْعَلوا لِلشَّيْطٰانِ عَلَىٰ أَنْفُسِهِمْ سَبِيلاً، وَمُرْهُمْ بِالصِّدْقِ فِي الْحَدِيثِ، وَاَدٰاءِ الْأَمٰانَةِ، وَمُرْهُمْ بِالسُّكُوتِ وَتَرْكِ الْجِدٰالِ فِيمٰا لاٰ يَعْنِيهِمْ، وَإِقْبٰالِ بَعْضِهِمْ عَلَىٰ بَعْضٍ، وَالْمُزٰاوَرَةِ فَاِنَّ ذٰلِكَ قُرْبَةٌ اِلَيَّ وَلاٰ يَشْغَلُوا أَنْفُسَهُمْ بِتَمْزِيقِ بَعْضِهِمْ بَعْضًا، فَاِنِّي آلَيْتُ عَلَىٰ نَفْسِي اِنَّهُ مَنْ فَعَلَ ذٰلِكَ وَاَسْخَطَ وَلِيًّا مِنْ أَوْلِيٰائِي دَعَوْتُ اللهَ لِيُعَذِّبَهُ فِي الدُّنْيٰا أَشَدَّ الْعَذٰابِ وَكٰان فِي الْآخِرَةِ مِنَ الْخٰاسِرِينَ. وَعَرِّفْهُمْ أَنَّ اللهَ قَدْ غَفَرَ لِمُحْسِنِهِمْ، وَتَجٰاوَزَ عَنْ مُسِيئِهِمْ اِلاّٰ مَنْ آذٰى وَلِيًّا مِنْ أَوْلِيٰائِي أَوْ أَضْمَرَ لَهُ سُوءً فَإِنَّ اللهَ لاٰ يَغْفِرُ لَهُ حَتّىٰ يَرْجِعَ عَنْهُ، فَإِنْ رَجَعَ عَنْهُ، وَإِلاّٰ نُزِعَ رُوحُ الْإِيمٰانِ عَنْ قَلْبِهِ، وَخَرَجَ عَنْ وِلاٰيَتِي، وَلَمْ يَكُنْ لَهُ نَصِيبٌ فِي وِلاٰيَتِنٰا، وَاَعُوذُ بِاللهِ مِنْ ذٰلِكَ

*"Ey Əbdül-Əzim! Mənim tərəfimdən dostlarıma salam yetir və onlara de ki, şeytan üçün öz nəfslərinə bir yol qərar verməsinlər; onlara danışıqda düz olmalarını, əmanəti əda eləmələrini əmr et, onları (lazım olan yerlərdə) sükut edib faydası olmayan işlərdə yersiz mübahisələri tərk etmələrinə əmr et. Eləcə də, bir-birinizə qarşı gülərüz olun, həmkarlıq edib kömək göstərin. Həqiqətən bu işlər mənə yaxınlaşmaqdır. Bir-birinizi pərakəndə edib dava-dalaş*

[1] "Cameul-əxbar", səh.110 və 111; "Biharul-ənvar", 74-cü cild, səh.230



*salmaqla özünüzü məşğul etməyin. Çünki öz canıma and içmişəm ki, hər kəs bu işlərə baş qoşarsa və mənim dostlarımdan olan bir şəxsi qəzəbləndirərsə, Allah-təalaya dua edim ki, ona dünyada ən şiddətli bir əzab versin, axirətdə isə zərərə uğrayanlardan olsun. Onlara çatdır ki, həqiqətən, Allah-təala onların ehsan sahiblərinin günahını bağışlayar, pis iş görənlərinin günahından keçər. Agah ol! Hər kəs mənim vəlilərimdən və dostlarımdan olan bir kəsi incitsə, yaxud qəlbində ona qarşı pis niyyətli olsa, (bu) işindən (tövbə edib) qayıtmayınca, Allah onu bağışlamaz; əgər ondan qayıtsa (çox yaxşı), əks halda onun iman ruhunu Allah qəlbindən çıxarar, mənim vilayətimdən xaric olar və bizim vilayətimiz barəsində onun heç bir nəsibi olmaz. Bu kimi işlərdən də Allaha pənah aparıram!"*[1]

Surinin "Qəzaul-hüquq" kitabında deyilir ki, Əli (əleyhis-salam) Rəfaət ibni Şəddad Bəcliyə (Əhvazın qazisinə) yazdığı tövsiyələrdə belə buyurur:

دٰارِ الْمُؤْمِنَ مَا اسْتَطَعْتَ فَإِنَّ ظَهْرَهُ حَمَى اللهِ وَنَفْسُهُ كَرِيمَةٌ عَلَى اللهِ، وَلَهُ يَكُونُ ثَوٰابُ اللهِ، وَظٰالِمُهُ خَصْمُ اللهِ، فَلاٰ تَكُنْ خَصْمَهُ

*"Bacardığın qədər mö'minlə müdara edib qarşılıqlı güzəştə get, çünki onun köməyi Allahın himayəsidir, onun nəfsi Allah üçün əzizdir və onun üçün Allahın savabı vardır, ona zülm edən şəxsə Allah düşmən olar. Belə isə, ona düşmən olma!"*

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurmuşdur:

لاٰ يُكَلِّفُ الْمُؤْمِنُ أَخٰاهُ الطَّلَبَ اِلَيْهِ اِذٰا عَلِمَ حٰاجَتَهُ

[1] "Əl-ixtisas", səh. 227; "Biharul-ənvar", 74-cü cild, səh. 230

*“Mö’min şəxs öz mö’min qardaşının ehtiyaclı olduğunu bildiyi zaman, gərək öz ehtiyacını ondan istəməsi ilə əlaqədar çətinliyə salmasın (yə’ni gərək o istəməzdən qabaq mö’min qardaşı onun hacətini rəva etsin).”*[1]

## MÖ’MİN MÖ’MİN İLƏ VAHİD BİR BƏDƏN KİMİDİR

İmam Cə’fər Sadiq (əleyhis-salam) buyurur:

لِكُلٍّ، شَيْءٌ يَسْتَرِيحُ اِلَيْهِ، وَإِنَّ الْمُؤْمِنَ يَسْتَرِيحُ اِلَى أَخِيهِ الْمُؤْمِنِ، كَمٰا يَسْتَرِيحُ الطَّيْرُ اِلَى شكلِهِ

*“Hər şey üçün bir şey vardır ki, onunla asayiş tapır. Quşlar öz növləri ilə asayişdə olduğu kimi, mö’min şəxs də öz mö’min qardaşı ilə asayişdə olur.”*[2]

Əbu Cə’fər Baqir (əleyhis-salam) buyurur:

اَلْمُؤْمِنُونَ فِي تَبٰارِّهِمْ وَتَرٰاحُمِهِمْ وَتَعٰاطُفِهِمْ كَمَثَلِ الْجَسَدِ، اِذٰا اشْتَكى لَهُ عُضْوٌ تَدٰاعى لَهُ سٰائِرُ الْأَعْضٰاءِ بِالسَّهَرِ وَالْحِمَى

*“Mö’minlər qarşılıqlı mehribanlıqda bir-birinə şəfqət etməkdə və mehr-məhəbbətdə vahid bir bədən kimidirlər: onun bir üzvü ağrıyanda (narahat olanda), bədənin sair üzvləri də gecəni səhərə kimi yuxusuzluq və qızdırma ilə o üzvə həmdərd olurlar.”*[3]

Müəlla ibni Xüneys Əbu Əbdillah (əleyhis-salam)-dan belə nəql edir:

[1] “Əl-ixtisas”, səh. 227
[2] “Biharul-ənvar”, 74-cü cild, səh. 234
[3] “Biharul-ənvar”, 74-cü cild, səh. 234



أَحْبِبْ لِأَخِيكَ الْمُسْلِمِ مٰا تُحِبُّ لِنَفْسِكَ، فَاِذَا احْتَجْتَ فَسَلْهُ، وَاِذٰا سَأَلَكَ فَأَعْطِهِ، وَلاٰ تُمِلَّهُ خَيْرًا، وَلاٰ يُمِلُّ لَكَ، كُنْ لَهُ ظَهْرًا، فَإِنَّهُ لَكَ ظَهْرٌ، وَاحْفَظْهُ فِي غَيْبَتِهِ، وَإِنْ شَهِدَ فَزُرْهُ، وَاَجِلَّهُ وَاَكْرِمْهُ فَإِنَّهُ مِنْكَ وَاَنْتَ مِنْهُ، وَاِنْ كٰانَ عَلَيْكَ عٰاتِبًا فَلاٰ تُفٰارِقْهُ، حَتّى تَسِلَّ سَخِيمَتُهُ، وَإِنْ أَصٰابَهُ خَيْرٌ فَأَحْمَدِ اللّهَ عَزَّ وَجَلَّ، وَإِنِ ابْتَلَى فَأَعْطِهِ وَتَحَمَّلْ عَنْهُ وَأَعِنْهُ

*“Özün üçün sevdiyin şeyləri müsəlman qardaşın üçün də sev. Əgər ehtiyacın olsa, ondan istə; o, səndən bir şey istədikdə ona ata elə və xeyir işlərdə onun üçün usanma (bezmə), çünki o sənin yolunda bezmir, onun üçün arxa və kömək ol, çünki o sənin üçün arxa və köməkdir. Vətənində olmadığı zaman onu (abır-heysiyyətini) qoru və hifz elə, vətəndə olduğu zaman onun ziyarətinə get. Onu əzizləyib ikram elə, çünki o səndəndir, sən də ondansan. Əgər o sənə qəzəblənsə, ondan küsüb ayrılma, ta ki, onun qəlbindəki kin-küdurət aradan getsin. Əgər ona bir xeyir çatsa, Allah-təalaya həmd-səna et; əgər bir çətinliyə düşsə, onun çətinliyini həll et, çətinliklərinə döz və ona kömək elə.”*[1]

## BÜTÜN MÜSƏLMANLARLA QARŞILIQLI SİLEYİ-RƏHİM ETMƏK, ONLARLA QAYNAYIB-QARIŞMAQ VƏ EHSAN, YAXŞILIQ ETMƏK

Əhli-beyt (əleyhimus-salam) bu mühüm məsələyə çox ciddiyyətlə fikir vermişlər. Onlar öz şiələri üçün razı olmamışlar ki, özlərini böyük İslam ümmətindən kənara çəksinlər. Çünki onlar bu ümmətin ayrılmaz bir qoludur, üsuli-dində və fürui-dində, eləcə də Əhli-beytin vilayətini qəbul edib-etməməklə əlaqədar ixtilaflar onların sair müsəlmanlardan ayrılıb kənara çəkilməsinə səbəb olmamalıdır. Çünki bu ümmət

[1] Yenə orada.

bütün məzhəb və əqidələri ilə belə vahid bir ümmətdir: ***"İnnə hazihi ummətukum ummətun vahidəh və ənə Rəbbukum fə'budun*** *– yə'ni, həqiqətən, sizin bu ümmətiniz vahid bir ümmətdir, Mən də sizin Rəbbinizəm. Belə isə, yalnız Mənə ibadət edin."* Bu günkü müsəlman ümməti yer üzündə böyük bir qüvvə hesab olunur və böyük təhdidlərlə qarşılaşır. Vahid bir ümmət olmayıb bir yerə yığışmayınca və vahid cərgələrdə birləşməyincə, bu təhdidlərlə qarşılaşmamaq qeyri-mümkündür.

Əhli-beyt imamları (əleyhimus-salam) sair firqə və məzhəb ardıcılları ilə birlikdə yaşamış, onların içərisində qaynayıb-qarışmış, müsəlmanların hamısı – bütün məzhəb və əqidələri ilə belə – onların ətrafına toplaşmışlar, onların məclislərində iştirak etmiş, elmlərindən faydalanmışlar. İmam Baqir və İmam Cə'fər Sadiq (əleyhiməs-salam)-ın elm məclislərində (dərslərində) iştirak edən elm əhlini saymaq istəsək, onların böyük bir dəstə olduğunu görərik. İmamların elmi məclisləri və yığıncaqlarının bütün ölkə və məntəqələrdən olan müsəlmanların fəqihləri, Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-in hədisini nəql edənlər və elm əhli ilə dolu olduğunu görərik. Bu vəziyyətləri Əhli-beyt (əleyhimus-salam) imamlarının hədisini tanıyanlar, onun sirələri (əməl və davranışları) ilə tanış olanlar daha yaxşı bilirlər. Bu da bütün İslami əqidə və məzhəblər arasında sağlam və müsbət yönlü məzhəbi qaynayıb-qarışmaların olduğunu – həm də tam açıq bir fəzada olduğunu – göstərir. Əhli-beyt (əleyhimus-salam) öz şiələrinə və ümumiyyətlə bütün müsəlman qruplarına üsuli-din və fürui-din məsələlərində düzgün ideoloqi istiqamət verdikləri və yollarını aydınlaşdırdığı bir zamanda bu məsələni aşkar şəkildə və dəqiq bəyanla buyurmuşlar.

Əhli-beyt (əleyhimus-salam) hədislərində müsəlmanlarla gülərüzlə davranmaq, onlarla müsbət yönlü qaynayıb-qarışmaq, bir-biri ilə sileyi-rəhim etmək, bir-birinə mehribançılıq



göstərmək, qarşılıqlı köməklə əlaqədar aşkar də'vətlər mövcuddur. Bununla əlaqədar Əhli-beyt (əleyhimus-salam) hədislərindən bə'zilərini nümunə olaraq aşağıda qeyd edirik:

Məhəmməd ibni Yə'qub Kuleyni "Kafi" kitabında səhih sənədlə Əbu Üsamə Zeyd Şəhhamdan nəql edir ki, Əbu Əbdillah (əleyhis-salam) buyurdu:

اِقْرَأْ عَلَى مَنْ تَرَى أَنَّهُ يُطِيعُنِي مِنْهُمْ، وَيَاْخُذُ بِقَوْلِي السَّلاٰمَ، أُوصِيكُمْ بِتَقْوى اللهِ عَزَّ وَجَلَّ وَالْوَرَعِ فِي دِينِكُمْ وَالاِجْتِهٰادِ لِلّهِ وَصِدْقِ الْحَدِيثِ وَاَدٰاءِ الْأَمٰانَةِ وَطُولِ السُّجُودِ، وَحُسْنِ الْجِوٰارِ، فَبِهٰذٰا جٰاءَ مُحَمَّدٌ، وَاَدُّوا الْأَمٰانَةَ اِلَى مَنِ ائْتَمَنَكُمْ عَلَيْهٰا بِرًّا أَوْ فٰاجِرًا، وَأَنَّ رَسُولَ اللهِ كٰانَ يَاْمُرُ بِاَدٰاءِ الْخَيْطِ وَالْمَخِيطِ. صِلُوا عَشٰائِرَكُمْ وَاشْهَدُوا جَنٰائِزَهُمْ وَعُودُوا مَرْضٰاهُمْ، وَاَدُّوا حُقُوقَهُمْ، فَإِنَّ الرَّجُلَ مِنْكُمْ اِذٰا وَرَعَ فِي دِينِهِ، وَصَدَقَ الْحَدِيثَ وَاَدَّى الْأَمٰانَةَ، وَحَسَّنَ خُلُقَهُ مَعَ النّٰاسِ قِيلَ: هٰذٰا جَعْفَرِيٌّ، فَيَسُرُّنِي ذٰلِكَ وَيَدْخُلُ عَلَيَّ مِنْهُ السُّرُورُ، وَقِيلَ هٰذٰا أَدَبُ جَعْفَرٍ، وَاِذٰا كٰانَ عَلَى غَيْرِ ذٰلِكَ دَخَلَ عَلَيَّ بَلاٰؤُهُ وَعٰارُهُ، وَقِيلَ هٰذٰا أَدَبُ جَعْفَرٍ، وَاللهِ لَحَدَّثَنِي أَبِي أَنَّ الرَّجُلَ كٰانَ يَكُونُ فِي الْقَبِيلَةِ مِنْ شِيعَةِ عَلِيٍّ فَيَكُونُ زَيْنَهٰا، أَدّٰاهُمْ لِلْأَمٰانَةِ وَاَقْضٰاهُمْ لِلْحُقُوقِ وَاَصْدَقَهُمْ لِلْحَدِيثِ، وَاِلَيْهِ وَصٰايٰاهُمْ وَوَدٰائِعُهُمْ، تَسْأَلُ الْعَشِيرَةُ عَنْهُ فَتَقُولُ: مَنْ مِثْلُ فُلاٰنٌ أَنَّهُ اَدّٰانٰا لِلْأَمٰانَةِ وَأَصْدَقَنٰا لِلْحَدِيثِ

*"Mənə itaət edən və sözlərimi əxz (əməl) edənlərə mənim tərəfimdən salam de. (Bunu da de ki, ) sizə Allah qarşısında təqvalı, dininizdə vərə sahibi olmağı və Allah xatirinə sə'y göstərməyə tövsiyə edirəm. Həmçinin, danışıqda düzgün olmağı, əmanəti sahibinə qaytarmağı, uzun səcdələr etməyi, qonşularla yaxşı davranmağı tövsiyə edirəm. Həzrət Mühəmməd (səlləllahu ələyhi və alihi və səlləm) yalnız bu işlər üçün məb'us olunmuşdur (yaxud bu işləri ümmətə gətirmişdir). Həmçinin, əmanəti – sahibinin əməlisaleh, yaxud günahkar olmasından asılı olmayaraq – sizə tapşıran şəxsə qaytarın. Həqiqətən Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm), hətta, iynə-sapı da sahibinə qaytarmağı əmr edərdi.*

*Qohum-əqrəbanızla sileyi-rəhim edin, onların cənazələrinin dəfn mərasimində iştirak edin, xəstələrinin əyadətinə (görüşünə) gedin, hüquqlarını ödəyin. Çünki sizdən bir nəfər dinində vərə'li, danışığında düzgün olsa, əmanəti sahibinə qaytarsa və camaatla gözəl davransa, onda deyərlər ki, bu, Cə'fəridir (yə'ni Cə'fəri məzhəbindəndir), bu da məni sevindirər, bu işlə mənim qəlbimə sevinc daxil olar və deyilər ki, bu, Cə'fərin ədəbidir. Amma bundan başqa yolla gedərsə, onun bəlası və arı mənə daxil olar və deyilər ki, "bu, Cə'fərin ədəbidir!" Allaha and olsun! Atam mənə hədisdə belə buyurmuşdur: Qəbilələrdən birində Əli (əleyhis-salam)-ın şiəsi yaşayırdı və o, qəbilənin seçilmiş və gözəl şəxsiyyəti idi: əmanəti sahibinə qaytarır, onların hüquqlarını əda edir və danışanda düz danışırdı, onlar da öz əmanət və vəsiyyətlərini həmin şəxsə tapşırırdılar. Qohum-əqrəbalarından onun barəsində soruşulduqda deyirdilər ki, belə şəxsin oxşarı harda ola bilər ki, bizim əmanətlərimizi qaytarır, danışanda düzgün danışır!"*[1]

Həmçinin səhih sənədlə Müaviyə ibni Vəhbdən nəql edir ki, mən Əbu Əbdillah (əleyhis-salam)-a ərz etdim: – Özümüzlə qövmümüz arasında, eləcə də özümüzlə qaynayıb qarışdığımız camaat arasında necə rəftar etməyimiz daha layiqlidir?

Həzrət buyurdu:

**تُؤَدُّونَ الْأَمٰانَةَ اِلَيْهِمْ وَتُقِيمُونَ الشَّهٰادَةَ لَهُمْ وعَلَيْهِمْ، وَتَعُودُونَ مَرْضٰاهُمْ، وَتَشْهَدُونَ جَنٰائِزَهُمْ**

*"Onların əmanətlərini özlərinə qaytarın, onların əleyhinə və ya lehinə (olmasından asılı olmayaraq) şəhadətlərini icra*

---

[1] "Vəsailuş-şiə", 8-ci cild, səh. 398; Kitabul-həcc, Adabi əhkamul-əşrəti, 1-ci bab, 1-ci hədis



*edin, xəstələrinin baş çəkməyə gedin və cənazələrinin dəfn mərasimlərində iştirak edin."*[1]

Yenə də səhih sənədlə Müaviyə ibni Vəhb deyir ki, İmam Cə'fər Sadiq (əleyhis-salam)- a ərz etdim: – Bizim öz qövmümüz arasında, eləcə də bizim əmrimizdə (məzhəbimizdə) olmayan camaatla qaynayıb-qarışdığımız halda, necə rəftar etməyimiz yaxşı olardı?

Həzrət buyurdu:

**تَنْظُرُونَ اِلَى أَئِمَّتِكُمُ الَّذِينَ تَقْتَدُونَ بِهِمْ فَتَصْنَعُونَ مٰا يَصْنَعُونَ فَوَاللهِ اِنَّهُمْ لَيَعُودُونَ مَرْضٰاهُمْ، وَيَشْهَدُونَ جَنٰائِزَهُمْ، وَيُقِيمُونَ الشَّهٰادَةَ لَهُمْ وَعَلَيْهِم وَيُؤَدُّونَ الْأَمٰانَةَ لَهُمْ**

*"Öz imamlarınıza baxın; o imamlar ki, onlara iqtida etmisiniz. Onlar necə əməl edirsə, siz də elə əməl edin. Allaha and olsun! Onlar (imamlar) siz dediyiniz şəxslərin xəstələrinin görüşünə gedir, cənazələrinin dəfn mərasimində iştirak edir, onların əleyhinə və ya lehinə (olmasından asılı olmayaraq) şəhadət verir və əmanətlərini sahibinə qaytarırlar."*[2]

Mərhum Kuleyni başqa bir rəvayətdə səhih sənədlə Həbib Hənəfidən belə nəql edir ki, Əbu Əbdillah (əleyhis-salam)-ın belə buyurduğunu eşitdim:

**عَلَيْكُمْ بِالْوَرَعِ وَالْاِجْتِهٰادِ وَاشْهَدُوا الْجَنٰائِزَ وَعُودُوا الْمَرْضٰي، وَاحْضُرُوا مَعَ قَوْمِكُمْ مَسٰاجِدَهُمْ، وَأَحِبُّوا لِلنّٰاسِ مٰا تُحِبُّونَ لِأَنْفُسِكُمْ، أَمٰا يَسْتَحْيِ الرَّجُلُ مِنْكُمْ أَنْ يَعْرِفَ جٰارُهُ حَقَّهُ وَلا يَعْرِفَ حَقَّ جٰارِهِ**

---

[1] "Vəsailuş-şiə", 8-ci cild, səh. 398; Kitabul-həcc, Adabi əhkamul-əşrəti, 1-ci bab, 2-ci hədis

[2] "Vəsailuş-şiə", 8-ci cild, səh. 399; Kitabul-həcc, Adabi əhkamil-işrəti, 1-ci bab, 3-cü hədis

*"Hökmən vərə' və ictihad sahibi olun, cənazənin dəfn mərasimində hazır olun, xəstələrə baş çəkməyə gedin, öz qövmünüzlə birlikdə onların məscidlərində iştirak edin, özünüz üçün sevdiyiniz şeyləri camaat üçün də sevin. Sizdən olan bir şəxs həya etməzmi ki, qonşusu onun haqqını bilib əda etsin, amma o, öz qonşusunun haqqını əda etməsin?!"*[1]

Səhih sənədlə Müzahimdən nəql olunur ki, Əbu Əbdillah (əleyhis-salam) buyurdu:

**عَلَيْكُمْ بالصَّلاٰةِ فِي الْمَساٰجِدِ، وَحُسْنِ الْجِواٰرِ لِلنّاٰسِ، وَإِقاٰمَةِ الشَّهاٰدَةِ، وَحُضُورِ الْجَناٰئِزِ، اِنَّهُ لاٰبُدَّ لَكُمْ مِنَ النّاٰسِ، اِنَّ أَحَداً لاٰ يَسْتَغْنِي عَنِ النّاٰسِ فِي حَياٰتِهِ، وَالنّاٰسَ لاٰبُدَّ لِبَعْضِهِمْ مِنْ بَعْضٍ**

*"Hökmən namazı məscidlərdə qılın, camaatla yaxşı qonşuluq edin, şəhadətin icrasına çalışın, cənazələrin dəfn mərasimində hazır olun. Çünki siz hökmən camaatla bir yerdə olmağa məcbursunuz. Heç bir şəxs öz həyatında camaatdan ehtiyacsız deyildir, camaat da hökmən bir-birinə ehtiyaclıdır."*[2]

## MÖ'TƏDİLLİK, ORTA MÖVQEDƏ OLMAQ VƏ MÜVAZİNƏT (TARAZLIQ)

Əhli-beyt (əleyhimus-salam) şiələrinin xüsusiyyətlərindən biri də bütün işlərdə mö'tədillik, ifrat və təfrit arasında orta mövqedə olub əql qüvvəsini işə salmaq, dərk etməkdə müvazinət həddini qoruyub-saxlamaqdır. Hədislərdə ifrat və təfritdən uzaq olmağa, həmçinin, insani duyğulara malik olmağa, mö'min qardaşlar qarşısında tə'sirlənməyə tövsiyə edilmişdir.

[1] Yenə orada, 4-cü hədis
[2] Yenə orada, 5-ci hədis



Ömər ibni Səid ibni Hilal deyir ki, bir dəstə adamla Əbu Cə'fər (əleyhis-salam)-ın yanına daxil olduq, Həzrət buyurdu:

**كُونُوا الْمُرْقَةَ الْوُسْطَيٰ، يَرْجِعُ اِلَيْكُمُ الْغاٰلِي وَيَلْحَقُ بِكُمُ التّاٰلِي، وَاعْلَمُوا ياٰ شِيعَةَ آلِ مُحَمَّدٍ ماٰ بَيْنَناٰ وَبَيْنَ اللهِ قَراٰبَةٌ، وَلاٰ لَناٰ عَلَى اللهِ حُجَّةٌ، وَلاٰ يُقَرَّبُ اِلَى اللهِ اِلاّٰ بالطّـاٰعَةِ. وَمَنْ كاٰنَ مُطِيعًا نَفَعَتْهُ وِلاٰيَتُناٰ، وَمَنْ كاٰنَ عاٰصِيًا لَمْ تَنْفَعْهُ وِلاٰيَتُناٰ. قاٰلَ: ثُمَّ الْتَفَتَ اِلَيَّ وَقاٰلَ: لاٰ تَغْتَرُّوا وَلاٰ تَفْتَرِقُوا**

*"Orta (mö'tədil) dəstə olun ki, qülüvv edənlər (həddini aşanlar) sizə doğru qayıtsın, arxadan gələnlər isə sizə qoşulsun. Ey Ali-Mühəmməd şiələri! Bilin ki, bizimlə Allah arasında heç bir qohumluq yoxdur. Bizim də Allah üzərində heç bir höccətimiz yoxdur. Allah dərgahına yalnız itaətlə yaxınlaşmaq olar. Hər kəs Allaha müti olarsa, bizim vilayətimizin ona xeyri olacaq; hər kəs Allaha asi olarsa, bizim vilayətimizin ona heç bir faydası olmayacaqdır."*

Sonra mənə baxıb buyurdu: *"(Dünyaya) aldanmayın (qafil olmayın) və öz aranızda təfriqə salmayın."*[1]

## ASAYIŞ VƏ SİYASİ İNZİBATÇILIQ

Əhli-beyt (əleyhimus-salam) şiələri əməvilərin və abbasilərin əsrində çox ağır siyasi və təhlükəli bir şəraitdə yaşamışlar. Bu çətin şəraitlər onlardan siyasi baxımdan son dərəcə inzibatlı olmağı tələb edirdi. Əhli-beyt (əleyhimus-salam) imamları da öz şiələrinə əmr edirdilər ki, asayiş və təhlükəsizliklə bağlı məsələlərə ciddi fikir versinlər. Əgər bu tə'limatlar olmasaydı və Əhli-beyt (əleyhimus-salam) ardıcılları bu tə'limlərə ciddi əməl etməsəydilər, əməvi və abbasi sultanları Əhli-beyt

[1] "Biharul-ənvar" 68-ci cild, səh. 178, "Mişkatul-ənvar"dan nəqlən, səh. 60

(əleyhimus-salam) ardıcıllarını və onların ideologiyalarını tamamilə məhv edib aradan aparacaqdılar. Belə olan halda da bu məktəb özünün dərin təşri, ideoloqi və mədəni məsələlərini indiyə qədər qoruyub saxlaya bilməzdi. Təqiyyə də bu qayda-qanunların ən mühümlərindən biri idi. Necə ki, sirrin hifz olunub gizlədilməsi, əbəs və təkrar danışıqlardan çəkinilməsi, sükut edilməsi və özünü qəflətə və bilməməzliyə vurmaq bu tə’limlərin ən mühüm əsaslarından olmuşdur.

Əhli-beyt (əleyhimus-salam) məktəbinin və şiələrin aldığı ən çox xəsarətlər bu kimi tə’limlərə diqqət etməyən şəxslər və dəstələr tərəfindən olmuşdur.

Burada Əhli-beyt (əleyhimus-salam) imamlarının öz şiələrinə asayiş və siyasi inzibatla əlaqədar verdiyi tə’limlərdən bə’zi nümunələri qeyd edirik.

Əbu Əbdillah (əleyhis-salam) buyurmuşdur:

**اِمْتَحِنُوا شِيعَتَنٰا عِنْدَ مَوٰاقِيتِ الصَّلاٰةِ كَيْفَ مُحٰافَظَتُهُمْ عَلَيْهٰا؟ وَاِلى أَسْرٰارِنٰا كَيْفَ حِفْظُهُمْ لَهٰا عِنْدَ عَدُوِّنٰا؟**

*“Bizim şiələrimizi (şiəlikdə doğru olmalarını) namaz vaxtlarında yoxlayın (imtahan edin) namaza necə əhəmiyyət verirlər? Və bizim sirlərimizlə əlaqədar imtahan edin, görün düşmənlərimizin yanında onu necə qoruyub hifz edirlər?!”*[1]

Süleyman ibni Mehran deyir ki, İmam Cə’fər Sadiq (əleyhis-salam)-ın yanına daxil oldum, şiələrdən bir dəstə adam da orada idi. Həzrət buyururdu:

**كُونُوا لَنٰا زَيْنًا وَلاٰ تَكُونُوا عَلَيْنٰا شَيْنًا مَعٰاشِرَ الشِّيعَةِ اِحْفَظُوا اَلْسِنَتَكُمْ وَكَفُّوهٰا عَنِ الْفُضُولِ**

[1] “Biharul-ənvar”, 68-ci cild, səh. 149



*“Bizim üçün zinət olun, bizim əleyhimizə ar və rüsvayçılıq səbəbi olmayın! Ey şiələr! Dillərinizi qoruyub-saxlayın və onu artıq sözlər (lazım olmayan yerlərdə) danışmaqdan saxlayın.”*[1]

İmam Cə’fər Sadiq (əleyhis-salam) buyurur:

**وَدَدْتُ لَوْ اَفْتَدِي خِصْلَتَيْنِ فِي شِيعَتِنٰا بِلَحْمِ يَدِي اَلنَّزْقُ وَقِلَّةُ الْكِتْمٰانِ**

*“Çox istərdim ki, şiələrimizdə olan iki xislətə görə, hətta, qolumun ətini belə verəm: Tez hissiyyata qapılıb özündən çıxmaq və sirri çox az örtmək.”*

İmam Cə’fər Sadiq (əleyhis-salam) buyurur:

**قَوْمٌ يَزْعُمُونَ أَنِّي اِمٰامُهُمْ. وَاللهِ مٰا اَنَا لَهُمْ بِإِمٰامٍ. كُلَّمٰا سَتَرْتُ سِتْرًا هَتَكُوهُ. أَقُولُ كَذٰا وَكَذٰا فَيَقُولُونَ اِنَّمٰا يَعْنِي كَذٰا وَكَذٰا**

*“Bir qövm güman edir ki, mən onların imamıyam. Allaha and olsun ki, mən onların imamı deyiləm! (Çünki) onlar üçün bir şeyi nə qədər örtdümsə, onlar üstünü açdılar. Mən “bu iş filan cürdür” - deyirəm, onlar isə deyir ki, imam filan şeyi nəzərdə tuturdu.”*[2]

İmam Baqir (əleyhis-salam) Meysərə buyurur: – Ey Meysər, şiələrimizin kim olduğunu sənə deyimmi?!

Dedim: – Əlbəttə ki, sənə fəda olum!

Həzrət buyurdu:

**اِنَّهُمْ حُصُونٌ حَصِينَةٌ، وَحُدُودٌ أَمِينَةٌ، وَاَحْلاٰمٌ رَزِينَةٌ، لَيْسُوا بِالْمَذٰايِيعِ الْبَذِرِ، وَلاٰ بِالْجفٰاةِ الْمَرٰائِينِ رُهْبٰانٌ بِاللَّيْلِ اُسُودٌ بِالنَّهٰارِ**

*“Onlar möhkəm və alınmaz qalalar, əmin-amanlıq sərhədləri, dəyərli, helmli insanlardır; onlar sirləri faş*

[1] Yenə orada, səh. 151

[2] “Biharul-ənvar”, 2-ci cild, səh. 80

*etməyən, çox danışmayanlardır; onlar zülm rəva görməyən, yersiz mübahisə etməyənlərdir; gecələrin zahidləri, gündüzlərin şirləridir."*[1]
İmam Cə'fər Sadiq (əleyhis-salam) buyurur:

اِتَّقُوا اللهَ وَصُونُوا دِينَكُمْ بِالتَّقِيَّةِ

*"Allah qarşısında təqvalı olun və təqiyyə vasitəsilə öz dininizi qoruyub-saxlayın!"*[2]
Yenə buyurur:

وَاللهِ مٰا عُبِدَ اللهُ بِشَيْءٍ أَحَبَّ اِلَى اللهِ مِنَ الْخَبْاِ. قُلْتُ وَمَا الْخَبْاُ ؟ قٰالَ: اَلتَّقِيَّةُ

*"Allaha and olsun ki, Allah-təalaya "xəb'"dən daha sevimli şeylə ibadət olunmayıb!"*
Soruşdum ki, xəb' nədir?
Həzrət buyurdu: – *Təqiyyə."*[3]
İmam Zeynul-abidin (əleyhis-salam) buyurur:

وَدَدْتُ وَاللهِ أَنِّي افْتَدَيْتُ خِصْلَتَيْنِ فِي الشِّيعَةِ لَنٰا بِبَعْضِ لَحْم سٰاعِدِي: اَلنَّزقُ وَقِلَّةُ الْكِتْمٰانِ

*"Allaha and olsun! Mən çox istərdim ki, şiələrmizdə olan iki xislət əvəzində qolumun ətini verəm: Tez özündən çıxmaq və sirri az saxlamaq."*[4]
İmam Cə'fər Sadiq (əleyhis-salam) buyurur:

اُمِرَ النّٰاُس بِخِصْلَتَيْنِ فَضَيَّعُوهُمٰا، فَصٰارُوا مِنْهُمٰا عَلَى غَيْرِ سيء: اَلصَّبْرُ وَالْكِتْمٰانُ

---

[1] "Biharul-ənvar", 68-ci cild, səh. 180
[2] "Əmali" (Şeyx Mufid), s.59
[3] "Üsuli Kafi", 2-ci cild, səh. 218
[4] "Kafi", 2-ci cild, səh. 221; "Biharul-ənvar" 75-ci cild, səh. 72; "Xisal" (Səduq), səh. 44. "Ən-nəzəq" yüngüllük, tez tə`sirlənmək, tələsmək, bir şeyi tələb edən zaman tez tə`sirlənmək mə`nasınadır.



*"İnsanlara iki xislət əmr olunmuş, amma onu zay etmişlər: səbir və sirri örtmək."*[1]
Süleyman, Xaliddən nəql edir ki, Əbu Əbdillah (əleyhis-salam) buyurdu:

يٰا سُلَيْمٰانُ اِنَّكُمْ عَلَى دِينِ مَنْ كَتَمَهُ أَعَزَّهُ اللهُ وَمَنْ اَذٰاعَهُ أَذَلَّهُ اللهَ

*"Ey Süleyman, siz elə bir dindəsiniz ki, hər kəs onun sirlərini faş etməsə (gizlədib saxlasa), Allah onu əziz edər və hər kəs də onu yaysa və aşkar etsə, Allah onu zəlil edər."*[2]
İmam Baqir (əleyhis-salam) buyurur:

وَاللهِ اِنَّ أَحَبَّ أَصْحٰابِي اِلَيَّ أَوْدَعُهُمْ، وَاَفْقَهُهُمْ، وَاَكْتَمُهُمْ لِحَدِيثِنٰا

*"Allaha and olsun ki, mənim nəzərimdə ən sevimli səhabə – ən çox əmanətdar, ən çox fəqih və hədisimizi ən çox gizlədən şəxslərdir."*[3]
İmam Cə'fər Sadiq (əleyhis-salam) buyurur:

حَسْبُكُمْ أَنْ تَقُولُوا مٰا قُلْنٰا وَتَصْمتُوا عَمّٰا صَمتْنٰا

*"Sizin üçün (bu miqdar) kifayət edər ki, bizim dediyimizi deyəsiniz, susduğumuz şeylər barəsində sakit qalasınız."*
Yenə buyurur:

مٰا قَتَلَنٰا مَنْ اَذٰاعَ حَدِيثَنٰا قَتْلَ خَطَـــإٍ وَلــٰـكِنْ قَتَلَنٰا قَتْلَ عَمْدٍ

*"Bizim hədisimizi (sirrimizi) aşkar edənlər bizi xəta üzündən qətlə yetirməmişlər; onlar bizi qəsdən qətlə yetirmişlər."*[4]
Bu, çox qəribə bir tə'bir olub, insanı heyrətə gətirir.

---

[1] "Kafi", 2-ci cild, səh. 222
[2] "Kafi", 2-ci cild, səh. 226
[3] "Biharul-ənvar", 75-ci cild, səh. 76
[4] "Biharul-ənvar", 2-ci cild, səh. 74

Bəni-Abbasın zülmləri və qətl-qarətlərinin baş verdiyi dövrlərdə Əhli-beyt (əleyhimus-salam) ardıcıllarının sirlərini İslam aləmində yayan insanlar Əhli-beyt (əleyhimus-salam) şiələrini qəsdən tutub hakim dairələrə təqdim edən şəxslər kimidirlər.
Bu da təbii olaraq sui-niyyət üzündən olmamışdır; çünki onlar Əhli-beyt (əleyhimus-salam)-dan eşitdikləri hədisləri camaata çatdırmaq məqsədi güdmüş, müsəlmanların onlara qarşı hüsnü-niyyətdə və Əhli-beyt (əleyhimus-salam) məktəbinə meylli olduğunu güman etmiş və bu ideologiyanın yayılmasını istəmişlər. Bütün bunlar da mehr-məhəbbət və mərhəmət üzündən olmuşdur, lakin Əhli-beyt (əleyhimus-salam) şiələrinin yığıncaqlarında olan xəbərlərin onların əsas mərkəzlərindən məs’uliyyətsiz şəkildə yayılması dövlət mə’murlarının bu kiçik yığıncaqlara hücum etmələrinə və onları dağıtmasına səbəb olmuşdur. Əhli-beyt (əleyhimus-salam) da özlərinin bu sirlərinin gizlədilməsinə və artıq sözlər danışmağın qarşısının alınmasına dəfələrlə tə’kid etmələrinə baxmayaraq, öz səhabə və şiələri barəsində (bu sirlərin faş edilməsi və həqiqətin, az gizlədilməsi barəsində) daha çox şəkdə olmuşlar.

# DÖRDÜNCÜ FƏSİL

## ƏHLİ-BEYT (əleyhimus-salam)-IN VİLAYƏTİ VƏ ONLARA TABEÇİLİK VƏ MƏNSUB ELİDLMƏ İLƏ ƏLAQƏDAR BƏ’Zİ MƏQAMLAR

Tezliklə Allahın köməyi ilə Əhli-beytin vilayəti və onlara tabeçilik və mənsub edilmə ilə əlaqədar kəlmələrdən bir qrupunu araşdıracaq, bu kəlmələri Əhli-beyt (əleyhimus-salam)-ın ziyarətindən ələ gətirəcəyik. Çünki onlardan rəvayət olunan ziyarətlərin mətni “vilayət” və “bəraət”lə dolu olan mə’nalardan ibarətdir. Ziyarətlərin mətnlərinə dərindən diqqət yetirməklə vilayət və bəraət barəsində mükəmməl bir nəzəriyyə əldə edə bilərik. Hal-hazırda isə bu məqsədi izləmirik, bu məqalədə də vilayət və bəraət barəsində təfsilatı ilə araşdırma aparmağa və onlar barəsində nəzəriyyə irəli sürməyə macal yoxdur. Lakin sonradan Əhli-beyt (əleyhimus-salam) hədislərindən ibarət olan mətnlərin arasında vilayət rə bəraət kəlmələrinə işarə edəcəyik.

## VİLAYƏTİN MƏ’NA VƏ MƏFHUMU

Bu, vilayəti təşkil edən ünsürlərin birincisidir və onun barəsində mə’rifət əldə etməyin miqdarında vilayətin qiyməti tə’yin olunur. İnsan vilayətin mə’na və məfhumunu nə qədər yaxşı öyrənsə, vilayətdə bir o qədər güclü olar.
“Camiə” ziyarətində belə oxuyuruq:

أُشْهِدُ اللَّهَ وَ اُشْهِدُكُمْ أَنِّي مُؤْمِنٌ بِكُمْ وَبِما آمَنْتُمْ بِهِ، كافِرٌ بِعَدُوِّكُمْ وَبِما كَفَرْتُمْ بِهِ، مُسْتَبْصِرٌ بِشَأنِكُمْ وَبِضَلالَةِ مَنْ خالَفَكُمْ، ... مُؤْمِنٌ بِسِرِّكُمْ وَعَلانِيَتِكُمْ وَشاهِدِكُمْ وَغائِبِكُمْ

*“Allahı və sizi şahid tuturam ki, mən sizin özünüzə və iman gətirdiyiniz şeylərə iman gətirmişəm, düşmənlərinizə və kafir (uzaq) olduğunuz şeylərə də kafirəm; sizin şə’n və məqamınıza, sizinlə müxalifət edənlərin zəlalət və azğınçılıqda olmasına bəsirətliyəm... sizin sirrinizə və aşkarınıza, şahidinizə və qaibinizə iman gətirmişəm.”*

Biz də Allahı və onları şahid tuturuq ki, bu mə’rifətə kamil e’timadımız və imanımız vardır, bu barədə bizə şəkk-şübhə varid ola bilməz.

Bu ziyarətin bu hissəsində vilayət iki yöndən təşkil olunmuşdur:

**İsbat yönü:**

*“Sizə və sizin iman gətirdiklərinizə imanlıyam.”*

**İnkar yönü:** Bu da bəraət və bezarlıqdan ibarətdir:

*“Düşmənlərinizə və kafir olduğunuz şeylərə qarşı kafirəm.”*

Burada küfr – uzaq olmaq mə’nasınadır və bu cümlənin mə’nası belə olur: “Sizin düşmənlərinizdən və uzaq gəzdiyiniz hər bir şeydən uzağam.”

Burada və yuxarıda qeyd etdiyimiz kimi, vilayətin qiyməti müsbət və mənfi yöndən qəbul etmək və uzaq düşmək baxımından birdir. Təklikdə (vilayəti) qəbul etmək, düşmənlərindən uzaq olmaqla yanaşı olmazsa, onda insana təklif gətirməz.

Qəbul etmək və uzaq düşmək gərək bəsirət və dərk üzündən olsun, təqlidçilik yönünə malik olmasın. (Necə ki, camaatın bə’ziləri bə’zilərinə təqlid edir.) *“Sizin şə’n və məqamınıza, sizinlə müxalifət edənlərin zəlalətdə olmağına bəsirət üzündən mənim agahlığım vardır.”*

Bu qəbul hərtərəfli qəbuldan ibarətdir və bu üç incə məsələ aşağıdakı hissədə qeyd olunur:

1. **Ümumi və hərtərəfli qəbul:** *“Sizin aşkarınıza və sirlərinizə iman gətirmişik.”*



2. **Onların düşmənlərindən və onların uzaq gəzdiyi hər bir şeydən ümumi əhatəli şəkildə uzaq düşmək:** *“Sizin düşmənlərinizə və kafir olduğunuz hər bir şeyə kafirəm.”*

3. **Bu qəbul etmə və uzaq gəzmə tam mə’rifət və bəsirət üzündən olmaqla tamamlanır:** *“Sizin şə’ninizə, məqamınıza, sizinlə müxalifət edənlərin azğınlıqda olmalarına bəsirətliyəm.”*

## TƏSDİQ

Həqiqətən, vilayət heç vaxt təsdiqdən ayrılmır, vilayəti şəkk-şübhədən də çox korlayacaq bir şey yoxdur. Allah-təala da vilayət məsələsində heç nəyə güzəştə getməmişdir. Çünki Allah-təala bə’zi vaxtlar vilayəti tovhidlə əlaqələndirir, onu insanın və bütünlükdə ümmətin hərəkət mehvəri qərar verir və ilk növbədə tovhiddən sonra vilayətə tə`kidl tövsiyə edir. Allah-təala buyurur:

﴿إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُوا...﴾

*“Həqiqətən sizin mövlanız yalnız Allah, Onun Rəsulu və iman gətirən... şəxslərdir.”*

Yenə buyurur:

﴿أَطِيعُواْ اللّهَ وَاَطِيعُوا الرَّسُولَ وَاُوْلِي الْاَمْرِ مِنْكُمْ﴾

*“Allaha, Peyğəmbərə və özlərinizdən olan əmr sahiblərinə itaət edin!”*

Buna görə də, vilayətə gedən yol qəti şəkildə aşkar olmalıdır ki, insanlar bu məsələ barəsində dəlil-sübut üzündən mə’lumatlı olsunlar. Buna görə də vilayət təsdiqdən, təsdiq yəqindən, yəqin də dəlil-sübutdan ayrıla bilməz.

“Camiə” ziyarətində Əhli-beyt (əleyhimus-salam)-a xitabən deyirik:

سَعَدَ مَنْ وٰالاٰكُمْ وَهَلَكَ مَنْ عٰاداٰكُمْ وَخٰابَ مَنْ جَحَدَكُمْ وَضَلَّ مَنْ فٰارَقَكُمْ وَفٰازَ مَنْ تَمَسَّكَ بِكُمْ وَآمَنَ مَنْ لَجاَ اِلَيْكُمْ وَسَلِمَ مَنْ صَدَّقَكُمْ وَهُدِيَ مَنِ اعْتَصَمَ بِكُمْ

*"Sizi sevib vilayətinizi qəbul edənlər səadətli, sizinlə düşmənçilik edənlər həlak, sizi inkar edənlər bədbəxt olmuş, sizdən ayrılanlar zəlalətə düşmüş, sizə sarılanlar qurtuluşa çıxmış, sizə pənah aparanlar əmin-amanlığa çatmış, sizi təsdiq edənlər salamatçılıqda olmuş və sizə sığınanlar hidayət olunmuşlar."*

## ÜZVİ MƏNSUBİYYƏT

Vilayəti təşkil edən ünsürlərdən söhbət gedərkən müasir ədəbiyyatımızda mövcud olduğu kimi, əvvəla, bu kəlmənin hərfi tərcüməsini öyrənməliyik. Bu çox da asan olmayan və mühüm bir məsələdir. Çünki müasir ədəbiyyatımız (ictimai əlaqələrdə) bu kəlmənin dəqiq tərcüməsinə nail ola bilmir. Buna görə də camaatın arasında bir tərəfdən üfüqi xətt üzrə, digər tərəfdən də şaquli xətt üzrə siyasi rəhbərlik, mədəni mərcəiyyət, itaət və tabeçilik kimi bir əlaqəni vilayət qədər tanımırıq. Bu da bu ümmət içərisində iki xətt üzrə cərəyan edən mə'lum bir əlaqə üzərindəndir:

1- Birincisi şaquli xətdən ibarətdir ki, bu da ümmətin Allaha, Peyğəmbər (*səllallahu əleyhi və alihi və səlləm*)-ə və əmr sahiblərinə olan əlaqə və bağlılığıdır. İtaətdə, məhəbbətdə, köməkdə, nəsihətdə, tabeçilikdə və s. kimi şeylərdə təqribən şaquli istiqamət şəklində təsəvvür olunur. Allah-təala buyurur:

أَطِيعُواْ اللّهَ وَاَطِيعُوا الرَّسُولَ وَأُوْلِي الْامْرِ مِنكُمْ

*"Allaha, Rəsuluna və sizdən olan əmr sahiblərinə itaət edin!"*

"Nüzul" (yuxarıdan aşağıya olan) istiqamətində olan hakimiyyət və rəiyyət barəsində isə belə buyurur:



إِنَّمٰا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاٰةَ وَيُؤْتُونَ الزَّكٰاةَ وَهُمْ رٰاكِعُونَ

*"Həqiqətən, sizin vəliniz yalnız Allah, Onun Peyğəmbəri, iman gətirən, namaz qılan və rüku halında zəkat verənlərdir."*[1]

Bu şaquli xətt ya yuxarıdan aşağı, ya da aşağıdan yuxarı istiqamətdədir. Aşağıdan yuxarı dedikdə məqsədimiz ümmətin əmr sahibləri ilə olan əlaqəsi, yuxarıdan aşağı olan xətt dedikdə isə əmr sahiblərinin öz ümmətləri ilə olan əlaqəsidir ki, bu da bir tərəfdən hakimiyyət, digər tərəfdən isə rəiyyətlə bərqərar olunur.

Amma üfüqi xəttə gəldikdə isə, bu da insanların öz ictimai həyatlarında bir-biri ilə olan əlaqələrinin möhkəmlənməsindən asılıdır. Qur'an bu məsələni aşağıdakı qısa və dəqiq bir ibarə ilə bəyan edir: ***"İnnəməl-mu'minunə ixvətun*** *– Həqiqətən mö'minlər qardaşdırlar."* İmam Həsən Əskəri (*əleyhis-salam*) Abə və Qum əhli üçün bu şəffaf kəlməni belə bəyan etmişdir:

اَلْمُؤمِنُ أَخُو الْمُؤمِنِ لِأمِّهِ وَأَبِيهِ

*"Mö'min mö'minlə ata-anadan bir olan (doğma) qardaş kimidir."*[2]

Bu da çox aydın bir əlaqədir ki, başqa dinlərdə və şəriətlərdə onun oxşarı gözə dəymir.

Peyğəmbəri-Əkrəm (*səllallahu əleyhi və alihi və səlləm*) buyurmuşdur:

---

[1] Bu ayənin Əli (*əleyhis-salam*) barəsində nazil olmasını Təbəri öz təfsirinin 6-cı cildində (səh. 186) iki sənədlə, Fəxr Razi "Təfsiri Kəbir"də (12-ci cild, səh. 26), Süyuti "Dürrül-Mənsur"da (3-cü cild, səh. 103), Vahidi "Əsbabun-nüzul"-da (səh. 137) və sairləri nəql etmişlər. "Fəzailul-xəmsə" kitabının müəllifi bu rəvayətin nəql olunma yollarını 2-ci cildin 13-cü səhifəsində nəql etmişdir.

[2] "Biharul-ənvar", 50-ci cild, səh. 317

**الْمُؤْمِنُونَ اِخْوَةٌ تَتَكَافَأُ دِمَاؤُهُمْ، وَهُمْ يَدٌ عَلَى مَنْ سِوَاهُمْ، يَسْعَيٰ بِذِمَّتِهِمْ أَدْنَاهُمْ**

*"Mö'minlər qardaşdırlar, onların qanı bərabərdir, onlar özlərindən başqalarının üzərində (vahid) bir əl kimidirlər: Öz zəiflərinə kömək etməyi öhdələrinə götürmüşlər."*[1]
İmam Cə'fər Sadiq (əleyhis-salam) buyurur:

**اَلْمُؤْمِنُ أَخُو الْمُؤْمِنِ كَالْجَسَدِ الْوَاحِدِ، اِذَا اشْتَكَى شَيْئًا مِنْهُ وَجَدَ اَلَمَ ذٰلِكَ فِي سَائِرِ جَسَدِهِ**

*"Mö'min mö'minin qardaşıdır, onlar vahid bir bədən kimidir, (belə ki,) o bədəndən bir üzvü ağrıyanda, onun ağrısını bədənin bütün yerlərində hiss edər."*[2]
İmam Cə'fər Sadiq (əleyhis-salam) mö'minlərə tövsiyə edərək buyurur:

**تَوَاصَلُوا وَتَبَارُّوا وَتَرَاحَمُوا وَكُونُوا اِخْوَةً بَرَرَةً، كَمَا أَمَرَكُمُ اللهُ عَزَّ وَجَلَّ**

*"Bir-birinizlə sileyi-rəhim edin, bir-birinizə yaxşılıq və ehtiram edin, mərhəmət göstərin, yaxşı qardaşlar olun – necə ki, Allah-təala sizə əmr etmişdir".*[3]
Bu da vilayətin üfüqi xəttindən ibarətdir.
Biz ümmətlərin həyatında möhkəmlik cəhətindən bu şəbəkədən də güclü ola biləcək bir əlaqə şəbəkəsi tanımırıq.
Bununla, vilayət, əsasları və təməli möhkəm olan vahid bir ailənin üzvünə mənsub edilmək kimi izah olunur. Necə ki, Allah-təala onu bir-birinə yaxın olan möhkəm binalara oxşatmışdır. Bu ailənin üzvləri arasındakı əlaqələr də vahid bir bədənin üzvləri arasında bərqərar olunan əlaqə kimidir,

---

[1] "Əmali" (Şeyx Mufid), səh. 110
[2] "Biharul-ənvar" 74-cü cild, səh. 268
[3] "Üsuli Kafi", 2-ci cild, səh. 175



bu isə vahid bir ailənin fərdləri arasında daha güclü və şiddətlidir.
Deməli, vilayət – əlaqədən təşkil olunmuş bir şəbəkəyə bənzəyir ki, ümmət daxilində üzvi mənsubiyyət – yə'ni fərdin ailəyə və üzvün vahid bir bədənə mənsub olması kimi tə'bir edilir.
Vilayətin üfüqi xətt üzərində bərqərar olunması qarşılıqlı kömək, qarşılıqlı sileyi-rəhim etmək, bir-birinə nəsihət vermək və yaxşılıq etmək, qardaşlıq, ehsan, məhəbbət, qarşılıqlı kömək, zəmanət, təkamül və s. şeylər əsasında bərqərar olunduğundan, şaquli xətt üzərində də vilayətin davamlılığı və bərqərar olunması (ki, biz burada onun barəsində söhbət edirik) Əhli-beytə itaət, onların rəhbərliyini qəbul və təsdiq etmək, məhəbbət göstərmək, kömək etmək, onlara iqtida etmək, onlara sarılıb tabeçilik etmək, onlara və onların dostlarına məhəbbət bəsləmək, düşmənlərinə nifrət və bezarlıq etmək, onların yolunda insanlara nəsihət etmək və s.dən ibarətdir.
Bunu da qeyd etmək lazımdır ki, bəraət və vilayət tarixdən qaynaqlanan bir hadisə deyildir ki, bizim siyasi həyatımızdan ayrıca olan müasir bir sual kimi irəli çəkilmiş olsun. Bu həcmdə olan "vilayət" hadisəsi – İmam Cə'fər Sadiq (əleyhis-salam)-ın buyurduğu kimi: *"Mö'min bəndəyə vilayətlə nida olunduğu kimi heç bir şey ilə nida olunmamışdır"* – yaşadığımız siyasi vəziyyətlərdən ayrıca olan əqidəvi bir məsələ deyildir.
Həqiqətən vilayət – yə'ni itaət, məhəbbət, mənsub olunma, bezarlıq, sülh, hərb, hazırkı ictimai və siyasi-ictimai hadisələrimizdə şər'i vilayət əsnasında və onun ardınca gələn bir məsələdir. Vilayət və bəraət bizim əqidəmizdə, eləcə də əməl, sülh və hərbdəki siyasi mövqeyimiz şər'i vilayətin içində və onun davamında olmayınca, bu vilayət və

bəraətə böyük dəyər və qiymət verilməz, necə ki, onu Əhli-beyt (əleyhimus-salam)-ın hədislərində oxuyuruq.

İndi isə, Allahın köməyi ilə Əhli-beyt (əleyhimus-salam)-dan gəlib çatan hədislərdən istəfadə edərək vilayət kəlməsi barəsində qısa şəkildə izahat veririk. Belə ki, bu hədislərdə vilayətin əsl məfhumuna diqqət yetirilmişdir.

## BƏRAƏT (BİZARLIQ)

Vilayətin digər bir yönü bəraətdən – bezarlıqdan ibarətdir. Bəraətlə vilayət vahid bir qəziyyənin iki cəhətidir və o da Əhli-beytə mənsub edilməkdir. Onlara mənsub edilmədə ən çətin cəhət də elə bundan ibarətdir. Bəraət olmadan vilayət-natamam və yarımçıq vilayət hesab olunur. Bir kişi Əli (əleyhis-salam)-a dedi: "Mən səni də, sənin düşmənini də sevirəm." (Bu, bizim barəsində söhbət etdiyimiz natamam və çirkin vilayətdir.) Həzrət Əli (əleyhis-salam) ona buyurdu:

(اَلْآنَ فَأَنْتَ أَعْوَرُ) وَرُؤْيَةُ الْأَعْوَرِ رُؤْيَةٌ نِصْفِيَّةٌ نٰاقِصَةٌ (فَإِمّٰا أَنْ تَعْمَى) فَتَفْقَدَ الْوِلاٰءَ تَبَعًا لِلْبَرٰاءَةِ (أَوْتُبْصِرَ) فَتَجْمَعَ بَيْنَ الْوِلاٰءِ وَالْبَرٰاءَةِ

*"Sən indi çəpgözsən (çəpgözün görməsi də naqis və natamamdır); ya kor ol (bizə qarşı bəraətə tabe olaraq vilayəti əldən ver), yaxud da bəsirətli ol (vilayətlə bəraəti bir yerə cəm et)."*

"Camiə" ziyarətində oxuyuruq:

وَأُشْهِدُكُمْ أَنِّي مُؤْمِنٌ بِكُمْ وَبِمٰا آمَنْتُمْ بِهِ، كٰافِرٌ بِعَدُوِّكُمْ (رٰافِضٌ لَهُمْ) وَبِمٰا كَفَرْتُمْ بِهِ (اَيْ رٰافِضٌ لِمٰا رَفَضْتُمْ)، مُسْتَبْصِرٌ بِشَأْنِكُمْ وَبِضَلاٰلَةِ مَنْ خٰالَفَكُمْ، مُوَالٍ لَكُمْ وَلِأَوْلِيٰائِكُمْ مُبْغِضٌ لِأَعْدَائِكُمْ وَمُعٰادٍ لَهُمْ

*"Allahı və sizi şahid tuturam ki, mən sizə və sizin iman gətirdiyinizə iman gətirmişəm, sizin düşmənlərinizə kafirəm (onlardan uzağam) və sizin kafir olduğunuza (yə'ni uzaq*



*olduğunuza) kafirəm; sizin məqam və mənzilətinizə, sizin müxaliflərinizin zəlalətdə olmasından agaham, sizi və sizin dostlarınızı sevir, sizin düşmənlərinizə kin bəsləyib onları düşmən tuturam."*

Allah düşmənlərindən bezarlıq və nifrəti ən çox e'lan edən ziyarətlərdən birində – "Aşura" ziyarətində oxuyuruq:

لَعَنَ اللّٰهُ اُمَّةً قَتَلَتْكُمْ وَلَعَنَ اللّٰهُ الْمُمَهِّدِينَ لَهُمْ بِالتَّمْكِينِ مِنْ قِتٰالِكُمْ، بَرِئْتُ اِلَى اللّٰهِ وَاِلَيْكُمْ مِنْهُمْ وَمِنْ اَشْيٰاعِهِمْ وَاَتْبٰاعِهِمْ وَاَوْلِيٰائِهِمْ

*"Allah lə'nət etsin sizi qətlə yetirən ümmətə! Allah lə'nət et-sin sizinlə müharibəyə imkan yaradıb müqəddimə hazırla-yanlara! Allaha və sizə sığınaraq onlara nifrət və bezarlıq edirəm, onların şiələrindən, tabeçilərindən və dostlarından bezarlıq edirəm!"*

Bu cümlələrdəki "bəraət" kəlməsi təkcə Allah düşmənlərin-dən bəraət və bezarlıq deyil, əksinə Allah düşmənlərinin davamçılarına, şiələrinə və onların işlərinə razı olanlardan da bezarlıq e'lan edilir.

Biz Allah dərgahına, Onun övliyalarına dostluqla yaxınlaşdığımız kimi, Allahın və Onun övliyalarının dərgahına da, Allahın düşmənləri və onların davamçıları ilə düşmənçiliklə yaxınlaşırıq. "Aşura" ziyarətində deyilir:

إِنِّي أَتَقَرَّبُ اِلَى اللّٰهِ وَاِلى رَسُولِهِ... بِمُوٰالـٰاتِكَ وَبِالْبَرٰائَةِ مِمَّنْ قٰاتَلَكَ وَنَصَبَ لَكَ الْحَرْبَ، وَبِالْبَرٰائَةِ مِمَّنْ أَسَّسَ اَسٰاسَ ذٰلِكَ وَبَنى عَلَيْهِ بُنْيٰانَهُ.

*"Mən Allahın və Peyğəmbərin ... dərgahına sizi sevməklə və sizinlə vuruşub müharibə aparanlardan, bunun (zülmün) əsasını qoyan və yollarını onun üzərində davam etdirən şəxslərdən də bezarlıq etməklə yaxınlaşıram"*

# VİLAYƏT DAİRƏSİNDƏ QARŞILIQLI TOVHİD ƏLAQƏSİ

Vilayət – tovhidyönlü məfhumdan ibarətdir. Biz bu barədə bir neçə dəfə söhbət etmişik. İslamda vilayətin qiyməti tovhiddən qaynaqlanıb tovhidin ardınca gəldiyinə görə, Allah-təaladan qeyrisinin vilayətini də yalnız Allahın izni və əmri ilə qəbul etmək olar. Allah-təala buyurur: *“Əllahu vəliyyulləzinə amənu... – Allah iman gətirənlərin vəlisidir.”* Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm)-in və ondan sonra Ulul-əmrin vilayətini də məhz Allahın əmri əsasında qəbul etmək vacibdir. Deməli, hər kəs Allahın vilayətini qəbul etsə, Rəsulunun və ondan sonra da Ulul-əmrin vilayətini qəbul edər. Peyğəmbərin vilayətinin Allahın vilayətindən, Əhli-beytin vilayətinin isə, Peyğəmbərin vilayətindən ayrılması qeyri-mümkündür.

Allah-təala buyurur:

إِنَّمٰا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاٰةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ راٰكِعُونَ

*“Həqiqətən, sizin vəliniz və rəhbəriniz Allah, Onun Rəsulu və iman gətirib namaz qılan və rüku halında zəkat verən şəxslərdir.”*[1]

[1] “Maidə” surəsi, ayə: 55. Bu ayə imam Əli (ələyhis-salam)-ın barəsində nazil olmuşdur. Bunu Razi öz “Təfsir” kitabında, (“Maidə” surəsinin *“Innəma vəliyyukumullah...”* ayəsinin təfsirində), Şəblənci “Nurul-əbsar”da (səh.170), Zəməxşəri “Kəşşaf”da (həmin ayənin təfsirində), Əbu Səud öz “Təfsir”ində (“Maidə” surəsinin qeyd olunan ayəsinin təfsirində), eləcə də, Beyzavi bir neçə yolla, Süyuti “Durrul-Mənsur” təfsirində çoxlu yollarla, Vahidi “Əsbabun-nüzul”da (səh.148), Müttəqi Hindi “Kənzül-ümmal”da (6-cı cild, səh.319 və 7-ci cild, səh.305), Heysəmi “Məcməüz-zəvaid”də (7-ci cild, səh.17), Mühibb Təbəri



Bu ayənin imam Əli (ələyhis-salam) barəsində nazil olması, eləcə də, “namaz qılıb rüku halında zəkat verənlər”dən məqsədin Əli (ələyhis-salam) olması barəsindəki rəvayətlər “istifazə” həddinə çatmışdır.

Bu vilayət Allaha, Onun Rəsuluna, eləcə də iman gətirib namaz qılan və rüku halında zəkat verənlərə – müsəlmanların vəliyyi-əmrlərinə aiddir.

Allah Rəsulunun və onun Əhli-beytinin vilayəti Allahın vilayətinin davamındadır, necə ki, Peyğəmbərə və ondan sonrakı Ulul-əmrlərə itaət etmək Allaha itaət etməyin davamıdır, başqa sözlə desək, Allaha itaət xətti boyuncadır.

Bura qədər qeyd olunanlar vilayət və itaət məsələsilə əlaqədar idi. Məhəbbət də eynilə belədir.

Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm)-dən belə nəql olunmuşdur:

أَحِبُّوا اللهَ لِمٰا يَغْذُوكُمْ، وَاَحِبُّونِي بِحُبِّ اللهِ، وَأَحِبُّوا اَهْلَ بَيْتِي بِحُبِّي

*“Allahı, sizə ne’mət verdiyinə görə sevin, məni Allaha məhəbbətə görə, Əhli-beytimi də mənə məhəbbətə görə sevin!”*[1]

Başqa bir hədisdə Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm)-dən belə nəql olunur:

أَحِبُّوا اللهَ لِمٰا يَغْذُوكُمْ مِنْ نِعْمَةٍ وَاَحِبُّونِي لِحُبِّ اللهِ، وَ أَحِبُّوا اَهْلَ بَيْتِي لِحُبِّي

*“Allahı sizə ne’mətlərdən ruzi verdiyinə görə sevin; məni də Allah məhəbbətinə görə sevin; Əhli-beytimi də mənə məhəbbətə görə sevin!”*[1]

“Zəxairul-üqba” (8-ci cild, səh.102), Firuzabadi “Fəzailu xəmsə minəs-sihahis-sittə”də (2-ci cild, səh.18-24) nəql etmişdir.

[1] “Səhihi Tirmizi”, 13-cü cild, səh.261, “İman” kitabı; “Tarixi-Bağdad”, 4-cü cild, səh.160. Şeyx Əllamə Əmini “Sirətuna və sünnətuna” kitabında bunu həmin iki şəxsdən nəql etmişdir.

Deməli, hər kəs Allahı sevib, Onun vilayətini qəbul edirsə, onların da vilayətini qəbul etməlidir. Hər kəs Allaha itaət edirsə, onlara da itaət etməlidir. Hər kəs Allahı sevirsə, onları da sevməlidir.

Bu, tovhid prinsipinin iki yönündən biridir. Digər tərəfi isə bundan ibarətdir ki, hər kəs onların vilayətini qəbul etsə, şübhəsiz ki, Allahın vilayətini qəbul etmişdir; hər kəs onlara itaət etsə, şübhəsiz ki, Allaha itaət etmişdir, hər kəs onları sevsə, şübhəsiz ki, Allahı sevmişdir. Məhz bununla da bu tovhidçi prinsip əlaqə, vilayət və tovhiddə iki tərəfdən təkamülə çatmış olur. Aşağıda qeyd olunan rəvayətlərdə bu prinsipin iki tərəfinə işarə edilir:

“Camiə” ziyarətində oxuyuruq:

مَنْ وٰالاٰكُمْ فَقَدْ وٰالَى اللّٰهَ وَ مَنْ عٰاداٰكُمْ فَقَدْ عٰادَى اللّٰهَ

*“Hər kəs sizinlə dost olsa, şübhəsiz ki, Allahı dost tutmuşdur; hər kəs sizinlə düşmən olsa, şübhəsiz, Allahla düşmən olmuşdur.”*

Həmin ziyarətin başqa bir yerində deyilir:

مَنْ أَطٰـاعَكُمْ فَقَدْ أَطٰـاعَ اللّٰهَ وَ مَنْ عَصٰاكُمْ فَقَدْ عَصَى اللّٰهَ

*“Hər kəs sizə itaət etsə, şübhəsiz ki, Allaha itaət etmişdir, hər kəs sizə qarşı üsyankarlıq etsə, şübhəsiz, Allaha qarşı asi olub günah etmişdir.”*

Digər yerində isə belə deyilir:

وَمَنْ أَحَبَّكُمْ فَقَدْ أَحَبَّ اللّٰهَ وَ مَنْ أَبْغَضَكُمْ فَقَدْ أَبْغَضَ اللّٰهَ

[1] “Səhihi Tirmizi”, “Mənaqib” kitabı, “Mənaqibu Əhli-beyt” bölümü; Hakim “Müstədrək” kitabında (səh.149) bunu nəql edərək səhih hesab etmişdir.



*“Hər kəs sizi sevsə, şübhəsiz, Allahı sevmiş, hər kəs sizi düşmən tutsa, şübhəsiz, Allahı düşmən tutmuşdur.”*

Biz də onları sevməklə, düşmənlərinə bezarlıq e’lan etməklə Allah dərgahına yaxınlaşırıq.

“Aşura” ziyarətində deyilir:

إِنِّي أَتَقَرَّبُ إِلَى اللّٰهِ... بِمُوٰالـاٰتِكَ وَبِالْبَرٰائَةِ مِمَّنْ قٰاتَلَكَ وَنَصَبَ لَكَ الْحَرْبَ

*“Mən səni sevməklə və sənə qarşı müharibə aparıb döyüşən şəxslərdən bezarlıq etməklə Allah dərgahına yaxınlaşıram.”*

Rəvayət olunmuşdur ki, Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm) belə buyurmuşdur:

مَنْ أَطٰـاعَنِي فَقَدْ أَطٰـاعَ اللهَ، وَمَنْ عَصٰانِي فَقَدْ عَصَى اللهَ، وَمَنْ عَصَى عَلِيًّا فَقَدْ عَصٰانِي

*“Hər kəs mənə itaət etsə, şübhəsiz ki, Allaha itaət etmişdir, hər kəs mənə qarşı üsyankarlıq etsə, Allaha qarşı üsyankarlıq etmişdir və hər kəs Əliyə qarşı üsyankarlıq etsə, şübhəsiz ki, mənə qarşı üsyankarlıq etmişdir.”*[1]

İbni Abbas deyir ki, Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm) Əliyə nəzər salaraq buyurdu:

يٰا عَلِيُّ اَنَا سَيِّدٌ فِي الدُّنْيٰا وَالْآخِرَةِ حَبِيبُكَ حَبِيبِي وَ حَبِيبِي حَبِيبُ اللهِ، وَعَدُوُّكَ عَدُوِّي وَعَدُوِّي عَدُوُّ اللهِ

*“Ya Əli! Mən dünya və axirətin seyyidi, ağasıyam. Sənin dostun mənim dostum, mənim dostum isə Allahın dostudur.*

[1] Bu rəvayəti Hakim “Müstədrəkus-səhiheyn” kitabında nəql edərək səhih hesab etmişdir: 3-cü cild, səh.121 və 128. Mühibb Təbəri “Riyazün-nüzrət”, 2-ci cild, səh. 167-də; Firuzabadi, “Fəzailul-xəmsə minəs-sihahis-sittə”, 2-ci cild, səh. 118.

*Sənin düşmənin mənim düşmənim, mənim düşmənim isə Allahın düşmənidir.”*[1]

Vilayət və baraətin İslamdakı dəqiq məfhumlarından biri də budur ki, Allahın vilayəti ilə “Ulul-əmr”in vilayəti arasındakı dərin tovhid əlaqəsini layiqincə tanıyaq və bunu da biləк ki, bu iki vilayət arasında tovhid prinsipi vardır. Eləcə də bilək ki, İslamda hər bir vilayətin haqqı gərək Allah vilayətinin davamında olsun, əks halda batil sayılır. Hər bir itaətin də haqqı budur ki, Allaha itaətin davamında olsun, əks halda batil sayılır. Bütün məhəbbətlər Allaha məhəbbətin davamında olmazsa, Allahın buyurduğu me’yarlara əsasən, onun heç bir qiymət və dəyəri olmayacaqdır.

Bu münasibətlə Əhli-beyt (əleyhimus-salam) da insanları Allaha doğru hidayət edən, haqq yola çağıran, Allahın əmri ilə hökm edən, Allahın əmr və göstərişlərinə təslim olan və insanları Allahın yoluna hidayət edib yol göstərənlərdir.

Bu da hadisənin iki tərəfindən biridir. Onun digər tərəfi isə budur ki, hər kəs Allahı, Onun yolunu, razılığını, hökmünü, həddi-hüdudunu istəsə, hökmən Əhli-beyt (əleyhimus-salam)-ın yolu ilə getməli, onların elmlərini əxz etməlidir.

Digər dəfə olaraq bu tovhid prinsipinin iki tərəfindən birinə aşağıdakı dualarda nəzər salırıq:

“Camieyi-Kəbirə” ziyarətində oxuyuruq:

[1] Bu hədisi Hakim “Müstədrək” kitabının 3-cü cildinin 127-ci səhifəsində nəql edərək şeyxeynin şərtilə səhih hesab etmişdir. Xətib “Tarixi-Bağdad” kitabında, 3-cü cild, səh.40-da İbni Abbasdan beş yolla nəql etmiş və sonra isə Peyğəmbərin belə buyurduğunu demişdir: *“Ya Əli! Hər kəs səni sevsə, şübhəsiz, məni sevmişdir və mənə məhəbbət də Allaha məhəbbətdir.”* Mühibb Təbəri “Riyazün-nüzrət” kitabında, 2-ci cild, səh.166-da nəql etmişdir. Firuzabadi “Fəzailul-xəmsə minəs-sihahis-sittə”, 2-ci cild, səh.244-də bu hədis üçün çoxlu təriqlər nəql etmişdir.



إِلَى اللَّهِ تَدْعُونَ وَعَلَيْهِ تَدُلُّونَ وَبِهِ تُؤْمِنُونَ وَلَهُ تُسَلِّمُونَ وَبِاَمْرِهِ تَعْمَلُونَ وَاِلَى سَبِيلِهِ تُرْشِدُونَ وَبِقَوْلِهِ تَحْكُمُونَ

*“Siz yalnız Allaha doğru də’vət edir, insanları Allaha doğru aparır, Ona iman gətirir, Onun əmr və göstərişlərinə təslim olur, Onun əmri əsasında əməl edir, insanları Onun yoluna hidayət edir və Onun sözü əsasında hökm verirsiniz.”*

Bu, məsələnin bir tərəfidir, digər tərəfi isə ziyarətin özündə deyilənlərdir:

مَنْ أَرٰادَ اللَّهَ بَدَأَ بِكُمْ وَمَنْ وَحَّدَهُ قَبِلَ عَنْكُمْ وَ مَنْ قَصَدَهُ تَوَجَّهَ بِكُمْ

*“Hər kəs Allahı istəsə, sizdən başlamalıdır, hər kəs Onu yeganə bilsə, sizin tərəfinizdən qəbul olunar. Hər kəs Allahı nəzərdə tutsa, sizə üz gətirər.”*

Bir daha tə’kidlə bildiririk ki, biz vilayəti yalnız Allah vilayətinin davamında olan tovhid üslubunun əsasında başa düşə bilərik. Əhli-beyt (əleyhimus-salam) üçün hər növ vilayət, itaət və məhəbbət bu yoldan qeyrisində olmamalıdır. Əks halda, onların kəlam və tə’limlərinin əksinə getmiş olarıq.

## SALAM VƏ NƏSİHƏT

“Ulul-əmr” ilə qarşılıqlı rəftarda bu iki yol vilayətin digər iki cəhətidir. Salam bu əlaqənin inkar yönü, nəsihət isə, isbat yönüdür. Bunun izahını aşağıda qeyd edirik:

## SALAM

“Ulul-əmr”ə (əmr sahiblərinə) salamın mə’nası budur ki, çətinliklərdə, müsibətlərdə onlardan ayrılmayaq, onlarla müxalifət etməyək, əmr və fərmanlarından çıxmayaq, onların əleyhinə qiyam etməyək, əmrlərində onlarla müxalifətə qalxmayaq, əməldə onları məşəqqətə salmayaq (onların tutduğu yoldan başqa bir yolla getməyək), onları

xar etməyək, onlara xoşagəlməz bir şeyin baş verməsinin intizarında olmayaq, hüzurlarında, yaxud qaib olduqları zaman hörmətlərini saxlayaq, onların əleyhinə məkr işlətməyək, düşmənləri ilə əlbir olub onların əleyhinə çıxmayaq, onların əleyhinə hiylə işlətməyək, onların haqqında təfritə yol verməyək, haqlarını zay etməyək, onları düşmənlərinə təslim etməyək, onlara zülm rəva görməyək, onların qarşısında pis əxlaq göstərməyək və s.

Bu onlarla əlaqə saxlamağın və qarşılıqlı ünsiyyətdə olmağın inkar yönündən ibarətdir.

"Ulul-əmr" ilə "salam" vəziyyətində olmaq Allah-təala ilə əlaqədar salamın ardınca gəlir və tovhid məfhumuna daxil olur. Çünki "Ulul-əmr"ə salam Allah üçün salamdan qaynaqlanır və Allah-təala da bizə əmr etmişdir ki, Onunla salam əsasında müamilə edək, Onun düşmənlərinin və Onunla müxalifət edənlərin cərgəsinə daxil olmayaq.

Allah-təala buyurmuşdur:

يٰا أَيُّهَا الَّذِينَ آمَنُواْ ادْخُلُواْ فِي السّلْمِ كٰافَّةً وَلاٰ تَتَّبِعُواْ خُطُوٰاتِ الشَّيْطـٰـانِ

*"Ey iman gətirənlər! Hamılıqla sülhə (salamatlıqla) daxil olun və Şeytanın izlərinə tabe olmayın."*[1]

Bu sülh ki, Allah-təala bizi ona də'vət edir, Allah ilə əlaqədar olan salamdan ibarətdir.

Allah-təala ilə əlaqədar olan salamın müqabilində Allah ilə müharibə və Onunla müxalifət dayanır. Allah-təala buyurur:

فَإِنْ لَمْ تَفْعَلُواْ فَأْذَنُواْ بِحَرْبٍ مِنَ اللّهِ وَرَسُولِهِ

*"Əgər bu işi (ribanı tərk) etməsiniz, onda Allah və Onun Rəsulu ilə müharibə e'lan edin!"*[2]

---

[1] "Bəqərə" surəsi, ayə:208.
[2] "Bəqərə" surəsi, ayə: 279.



Allah-təala yenə buyurur:

إِنَّمٰا جَزٰاءُ الَّذِينَ يُحٰارِبُونَ اللّهَ وَرَسُولَهُ وَيَسْعَوْنَ فِي الْأرْضِ فَسٰادًا أَن يُقَتَّلُواْ...

*"Allah və Onun Rəsulu ilə müharibə edən və yer üzündə fəsad törətməyə çalışanların cəzası budur ki, qətlə yetirilsinlər..."*[1]

Başqa bir ayədə isə belə buyurur:

ذٰلِكَ بِأَنَّهُمْ شٰاقُّواْ اللّهَ وَرَسُولَهُ وَمَنْ يُشٰاقِقِ اللّهَ وَرَسُولَهُ فَإِنَّ اللّهَ شَدِيدُ الْعِقٰابِ

*"Bunun səbəbi budur ki, onlar Allah və Onun Rəsulu ilə müxalifət etdilər. Hər kəs Allah və Onun Rəsulu ilə müxalifət edərsə, həqiqətən, Allah şiddətlə cəzalandırandır!"*[2]

Yə'ni, onlar Allahın yolundan başqa bir yol seçmiş, Allahın buyurduğundan başqa şeylərə əməl etmişlər.

Allah-təala buyurur:

أَلَمْ يَعْلَمُواْ أَنَّهُ مَن يُحٰادِدِ اللّهَ وَرَسُولَهُ فَأَنَّ لَهُ نٰارَ جَهَنَّمَ خٰالِدًا فِيهٰا ذٰلِكَ الْخزْيُ الْعظِيمُ

*"Məgər bilmirlər ki, hər kəs Allah və Onun Rəsulu ilə müxalifət etsə, cəhənnəm odu onun üçün hazırdır və o, orada əbədi olaraq qalacaqdır?! Bu da böyük bir xarlıqdır."*[3]

Bu ayələrdə gələn "mühaddə" dedikdə ("yuhadid"in məsdəridir) məqsəd, insanın Allahın tə'yin etdiyi hədd və hüduddan kənara çıxması və başqa yola getməsi nəzərdə tutulur ki, bu da Allah ilə əlaqədar salam dairəsində olmalıdır.

"Ulul-əmr"lə əlaqədar dairədəki salama gəldikdə isə, bu da yuxarıda qeyd olunan salamın ardınca gəlir və tovhid məfhumunun daxilindədir. Ümumi şəkildə desək, "Ulul-

---

[1] "Maidə" surəsi, ayə:33.
[2] "Ənfal" surəsi, ayə:13.
[3] "Tövbə" surəsi, ayə:63.

əmr" – vilayəti təşkil edən ünsürlər və kəlmələrin hər biri tovhidin hüdudlarındadır və onun üçün Allahın izni və əmri olmadan ayrıca, müstəqil bir vücud və hökm yoxdur.

"Ulul-əmr"ə (Peyğəmbəri-Əkrəmə və onun Əhli-beytinə) salam ziyarətlərdə qeyd ounduğu kimi, təkcə xitab qəbilindən deyildir; o, həm də qarşılıqlı davranış və əlaqə və qəbilindəndir, xitab isə bu əlaqə qarşılıqlı davranış barəsində tə'bir olunur.

"Ulul-əmr"ə salamın dəqiq mə'nalarından biri də budur ki, özümüzün iş və əməllərimizlə onları incitməyək;, çünki onların bizim əməllərimizə hüzur və nəzarəti vardır. Belə ki, "Qədr" surəsi və rəvayətlərin aşkar bəyanı buna şahiddir.

Əhli-beyt (əleyhimus-salam)-ın dostlarının pis və yaramaz əməlləri, qazandıqları günah və mə'siyətlər onlara əziyyət verir. Bu əməllər insanın əməllərinə vəkil olan iki mələyə də əziyyət verir. Bunun müqabilində isə, insanın saleh və ləyaqətli işləri onları sevindirir. Salamın hansı məfhum qəbilindən olması barəsində sözü uzatmaq istəmirik, lakin qeyd etdiyimiz kimi, ziyarətlərin hamısında onlara təkrar-təkrar salam göndərilmişdir...

Məşhur olmayan "Camiə" ziyarətində (Şeyx Səduq onu "Mən la yəhzuruhul-fəqih" kitabında imam Riza (əleyhis-salam)-dan nəql etmişdir) salamın bir neçə növü vardır ki, bu məsələyə şahid ünvanı ilə onu qeyd edirik:

**اَلسَّلامُ عَلَى أَوْلِيٰاءِ اللهِ وَاَصْفِيٰائِهِ، اَلسَّلامُ عَلَى اُمَنٰاءِ اللهِ وَاَحِبّٰائِهِ، اَلسَّلامُ عَلَى أَنْصٰارِ اللهِ وَخُلَفٰائِهِ، اَلسَّلامُ عَلَى مَحٰالِّ مَعْرِفَةِ اللهِ، اَلسَّلامُ عَلَى مَسٰاكِنِ ذِكْرِ اللهِ، اَلسَّلامُ عَلَى مُظْهِرِي أَمْرِ اللهِ وَنَهْيِهِ، اَلسَّلامُ عَلَى الدُّعٰاةِ اِلَي اللهِ، اَلسَّلامُ عَلَي الْمُسْتَقِرِّينَ فِي مَرْضٰاةِ اللهِ، اَلسَّلامُ عَلَى الْمُخْلِصِينَ فِي طٰاعَةِ اللهِ، اَلسَّلامُ عَلَى الْأَدِلاّٰءِ عَلَى اللهِ، اَلسَّلامُ عَلَى الَّذِينَ مَنْ وٰالاٰهُمْ فَقَدْ وٰالَى اللهَ، وَمَنْ عٰادٰاهُمْ فَقَدْ عٰادَى اللهَ، وَمَنْ عَرَفَهُمْ فَقَدْ عَرَفَ اللهَ،**



**وَمَنْ جَهِلَهُمْ فَقَدْ جَهِلَ اللهَ، وَمَنِ اعْتَصَمَ بِهِمْ فَقَدِ اعْتَصَمَ بِاللهِ، وَمَنْ تَخَلّى عَنْهُمْ فَقَدْ تَخَلّى عَنِ اللهِ**

*"Salam olsun Allahın övliyalarına və seçdiyi şəxslərə! Salam olsun Allahın əmanətdarlarına və sevimli şəxslərinə! Salam olsun Allahın köməkçilərinə və xəlifələrinə! Salam olsun Allah mə'rifətinin hülul etdiyi (daxil olduğu) yerlərə! Salam olsun Allah zikrinin məskənlərinə! Salam olsun Allahın əmr və nəhylərini izhar (aşkar) edənlərə! Salam olsun insanları Allah dərgahına də'vət edənlərə! Salam olsun Allahın razılığında müstəqər olanlara (qərarlaşanlara)! Salam olsun Allahın itaətində ixlaslı olanlara! Salam olsun insanları Allaha doğru (hidayət edib) yol göstərənlərə! Salam olsun o kəslərə ki, hər kəs onları sevsə, Allahı sevmiş, hər kəs onlarla düşmənçilik etsə, Allahla düşmən olmuşdur; hər kəs onları tanısa, şübhəsiz ki, Allahı tanımışdır, hər kəs onların barəsində cahil olsa, Allaha qarşı cahil olmuşdur, hər kəs onlara sarılsa, şübhəsiz ki, Allaha sarılmışdır və hər kəs onlardan ayrılsa, şübhəsiz, Allahdan ayrılmışdır."*

## NƏSİHƏT

Nəsihət "Ulul-əmr" ilə əlaqənin digər bir müsbət yönüdür. "Ulul-əmr" üçün nəsihət də tovhid çərçivəsindəndir və Onun Rəsulunun nəsihətinin davamında gəlir. Bu da Peyğəmbəri-Əkrəm (səllallahu əleyhi və alihi və səlləm)-in Minadakı məscidində ("Vida" həccində) ümum müsəlmanların arasında e'lan etdiyi üç siyasi hadisədən biridir.

Səduq "Xisal" kitabında İmam Cə'fər Sadiq (əleyhis-salam)-ın belə buyurduğunu nəql edir: "Peyğəmbər "Həccətül-vida"da Minada yerləşən "Xif" məscidində camaata xitabə söylədi, Allaha həmd-səna etdikdən sonra buyurdu:

نَضَّرَ اللهُ عَبْداً سَمِعَ مَقالَتِي فَوَعاها، ثُمَّ بَلَّغَها مَنْ لَمْ يَسْمَعْها، فَرُبَّ حامِلِ فِقْهٍ غَيْرُ فَقِيهٍ، وَرُبَّ حامِلِ فِقْهٍ اِلَى مَنْ هُوَ أَفْقَهُ مِنْهُ. ثَلاثٌ لا يَغُلُّ عَلَيْهِنَّ قَلْبُ امْرِءٍ مُسْلِمٍ: اِخْلاصُ الْعَمَلِ لِلّهِ، اَلنَّصِيحَةُ لِأَئِمَّةِ الْمُسْلِمِينَ، وَاللُّزُومُ لِجَماعَتِهِمْ. فَإِنَّ دَعْوَتَهُمْ مُحِيطَةٌ بِهِمْ. وَالْمُسْلِمُونَ اِخْوَةٌ تَتَكافَأُ دِماؤُهُمْ، وَيَسْعَي بِذِمَّتِهِمْ أَدْناهُمْ، وَهُمْ يَدٌ عَلَى مَنْ سِواهُمْ

*"Allah o bəndəni sevindirsin ki, mənim sözlərimi eşidib, onu yaxşı-yaxşı yadında saxlasın, sonra onu eşitməyənlərə çatdırsın. Çünki nə çox fiqh daşıyanlar vardır ki, özləri fəqih deyildirlər; nə çox fiqhi daşıyanlar vardır ki, onu özündən də daha fəqih olan bir şəxsə çatdırar. Üç şey vardır ki, müsəlman şəxsin qəlbi ondan boş olmaz:*
*1-Allah üçün əməllərini xalis etmək;*
*2-Müsəlmanların imamlarına qarşı xeyirxah olmaq;*
*3-Onların camaat namazına iltizamlı olmaq.*
*Çünki onların (camaat namazında iştirak edənlərin) duaları onları da əhatə edər. Müsəlmanlar (bir-biri ilə) qardaşdırlar, onların qanları (toxunulmazlıq baxımından) bərabərdir ..... Onlar başqaları qarşısında vahid bir əl kimidirlər."* [1]
"Ulul-əmr" (müsəlmanların imamları) üçün nəsihət etmək bundan ibarətdir ki, müsəlman şəxs onlar üçün kömək və göz olsun, onlara istinad etsin, arxalarını möhkəmləndirsin, onları müdafiə etməyə çalışsın, nəsihətlərini, rə'ylərini və məşvərətlərini onlara təqdim etsin, onları müdafiə etsin, müsəlmanların müşkül məsələlərini, qəm-qüssələrini və əzab-əziyyətlərini onlara çatdırsın. Bu da həmin əlaqənin müsbət yönündən ibarətdir.

[1] "Biharul-ənvar", 27-ci cild, səh.68.



# RƏHBƏRLİK VƏ ÖRNƏK

Vilayətlə əlaqədar məsələlərdən biri də Əhli-beyt (əleyhimus-salam)-ı özünə nümunə və örnək götürməkdən ibarətdir.
Şübhəsiz ki, Allah-təala İbrahimi və ondan sonra da Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-i bütün insanlar üçün gözəl bir örnək qərar vermişdir ki, insanlar onlara iqtida etsinlər, özlərini və əməllərini onların əməlləri ilə müqayisə edib, düzəltsinlər.
Allah-təala buyurur:

قَدْ كانَتْ لَكُمْ أُسْوَةٌ حَسَنَةٌ فِي إِبْراهِيمَ وَالَّذِينَ مَعَهُ

*"Şübhəsiz ki, sizin üçün İbrahim və onunla birgə olanlarda gözəl örnəklər və nümunələr vardır."*[1]
Yenə də buyurur:

لَقَدْ كانَ لَكُمْ فِي رَسُولِ اللهِ أُسْوَةٌ حَسَنَةٌ

*"Şübhəsiz ki, sizin üçün Allahın Rəsulunda gözəl örnək və nümunə vardır."*[2]
Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən sonra onun Əhli-beyti və haqq xəlifələri bizim üçün gözəl nümunələrdir. Biz həyatımızda və əlaqələrimizdə, ailə həyatımızda, əhl-əyalımızla və özümüzlə əlaqədar münasibətlərimizdə onları nümunə götürməliyik. Bu əlaqələrin önündə isə, bizimlə Allahın arasında olan əlaqə durur.
Nümunə götürmək tə'limdən və öyrənmək məsələsindən tamamilə fərqlidir. Əhli-beyt (əleyhimus-salam) bizim üçün həm müəllim, həm də nümunədir. Onlar müəllim olduqlarına görə, onların yol göstərmələrini və tə'limlərini əxz edirik;

[1] "Mümtəhinə" surəsi, ayə:4.
[2] "Əhzab" surəsi, ayə:21.

eləcə də bizim üçün örnəkdirlər ki, öz qədəmlərimizi onların qədəmlərinin yerinə qoyur, onların getdikləri yolla gedirik, yaşadıqları kimi yaşayırıq, onlar camaatla necə rəftar edirdilsə, biz də o cür rəftar edirik.

Əhli-beyt (əleyhimus-salam) imamlarının mə'sum olmasının mə'nası budur ki, onlar bütün insaniyyət üçün kamil nümunələrdir, Allah-təala onları bir me'yar olaraq qərar vermişdir ki, özümüzü onunla müqayisə edək: bizim yolumuz, məntiqimiz, gücümüz, hərəkətimiz, sükunətimiz, onların getdiyi yolla müvafiq olmağımız onların əməl, məntiq və hərəkətlərini əxz etməyimizlə müvafiq olarsa, onda bütün əməllərimiz səhihdir. Amma onların əksinə olarsa, xatadır – istər bir şey artırmaqla olsun, istərsə də bir şeyi azaltmmaqla – bunların arasında heç bir fərq yoxdur. Bu da "Camiə" ziyarətində qeyd olunan aşağıdakı kəlamın mə'nasıdır:

*"Sizdən ayrılanlar və sizdən qabağa keçənlər həlak olmuş, sizinlə birgə olanlar sizə qovuşmuşlar."*

Biz də Əhli-beyt (əleyhimus-salam)-ın sirə və sünnəsini mütaliə edib araşdırmalıyıq ki, öz yolumuzla onların yolu arasında tam uyğunluq olduğunu görək. İmam Əli (əleyhis-salam) buyurardı:

**أَلا وَإِنَّكُمْ لا تَقْدِرُونَ عَلَى ذٰلِكَ، وَلٰـــكِنْ أَعِينُونِي بِوَرَعٍ وَاجْتِهٰادٍ**

*"Agah olun! Həqiqətən, siz bunun hamısına qadir ola bilməzsiniz, lakin vərə və ictihadla mənə kömək edin."*

"Camiə" ziyarətində Əhli-beyt (əleyhimus-salam) "məsəli-ə'la" kimi, tə'bir olunur. "Məsəli-ə'la" da elə bir me'yardır ki, insanların onunla özlərini müqayisə etməsi və bu yolla düz yol tapmaları səhih olsun.

Əhli-beyt (əleyhimus-salam) əvvəlcə İbrahim (əleyhis-salam)-dən, ondan sonra Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən dəyər, əxlaq, bəndəçilik, ixlas, itaət və təqvanı irs aparmışlar.



Hər kəs peyğəmbərlərin hidayəti ilə hidayət olunmaq, onların yolunu getmək istəyirsə, onda bu işdə Əhli-beyt (əleyhimus-salam)-a iqtida etməli və onları özünə nümunə götürməlidir.

"Camiə" ziyarətində gələn aşağıdakı cümləyə diqqət yetirin:

**جَعَلَنِي اللهُ مِمَّنْ يَقْتَصُّ آثٰارَكُمْ وَيَسْلُكُ سَبِيلَكُمْ وَيَهْتَدِي بِهُدٰاكُمْ**

*"Allah-təala məni sizin əsərlərinizi söyləyən, yolunuzu gedən və sizin hidayətinizlə hidayət olunanlardan qərar versin!"*

# QƏM–QÜSSƏ VƏ SEVİNC

Qəm-qüssə insanın başqasına məhəbbət bəsləməsini göstərən iki halət və əlamətdir: Əgər bir şəxs başqasını sevirsə, öz təbiət və ruhi halətinə uyğun olaraq onun qüssələnməsi ilə qüssələnir, onun sevinməsilə də sevinir. İmam Cə'fər Sadiq (əleyhis-salam) da belə buyurmuşdur:

**شِيعَتُنَا مِنَّا يَسُوؤُهُمْ مَا يَسُوؤُنَا وَيَسُرُّهُمْ مَا يَسُرُّنَا**

*"Şiələrimiz bizdəndir, bizi narahat edən şeylər onları narahat edir, bizi sevindirən şeylər də onları sevindirir."*[1]

Səhih bir rəvayətdə (Mö'təsim Abbasinin dayısı olan) Rəyyan ibni Şəbib (raziyəl-lahu ənh) imam Riza (əleyhis-salam)-ın belə buyurduğunu nəql edir:

**يَابْنَ شَبِيبِ اِنْ سَرَّكَ أَنْ تَكُونَ مَعَنٰا فِي الدَّرَجٰاتِ الْعُلَى فِي الْجَنٰانِ، فَاحْزَنْ لِحُزْنِنٰا وَافْرَحْ لِفَرَحِنٰا وَعَلَيْكَ بِوِلاٰيَتِنٰا، فَلَوْ أَنَّ رَجُلاً تَوَلّىٰ حَجَرًا لَحَشَرَهُ اللهُ مَعَهُ يَوْمَ الْقِيٰامَةِ**

*"Ey İbni Şəbib! Əgər sən Cənnətin ən yüksək dərəcələrində bizimlə birgə olmağı arzu edirsənsə, onda bizim qəm-qüssəmizlə qüssələn, sevincimizlə sevin. Bizim*

---

[1] "Əmali" (Şeyx Tusi), 1-ci cild, səh.305.

*vilayətimizdən əsla ayrılma! Çünki əgər bir şəxs, hətta, daşa belə məhəbbət bəsləsə, Allah-təala Qiyamət günündə onu həmin daşla birgə məhşur edər.”*[1]

Məsmə deyir ki, Əbu Əbdillah İmam Cə’fər Sadiq (əleyhis-salam) mənə buyurdu: – “Ey Məsmə! Sən İraq əhlindənsən, imam Hüseyn (əleyhis-salam)-ın qəbrinin ziyarətinə gedirsənmi?”

Dedim: – “Xeyr! Mən Bəsrə əhlindənəm və məşhur bir adamam. Bizim yanımızda bu xəlifənin həvayi-nəfsinə tabe olanlardan, nasibi qəbilələrindən və s. çoxlu düşmənlərimiz vardır. Mən əmin deyiləm ki, onlar mənim vəziyyətimi Süleymanın oğluna çatdırmasınlar və nəticədə mənim vəziyyətim çətinləşməsin.”

Həzrət buyurdu: – “Yadındadırmı ki, sənə nə etdilər?”

Dedim: – “Bəli.”

Həzrət buyurdu: – “Sən əziyyət çəkib, narahat olursanmı?”

Dedim: – “Bəli, Allaha and olsun ki, qəmgin oluram, göz yaşlarım üzümə axır, buna görə də, əhli-əyalımın bunun əsərlərini üzümdə görməməsi üçün, onlarla birlikdə yeməyi bir qədər tə’xirə salıram ki, bu əsər-əlamət üzümdən getsin.”

Həzrət buyurdu:

رَحِمَ اللهُ دَمْعَتَكَ. أَمٰا اِنَّكَ مِنَ الَّذِينَ يُعَدُّونَ مِنْ اَهْلِ الْجَزَعِ لَنٰا وَالَّذِينَ يَفْرَحُونَ لِفَرَحِنٰا، وَيَحْزَنُونَ لِحُزْنِنٰا، وَيَخٰافُونَ لِخَوْفِنٰا، وَيُؤْمِنُونَ اِذٰا آمَنّٰا. أَمٰا اِنَّكَ سَتَرَى عِنْدَ مَوْتِكَ حُضُورَ آبٰائِي لَكَ وَوَصِيَّتَهُمْ مَلَكَ الْمَوْتِ بِكَ وَمٰا يُلَقُّونَكَ بِهِ مِنَ الْبِشٰارَةِ مٰا تَقَرُّ بِهِ عَيْنُكَ قَبْلَ الْمَوْتِ، فَمَلَكُ الْمَوْتِ أَرَقُّ عَلَيْكَ وَأَشَدُّ رَحْمَةً مِنَ الْاُمِّ الشَّفِيقَةِ عَلَى وَلَدِهٰا

*“Allah sənin göz yaşlarına rəhm etsin! Amma (bil ki, ) həqiqətən, sən bizim xatirimizə əziyyətə düşənlərdən hesab olunursan, bizim fərəh və sevincimizlə sevinənlərdən sayılırsan, bizim qəm-qüssələrimizlə qüssələnən,*

[1] “Əmali” (Şeyx Səduq), səh.79, məclis: 27.



*xovfumuzla qorxan, əmin-amanlığa çıxdığımız zaman əmin-amanlıq hissi keçirənlərdənsən. Həqiqətən, sən can verən zaman mənim ata-babalarımın sənin yanına gəldiyini və onların sənin barəndə ölüm mələyinə etdiyi tövsiyələri görəcəksən. Onların sənə verdiyi müqdəni eşidəcəksən ki, ölümdən qabaq gözlərin aydın olacaqdır. Ölüm mələyi səninlə çox mülayim davranacaq, səninlə öz övladına şəfqət (nəvaziş) və mərhəmət göstərən anadan da yaxşı rəftar edəcək.”*[1]

Əban ibni Təğlib deyir ki, Əbu Əbdillah (əleyhis-salam) buyurdu:

نَفَسُ الْمَهْمُومِ لِظُلْمِنٰا تَسْبِيحٌ، وَهِمَّةٌ لَنٰا عِبٰادَةٌ، وَكِتْمٰانُ سِرِّنٰا جِهٰادٌ فِي سَبِيلِ اللهِ

*“Bizə qarşı görülən zülmlərdən qəmli nəfəs çəkmək təsbihdir, bizim xatirimizə qəmgin olmaq ibadətdir, bizim sirrimizi gizlətmək Allah yolunda cihaddır.”*[2]

Biz də bu ailəyə mənsubuq, əqidədə, üsuli-dində, məhəbbətdə, düşmənçilikdə, vilayətdə, bəraətdə onlara mənsub edilirik, bu məhəbbət və vilayətin nişanələri də onların qəmlərinə görə qəmlənmək, sevinclərinə görə sevinməkdən ibarətdir.

Amma belə bir sual yaranır ki, nə üçün biz qəm-qüssəmizi aşkar edirik, nəticədə qəm-qüssə nəfsani halətdən şüar halətinə çıxır, camaatın arasında onu izhar edirik, dost-düşmən onu eşidib görür?! Nə üçün Əhli-beyt (əleyhimus-salam) hədislərində qəm-qüssənin aşkar edilməsi, xüsusilə imam Hüseyn (əleyhis-salam)-ın müsibətində ağlamağa dair çoxlu tə’kidlər olunmuşdur?!

Bikr ibni Məhəmməd Əzudi, Əbu Əbdillah (əleyhis-salam)-ın Füzeylə belə buyurduğunu nəql edir: “(Bizim əmrimizi dirçəltmək

[1] “Kamiluz-ziyarət”, səh.101.
[2] “Əmali” (Şeyx Müfid), səh.200; “Biharul-ənvar”, 44-cü cild, səh.278.

üçün,) bir yerdə oturub (söhbət edir və) hədis danışırsınızmı?”
Dedi: “Bəli, sənə fəda olum!”
Həzrət buyurdu:

إِنَّ تِلْكَ الْمَجَالِسَ أُحِبُّهَا، فَأَحْيُوا أَمْرَنَا فَرَحِمَ اللهُ مَنْ أَحْيَا أَمْرَنَا

*“Həqiqətən, mən bu məclisləri sevirəm. Bizim əmrimizi dirçəldin! Allah rəhmət etsin o kəsə ki, bizim əmrimizi dirçəldir.”*[1]

Bu kimi sevinc və kədərin e’lan olunması, zahirdə göstərilməsi və şüar halına salınması bizim imani şəxsiyyətimizin və əsaslarımızın, ictimai, siyasi və mədəni cəhətdən onlara mənsub edilməyimizin göstəricisidir. Bu e’lan, aşkar etmə və şüar da məhz Əhli-beyt (əleyhimus-salam)-a mənsub edilməyimizə görədir ki, uzun əsrlərdən bəri bu günə qədər bizim əqidəmizi əyintilərdən, sapmalardan qoruyub-saxlamışdır.

## MƏİYYƏT (BİRGƏLİK) VƏ TABEÇİLİK

Bəlkə də “məiyyət” (birgə və yanaşı olmaq) kəlməsi Əhli-beyt (əleyhimus-salam) məktəbinə mənsub olmaq halətindən tə’bir edilən ən gözəl ifadədir: yəni çətinlikdə və asanlıqda, asudəlikdə və şiddətli hadisələrdə, salamatlıqda və müharibədə birgə olmaq deməkdir. Bu kəlmə “Camiə” ziyarətində sanki təhrikedici musiqi tonu ilə varid olmuşdur. O, vilayət məsələsini belə bəyan edir: *“Məəkum, məəkum, la məə əduvvikum – Sizinləyəm, sizinləyəm, nəinki sizin düşməninizlə!”* Bə’zi rəvayətlərdə bu ibarədən sonra bu

[1] “Biharul-ənvar”, 44-cü cild, səh.282.



cümlə də qeyd olunur: *“La məə ğəyrikum – Sizdən qeyriləri ilə yox!”* Bu isə, *“la məə əduvvikum”* – ibarəsindən daha geniş mə’naya dəlalət edir.

## MƏDƏNİ-MAARİFDƏ TABEÇİLİK

Tabeçilik vilayətdə daha geniş bir mə’na ifadə edir; o, müharibə və sülh şəraitində, məhəbbət və ədavət məsələsində, fikir, düşüncə, mədəniyyət, mə’rifət və fiqh sahələrində tabeçiliyin hamısına şamildir. Biz elmi hər bir yerdə tapsaq – şərqdə və qərbdə – heç bir fərq qoymadan onu əxz etməkdə azadıq, lakin bizim üçün, caiz və səhih deyildir ki, dini mədəniyyət və mə’rifəti vəhy mənbəyindən başqa bir yerdən əxz edək. Əhli-beyt (əleyhimus-salam) da dini mədəniyyət və mə’rifəti yalnız vəhy mənbəyindən əxz edirdilər. Onlar nübüvvət Əhli-beyti, risalət mövqeyi, mələklərin gediş-gəliş yeri, vəhyin nazil olduğu məkan, elmin xəzinədarlarıdırlar. Belə ki, bunlar “Camiə” ziyarətində varid olmuşdur.

Elm ilə (dini) maarif arasında fərq vardır. İnsanın həyat və məişəti, həqiqəti, fikir tərzi, ibadəti, getdiyi yolu, əlaqəsi, camaatla qaynayıb-qarışması, əməl və hərəkəti, ictimai əməli, siyasi düşüncəsi və s. şeylərdə elmin birbaşa müdaxiləsi yoxdur. Amma dini maarif və mədəniyyətə gəldikdə isə, o, insanın fərdi və ictimai davranışı, fikir düşüncəsi, yaşayış və məişəti, şeylər barəsində təsəvvürlərinə birbaşa dəxalət edir.

Elm olduqca çoxdur, o cümlədən, al-ver, ticarət, iqtisadiyyat, mühasibat, riyaziyyat, həndəsə, me’marlıq, elektronika, atom, cərrahiyyə, tibb, fiziologiya, mexanika, fizika və s. İnsanlar onu hər bir mənbədən tapsalar əldə etməyə haqları vardır, onu hətta, kafirdən belə əldə edə bilərlər. Çünki elm silah və qüvvədən ibarətdir və mö’minlər

də silahı, hətta öz düşmənlərindən əldə edib qüvvələnə bilərlər.

Dini maarif və mədəniyyət isə, əxlaq, irfan, fəlsəfə, əqidə, fiqh, dua, tərbiyə və nəfsin saflaşdırılması, camaatla qaynayıb-qarışmaq, davranış qaydaları, ictimaiyyat, məişət, məhəbbət və s.dən ibarətdir. Bu, heç də yuxarıda qeyd edilən elmlər kimi deyildir. Bir kəs üçün caiz və səhih deyildir ki, dini mə'rifət və mədəniyyətini vəhy mənbəyindən başqa digər bir yerdən əldə etsin. Səbəbi də budur ki, insanın fərdi və ictimai davranışı, dərki, məişət yolu, Allah, camaat, özü ilə və s. əlaqəsinə dini mədəniyyət birbaşa dəxaləti vardır. Dini mədəniyyət və mə'rifət elmi bə'zi xatalardan qoruyub saxlayır, səlahiyyətli və hədəfli mədəniyyətə uyğun olmayan elmləri isə cəmiyyətə daxil olmaqdan qoruyub saxlayır. Çünki bə'zi elmlərin cəmiyyəti dağıtmaq və fəsad törətməklə nəticələnməsi mümkündür, dini mədəniyyət isə, hidayətçi və yol göstərən olduğu halda, elmin bu cür irəliləyişinin qarşısını alır, ondan insanlara xidmət üçün faydalı, mənfəətli bir vasitə düzəldir. Qur'an insan həyatı üçün bir mədəniyyət kitabıdır. Allah-təala onu insanın fikrini, düşüncəsini və seyri-sülukunu hidayət etmək üçün nazil etmişdir. O, sadəcə elm kitabı deyildir. Baxmayaraq ki, alimlər Qur'andan astronomiya, nəbatat, heyvanat, tibb, fəlsəfə və s. elmi sahələrdə çoxlu elmi məsələlər əldə edirlər, lakin Qur'an hidayətedici və mədəni bir kitab olaraq qalmaqdadır. Qur'ana belə bir nəzərlə müraciət etmək, sadəcə "elm kitabıdır", "Allah-təala onu insanlara fizika, kimya, nəbatat və s. elmləri öyrətmək üçün göndərmişdir" - deyə fikirləşmək yanlışdır; əksinə o, ilahi maariflə dolu olan bir kitabdır. Allah-təala onu nazil etmişdir ki, insanların necə yaşamasını, İlahi məsələləri necə başa düşməsini, varlıq aləmi və özü barəsində düzgün təsəvvür yaratmasını, Allahı necə təsəvvür etməsini Allah, insan, özü, cəmiyyət və



s. ilə düzgün davranmasını və düzgün düşünməsini onlara öyrətsin. Allah-təala buyurur:

شَهْرُ رَمَضَانَ الَّذِي أُنزِلَ فِيهِ الْقُرْآنُ هُدًى لِّلنَّاسِ وَبَيِّنَاتٍ مِنَ الْهُدَى وَالْفُرْقَانِ

*"Ramazan ayı bir aydır ki, Allah onda Qur'anı nazil etmiş, onu insanlar üçün hidayət və fürqandan ibarət olan açıq bir bəyyinə (dəlil) qərar vermişdir."*[1]

Yenə buyurur:

وَاذْكُرُواْ نِعْمَتَ اللّهِ عَلَيْكُمْ وَمَا أَنزَلَ عَلَيْكُمْ مِنَ الكِتَابِ وَالْحِكْمَةِ يَعِظُكُم بِهِ

*"Allahın sizə əta etdiyi ne'mətləri yada salın; və o şeyi ki, sizə nazil edib – kitab, hikmət ki, onunla moizə qəbul edirsiniz."*[2]

Yenə buyurur:

هَذَا بَيَانٌ لِّلنَّاسِ وَهُدًى وَمَوْعِظَةٌ لِّلْمُتَّقِينَ

*"Bu, insanlar üçün bir bəyandır, müttəqilər üçün hidayət və moizədir."*[3]

Yenə buyurur:

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءَكُمْ بُرْهَانٌ مِّنْ رَّبِّكُمْ وَأَنْزَلْنَا إِلَيْكُمْ نُورًا مُّبِينًا

*"Ey insanlar! Sizin üçün Rəbbiniz tərəfindən bir bürhan və dəlil gəlmişdir; sizə doğru aşkar bir nur göndərmişik."*[4]

Yenə buyurur:

وَلَقَدْ جِئْنَاهُمْ بِكِتَابٍ فَصَّلْنَاهُ عَلَى عِلْمٍ هُدًى وَرَحْمَةً لِّقَوْمٍ يُؤْمِنُونَ

---

[1] "Bəqərə" surəsi, ayə:181.
[2] "Bəqərə" surəsi, ayə:237.
[3] "Ali-Imran" surəsi, ayə:138.
[4] "Maidə" surəsi, ayə:15-16.

*“Şübhəsiz, sizin üçün bir kitab göndərdik ki, onu elm əsasında təfsil vermişik (fəsil-fəsil etmişik); o, iman gətirən qövm üçün hidayət və rəhmətdir.”*[1]
Yenə buyurur:

هٰذٰا بَصٰائِرُ مِنْ رَّبِّكُمْ وَهُدًى وَرَحْمَةٌ لِّقَوْمٍ يُؤْمِنُونَ

*“Bu, Rəbbiniz tərəfindən olan bəsirətlər, imanlı qövmlər üçün hidayət və rəhmətdir.”*[2]
Deməli, Qur’an hidayət və mə’rifət kitabı, insanların həyatında bir nur, onların bəsirətini açan hidayət və moizədir. Buna görə də, bizim üçün səhihdir ki, elmi hər hansı bir mənbədən və hər hansı bir kəsin əlində olursa olsun, hətta düşmənlərimizdən belə əxz edək. Amma bizim üçün səhih deyildir ki, dini maarifimizi, onları vəhy mənbəyindən bizə nəql edən mə’sum mənbədən qeyri bir yerdən əldə edək. Çünki dini maarifdə xata və inhiraf (əyrilik) ehtimalı güclüdür, amma elmdə belə deyildir.
Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm) vəhyin nazil olduğu mə’sum (xatasız) bir mənbə olmaqla, həmin mətləbləri bizə çatdırmışdır. O Həzrətdən sonra İlahi vəhy kəsilmişdir, lakin Peyğəmbər bizim aramızda öz Əhli-beytindən olan xəlifələr qərar vermişdir ki, onlar Qur’anın bərabəridirlər. Belə ki, dini maarif və mədəniyyəti Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm)-dən əxz etmiş, o Həzrətdən dini maarifi, Allahın hüdudlarını, hökmlərini və halal-haram məsələlərini, sünnələrini, ədəb qaydalarını, əxlaq normalarını, üsul və fürui-dinin hamısını irs aparmışlar. Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm) də onları, Allah-təala yer üzünü və onda olanlara varis olana (dünyanın sonuna) qədər (özündən sonra)

[1] “Ə`raf” surəsi, ayə:25.
[2] “Ə`raf” surəsi, ayə:203.



nəsilbənəsil müsəlmanların bütün bu məsələlərdə müraciət yeri qərar vermiş, Qur’anın tayı-bərabəri hesab etmişdir. Bu da sünnü və şiələrin nəzərində səhih olan bir hədisdə – “Səqəleyn” hədisində bəyan edilmişdir: Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm) özündən sonra Qiyamətə qədər müsəlmanlara Qur’ana və Əhli-beytinə müraciət etməyə əmr etmiş və bu ikisinə birlikdə sarılmağı zəlalət və inhirafdan, ətrilikdən əmin-amanlıq vasitəsi qərar vermişdir.[1]
Hədisin aşkar bəyanı budur:

إِنِّي تٰارِكٌ فِيكُمُ الثَّقَلَيْنِ كِتٰابَ اللهِ وَعِتْرَتِي اَهْلَ بَيْتِي، وَاِنَّهُمٰا لَنْ يَفْتَرِقٰا، حَتّيٰ يَرِدٰا عَلَيَّ الْحَوْضَ، مٰا اِنْ تَمَسَّكْتُمْ بِهِمٰا لَنْ تَضِلُّوا بَعْدِي

*“Həqiqətən mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm – Allahın kitabını və itrətim olan Əhli-beytimi. Bunlar Hovuzun yanında mənə gəlib çatana qədər bir-birindən ayrılmazlar. Onlara sarıldığınız vaxta qədər məndən sonra heç vaxt yolunuzu azmazsınız.”*
İslami mənbələrdə bu hədisin sözləri bir-birinə yaxın məzmunda ifadə olunmuşdur. Hədisin sözlərinin bir qədər fərqli olması bunu göstərir ki, Həzrət Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)

[1] Bu rəvayəti Müslüm öz “Səhih” kitabının “Fəzailus-səhabə” bölməsində, Termizi “Səhih”ində, 2-ci cild, səh.308, Əhməd “Müsnəd” kitabının bir neçə yerində, Darəmi “Sünən” kitabı, 2-ci cild, səh.431-də bir neçə sənədlə, Hakim “Müstədrək”də, 3-cü cild, səh. 109-da çoxlu sənədlərlə nəql etmiş və şeyxeynin şərti ilə səhih bilmişdir. Beyhəqi “Sünən” kitabında, 2-ci cild, səh.148, 7-ci cild, səh.30, İbni Həcər “Əs-səvaiq”, səh.89-da nəql edərək səhih bilmişdir. İbni Əsir Cəzəri “Usdul-ğabə”, 2-ci cild, səh.12-də bunu nəql etmişlər. Biz burada bu hədisin sənədini təqdim etmək və səhih olduğunu bəyan etməyə lüzum görmürük. Çünki bu məsələ qeyd etdiyimizdən daha çox aşkardır və bu barədə Müslümün və Termizinin öz “Səhih” kitablarında nəql etməsi kifayətdir.

o hədisi çoxlu yerlərdə təkrar etmişdir. Bu yerlərdən biri də Qədir-Xumdan ibarətdir. "Səhihi Müslüm"də Zeyd ibni Ərqəmin dilindən rəvayət olunmuşdur ki, Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm) belə buyurur:

مَثَلُ اَهْلِ بَيْتِي مَثَلُ سَفِينَةِ نُوحٍ مَنْ رَكِبَهٰا نَجٰا، وَمَنْ تَخَلَّفَ عَنْهٰا غَرِقَ

*"Mənim Əhli-beytimin məsəli Nuhun gəmisinin məsəli kimidir: Hər kəs ona minsə, nicat tapar, hər kəs də ondan ayrılsa qərq olar."*[1]

Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm) yenə buyurmuşdur:

أَهْلُ بَيْتِي أَمٰانٌ لِاُمَّتِي مِنَ الْاِخْتِلاٰفِ

*"Mənim Əhli-beytim ümmətimin ixtilafdan əmin-amanlıq vasitəsidir."*[2]

Peyğəmbərin həmişə müsəlmanlara, özündən sonra onun öz Əhli-beytinə müraciət etmələrinə, din, şəriət və ilahi

[1] Hakim "Müstədrəküs-səhiheyn", 2-ci cild, səh.343-də nəql etmiş və Müslümün şərti ilə səhih bilmişdir. Müttəqi Hindi "Kənzül-Ümmal", 6-cı cild, səh.216-da, Heysəmi "Məcməüz-zəvaid"də 9-cu cild, səh.18, Əbu Nəim "Hilyətül-Övliya", 4-cü cild, səh.306, Xətib "Tarixi Bağdad", 12-ci cild, səh.19, Süyuti "Dürrül-mənsur"da "Bəqərə" surəsinin ***"və iza qulnədxulu hazihil-qəryətə fəkulu minha həysu şi`tum"*** ayəsinin təfsirində, Təbəri "Zəxairul-üqba"da, Mənavi "Kəşfül-həqaiq", səh.132, İbni Həcər "Səvaiq"də nəql etmiş və Seyyid Firuzabadi "Fəzailul-xəmsə minəs-sihahis-sittə" kitabında (2-ci cild, səh.67-71) onun sənədlərini nəql etmişdir.

[2] "Müstədrəküs-səhiheyn", 3-cü cild, səh.49-da nəql etmiş və səhih bilmişdir. İbni Həcər "Səvaiq"də, səh.111, Heysəmi "Məcməuz-zəvaid"də, 9-cu cild, səh.174, Mənavi "Feyzül-Qədir" 6-cı cild, səh.297-də, Müttəqi Hindi "Kənzül-ümmal", 7-ci cild, səh.217-də nəql etmişdir. Bunun nəql olunma yollarından bir çoxunu Firuzabadi "Fəzailül-xəmsə minəs-sihahis-sittə", 2-ci cild, səh.71-73-də nəql etmişdir.



maariflərini, Allahın tə'yin elədiyi həddi-hüdudu və Peyğəmbərin sünnəsini, halal-haram və s. məsələləri onlardan əxz etməsinə əmr etməsini göstərən çoxlu aşkar hədislər vardır. Bu hədislərdən bir qismini Firuzabadi özünün dəyərli kitabı olan "Fəzailül-xəmsə minəs-sihahis-sittə" kitabında cəm etdiyinə görə, onun üzərində daha artıq söhbət etmirik. Deməli, Əhli-beyt (ələyhimus-salam) *"Risalətin nazil olduğu və mələklərin gəl-get etdiyi yer, vəhy nazil olan məkan, elm xəzinələri..., qaranlıqların çıraqları, təqva əlamətləri, hidayət imamları, peyğəmbərlərin vərəsələri və Allah-təalanın dünya əhlinə olan höccətləridir."* (Bunlar "Camieyi-kəbirə" ziyarətində qeyd olunmuşdur.)

Həmçinin onlar *"İlahi mə'rifətin hülul etdiyi yerlər, Allah hikmətinin mə'dənləri, Allah kitabının daşıyıcıları, Onun höccəti, yolu, nuru və bürhanıdır."* (Bu da "Camieyi-kəbirə" ziyarətində varid olmuşdur.)

Deməli, hər kəs onlardan ayrılsa, şübhəsiz, zəlalət yolunu getmiş olar. İstər onlardan qabağa keçmiş, istərsə də onlardan geri qalmış olsun. Səbəbi də budur ki, Allah-təalanın yolu vahiddir, onda müxtəlifliyə, çoxluğa yol yoxdur. Hər kəs onların yolu ilə getsə, Allaha tərəf hidayət olunar; hər kəs onlardan ayrılsa, Allah-təalanın istədiyi şeylərə nail ola bilməz. Bunu Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm) çoxlu yerlərdə və aşkar şəkildə e'lan etmişdir. Onlardan birini "Səqəleyn" hədisində zikr etməklə kifayətlənirik: *"Onlara sarıldığınız vaxta qədər məndən sonra yolunuzu azmazsınız."*

Bu məsələ ictihad yönlü məsələlərdən deyildir ki, bə'ziləri onunla hidayət olunsun, digərləri isə yolunu azsın; həmçinin, (bə'zilərinin dediyi kimi) Allah-Taala hidayət olunanlara iki savab versin, xata yolu ilə gedənlərə isə bir savab.

Deməli, Allahın və Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-in aşkar buyurduğu mövzu ola-ola heç bir kəsin öz şəxsi rə’yini əxz etməsi səhih deyildir. Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm) də aşkar şəkildə ondan sonra camaatın ixtilaflı olduğu məsələlərdə öz Əhli-beytinə müraciət etməsini bildirmişdir. “Camiə” ziyarətində deyilir:

فَالرّاغِبُ عَنْكُمْ مٰارِقٌ وَاللاّزِمُ لَكُمْ لاٰحِقٌ وَالْمُقَصِّرُ فِي حَقِّكُمْ زٰاهِقٌ وَالْحَقُّ مَعَكُمْ وَفِيكُمْ وَمِنْكُمْ وَاِلَيْكُمْ وَاَنْتُمْ أَهْلُهُ وَمَعْدِنُهُ وَمِيرٰاثُ النُّبُوَّةِ عِنْدَكُمْ وَاِيٰابُ الْخَلْقِ اِلَيْكُمْ وَحِسٰابُهُمْ عَلَيْكُمْ وَفَصْلُ الْخِطٰابِ عِنْدَكُمْ وَآيَاتُ اللَّهِ لَدَيْكُمْ وَعَزٰائِمُهُ فِيكُمْ وَنُورُهُ وَبُرْهٰانُهُ عِنْدَكُمْ

*“Sizdən ayrılanlar dindən çıxar, sizinlə yanaşı olan sizə mülhəq olar (qovuşar), sizin haqqınızda təqsirə yol verən məhv olar. Haq sizinlədir, sizdədir, sizdəndir, sizin üçündür; siz haqqın mə’dənisiniz, “fəsli xitab” (mübahisəli məsələləri həll edərək aradan qaldıran son hökm) sizin yanınızdadır, Allahın nuru və bürhanı sizin ixtiyarınızdadır.”*

Hər kəs Allahın razılığını, Onun yolunu və hidayətini istəyirsə, hökmən onlardan əxz etməli, onların yolunu getməlidir. Çünki Əhli-beyt (əleyhimus-salam) yalnız Allaha doğru də’vət və insanları yalnız Ona doğru hidayət edirlər. Həmin ziyarətdə deyilir:

إِلَى اللَّهِ تَدْعُونَ وَعَلَيْهِ تَدُلُّونَ وَبِهِ تُؤْمِنُونَ وَلَهُ تُسَلِّمُونَ وَبِاَمْرِهِ تَعْمَلُونَ وَاِلَى سَبِيلِهِ تُرْشِدُونَ وَبِقَوْلِهِ تَحْكُمُونَ سَعَدَ مَنْ وٰالاٰكُمْ وَهَلَكَ مَنْ عٰادٰاكُمْ وَخٰابَ مَنْ جَحَدَكُمْ وَضَلَّ مَنْ فٰارَقَكُمْ وَفَازَ مَنْ تَمَسَّكَ بِكُمْ وَاَمِنَ مَنْ لَجَاَ اِلَيْكُمْ وَسَلِمَ مَنْ صَدَّقَكُمْ وَهُدِيَ مَنِ اعْتَصَمَ بِكُمْ

*“Siz yalnız Allaha doğru də’vət edib çağırır, Ona doğru yol göstərir, ona iman gətirir, Ona təslim olur, Onun əmri əsasında əməl edir, insanları Onun yoluna hidayət edir və*



*Onun sözü və kəlamı əsasında hökm edirsiniz. Sizi sevənlər səadətə çatmış, sizinlə düşmən olanlar həlak olmuşdur. Sizi inkar edənlər bədbəxt olmuş, sizdən ayrılanlar zəlalətə düşmüş, sizə sarılanlar qurtuluşa nail olmuş, sizə sığınanlar əmin-amanlığa çatmış, sizi təsdiq edənlər salamat qalmış, sizə sarılanlar və pənah gətirənlər isə hidayət olunmuşdur.”*

# İTAƏT VƏ TƏSLİM

Vilayətin zatı və cövhəri itaət və təslimdən ibarətdir.

İtaət əgər öz yerində olarsa, böyük dəyərə malikdir, öz yerindən başqa yerdə olarsa, dəyərsiz və hətta dəyərin ziddinə olacaqdır. Üsyankarlıq, fərmandan çıxmaq və uzaq düşmək öz yerində olarsa, yə’ni tağutun əleyhinə olarsa, onda böyük dəyərə malikdir, amma Allaha, Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-ə, Əhli-beytə – müsəlmanların vəliyyi-əmrlərinə (əmr və ixtiyar sahiblərinə) qarşı olarsa, dəyərin ziddinədir.

“Zümər” surəsinin 17-ci ayəsi bu iki dəyəri birlikdə bəyan edir:

وَالَّذِينَ اجْتَنَبُوا الطّـٰاغُوتَ أَن يَعْبُدُوهٰا وَاَنٰابُوا إِلَى اللَّهِ لَهُمُ الْبشْرَى

*“O kəslər ki, tağutdan çəkindilər və ona ibadət etməyib, Allah dərgahına qayıtdılar, onlara müqdə olsun!”*

“Nəhl” surəsində isə deyilir:

أَنِ اعْبُدُواْ اللّهَ وَاجْتَنِبُواْ الطّـٰاغُوتَ

*“Allaha ibadət edin və tağutdan isə çəkinin!”*[1]

İtaət, ibadət, rəfz və ictinab (uzaqlıq) vahid bir işdir. Allah-təala bizə Onun Özünə, Rəsuluna və Rəsulundan sonra əmr sahiblərinə itaət etməyi vacib bir əməl kimi buyurmuşdur:

[1] “Nəhl” surəsi, ayə:36

أَطِيعُواْ اللّهَ وَأَطِيعُوا الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ

*"Allaha, Peyğəmbərə və sizdən olan əmr sahiblərinə itaət edin!"*
Bununla eyni zamanda, bizə əmr etmişdir ki, tağutdan uzaqlaşıb onun qarşısında üsyankarlıq edək və onunla qarşılaşaq:

يُرِيدُونَ أَن يَتَحَاكَمُواْ إِلَى الطَّاغُوتِ وَقَدْ أُمِرُواْ أَن يَكْفُرُواْ بِهِ

*"Onlar istəyirlər ki, (öz mübahisəli işlərini həll etmək üçün) tağuta müraciət etsinlər, halbuki, Allah onların bu işə kafir olmalarını (onları qəbul etməmələrini) əmr etmişdir."*[1]
Əhli-beyt imamları da Peyğəmbəri-Əkrəm (səllallahu ələyhi və alihi və səlləm)-dən sonra əmr sahibləri olduğuna görə, onlara itaət etmək və onların tələb etdiyi işlərdə təslim olmaq vacibdir.
Onlar:

سَاسَةَ الْعِبَادِ وَأَرْكَانَ الْبِلاَدِ

*"Bəndələrin düzgün siyasətçiləri, ölkələrin sütunları-dırlar",*

حُجَجِ اللَّهِ عَلَى أَهْلِ الدُّنيَا

*"Allahın dünya əhlinə olan höccətləridirlər."*

## İTAƏTDƏ TOVHİD

Biz imanın elə bir dərəcəsinə malik olmuşuq ki, ondan yuxarı səviyyəli bir iman yoxdur. Yə'ni itaət yalnız Allaha məxsusdur və Onun izni və əmri olmadan Ondan qeyrisinin qarşısında itaət etmək caiz deyildir. Peyğəmbər (səllallahu ələyhi və alihi və səlləm)-ə

[1] "Nisa" surəsi, ayə:60



və onun Əhli-beytinə itaət etmək Allaha itaət etməkdən mənşə'lənir:

مَنْ أَطَاعَكُمْ فَقَدْ أَطَاعَ اللَّهَ وَ مَنْ عَصَاكُمْ فَقَدْ عَصَى اللَّهَ

*"Hər kəs sizə itaət etsə, şübhəsiz, Allaha itaət etmişdir, hər kəs sizə üsyankarlıq etsə, şübhəsiz, Allaha qarşı üsyankarlıq etmişdir.*[1]

## TƏSLİM

Taətin (itaətin) müşahidə olunduğu yerlərdən biri təslimdir. Bu da kamil və tam (qeydsiz-şərtsiz) itaət etməkdən, e'tiraz edib uzaqlaşmamaqdan ibarətdir. Hər kəs təslim hallarını – qəlbin təslimini aşkar etsə, onda təslim olub sizinlə olar; qəlbim sizinlədir, sizə təslimdir və rə'yim də sizə tabedir:

مُسَلِّمٌ فِيهِ مَعَكُمْ وَقَلْبِي لَكُمْ مُسَلِّمٌ، وَرَأْيِي لَكُمْ تَبَعٌ

*"Sizinlə saziş edənlərlə sazişdəyəm, sizinlə saziş etməyənlərlə hərbdəyəm."*[2]
"Sülh" və "hərb" vilayət və bəraətin iki cəhətidir. Vilayət təkcə ulil-əmrlə sazişçilik mə'nasına deyil; onun bir-birinə paralel olan iki yönü vardır. O da: təkcə sizin özünüzlə deyil, sizinlə saziş edənlərlə də sülhdəyəm. Hərb də sizinlə hərb edənlərlədir.
Vilayət və bəraət barəsində bu dəqiq məfhum, yə'ni *"sizinlə sazişdə olanlarla sazişdəyəm, sizinlə müharibədə olanlarla müharibədəyəm"* – cəmiyyətdəki siyasi inzibatçılığı yeni bir tənzimlə – sülh və hərb "məntəqəli" iki hissəyə ayırır. Hərbin mə'nası ayrılmaq və bəraət e'lan etməkdir, amma bu,

[1] "Camiə" ziyarəti
[2] "Camiə" ziyarəti

müharibə aparmaq mə'nasında deyildir. Bəraətlə "uzaq düşmək" və "müharibə aparmaq" arasında çox fərq vardır.

Bizim ictimai əlaqələrimiz maddi və siyasi mənafelər əsasında deyil, yalnız vilayət və bəraət əsasında tənzim olunur. Biz bə'zi hallarda öz əhl-əyalımız və qonşularımızla əlaqələri kəsirik, bunun müqabilində də zaman və məkan cəhətindən bizimlə uzaq olan şəxslərlə əlaqə bərqərar edirik.

"Aşura" ziyarətində deyilir:

اِنّي سِلْمٌ لِمَنْ سٰالَمَكُمْ وَحَرْبٌ لِمَنْ حٰارَبَكُمْ وَوَلِيٌّ لِمَنْ وٰالـٰاكُمْ وَعَدُوٌّ لِمَنْ عٰادٰاكُمْ.

*"Sizinlə sülh edənlərlə sülhdə, hərb edənlərlə hərbdəyəm; sizi sevənləri sevən və sizinlə düşmən olanlara düşmənəm."*

Mö'təbər sənədlərlə Əmmardan nəql olunmuşdur ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) Əli (əleyhis-salam) barəsində buyurmuşdur:

إِنَّهُ مِنّي وَاَنَا مِنْهُ... حَرْبُهُ حَرْبِي، وَسِلْمُهُ سِلْمِي، وَسِلْمِي سِلْمُ اللهِ

*"Həqiqətən, o məndəndir, mən də ondanam... Onunla hərb etmək mənimlə hərb etməkdir, onunla sülh etmək mənimlə sülh etməkdir, mənimlə sülh etmək də Allahla sülh etməkdir."*

Termizi öz "Səhih" kitabında Zeyd ibni Ərqəmdən nəql edir ki, Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) Əli, Fatimə, Həsən və Hüseyn (əleyhimus-salam)-a buyurdu:

أَنَا حَرْبٌ لِمَنْ حٰارَبْتُمْ وَسِلْمٌ لِمَنْ سٰالَمْتُمْ



*"Mən sizinlə hərb edənlərlə hərbdəyəm, sizinlə sazişdə olanlarla sazişdəyəm."*[1]

İbni Macə öz "Sünən" kitabında nəql edir ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) belə buyurdu:

أَنَا سِلْمٌ لِمَنْ سٰالَمْتُمْ وَحَرْبٌ لِمَنْ حٰارَبْتُمْ

*"Mən sizin saziş etdiyiniz şəxslərlə sazişdəyəm, sizin müharibə etdiyiniz şəxslərlə müharibədəyəm."*[2]

Hakim də bunu öz "Müstədrək" kitabında nəql etmişdir.[3]

İbni Əsir Cəzəri "Usdul-ğabə"də (5-ci cild s. 523), Müttəqi Hindi "Kənzül-ümmal"da (6-cı cild s. 216), Süyuti "Dürrül-mənsur"da "Əhzab" surəsinin "Təthir" ayəsinin təfsirində, Meysəmi isə "Məcməuz-zəvaid"də[4] nəql etmişdir. Bu da hərb və sülh ilə əlaqədar tovhidin mə'nasıdır. Çünki Əhli-beytlə hərb etmək Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-lə hərb, Əhli-beytlə saziş etmək Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-lə saziş etməkdir, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-lə hərb etmək Allaha qarşı müharibə aparmaq, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-lə saziş etmək Allahla saziş etməkdir. Beləliklə, vilayət və bəraətin bütün mə'naları tovhid çərçivəsindədir.

---

[1] "Səhihi Termizi", "Mənaqib" kitabı, 16-cı bab; Fatimə binti Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm)-in fəzilətləri, 2-ci cild, səh.319 1292-ci hicri-qəməri tarixli çap.

[2] "Sünəni ibni Macə", müqəddimə, 11-ci bab, səh.145

[3] "Müstədrəküs-səhiheyn", Hakim Nişapuri, 12-ci cild, səh.149 "Mə`rifətüs-səhabə kitabı", *"Əhli-beytlə düşmənçilik edənlər oruc tutub namaz qılsalar da belə, cəhənnəm oduna daxil olacaqlar."*

[4] 9-cu cild, səh.169. O, hədisin mənbələrini Firuzabadinin "Fəzailul-xəmsə minəs-sihahis-sittə" kitabından (1-ci cild, səh.396-99) nəql etmişdir.

# KÖMƏK VƏ İNTİQAM

Vilayət olduqca çətin bir məsələdir və o da həm asayişdə, həm də çətin şəraitdə sülh və hərbdən ibarətdir. Əgər bu məsələ təkcə sülh və asayiş şəraitlərinə məxsus olsaydı, onda vilayət işi çox asan bir məsələ olardı. Vilayətin bu çətin yönü bizdən kömək və intiqamçılıq ruhiyyəsini istəmiş, kömək olmadan vilayəti qəbul etməmişdir. Allah-təala buyurur:

وَالَّذِينَ آوَوْاْ وَنَصَرُواْ أُوْلَـئِكَ بَعْضُهُمْ أَوْلِيَاءُ بَعْضٍ

*“O kəslər ki, ona (Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-ə) pənah verib kömək etdilər, onların bə’ziləri bə’zilərinin vəlisi, dostudur.”*[1]

Həmçinin haqq olan vilayət də heç vaxt intiqamdan ayrılmaz. Sahibini cihada, müharibəyə, müəyyən adamlarla əlaqəni kəsməyə, müəyyən işləri yerinə yetirməyə və müəyyən zərərlərə dözməyə də’vət etməyən vilayət həqiqi vilayət sayılmır; o, sadəcə zahiri vilayət hesab olunur. “Aşura” ziyarətində Allahdan acizanə şəkildə istəyirik ki, Kərbəlada zülm və ədavət üzündən, nahaq yerə axıdılan qanların intiqamını almağı bizə nəsib etsin:

فَاسْئَلُ اللّهَ الَّذِي اَكْرَمَ مَقامَكَ وَاَكْرَمَني بِكَ، أَنْ يَرْزُقَنِي طَلَبَ ثارِكَ مَعَ إِمامٍ مَنْصُورٍ مِنْ اَهْلِ بَيْتِ مُحَمَّدٍ صَلَّي اللّهُ عَلَيْهِ وَآلِهِ

*“Səni əzizləyən və sənin xatirinə məni əzizləyən Allahdan istəyirəm ki, Mühəmməd (səlləllahu ələyhi və alihi və səlləm) Əhli-beytindən olan kömək olunmuş bir imamla birlikdə sənin qanının intiqamını almağı mənə nəsib etsin.”*

Bu ziyarətin başqa bir yerində deyilir:

---

[1] “Ənfal” surəsi, ayə:74



وَاسْئَلُهُ أَنْ يُبَلِّغَنِي الْمَقامَ الْمَحْمُودَ لَكُمْ عِنْدَ اللّهِ وَاَنْ يَرْزُقَنِي طَلَبَ ثارِكُمْ مَعَ اِمامٍ هُدًي ظـاهِرٍناطِقٍ بِالْحَقِّ مِنْكُمْ

*“Allahdan istəyirəm ki, məni sizin Allah yanında olan məqami-məhmuda – şəfaət məqamınıza çatdırsın, sizdən olan hidayətçi, zahir və haqq üzrə danışan imamla birlikdə intiqamınızı almağı mənə nəsib etsin!”*

“Camiə” ziyarətində imamlara kömək etmək üçün kamil hazırlığımızı bildirərək belə deyirik: “*...və mənim köməyim sizin üçün hazırdır.*”

# MƏ`HƏBBƏT VƏ MƏVƏDDƏT

Bu, Əhli-beyt (ələyhimus-salam)-ın vilayətini qəbul etməyin əsas şərtlərindən biridir. Bununla əlaqədar Qur’anda bir ayə nazil olaraq hər bir dövrdə insanları Əhli-beytə məhəbbət bəsləməyə də’vət edir:

قُل لاَ أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا اِلاَّ الْمَوَدَّةَ فِي الْقُرْبٰى

*“(Ey Peyğəmbər ümmətə) de: Bu risalət müqabilində sizdən ən yaxın adamlarıma məhəbbət bəsləməkdən başqa heç bir şey istəmirəm.”*[1]

“Qurba”dan (ən yaxın adamlardan) məqsədin Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-in Əhli-beyti olmasında heç bir ixtilaf yoxdur.

“Camiə” ziyarətindəki açıq-aşkar bəyan da elə bu vacib məhəbbətə işarə edir:

وَلَكُمُ الْمَوَدَّةُ الْواجِبَةُ وَ الدَّرَجاتُ الرَّفِيعَةُ

---

[1] Əhli-beyt (ələyhimus-salam) barəsində nazil olan ayələrin mənbələrinə bax: “Dəlailus-sidq”, 2-ci cild, səh.120-126, Qahirə çapı; “Əl-qədir”, 2-ci cild, səh.306-310, 3-cü cild, səh.171, Tehran çapı. (Bu, “Şura” surəsinin 23-cü ayəsidir.)

*"Allah tərəfindən vacib olunmuş məhəbbət və uca dərəcələr yalnız sizə məxsusdur."*
İtaət və məhəbbət vilayətin məğzi, ruhu və onun covhəridir. İmam Cə'fər Sadiq (əleyhis-salam)-dan məhəbbət barəsində soruşub dedilər: "Məhəbbət dindəndirmi?" Həzrət buyurdu:

وَهَلِ الدِّينُ اِلاّ الْحُبُّ. وَلَوْ أَنَّ اِنْساٰنًا أَحَبَّ حَجَرًا لَحَشَرَهُ اللهُ مَعَهُ

*"Məgər din məhəbbətdən başqa bir şeydirmi?! Əgər bir insan bir daşı sevsə, Allah-təala onu həmin daşla birlikdə məşhur edər."*
Əvvəldə də zikr etdiyimiz kimi, məhəbbət tovhid çərçivəsindədir. Hər kəs Allahı sevsə, Onun Peyğəmbərini də, Əhli-beytini də sevər. Bunun müqabilində isə, hər kəs Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-i və onun Əhli-beytini sevsə, Allahı da sevər. Birinci müddəa ilə əlaqədar Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm) buyurmuşdur:

أَحِبُّوني بِحُبِّ اللهِ، وَاَحِبُّوا اَهْلَ بَيْتِي بِحُبِّي

*"Allah məhəbbətinə görə məni sevin, mənə məhəbbət xatirinə də Əhli-beytimi sevin!"*[1]
İkincisi barəsində isə "Camiə" ziyarətində belə deyilir:

مَنْ أَحَبَّكُمْ فَقَدْ أَحَبَّ اللَّهَ وَمَنْ أَبْغَضَكُمْ فَقَدْ أَبْغَضَ اللَّهَ

*"Hər kəs sizi sevsə, şübhəsiz, Allahı sevmişdir. Hər kəs sizinlə düşmən olsa, şübhəsiz, Allahla düşmənçilik etmişdir."*[2]
Deməli, hər kəs Allahı sevsə, bu məhəbbət xatirinə mö'minləri də sevməlidir. Bunun əksinə olaraq, hər kəs mö'minləri sevsə, şübhəsiz, Allahı da sevməlidir.

---

[1] "Səhihi Termizi" 13-cü cild, səh.261
[2] Bu cümlə "Gamiə" ziyarətində iki dəfə təkrar olunmuşdur.



Sözsüz ki, Allaha məhəbbət insanın qəlbində olan məhəbbətin ən güclü və ən şiddətli dərəcəsində olmalıdır. Yaxşı olar ki, bu məhəbbət insanın bütün həyatına hakim olsun ki, insan yalnız Allahı sevsin və Allah yolunda bir kəsi sevsin.
Birinci nöqtə barəsində Allah-təala buyurmuşdur:

قُلْ إِنْ كاٰنَ آباٰؤُكُمْ وَابْناٰؤُكُمْ .... أَحَبَّ اِلَيْكُمْ مِنَ اللّٰهِ وَرَسُولِهِ وَجِهاٰدٍ فِي سَبِيلِهِ فَتَرَبَّصُواْ حَتَّى يَاْتِيَ اللّٰهُ بِاَمْرِهِ وَاللّٰهُ لاٰ يَهْدِي الْقَوْمَ الْفاٰسِقِينَ

*"De: əgər sizin atalarınız, övladlarınız ... sizin üçün Allahdan, Onun Peyğəmbərindən, Allah yolunda cihaddan sevimli olsa, onda Allahın əmrinin gəlişini gözləyin! Allah fasiq qövmləri hidayət etməz."*[1]
Allah-təala yenə buyurur:

وَالَّذِينَ آمَنُواْ أَشَدُّ حُبًّا لِلّٰهِ

*"İman gətirənlər Allaha daha şiddətli məhəbbət bəsləyirlər."*[2]
Duada isə belə deyilir:

اَللَّهُمَّ اجْعَلْ حُبَّكَ أَحَبَّ الْأَشْياٰءِ اِلَيَّ، وَاجْعَلْ خَشْيَتَكَ أَخْوَفَ الْأَشْياٰءِ عِنْدِي، وَاقْطَعْ عَنِّي حاٰجاٰتِ الدُّنْياٰ بِالشَّوْقِ اِلَى لِقاٰئِكَ

*"Pərvərdigara! Sənə olan məhəbbətimi mənim üçün bütün şeylərdən daha sevimli et! Səndən qorxu və xəşyəti mənim nəzərimdə bütün şeylərdən daha qorxulu et! Dünya hacətlərimi Sənin görüşünə olan şövq xatirinə məndən kəs!"*[3]

---

[1] "Tövbə" surəsi, ayə:24
[2] "Bəqərə" surəsi, ayə:165
[3] "Biharul-ənvar", 74-cü cild, səh. 279-280

İkinci nöqtə barəsində isə Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən və onun Əhli-beytindən nəql olunan hədislərdə çoxlu aşkar buyruqlar gəlmişdir. Onlardan biri imam Əbu Cə’fər Baqir (əleyhis-salam)-ın Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən nəql etdiyi aşağıdakı hədisdir:

**أَلا وَمَنْ أَحَبَّ فِي اللهِ، وَاَبْغَضَ فِي اللهِ، وَاَعْطَى فِي اللهِ، وَمَنَعَ فِي اللهِ، فَهُوَ مِنْ أَصْفِيَاءِ اللهِ الْمُؤْمِنِينَ عِنْدَ اللهِ.اَلا وَإِنَّ الْمُؤْمِنَيْنِ اِذَا تَحَابَّا فِي اللهِ عَزَّ وَجَلَّ، وَتَصَافَيَا فِي اللهِ كَانَا كَالْجَسَدِ اِذَا اشْتَكَى أَحَدُهُمَا مِنْ جَسَدِهِ مَوْضِعًا، وَجَدَ الْآخَرُ اَلَمَ ذٰلِكَ الْمَوْضِعِ**

*“Agah olun! Hər kəs Allah yolunda və Allah xatirinə bir kəsi sevsə, Allah yolunda və Onun xatirinə bir şeylə düşmənçilik etsə, Allah yolunda bir şey versə, yaxud Allah yolunda bir şeyi verməkdən imtina etsə, o, Allah yanında mö’min və Onun seçilmiş bəndələrindəndir. Agah olun! Həqiqətən iki mö’min şəxs Allah yolunda bir-birinə məhəbbət bəsləyib, Allah yolunda xalis dostluq etdikləri zaman, ikisi bir bədən kimi hesab olunur. Belə ki, onlardan birinin bədənində bir yer ağrıyarsa, digəri həmin yerin ağrısını özündə hiss edər.”*[1]

Məhəbbət iki qismdir:

1. Sadə və heç bir dərinliyi olmayan məhəbbət;
2. Allah məhəbbətinin davamında olan və insanın canına və ruhuna nüfuz edən məhəbbət.

Birinci məhəbbətin tarix boyu nə insanın həyatında, nə də tutduğu yolda heç bir dəyər və qiyməti olmamışdır. O, sadəcə olaraq insana sonradan nüfuz edən həvayi-nəfs və istək yönündədir. Amma Allah məhəbbətinin davamında gələn və insanın ruhuna və canına nüfuz edən məhəbbət isə (biz Əhli-beytin barəsində bu məhəbbət və onları sevməklə

[1] “Kənzül-ümmal”, 8-ci cild, səh.37



əlaqədar bəhs edirik) sadə, dərinliyi olmayan məhəbbətdən tam başqa bir məsələdir ki, hamı onu öz gündəlik həyatında müşahidə edir. Bu həqiqi məhəbbət də yalnız İlahi məhəbbətin davamında olduqda mümkündür.

Bu cür məhəbbətin bir neçə xislət və əlamətləri vardır:

Onun birinci xisləti bundan ibarətdir ki, heç vaxt bəraətdən ayrılmaz. Çünki, hər bir məhəbbətlə yanaşı ədavət və kin, hər bir razılıqla yanaşı qəzəb, hər bir vilayətlə yanaşı bəraət də olmalıdır. Ədavət və kinlə yanaşı olmayan məhəbbət dərin olmayan, sadə (təməlsiz) və zahiri məhəbbətdir.

Bir nəfər Həzrət Əli (əleyhis-salam)-ın yanına gəlib dedi: “Mən səni də, sənin düşməninini də sevirəm.”

Həzrət buyurdu:

**اَمَّا اَلْآنَ فَأَنْتَ أَعْوَرُ – تَرَى بِرُؤْيَةٍ نِصْفِيَّةٍ نَاقِصَةٍ– فَاِمَّا أَنْ تَعْمَى أَوْتُبْصِرَ**

*“Amma sən indi çəpgözə oxşayırsan (naqis və yarımçıq görüşlə baxırsan); ya (tamamilə) kor, ya da tamamilə bəsirətli ol.”*

Ziyarətdə isə belə oxuyuruq: *“Sizi sevir və sizi sevənləri də sevirəm, sizin düşmənlərinizlə düşmənəm və onlara kin bəsləyirəm.”*

Bu məhəbbətin ikinci xisləti də budur ki, Allah məhəbbətinin davamında vaqe olduğu kimi, onun camaat arasında da davamı olmalıdır. Çünki Allaha məhəbbət həm onlarda, həm də onların dostlarında davam edir: *“Sizinlə və sizin dostlarınızla dostam.”* İnsanın Allah yolunda bir şəxsi sevib, amma sonra Allah yolunda sevdiyi şəxsi sevən digər bir şəxsi sevməməsi qeyri-mümkündür.

Bu məhəbbətin üçüncü xisləti bundan ibarətdir ki, o, əməl məqamında – hərb və sülhdə – insanımübarizə aparmağa vadar edir: *“Sizinlə sülhdə olanlarla sülhdəyəm, hərbdə olanlarla hərbdəyəm.”*

Dördüncü xisləti isə budur ki, böyük cəmiyyətlərdə bizim üçün Allah xatirinə məhəbbət və Allah yolunda kin bəsləmək müsbət və mənfi, dostluq və düşmənçilik, yaxınlaşma və uzaqlaşma kimi ictimai əlaqələrdə kamil siyasi çərçivəni təqdim edir.

## HAQQI DİRÇƏLTMƏK VƏ BATİLİ ARADAN APARMAQ

Biz Əhli-beyt (əleyhimus-salam)-ın vilayəti dairəsində onların mədəni-maarif miraslarını qoruyub-saxlamalı, onların haqq bildiyi şeyləri haqq bilməli, batil sandıqlarını isə batil hesab etməliyik.

Həqiqətən Əhli-beyt (əleyhimus-salam)-ın tarixində ən çox mədəni-maarif sahəsi düşmənlərin hücumlarına mə'ruz qalmışdır. Lakin Əhli-beyt (əleyhimus-salam)-ın yolunu gedən fəqihlər və bu məktəbin alimləri belə dəyərli maarifi, mədəniyyəti, fiqhi və İslam mə'rifətini qoruyub-saxlamış və müdafiə etmişlər.

Bu çərçivə də haqqı dirçəltmək və batili aradan aparmaq, cihad, mübarizə, sülh və hərb sayəsində mümkün olur. "Camiə" ziyarətində deyilir:

سِلْمٌ لِمَنْ سالَمَكُمْ وَحَرْبٌ لِمَنْ حارَبَكُمْ، مُحَقِّقٌ لِما حَقَّقْتُمْ مُبْطِلٌ لِما أَبْطَلْتُمْ

*"Sizinlə sülhdə olanlarla sülhdəyəm, hərbdə olanlarla hərbdəyəm, sizin haqq bildiyiniz şeyləri haqq bilirəm və batil hesabladığınızı batil hesab edirəm."*

## MİRAS VƏ İNTİZAR

Vilayət tarix boyu davam etmiş və gələcəkdə də davam edəcəkdir. Zamanın heç bir hissəsi, hətta tarixin başlanğıcından – Həzrət Adəm (əleyhis-salam) və Nuh (əleyhis-salam)-dan tutmuş tarixin sonuna qədər – Ali-Mühəmmədin Məhdisi (əccələllahu təala fərəchuş-şərif)-in zühur edərək yer üzünü haqq-ədalətlə



doldurduğu, yer üzünü zalımların əlindən aldığı və Allah-taalanın Tövratda və Zəburda verdiyi və'dəsinin gerçəkləşməsi xatirinə bu işləri gördüyü dövrə qədər davam edəcəkdir.

وَلَقَدْ كَتَبْنا فِي الزَّبُورِ مِن بَعْدِ الذِّكْرِ أَنَّ الْأَرْضَ يَرِثُها عِبادِيَ الصّالِحُونَ

*"Həqiqətən, Biz Zikrdən sonra Zəburda da yazdıq ki, yer üzünü Mənim saleh bəndələrim irs aparacaqlar."*[1]

Bu ayədə "Zikr" dedikdə Tövrat nəzərdə tutulur. Allahın Tövratda, Zəburda və Qur'anda verdiyi və'də də bundan ibarətdir ki, Əhli-beyt (əleyhimus-salam) tarix boyu peyğəmbərlərin və saleh bəndələrin mirasını irs aparmışlar, onlardan namazı, zikri, zəkatı, həcci, Allah yoluna də'vət etməyi əxz etmişlər.

Hüseyn (əleyhis-salam)-ın "Varis" ziyarətində bu mədəni-maarif, cihad və risalət mirasını peyğəmbərlərdən irs aparması qeyd edilir. Bu ziyarətdə çoxlu mədəni-maarif məfhumları və dərin mə'rifət dəlalətləri vardır:

أَلسَّلامُ عَلَيْكَ يا وارِثَ آدَمَ صِفْوَةِ اللّهِ، اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ نُوحٍ نَبِيِّ اللّهِ، اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ إِبْراهِيمَ خَلِيلِ اللّهِ، اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ مُوسى كَلِيمِ اللّهِ، اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ عِيسى رُوحِ اللّهِ

*"Salam olsun sənə, ey Allahın seçdiyi Adəmin varisi! Salam olsun sənə, ey Allah peyğəmbəri Nuhun varisi! Salam olsun sənə, ey Allahın xəlili İbrahimin varisi! Salam olsun sənə, ey Allahın danışdığı Musanın varisi! Salam olsun sənə, ey Allahın ruhu İsanın varisi!"*

Bu vərasət də tarixin dərinliklərindən – Adəm və Nuh (əleyhis-salam)-ın dövründən başlayaraq Peyğəmbər (səllallahu ələyhi və alihi və səlləm)-in, Həzrəti Əli (əleyhis-salam)-ın ... dövrünə qədər davam etmişdir.

---

[1] "Ənbiya" surəsi, ayə:105

İmam Hüseyn (əleyhis-salam) Aşura günü Kərbəlada bütün bu mə'rifət, mədəniyyət, dərin cihad yönlü maarifini təcəssüm etdirdi.

Deməli, vilayətin tarixin ənginliklərindən qaynaqlanan dərin kökləri vardır. Əhli-beyt (əleyhimus-salam) da peyğəmbərlərin səlahiyyətli və uzun yolunu irs aparmışlar, biz də bu tarixi onlardan irs aparırıq.

Biz onlardan namazı, orucu, həcci, zəkatı, əmr be mə`rufu, nəhy əz münkəri, cihadı, Allah yoluna də'vəti, zikri, ixlası və digər tovhid dəyərlərini onlardan irs aparmışıq və Allah-təalanın buyurduğu:

فَخَلَفَ مِن بَعْدِهِمْ خَلْفٌ أَضَاعُوا الصَّلَاةَ

*"Onlardan sonra bir nəsil canişin olaraq, namazı zay etdilər."* - ayəsinə məsəl çəkilmərik. Biz namazı qoruyub-saxlayır və bərqərar edirik, insanları ona də'vət edirik; necə ki, bizdən öncəki sələflər bu işi etmişlər. Allahın köməyi ilə, biz də o kəslərdən olarıq ki, Allah-təala onların barəsində belə buyurmuşdur:

وَأْمُرْ أَهْلَكَ بِالصَّلَاةِ وَاصْطَبِرْ عَلَيْهَا

*"Öz əhlini namaza əmr et və bu işdə səbirli ol."*

Biz öz aramızda, cəmiyyətimizdə, əhli-əyalımız arasında bu böyük və İlahi mirası – saleh sələflərdən irs apardığımız bu dəyərli mirası nəsilbənəsil qoruyub-saxlayırıq.

Bu, tarixin dərinliklərində kök atmış vilayətin mə'nası və mirasdan ibarətdir.

Vilayət gələcək tarixdə də davam edəcəkdir, belə ki, Ali-Məhəmmədin Məhdisi (ərvahuna fidah)-ın intizarında qalaraq, böyük qurtuluşun və köməyin, bütün dünyaya şamil olan bir inqilabın intizarını çəkirik ki, Allah-təala Öz kitabında, eləcə də Tövrat və Zəburda bunu xəbər vermişdir:



وَلَقَدْ كَتَبْنَا فِي الزَّبُورِ مِن بَعْدِ الذِّكْرِ أَنَّ الْأَرْضَ يَرِثُهَا عِبَادِيَ الصَّالِحُونَ

*"Zikrdən sonra Zəburda yazdıq ki, həqiqətən, yer üzünü Mənim saleh bəndələrim irs aparacaqdır."*

İntizar inkar yönlü bir mə'na deyildir - necə ki, camaat günəşin və ya ayın tutulmasını rəsədxanalarda gözləyirlər. Əksinə, intizar müsbət yönlü bir mə'na ifadə edir və biz bunu intizarla əlaqədar hədislərdən başa düşürük. Onun mə'nası yer üzünü, imam Zaman (əleyhis-salam)-ın şərif zühurunun baş verməsi və o Həzrətin vasitəsilə dünya səviyyəli böyük inqilabın baş verməsi üçün siyasət, mədəni-maarif və əməl məqamında o Həzrətin gəlişi üçün hazırlamaqdan ibarətdir.

Müsbət yönlü məfhuma əsasən intizarın mə'nası böyük və dünya səviyyəli inqilabın rəhbərinin gəlişi üçün əmr be mə'ruf və nəhy əz münkər, insanları Allah yoluna də'vət etmək, zalımlarla cihad aparmaq, Allah kəlməsini aşkar bəyan etmək, yer üzündə İlahi mədəniyyəti yaymaq, namazı bərqərar eləmək və s. hazırlıq işləri görməkdir. Vilayətin gələcəyə aid olan bu yönünə "Camiə" ziyarətində belə işarə olunur:

مُنْتَظِرٌ لِأَمْرِكُمْ مُرْتَقِبٌ لِدَوْلَتِكُمْ... حَتَّى يُحْيِيَ اللَّهُ تَعَالَى دِينَهُ بِكُمْ وَيَرُدَّكُمْ فِي أَيَّامِهِ وَيُظْهِرَكُمْ لِعَدْلِهِ وَيُمَكِّنَكُمْ فِي أَرْضِهِ

*"Mən sizin əmrinizin intizarını çəkib, dövlətinizi gözləyirəm... ki, nəhayət Allah-təala sizin vasitənizlə Öz dinini dirçəltsin, sizi Öz günlərinə qaytarsın, sizi Öz ədaləti üçün zahir etsin və sizə yer üzündə imkan versin."*

Son cümlə – *"yüməkkinəkum fi ərzihi"* – "Qəsəs" surəsindəki ilk ayələrə işarə edir:

وَنُرِيدُ أَن نَّمُنَّ عَلَى الَّذِينَ اسْتُضْعِفُوا فِي الْأَرْضِ وَنَجْعَلَهُمْ أَئِمَّةً وَنَجْعَلَهُمُ الْوَارِثِينَ

*“Biz iradə etmişik ki, yer üzündə müstəz’əf saxlanmışlara minnət qoyaraq onları imamlar və varislər qərar verək, onlara yer üzündə imkan yaradaq.”*[1]

Bu intizar Allah dininin yer üzünün hər yerində bərqərar edilməsi, orada İlahi dövlətin qurulmasına hazırlıq işləri görülməsi üçün əməl etmək, çalışmaq, səbir edib müqavimət göstərmək, lazımsız şeyləri dağıtmaq, lazım olan şeyləri bina etmək və yer üzündə çalışmaqdan ibarətdir ki, bu da insanları Allah yoluna çağırıb, əmr be mə’ruf və nəhy əz münkəri icra etmək, batil və münkər işlərlə mübarizə aparıb küfr başçıları ilə cihad etməklə mümkün ola bilər.

Burada mö’minlərin öz imamının ayrılığında hüznlü surətdə nida etdikləri və onun zühurunun intizarında olduqları zaman oxuduqları “Nüdbə” duasının bə’zi cümlələrini qeyd edirik.

أَيْنَ بَقِيَّةُ اللّهِ الَّتِي لا تَخْلُو مِنَ الْعِتْرَةِ الْهادِيَةِ،

*Haradadır Allahın yer üzündə saxladığı Bəqiyyətullah? Elə bir şəxs ki, Peyğəmbərin pak Əhli-beytindən kənarda deyil.*

أَيْنَ الْمُعَدُّ لِقَطْعِ دابِرِ الظَّلَمَةِ،

*Haradadır zülmkarların kökünü kəsmək üçün saxlanmış şəxs?*

أَيْنَ الْمُنْتَظَرُ لِإقامَةِ الأمْتِ وَالْعِوَجِ،

*Haradadır əyrilikləri, nadürüstlükləri düzəltmək üçün intizarı çəkilən şəxs?*

أَيْنَ الْمُرْتَجى لِإزالَةِ الْجَوْرِ وَالْعُدْوانِ،

*Haradadır zülm və ədavəti məhv etmək üçün ümid yeri olan*

[1] “Qəsəs” surəsi, ayə:5-6



*şəxs?*

أَيْنَ الْمُدَّخَرُ لِتَجْدِيدِ الْفَرائِضِ وَالسُّنَنِ،

*Haradadır fərizə və sünnətləri yeniləşdirmək üçün ehtiyat (zəxirə) edilmiş şəxs?*

أَيْنَ الْمُتَّخَذُ[1] لِإعادَةِ الْمِلَّةِ وَالشَّرِيعَةِ،

*Haradadır din və şəriəti öz əslinə qaytarmaq üçün saxlanan şəxs?*

أَيْنَ الْمُؤَمَّلُ لِإحْياءِ الْكِتابِ وَحُدُودِهِ،

*Haradadır Allahın kitabı və onun hədd-hüdudunu (qanunlarını) dirçəltmək üçün arzu olunan şəxs?*

أَيْنَ مُحْيِي مَعالِمِ الدِّينِ وَأهْلِهِ،

*Haradadır din nişanələrini və din əhlini dirçəldən şəxs?*

أَيْنَ قاصِمُ شَوْكَةِ الْمُعْتَدِينَ،

*Haradadır həddini aşanların izzət və şövkətini tar-mar edən?*

أَيْنَ هادِمُ أبْنِيَةِ الشِّرْكِ وَالنِّفاقِ،

*Haradadır şirk və nifaqın bünövrələrini sarsıdıb məhv edən şəxs?*

أَيْنَ مُبِيدُ أهْلِ الْفُسُوقِ وَالْعِصْيانِ وَالطُّغْيانِ،

*Haradadır fisq, üsyan, tüğyan əhlini həlak edən şəxs?*

أَيْنَ قاطِعُ حَبائِلِ الْكِذْبِ وَالافْتِراءِ،

[1] Əksər nüsxələrdə belədir: الْمُتَخَيَّرُ

*Haradadır yalan, iftira zəncirlərini kəsib doğrayan?*

أَيْنَ مُبِيدُ الْعُتاةِ وَالْمَرَدَةِ، اَيْنَ مُسْتَأْصِلُ اَهْلِ الْعِنادِ وَالتَّضْلِيلِ وَالْإِلْحادِ،

*Haradadır təkəbbürlüləri, inadkarları məhv edən? Haradadır inad edib zəlalətə salanların, küfr əhlinin kökünü kəsən?*

أَيْنَ مُعِزُّ الْاَوْلِياءِ وَمُذِلُّ الْاَعْداءِ،

*Haradadır Allah övliyalarına izzət bəxş edib düşmənlərini zəlil edən?*

أَيْنَ جامِعُ الْكَلِمَةِ عَلَى التَّقْوىٰ.

*Hardadır təqva kəlmələrini cəm edən?*

أَيْنَ بابُ اللّهِ الَّذِي مِنْهُ يُؤْتى،

*Haradadır ne’mətlərin əta olunduğu Allah qapısı?*

أَيْنَ صاحِبُ يَوْمِ الْفَتْحِ وَناشِرُ رايَةِ الْهُدى،

*Haradadır fəth gününün sahibi və hidayət bayrağını yayan?*

أَيْنَ مُؤَلِّفُ شَمْلِ الصَّلاحِ وَالرِّضا،

*Haradadır səlah və varlıq arasındakı əlaqə (ittisal) səbəbi?*

أَيْنَ الطّالِبُ بِذُحُولِ الْاَنْبِياءِ وَاَبْناءِ الْاَنْبِياءِ.

*Haradadır peyğəmbərlər və onların övladlarının intiqamını alan?*

أَيْنَ الطّالِبُ بِدَمِ الْمَقْتُولِ بِكَرْبَلاءَ،

*Haradadır Kərbəlada qətlə yetirilənin qanının intiqamını alan?*

أَيْنَ الْمَنْصُورُ عَلى مَنِ اعْتَدى عَلَيْهِ وَافْتَرى،



*Haradadır o kəs ki, hər kəs ona qarşı çıxsa və iftira desə məğlub olar?*

أَيْنَ الْمُضْطَرُّ الَّذِي يُجابُ إِذا دَعى،

*Hardadır o müztər kəs ki, dua etsə, qəbul olunar?*

أَيْنَ صَدْرُ الْخَلائِقِ ذُو الْبِرِّ وَالتَّقْوى،

*Hardadır məxluqatın başçısı, yaxşılıq və təqva sahibi?*

أَيْنَ ابْنُ النَّبِيِّ الْمُصْطَفى، وَابْنُ عَلِيٍّ الْمُرْتَضى، وَابْنُ خَدِيجَةَ الْغَرّاءِ، وَابْنُ فاطِمَةَ الْكُبْرى.

*Hardadır Peyğəmbər Mustəfanın, Əliyyi-Mürtəzanın, alnıaçıq Xədicənin, Fatimeyi-Kübranın oğlu?*

Bu qəm-qüssəli çağırış duası da intizarçın sə’y edib çalışması, əmr be məruf və nəhy əz münkər etməsi, yer üzündə Allah düşmənləri ilə cihad etməsi üçündür ki, İmam (əleyhis-salam)-ın zühuru və qiyamı üçün şərait yaradılsın.

Bu həzin və qüssəli “Nüdbə” duası mö’minlərin qəlbini əməl və hərəkət, sə’y, inqilab və qiyama, müqavimətə, səbirli olmağa, cihada, ilahi yola, lazımsız şeyləri dağıtmağa, lazım olan şeyləri bina etməyə də’vət edir ki, imam Zaman §-in yer üzündəki hakimiyyətinə şərait yaradılsın və onun dünya səviyyəli hökuməti bərqərar olunsun. Necə ki, Allah-təala bunu Öz kitabında xəbər vermişdir.

Şübhəsiz, imam Zaman (əleyhis-salam)-ın qiyamı o Həzrətin zühur və qiyamına müqəddimə işlərini yaradan nəsillərdən sonra baş verəcəkdir. Bu barədə İslam mənbələrində çoxlu təvatür hədislər qeyd olunmuşdur. İmamın zühuruna şərait yaradan bu nəsil də yer üzünü o Həzrətin qiyamı üçün hazırlayacaqdır. Deməli, intizarın mə’nası bu müqəddimə işlərinin yerinə yetirilməsində, əmr be mə’ruf və nəhy əz

münkərdə, cihad, hərəkat və fəaliyyətdə tələsmək mə'nasınadır.
Qeyd etdiyimiz kimi, vilayət miras və intizardan ibarətdir. Miras bizi peyğəmbərlərin və tarix boyunda yaşamış əməlisalehlərin yoluna də'vət edir, intizar isə gələcəkdə Allah-təalanın bizim üzümüzə açacağı gözəl həyata doğru ümidli edir.
Lakin bu arzu və ümid üçün daim sə'y, fəaliyyət, cihad və əməl etmək lazımdır ki, Allahın izni ilə daha tez gerçəkləşsin və sadəcə zühurun əlamətlərinin intizarında oturmaq olmaz.

## ZİYARƏT

Vilayətin təzahür yeri və əsərlərindən biri də ziyarətdir. Ziyarət bizim Əhli-beyt (əleyhimus-salam)-la əlaqəmizdə açıq-aşkar bir halətdir ki, biz ona iltizamlı olaraq, camaatı bu işə də'vət edirik. Vilayət çərçivəsində ziyarət üçün böyük bir mədəniyyət, ədəb qaydaları və bu barədə çoxlu hədislər və rəvayətlər vardır ki, vilayətdən hekayət edən mədəni-maarif, ali məfhum və dərin fikirlərlə zəngindir. Onun insanın bütün həyatında geniş və dərin tə'siri vardır.
Ziyarətdən əsas məqsəd, tarix boyu düzgün yolda mədəni və üzvi bir bağlılıqdır.
Biz də bu tovhidi dəyərlərlə – ixlas, təqva, cihad, zəkat, əmr be mə'ruf, zikr, şükür, səbir və s. zəngin olan yolçuların bir hissəsiyik.
Biz, Əhli-beyt (əleyhimus-salam)-ın, tarix boyu peyğəmbərlərin hərəkatı davamında olan bu mübarək yolun ayrılmaz bir hissəsiyik: Adəm, Nuh, İbrahim, Musa, İsa (əleyhimus-salam) və s. də bu yolun davamçıları olmuşlar. Bu, İslamla cahiliyyət, tovhidlə şirk arasında olan tarixi mübarizənin bir hissəsi olmuş və bütün mərhələlərdə baş vermişdir ki, bu da öz növbəsndə kökləri



tarixin dərinliklərindən baş qaldıran pak-pakizə şəcərənin bir hissəsidir.
Biz bu pak şəcərənin (sülalənin) qol-budaqlarıyıq, bu pak şəcərəyə mənsub olunmaq iftixarını qoruyub saxlamağımız vacibdir:

أَلَمْ تَرَ كَيْفَ ضَرَبَ اللّهُ مَثَلاً كَلِمَةً طَيِّبَةً كَشَجَرةٍ طَيِّبَةٍ أَصْلُهَا ثَابِتٌ وَفَرْعُهَا فِي السَّمَاء

*"Görmədin ki, Allah-təala necə misal vurur: Pak kəlmə pak ağac kimidir, onun kökləri sabit, budaqları isə səmaya doğru yüksəlmişdir."*[1]

Biz bu pak və mübarək şəcərəyə mənsub olmaq hislərimizi vicdanımızda, batinimizdə, qəlbimizdə və əqlimizdə əyani şəkildə hiss etməliyik. Bu mübarək şəcərəyə mənsub olmaq hissi bizim nəzərimizdə nə qədər dərin və nə qədər tə'kidli olsa, tarix boyu bu mübarək xanədana mənsub olmağımız nə qədər artıq olsa, düşmənlərin təhdidləri qarşısında səbir, müqavimət və mətanətimiz bir o qədər artar, şövkət sahibi olmaq yolunda sabitliyimiz çoxalar və bu yolda qarşımıza çıxan sapmalar müqabilindəki səbrimiz artar.
Ziyarət də bu mənsubiyyətin ən mühüm amillərindən biridir. Həqiqətən, ziyarət çox güclü bir ülvi fəzadan ibarət olub, bu ictimai, mədəni və mübarək xanədana mənsub olmaq, bu mübarək xanədana doğru hərəkət etmək və tarix boyu saleh yolda olmağa daha çox tə'kid edir.
Əhli-beyt (əleyhimus-salam)-dan nəql olunan ziyarətlərin aşkar mətnləri, o cümlədən, Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm), Əmirəl-mö'minin Əli (əleyhis-salam), Fatimeyi-Zəhra (əleyha-salam), imam Həsən (əleyhis-salam), imam Hüseyn (əleyhis-salam) və s. Əhli-beyt (əleyhimus-salam) imamlarından, peyğəmbərlərdən, ilahi övliyalardan və saleh mö'minlərdən nəql olunan bu ziyarətlər qeyd olunan bu

[1] "Ibrahim" surəsi, ayə: 24.

zəngin mədəni-maarif mirası ilə doludur. Bu yola doğru hərəkət öz məfhum və mə'naları ilə sanki bir xəzinə yaratmışdır ki, bu da mübarək xanədana mənsub olunmaq, onların düşmənlərindən bezarlıq etmək və onlarla müharibə aparanlarla mübarizə aparmaqdan ibarətdir.

Bu kitabdan qabaq yazdığım "Əd-dua ində Əhlil-beyt (*əleyhimus-salam*)" kitabının axırıncı fəslində ziyarət barəsində söhbət apardığımızdan, orada qeyd edilənlərlə kifayətlənir və onu bir daha təkrar etmirik.

# BEŞİNCİ FƏSİL

## ƏHLİ–BEYT (əleyhimus-salam) MƏKTƏBİNƏ MƏNSUB OLMAĞIN ƏLDƏ EDİLMƏ YOLLARİ

Bu bəhsdə digər mühüm bir nöqtə barəsində söhbət aparacağıq ki, bu da vilayət və bəraətin me'racı və onun əldə olunma yollarıdır.

Çünki vilayət və bəraət insanın Allah-təalanın dərgahına yaxınlaşması üçün iki vasitə və me'rac yoludur. İnsan yalnız vilayət və bəraət əsnasında Allah dərgahına yüksələrək Onun razılığını qazana bilər.

İnsan Allah-təala dərgahında yaxın məqama çatıb, Onun razılığını yalnız vilayət və bəraətlə əldə edə bilər. Aşağıda qeyd olunanlarda Əhli-beyt (əleyhimus-salam) imamlarından vilayət və bəraət me'racları barəsində varid olan rəvayətlərin bir qismini qeyd edirik:

## DÜNYA VƏ AXİRƏTDƏ MÜHƏMMƏD VƏ ALİ–MÜHƏMMƏD (səlləllahu əleyhi və alihi və səlləm)-LƏ BİRLİKDƏ YAŞAMAQ

Əbdüllah ibni Vəlid deyir ki, Mərvanın hakimiyyəti dövründə Əbu Əbdillah (əleyhis-salam)-ın yanına daxil oldum. Həzrət buyurdu: "Siz kimlərdənsiniz?" Dedik ki, Kufə əhlindənik. Həzrət buyurdu:

مٰا مِنْ بَلَدٍ أَكْثَرَ مُحِبًّا لَنٰا مِنْ اَهْلِ الْكُوفَةِ، لاٰ سِيَّمٰا هٰذِهِ الْعِصٰابَةَ، اِنَّ اللهَ هَدٰاكُمْ لِأَمْرٍ جَهِلَهُ النّٰاسُ، فَاَحْبَبْتُمُونٰا، وَأَبْغَضَنَا النّٰاسُ وَتٰابَعْتُمُونٰا، وَخٰالَفَنَا النّٰاسُ، وَصَدَّقْتُمُونٰا، وَكَذَّبَنَا



النّٰاسُ، فَأَحْيٰاكُمُ اللهُ مَحْيٰانٰا، وَاَمٰاتَكُمْ مَمٰاتَنٰا. فَاُشْهِدُ عَلَى أَبِي أَنَّهُ كٰانَ يَقُولُ: مٰا بَيْنَ أَحَدِكُمْ، وَبَيْنَ أَنْ يَرَى مٰا تَقَرُّ بِهِ عَيْنُهُ، أَوْ يَغْتَبِطُ، اِلاّٰ أَنْ تَبْلُغَ نَفْسُهُ هٰكَذٰا، وَاَهْوَى بِيَدِهِ اِلَيٰ حَلْقِهِ

*"Bizə, Kufə əhlindən çox məhəbbət bəsləyən bir şəhər yoxdur, xüsusilə, bu dəstə. Həqiqətən, Allah-təala sizi, başqa insanların cahil olduğu bir işə doğru hidayət etmişdir, nəticədə camaat bizə düşmənçilik bəslədiyi halda, siz bizi sevmisiniz, camaat bizimlə müxalifət etdiyi zaman siz bizə tabe olmusunuz, camaat bizi təkzib etdiyi zaman, siz bizi təsdiq etmisiniz. Allah-təala sizi bizim həyatımız kimi bir həyatla diri saxlayır, bizim ölümümüz kimi bir ölümlə sizi dünyadan aparar. Şahidlik edirəm ki, atam belə buyurardı: "Sizinlə, gözünüzü aydın edəcək, yaxud qibtəyə vadar edəcək bir şey arasında yalnız bu vardır ki, nəfəsiniz buraya çatsın (bu zaman öz barmağı ilə hülqumuna işarə etdi; yə'ni can vermə halından e'tibarən bunları müşahidə edəcəksiniz.) Allah-təala Öz kitabında buyurur: **"Səndən əvvəl çoxlu rəsullar göndərmiş və onlar üçün zövcələr və övladlar, zürriyyələr qərar vermişik."** Biz də Peyğəmbəri-Əkrəmin zürriyyəsiyik."*[1]

Məşhur "Aşura" ziyarətində deyilir:

اَللّٰـــهُمْ اجْعَلْ مَحْيٰايَ مَحْيٰا مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ، وَمَمٰاتِي مَمٰاتَ مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ

*"Pərvərdigara, mənim həyatımı Mühəmməd və Ali-Mühəmmədin həyatı kimi, ölümümü də Mühəmməd və Ali-Mühəmmədin ölümü kimi qərar ver!"*

[1] "Biharul-ənvar", 65-ci cild, səh. 20-21, hədis: 34.

## ALLAH-TƏALA ONLARA ÖZ KƏRAMƏTİNİ ƏTA EDƏR

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurmuşdur:

يَقُولُ اللهُ عَزَّ وَجَلَّ لِشِيعَتِي وشِيعَةِ اَهْلِ بَيْتِي يَوْمَ الْقِيٰامَةِ هَلُمَّ يٰا عِبٰادِي اِلَيَّ لِأَنْشُرَ عَلَيْكُمْ كَرٰامَتِي، فَقَدْ أُوذِيْتُمْ فِي الدُّنْيٰا

*"Allah-təala Qiyamət günündə mənim və Əhli-beytimin şiələrinə buyurar: "Bura gəlin, ey Mənim bəndələrim! Sizin üçün kəramətimi əta edim, (çünki) dünyada (Əhli-beyt yolunda) çoxlu əzab-əziyyətlərə düçar olmusunuz."*[1]

## ŞİƏLƏR BİZİM ƏTƏYİMİZDƏN, BİZ DƏ PEYĞƏMBƏRİN ƏTƏYİNDƏN YAPIŞARIQ

Əbu Əbdillah (əleyhis-salam) buyurur ki, atam belə deyərdi:

إِنَّ شِيعَتَنٰا آخِذُونَ بِحُجْزَتِنٰا، وَنَحْنُ آخِذُونَ بِحُجْزَةِ نَبِيِّنٰا، وَنَبِيُّنٰا أَخَذَ بِحُجْزَةِ اللهِ

*"(Qiyamətdə) şiələrimiz bizim ətəyimizdən, biz də Peyğəmbərin ətəyindən yapışarıq. Peyğəmbər isə Allahın ətəyindən yapışar."*[2]

Mərhum Əllamə Məclisi buyurur: *"Rəhmanın ətəyindən yapışmaq, yə'ni Ona sarılmaq deməkdir."*[3]

İmam Cə'fər Sadiq (əleyhis-salam) buyurur:

اِذٰا كٰانَ يَوْمُ الْقِيٰامَةِ أَخَذَ رَسُولُ اللهِ بِحُجْزَةِ رَبِّهِ (اعْتَصَمَ بِهِ)، وَأَخَذَ عَلِيٌّ بِحُجْزَةِ رَسُولِ اللهِ، وَاَخَذْنٰا بِحُجْزَةِ عَلِيٍّ، وَأَخَذَ شِيعَتُنٰا بِحُجْزَتِنٰا. فَأَيْنَ تَرَوْنَ يُوْرِدُنٰا رَسُولُ اللهِ

[1] "Biharul-ənvar", 65-ci cild, səh. 19, hədis: 2, azacıq fərqlə, "Üyuni əxbarir-Riza", 2-ci cild, səh.60.
[2] "Biharul-ənvar", 65-ci cild, səh.30, hədis: 60; "Məhasin", səh.183.
[3] "Biharul-ənvar", 65-ci cild, səh.30.



*"Qiyamət günündə Peyğəmbəri-Əkrəm Rəbbinin ətəyindən tutar (Ona sarılar), Əli Peyğəmbərin ətəyindən, biz isə Əlinin ətəyindən tutarıq. Şiələrimiz də bizim ətəyimizdən tutar. Haranı görsəniz, Peyğəmbər də bizi oraya daxil edər."*[1]

İmam Əli ibni Hüseyn (əleyhis-salam) buyurur:

إِنَّ أَحَقَّ النّٰاسِ بِالْوَرَعِ وَالْاِجْتِهٰادِ فِيمٰا يُحِبُّ اللهُ وَيَرْضَى: اَلْأَوْصِيٰاءُ وَأَتْبٰاعُهُمْ. أَمٰا تَرْضَوْنَ أَنَّهُ لَوْ كٰانَتْ فَزْعَةٌ مِنَ السَّمٰاءِ فَزِعَ كُلُّ قَوْمٍ اِلَى مَاْمَنِهِمْ، وَفَزِعْتُمْ اِلَيْنٰا، وَفَزِعْنٰا الى نَبِيِّنٰا. اِنَّ نَبِيَّنٰا آخِذٌ بِحُجْزَةِ رَبِّهِ (مُعْتَصِمٌ بِهِ). وَنَحْنُ آخِذُونَ بِحُجْزَةِ نَبِيِّنٰا، وَشِيعَتُنٰا آخِذُونَ بِحُجْزَتِنٰا

*"Allahın sevib razı olduğu işlərdə camaat arasında ən çox vərə və ictihad sahibi olanlar – övsiyalar və onların tabeçiləridir. Məgər razı olmazsınızmı ki, (Qiyamətdə) şiddətli qorxu gələndə hər bir qövm öz pənahgahına sığındığı zaman, siz də bizə sığınasınız, biz isə Peyğəmbərə sığınaq? Peyğəmbər də Allahın ətəyindən yapışar (Ona pənah aparar), biz Peyğəmbərimizin ətəyindən, şiələrimiz də bizim ətəyimizdən tutarlar."*

## AXİRƏTDƏ ALLAHIN ŞİƏLƏRƏ ƏTA ETDİYİ NE'MƏTLƏR

Cabir ibni Əbdüllah Ənsari deyir ki, bir gün Peyğəmbərin yanında oturmuşdum. Peyğəmbər üzünü Əli (əleyhis-salam)-a tutub buyurdu: "Ya Əbəl-Həsən! Sənə müqdə verməyimmi?!"

Əli (əleyhis-salam) ərz etdi: "Əlbəttə, ya Rəsuləllah!"

[1] "Biharul-ənvar", 68-ci cild, səh.30, hədis: 61; "Məhasin", səh.183.

Peyğəmbər buyurdu:

هٰذا جَبرَئِيلُ يُخبِرُ عَنِ اللهِ أَنَّهُ قَدْ أَعْطَى شِيعَتَكَ وَمُحِبِّيكَ تِسْعَ خِصٰالٍ: اَلرِّفْقَ عِنْدَ الْمَوْتِ، وَالْاُنْسَ عَنِ الْوَحْشَةِ، وَالنُّورَ عِنْدَ الظُّلْمَةِ، وَالْأَمْنَ عِنْدَ الْفَزَعِ، وَالْقِسْطَ عِنْدَ الْمِيزٰانِ، وَالْجَوٰازَ عَلَى الصِّرٰاطِ، وَدُخُولَ الْجَنَّةِ قَبْلَ سٰائِرِ النّٰاسِ، وَنُورُهُمْ يَسْعى بَيْنَ أَيْدِيهِمْ وَبِاَيْمٰانِهِمْ

*"Bu, Cəbraildir, mənə Allah tərəfindən xəbər verir ki, sənin şiələrinə və səni sevənlərə doqquz xislət əta edəcəkdir:*

*1-Ölən zaman yaxşı rəftar;*

*2-Vəhşətdə ünsiyyət;*

*3-Zülmətdə nur;*

*4-Qorxu vəziyyətdə əmin-amanlıq;*

*5-Mizan bərqərar olanda çoxlu nəsib;*

*6-Siratdan keçmək üçün icazənamə;*

*7-Camaatdan qabaq Cənnətə daxil olmaq;*

*8 və 9-Onlara nur əta edərəm ki, önlərini və sağ-sollarını işıqlandırar."*[1]

Əli ibni Əbi Talib (əleyhis-salam) buyurur:

يَخْرُجُ اَهْلُ وِلاٰيَتِنٰا يَوْمَ الْقِيٰامَةِ مِنْ قُبُورِهِمْ مُشْرِقَةً وُجُوهُهُمْ، مَسْتُورَةً عَوْرٰاتُهُمْ، آمِنَةً رَوٰائِعُهُمْ، قَدْ فُرِّجَتْ عَنْهُمُ الشَّدٰائِدُ، وَسُهِّلَتِ لَهُمُ الْمَوٰارِدُ، يَخٰافُ النّٰاسُ وَلاٰ يَخٰافُونَ، وَيَحْزَنُ النّٰاسُ وَلاٰ يَحْزَنُونَ

*"Qiyamət günü bizim vilayət əhli öz qəbirlərindən üzləri parlaq, övrətləri örtülmüş, qorxulu hadisələrdən əmin-aman halda çıxarlar, şiddətli hadisələr onlardan götürülər,*

[1] "Biharul-ənvar", 68-ci cild, səh.11.



*dayanacaqlardakı sual-cavablar onlar üçün asanlaşdırılar, camaat qorxar, amma onlar qorxmazlar, camaat qəm-qüssəli olar, onlar isə qəm-qüssəli olmazlar."*[1]

İbni Abbas deyir ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən Allah-təalanın buyurduğu *"Vəs-sabiqunəs-sabiqun, ulaikəl-müqərrəbun fi cənnatin nəim!"* – ayəsi barəsində soruşulduqda, Həzrət buyurdu:

قٰالَ جَبْرَئِيلُ: ذٰاكَ عَلِيٌّ وَشِيعَتُهُ. هُمُ السّٰابِقُونَ اِلَى الْجَنَّةِ، الْمُقَرَّبُونَ مِنَ اللهِ بِكَرٰامَتِهِ لَهُمْ

*"Cəbrail mənə demişdir ki, o, "əssabiqun" (öndə gedənlər) dedikdə məqsəd Əli və onun şiələridir. Onlar Cənnətə hamıdan qabaq gedər və Allahın onlara etdiyi kəramətə görə, Allah dərgahına yaxın (müqərrəb) olarlar."*[2]

## BİZİMLƏ VƏ BİZDƏN

İmam Riza (əleyhis-salam) buyurur ki, Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) belə buyurmuşdur:

أَنَا وَهٰذٰا، – يَعْنِي عَلِيًّا – كَهٰاتَيْنِ – وَضَمَّ بَيْنَ اِصْبَعَيْهِ – وَشِيعَتُنٰا مَعَنٰا، وَمَنْ أَعٰانَ مَظْلُومًا كَذٰلِكَ

*"Mən və bu – Əlini nəzərdə tuturdu – bu iki barmağım kimidir (barmaqlarını bir-birinə yapışdırdı). Şiələrimiz bizimlədir, eləcə də, məzluma kömək edən şəxslər də belədir."*[3]

Ömər ibni Yəzid deyir ki, Əbu Əbdillah (əleyhis-salam) belə buyurdu:

[1] "Biharul-ənvar", 68-ci cild, səh.15, hədis: 17.
[2] "Biharul-ənvar", 68-ci cild, səh.20, hədis: 33;
[3] "Biharul-ənvar", 68-ci cild, səh.19; "Üyuni əxbarir-Riza", 2-ci cild, səh.58; "Əmali" (Şeyx Tusi), 1-ci cild, səh.70.

“Yəbnə Yezid! Allaha and olsun ki, sən biz Əhli-beytdənsən!”
Dedim: “Sənə fəda olum! Ali-Mühəmməddənmi?”
Buyurdu: “Bəli, Allaha and olsun ki, onların özündənsən! Sən Allah-təalanın buyurduğu bu ayəni oxumamısanmı:

إِنَّ أَوْلَى النّاسِ بِإِبْراهِيمَ لَلَّذِينَ اتَّبَعُوهُ وَهٰذَا النّبِيُّ

*“Həqiqətən, insanlar içərisində İbrahimə daha yaxın olanlar, ona itaət edənlər və bu Peyğəmbərdir.”*
Allahın digər bir buyruğunu eşitməmisənmi:

فَمَنْ تَبِعَنِي فَإِنَّهُ مِنِّي

*“Hər kəs mənə tabe olsa, o, məndəndir!”*
İmam Cə’fər Sadiq (əleyhis-salam) buyurur:

شِيعَتُنا جُزْءٌ مِنّا يَسُوءُهُمْ ما يَسُوءُنا، وَيَسُرُّهُمْ ما يَسُرُّنا، فَاِذا أَرادَنا أَحَدٌ مِنْهُمْ فَلْيَقْصِدْهُمْ، فَإِنَّهُمُ الَّذِي يُوصَلُ مِنْهُ اِلَيْنا

*“Şiələrimiz bizim (ayrılmaz) bir hissəmizdir, bizi narahat edən şeylər onları da narahat edir, bizi sevindirən şeylər onları da sevindirir. Əgər onlardan bir kəs bizi istəsə, gərək o şiələri də istəsin. Çünki onlar həmin şəxslərdir ki, şiənin vasitəsilə bizə gəlib çatırlar.*[1]
O Həzrət yenə buyurur:

مَنْ تَوَلَّى آلَ مُحَمَّدٍ وَقَدَّمَهُمْ عَلَى جَمِيعِ النّاسِ بِما قَدَّمَهُمُ اللهُ مِنْ قَرابَةِ رَسُولِ اللهِ فَهُوَ مِنْ آلِ مُحَمَّدٍ لِمَنْزِلَتِهِ مِن آلِ مُحَمَّدٍ، بِتَوَلِّيهِ لَهُمْ وَاتِّباعِهِ اِيّاهُمْ، وَكَذٰلِكَ حُكْمُ اللهِ فِي كِتابِهِ: وَمَنْ يَتَوَلَّهُ مِنْكُمْ فَاِنَّهُ مِنْهُمْ وَقَوْلُ اِبْراهِيمَ: فَمَنْ تَبِعَنِي فَاِنَّهُ مِنِّي

[1] “Biharul-ənvar”, 68-ci cild, səh.24; “Əmali” (Şeyx Tusi), 1-ci cild, səh.305.



*“Hər kəs Ali-Mühəmmədi özünə dost tutub sevsə və onları Allah-təalanın Peyğəmbərlə qohumluqlarına görə qabağa saldığına görə, hamıdan qabağa salsa, onların vilayətini qəbul edib, onlara itaət etdiyindən, Ali-Mühəmmədə nisbətdə malik olduğu mənzilətinə görə, onlardan (Ali-Mühəmməddən) sayılar. Necə ki, Allah-təala Öz kitabında belə buyurur:* ***“Sizlərdən hər kəs onları sevsə, həqiqətən, onlardandır.”*** *İbrahim (əleyhis-salam) da belə demişdir:* ***“Hər kəs mənə tabe olsa, həqiqətən, məndəndir!”***[1]

## QURTULUŞ VƏ XİLAS OLMAQ

Cabir ibni Yəzid, Məhəmməd ibni Əli (Baqir) (əleyhis-salam)-dan, o da Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in xanımı Ümmü-Sələmədən nəql edir ki, o belə demişdir: Peyğəmbərin belə buyurduğunu eşitdim:

إِنَّ عَلِيًّا وَشِيعَتَهُ هُمُ الْفائِزُونَ

*“Həqiqətən, Əli və onun şiələri nicat tapanlardır.”*[2]

## VİLAYƏT VƏ BƏRAƏTDƏ ŞƏHİDLƏRLƏ ŞƏRİK OLMAQ

Mö’təsimin dayısı Rəyyan ibni Şəbibin nəql etdiyi səhih bir hədisdə deyilir ki, Məhərrəm ayının birinci günü Əbül-Həsən Riza (əleyhis-salam)-ın yanına getdim. O Həzrət (uzun bir hədisdən sonra) mənə buyurdu:

[1] “Biharul-ənvar”, 68-ci cild, səh.35, hədis: 72; “Təfsiri Əyyaşi”, 2-ci cild, səh.32.
[2] “Irşad” (Şeyx Müfid). Əvvəldə qeyd olundu ki, biz bunu Süyutinin “Əd-durrul-mənsur” kitabından nəql edir və bu mə`naya dəlalət edən çoxlu rəvayətləri də qeyd etmişdik.

يَابْنَ شَبيبٍ اِنْ كُنْتَ باكِيًا لِشَيْءٍ فَأبْكِ لِلْحُسَيْنِ بْنِ عَلِيٍّ بْنِ أَبي طــالِبٍ فَاِنَّهُ ذُبِحَ كَما يُذْبَحُ الْكَبْشُ، وَقُتِلَ مَعَهُ مِنْ اَهْلِ بَيْتِهِ ثَمانِيَةَ عَشَرَ رَجُلاً ما لَهُمْ شَبيهُونَ فِي الْأَرْضِ.

يَابْنَ شَبيبٍ اِنْ سَرَّكَ أَنْ تَسْكُنَ الْغُرَفَ الْمَبْنِيَّةَ فِي الْجَنَّةِ مَعَ النَّبِيِّ فَالْعَنْ قَتَلَةَ الْحُسَيْنِ، يَابْنَ شَبيبٍ اِنْ سَرَّكَ أَنْ يَكُونُ لَكَ مِنَ الثَّوابِ مِثْلَما لِمَنِ اسْتُشْهِدَ مَعَ الْحُسَيْنِ، فَقُلْ مَتى ما ذَكَرْتَهُ: يا لَيْتَنِي كُنْتُ مَعَهُمْ فَأَفُوزَ فَوْزًا عَظِيمًا.

يَابْنَ شَبيبٍ اِنْ سَرَّكَ أَنْ تَكُونَ مَعَنا فِي الدَّرَجاتِ الْعُلي فِي الْجِنانِ فَاحْزَنْ لِحُزْنِنا، وَافْرَحْ لِفَرَحِنا، وَعَلَيْكَ بِوِلايَتِنا، فَلَوْ أَنَّ رَجُلاً تَوَلّى حَجَرًا لَحَشَرَهُ اللهُ مَعَهُ يَوْمَ الْقِيامَةِ.

*“Ey Şəbibin oğlu! Əgər bir şey üçün ağlamaq istəsən, onda Hüseyn ibni Əli ibni Əbi Talib (əleyhis-salam) üçün ağla. Çünki onun başını qoyunun başını kəsən kimi kəsdilər və onunla öz əhli-beytindən on səkkiz nəfər şəhid oldu. Onlar elə kəslər idilər ki, yer üzündə onların oxşarı yoxdur.*
*Ey İbni Şəbib! Əgər Cənnətdə Peyğəmbərlə birlikdə, bir otaqda sakin olmağı istəyirsənsə, onda Hüseynin qatillərinə lə’nət göndər.*
*Ey İbni Şəbib! Əgər imam Hüseyn ilə birlikdə şəhadətə çatanların savabını qazanmaq istəyirsənsə, hər vaxt onu yad edəndə belə de: “Kaş ki, mən də onlarla olaydım və böyük savaba, qurtuluşa yetişəydim!”*
*Ey İbni Şəbib! Əgər Cənnətin yüksək dərəcələrində bizimlə olmaq istəyirsənsə, onda bizim qəm-qüssəmizə görə qüssələn, sevinc və fərəhimizə görə fərəhlən. Bizim vilayətimizdən ayrılma. Çünki əgər bir nəfər bir daşı sevsə, Allah Qiyamət günü onu həmin daşla məhşur edər.”*[1]
Bu hədis səhihdir və insanı dərindən düşünməyə vadar edir. Əgər bu hədisin sənədi düz olmasaydı, onda adətən, başqa mürsəl və zəif hədislərdə müşahidə olunan “mübaliğə”

[1] “Əmali” (Şeyx Səduq), səh.79, məclis: 27.



qismindən hesab edərdik. İndi sizə digər dəfə olaraq hədisin aşağıdakı cümləsini təkrar edirəm: *“Ey İbni Şəbib! Əgər imam Hüseyn (əleyhis-salam)-la birlikdə şəhid olanların savabını qazanmaq istəyirsənsə, hər vaxt onu xatırlayanda de: “Kaş ki, mən də sizinlə birlikdə olub, böyük feyzə və qurtuluşa yetişəydim!”*
Həqiqətən, bu arzu doğru və həqiqi olarsa, yə’ni imam Hüseyn (əleyhis-salam)-ın və o Həzrətin səhabələrinin işinə razılıq, Bəni-Üməyyə və onların dostlarının törətdiyi cinayətlərə qarşı keçirdiyi qəzəb hissində doğruçu olduğumuz zaman, bu arzunu edib, razılıq və qəzəb hissini keçirən şəxs imam Hüseyn (əleyhis-salam)-ı sevənlərin cərgəsində gedərək, o Həzrətin önündə şəhid olan səhabənin savabında şərik olacaqdır. Belə olan halda, niyyət Allah yanında əmələ çevrilir, dərəcə və dəyər baxımından əmələ qoşulur. Bu şərtlə ki, niyyət səhih, əzm və iradə isə doğru olsun...
Bu, qeyd olunan məsələdə niyyətlə əməl arasında qarşılıqlı əlaqəni göstərən qəribə hədisdir. Əcr və savab baxımından niyyətin əmələ çevrilməsində müəyyən qanunlar vardır, necə ki, fizikada maddənin enerqiyə və qüvvəyə çevrilməsində müəyyən qanunlar vardır. Bu qanun da müsbət və mənfi yöndə qəribə bir qanun olub, savab və cəza baxımından haqdır.
Saleh əməl niyyəti, sahibini salehlərin əməllərinin savabına şərik etdiyi kimi, zülm niyyəti və zülmə razı olmaq da, sahibini zülmün cəzasına şərik edir.
Məhəmməd ibni Ərqət deyir ki, Mədinədə İmam Cə’fər Sadiq (əleyhis-salam)-ın yanına getdim. Həzrət buyurdu: “Kufədə yaşayırsanmı?” Dedim: “Bəli.” Buyurdu: “Öz ətrafınızda Hüseynin qatillərini görürsünüzmü?” Dedim: “Sənə fəda olum, onlardan bir kəsi görmürəm.”

Həzrət buyurdu: *“Deməli, sən yalnız qətl işini yerinə yetirən, yaxud bu işi öhdəsinə alan şəxsi qatil hesab edirsən? Məgər Allahın belə buyurduğunu eşitməmisənmi:*

**قَدْ جاءَكُمْ رُسُلٌ مِّن قَبْلِي بِالبَيِّنٰاتِ وَبِالَّذِي قُلْتُمْ فَلِمَ قَتَلْتُمُوهُمْ إِنْ كُنتُمْ صٰادِقِينَ**

*“Məndən qabaq da sizin üçün çoxlu peyğəmbərlər aşkar dəlil və istədiyiniz şeylərlə gəlmişdi. Əgər doğru deyirsinizsə, onda nə üçün onları qətlə yetirdiniz?”*
*Peyğəmbəri Əkrəm (səllallahu əleyhi və alihi və səlləm)-dən öncə yaşayan şəxslərdən (yəhudilərdən) hansı biri peyğəmbər qətlə yetirmişdir? Halbuki, onunla İsa (əleyhis-salam)-ın arasında heç bir rəsul və peyğəmbər gəlməmişdir. Amma onlar həmin şəxslərin peyğəmbərləri qətlə yetirməsinə razı olduqlarına görə, zalımlar (qatillər) adlandırılmışlar.”*
İmam Cə’fər Sadiq (əleyhis-salam)-ın işarə etdiyi ayə “Ali-İmran” surəsinin 182-183-cü ayələridir:

**الَّذِينَ قَالُواْ إِنَّ اللّهَ عَهِدَ اِلَيْنَا اَلاّ نُؤْمِنَ لِرَسُولٍ حَتَّىَ يَاْتِيَنَا بِقُرْبَانٍ تَاْكُلُهُ النّارُ قُلْ قَدْ جاءَكُمْ رُسُلٌ مِّنْ قَبْلِي بِالبَيِّنٰاتِ وَبِالَّذِي قُلْتُمْ فَلِمَ قَتَلْتُمُوهُمْ إِنْ كُنتُمْ صٰادِقِينَ**

*“O kəslər ki, dedilər: “Həqiqətən, Allah bizdən əhd-peyman almışdır ki, heç bir peyğəmbərə, bir qurbanlıq gətirməyincə və o qurbanlığı od vurub aradan aparmayınca, iman gətirməyəcəyik.” De: “Məndən qabaq çoxlu peyğəmbər açıq-aşkar dəlillər və sizin dediyiniz şeylərlə gəlmişdi. Əgər doğru deyirsinizsə, bəs nə üçün onları öldürdünüz?!”*
Şəkk yoxdur ki, Allah-təalanın buyurduğu *“Əgər doğru deyirsinizsə, bəs nə üçün onları öldürdünüz?”* – ibarəsində Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-lə müasir olan yəhudilərə işarə edilir. Halbuki, həmin yəhudilər heç bir peyğəmbəri öldürməmişdilər, onlarla peyğəmbərləri qətlə yetirənlər arasında altı əsr keçmişdir, bununla belə, Qur’ani-Kərim qətl işini Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-lə müasir olan yəhudilərə



həqiqi mə’nada nisbət vermişdir və bu da “Fəs’əlul-qəryətə” – ayəsində olduğu kimi məcazi mə’na deyildir.
Bu nisbət verməyin təfsir və izahı yalnız bu ümumi qanunu – yə’ni sahibinin razı olduğu əməl müqabilində razılıq və ya qəzəblə niyyətin arasında olan münasibəti başa düşməklə mə’lum olur.
Həqiqətən, sadiq niyyət və arzu, sədaqətli razılıq və qəzəb əməlin kamala yetməsinə səbəb olur, bir əməli niyyətində tutmuş şəxsin niyyətinin əmələ nisbət verilməsi düzgün olur və şəxs onu sadiqcəsinə istəyir, sadiqcəsinə ona razılıq verir. Necə ki, Allahın kitabında bəyan olunmuşdur.
Şərif Rəzi “Nəhcül-bəlağə”də rəvayət edir ki, Əli (əleyhis-salam) “Cəməl” döyüşündə qələbə çaldıqdan sonra səhabələrindən bir neçəsi dedi: “Çox istərdim ki, filan qardaşım da burada iştirak edəydi və Allah-təalanın sənə düşmənlərin müqabilində göstərdiyi köməyin şahidi olaydı!”
Həzrət Əli (əleyhis-salam) buyurdu: “Qardaşın bizimlə olmaq istəyirdimi?”
Dedi: “Bəli.”
İmam (əleyhis-salam) buyurdu:

**فَقَدْ شَهِدَنٰا. وَلَقَدْ شَهِدَنٰا فِي عَسْكَرِنٰا هٰذٰا قَوْمٌ فِي أَصْلاٰبِ الرِّجٰالِ وَاَرْحٰامِ النِّسٰاءِ سَيُعَرِّف بِهِمُ الزَّمٰانُ، وَيَقْوَى بِهِمُ الْاِيمٰانُ**

*“O, bizimlə iştirak etmişdir. Onlar ki, hələ atalarının sülbündə və analarının bətnindədir, onlar da bu müharibədə - bizim ordumuzda iştirak etmişlər. Zaman onları tanıtdıracaq və imanlarını möhkəmləndirəcək.”*
Bu ilahi qanun və sünnə savab baxımından bizi saleh insanların əməllərinə şərik edərək onlara qovuşdurur. Biz peyğəmbərlər, övliyalar və salehlərin əməllərində onlarla şərikik, bu şərtlə ki, onların əməllərini niyyət edək, onlara razı olaq, onları sevək, onları sadiqcəsinə təmənna edək.

Bunun əksi də doğrudur: yə'ni əgər bir kəs zalımların yaramaz əməllərinə, zülmlərinə, fəsadlarına razı olaraq o əməlləri yerinə yetirməyi arzu edərsə və onu niyyətində tutub, onları müdafiə edərsə, Allah-təala da onu həmin şəxslərlə birlikdə məhşur edər, hətta həmin şəxs onlarla birlikdə olmasa da, Allah-təala onların əzabını ona da dadızdırar.

Nəql olunduğu kimi, Ali-Mühəmmədin Məhdisi (əccələllahu təala fərəchuş-şərif) zühur edən zaman imam Hüseyn (əleyhis-salam)-ın qatillərini tə'qib edəcək, bir yerə toplayıb hamısını qətlə yetirəcək. Bunun mə'nası odur ki, o Həzrət imam Hüseyn (əleyhis-salam)-ın qatillərini sevənləri, məhz qatillərin o Həzrəti öldürmələrinə razı olduqlarına görə qətlə yetirəcəkdir ki, yer üzü onların zülm və çirkinliklərindən paklansın.

İmam Hüseyn (əleyhis-salam)-ın "Varis" adı ilə məşhur olan ziyarətində bu qanun üçün dəqiq bir me'yar qərar verilmişdir: İmam Hüseyn (əleyhis-salam)-ın qatillərini, ona zülm edənləri və onun qətlinə razı olanları lə'nətləmək.

Ziyarətin bu hissəsini şahid olaraq qeyd edirik:

لَعَنَ اللّه أُمَّةً قَتَلَتْكُمْ وَ لَعَنَ اللّه أُمَّةً ظَلَمَتْكُمْ، وَ لَعَنَ اللّه أُمَّةً سَمِعَتْ بِذٰلِكَ فَرَضِيَتْ بِهِ

*"Allah lə'nət etsin sizi öldürən ümmətə! Allah lə'nət etsin sizə zülm edən ümmətə! Allah lə'nət etsin bunu eşidib razı olan ümmətə!"*

Birinci dəstə qətl cinayətini törədənlər, ikinci dəstə öz imkanları ilə qatillərə kömək edənlər, onları dəstəkləyib təchiz edənlər, üçüncü dəstə imam Hüseyn (əleyhis-salam)-ın qətlə yetirilməsinə razı olanlardır ki, bu da miqyas baxımından yuxarıda qeyd olunanlardan daha genişdir, tarix və coğrafi sərhədləri aşıb keçir.

Yaxşı olardı ki, burada Ətiyyə Ovfinin Peyğəmbərin əziz səhabəsi Cabir ibni Əbdüllah Ənsaridən (o, imam Hüseyn



(əleyhis-salam)-ı, qətlə yetirildikdən sonra o Həzrəti ziyarət edirdi), nəql etdiyi rəvayəti nəzərinizə çatdıraq:

"Bişarətul-Müstəfa" kitabında Ətiyyə Ovfinin belə dediyi nəql olunur: "İmam Hüseyn (əleyhis-salam) qətlə yetirildikdən sonra Cabir ibni Əbdüllah Ənsari ilə birlikdə o Həzrətin qəbrini ziyarət etmək məqsədilə çıxdıq. Kərbəlaya daxil olan zaman, Cabir Fərata yaxınlaşıb, qüsül etdi, sonra bir köynək geyindi, özünü səliqəyə saldıqdan sonra, heybəsini açıb onun içindən ətir çıxartdı və bədəninə sürtdü. Sonra götürdüyü hər bir addımda Allaha zikr dedi, nəhayət qəbrə yaxınlaşdı. Mənə dedi ki, mənim qəbrə yaxınlaşmağıma kömək et. Mən onu qəbrə tərəf apardım, özünü qəbrin üstünə atıb huşdan getdi, onun üzünə su səpdim. Ayıldıqdan sonra üç dəfə "Ya Hüseyn!" - dedi. Sonra əlavə etdi: "Dost dosta cavab vermir..." Sonra dedi: "Necə cavab verəsən, halbuki damarların (kəsilib və) qanına qəltan olubdur, boynunla çiynin arasından qan axır, başın bədənindən ayrılmışdır... Ey peyğəmbərlərin seyyidinin övladı! Ey mö'minlərin seyyidinin övladı! Ey təqva həmpeymanının oğlu və hidayət qılıncının oğlu! Ey Əhli-kisanın beşincisi! Ey nəqiblərin (ilahi xəlifələrin) seyyidinin oğlu! Ey qadınların sərvəri Fatimənin oğlu! Sənə nə olmuşdur ki, belə olmusan?! Halbuki, sənə peyğəmbərlərin seyyidi öz əli ilə yemək yedirtmişdir, müttəqilərin qucağında tərbiyə almısan, iman südlə birlikdə sənə yedizdirilmişdir, İslamla səni süddən ayırmışlar. Diri olanda da, öləndə də pak-pakizə olmusan, amma mö'minlərin qəlbləri sənin fəraqında və hicran odunda yanır, bu qəlblər sənə aşiq olmaqda şəkkə düşmürlər. Allahın salamı və rizvanı sənə olsun!

Qardaşın Yəhya ibni Zəkəriyyanın başına gətirilən müsibətlər sənin başına da gətirilmişdir."

Sonra gözlərini qəbrin ətrafına sürtərək dedi: "Salam olsun sizə, ey o kəslər ki, ruhlarınızı Hüseynin dərgahında fəda

etdiniz!” Sonra mənzil saldığı yerə yaxınlaşıb, dedi: “Şəhadət verirəm ki, siz ömrünüzün axırına qədər namaz qılıb zəkat verdiniz, əmr be mə’ruf və nəhy əz münkər etdiniz, dinsizlərlə cihad apardınız, Allah-təalaya (layiqincə) ibadət etdiniz. Mühəmmədi haqq olaraq peyğəmbər seçən Allaha and olsun ki, sizə baş verən müsibətlərdə biz də şərikik.”

Ətiyyə dedi: “Bu necə ola bilər?! Halbuki biz heç bir vadiyə daxil olmamış, heç bir dağa çıxmamış, qılınc çəkməmişik. O qövm də onların başlarını bədənlərindən ayırmış, onların övladları qocalmış, arvadları dul olmuşdur?!”

Cabir buyurdu: “Ey Ətiyyə! Həbibim Rəsulullahın belə buyurduğunu eşitdim:

مَنْ أَحَبَّ قَوْمًا حُشِرَ مَعَهُمْ، وَمَنْ أَحَبَّ عَمَلَ قَوْمٍ اُشْرِكَ فِي عَمَلِهِمْ

*“Hər kəs bir qövmü sevsə, onlarla birlikdə məhşur olar, hər kəs bir qövmün əməlini sevsə, əməllərində onlarla şərik edilər”*. Mühəmmədi haqq olaraq peyğəmbərliyə seçən Kəsə and olsun ki, mənim özümün və səhabələrimin niyyəti, imam Hüseyn (əleyhis-salam)-ın və səhabələrinin başına gələn müsibətlərdə şərik (ona kömək etmək) olmuşdur. Məni Kufan (Kufə) evlərinə tərəf apar.”

Qayıdarkən Cabir dedi: “Ya Ətiyyə! Sənə vəsiyyət edimmi? Çox güman ki, bu səfərdən sonra bir daha səninlə görüşə bilməyəcəyəm. Ali-Mühəmmədi sevənləri sev – onların sevdiyi şeylərdə, Ali-Mühəmmədin düşmənlərilə – hətta əgər çoxlu oruc tutub, çoxlu namaz qılan olsalar belə;düşmən ol – onların düşmən tutduqları şeydə; Mühəmməd və Ali-Mühəmmədi sevənlərlə rəfaqət (dustluq) et, çünki bu halda onun bir ayağı günahlar səbəbilə saparsa, digər bir ayağı onlara məhəbbət sayəsində öz



yerində qalar. Çünki onlara məhəbbət insanı Cənnətə, ədavət isə cəhənnəmə aparır.[1]

[1] “Bişarətul-Müstəfa”, səh.74, “Heydəriyyə” mətbəəsi, 1383-cü hicri ili.

# ALTINCI FƏSİL: ƏLAVƏLƏR

## ƏHLİ–BEYT KİMLƏRDİR?

Bu bəhsin sonunda çox istərdik ki, müqəddimə də qeyd etdiyimiz bir sualı xatırladaq: “Əhli-beyt kimlərdir ki, imaməti, siyasəti, mərcəiyyəti, fiqhi və maarif mərcəiyyətini Qiyamətə qədər Peyğəmbərdən irs aparmışlar?
Cavab: Bu məsələ o qədər aşkardır ki, insan onun barəsində azacıq belə şəkk etmir. Çünki Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm)-in bu ümmətin halal-haram, üsul, füru və s. məsələləri Qiyamət gününə qədər tə’yin olunmamış şəxslərin öhdəsinə qoyması qeyri-mümkündür. Hökmən bu iş üçün tə’yin olunmuş, aşkar və tanınmış şəxsləri tə’yin etməli idi. Biz də tarix boyunca Peyğəmbər Əhli-beytindən daha bariz şəxslər, imamətləri aşkar olan, müsəlmanlara mərcəiyyəti aydın olan, on iki imamdan başqa qeyrisini tanımırıq ki, onlar İslam tarixində Peyğəmbər Əhli-beytindən olmaqla tanınmışlar. Onlar həmin şəxslərdir ki, şiələr onların on iki nəfərinin imamətinə inanırlar, onlar həmin şəxslərdirlər ki, onların elmi, cihadı, düşüncəsi və mirasları yüzlərlə kitabda bizə çatmış və bu məktəbin alimləri nəsilbənəsil onu bizə çatdırmışlar. Onlar həmin şəxslərdirlər ki, siyasi imamətdə və fiqhi məsələlərdə Peyğəmbərin varisləri olduğuna, bütün günahlardan, aludəliklərdən pak-pakizə olmaqlarına inamımız vardır.



# PEYĞƏMBƏRDƏN SONRA ON İKİ İMAMA DƏLALƏT EDƏN HƏDİSLƏR

Heç bir şəkkin varid ola bilməyəcəyi səhih yollarla Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm)-dən nəql olunmuşdur ki, o Həzrətdən sonra insanları haqqa hidayət edən raşid imamlar on iki imamdan ibarətdir və hamısı da Qüreyşdəndir. Bu rəvayəti Məhəmməd ibni İsmayıl Buxari “Səhih” kitabında[1], Müslüm ibni Həccac Nişapuri “Səhih” kitabında[2], “Tirmizi “Səhih” kitabında[3], Hakim “Müstədrəküs-səhiheyn” kitabında[4], Əhməd ibni Hənbəl öz “Müsnəd” kitabının bir neçə yerində[5] və başqa Peyğəmbər hədisini əzbərləyənlər nəql etmişlər. Biz İslam tarixində çoxlu səhih hədislərdə nəql olunan və bir-birinin ardınca gələn on iki adil imamın bu Əhli-beyt (əleyhimus-salam) imamlarından başqa bir şəxslərin olduğunu tanımırıq:

وَلاٰ يَنْقَضِي هٰذَا ٱلْأَمْرُ قَبْلَ أَنْ يَكْتَمِلَ عَدَدُهُمْ

*“Bu iş onların sayı tamamlanmayınca sona yetməz.”*

وَلاٰ يَزٰال الدِّينُ قٰائِمًا حَتّيٰ يَكُونَ اِثْنٰا عَشَرَ مِنْهُمْ

*“Din həmişə on iki nəfər onlardan gəlib-gedincəyə qədər bərqərar olacaqdır”;*

وَعَدَدُهُمْ عَدَدُ نُقَبٰاءِ بَنِي اِسْرٰائِيلَ

---

[1] “Səhihi Buxari”, “Əhkam” kitabı.
[2] “Səhihi Müslim”, “İmarət” kitabı, 12-ci cild, səh. 201-204, Nüvəvinin şərhi ilə, 1972-ci il.
[3] “Səhihi Tirmizi”, 7-ci cild, səh.35, “Fitən” kitabı.
[4] “Müstədrəküs-səhiheyn”, 4-cü cild, səh.501.
[5] “Müsnədi Əhməd ibni Hənbəl”, 5-ci cild, səh.86, 92, 106.

*"Onların sayı Bəni-İsrailin nəqiblərinin sayı qədərdir."* və s. səhih rəvayətlər buna misaldır.
İslam tarixində bu kimi aşkar sifətlərə malik olan on iki imamın Əhli-beyt (əleyhimus-salam) imamlarından başqa bir şəxs olduğunu tanımırıq ki, Əhli-beyt (əleyhimus-salam) şiələri onların imamətinə e'tiqad bəsləyib, onlara sarılsınlar... Əgər bunu inkar etsək, onda Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in hədisi düzgün olmaz və onun hədisi üçün heç bir xarici nümunə tapılmaz. Bu məsələ də qibləyə namaz qılan şəxslərin heç birinin e'tiqad bəsləmədiyi bir işdir.

## TƏTHİR AYƏSİ

Qeyd etdiklərimizin digər bir şahidi "Əhzab" surəsində gəlmiş "Təthir" ayəsidir:

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ اَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

*"Allahın iradəsi bu olmuşdur ki, yalnız siz Əhli-beytdən hər növ çirkinliyi və aludəliyi uzaqlaşdırıb, sizi pak-pakizə qərar versin."*
Müsəlmanlar heç bir vəchlə ixtilaf etməmişlər ki, Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) Əlini, Fatiməni, Həsən və Hüseyni onlardan başqa heç kəs olmadığı halda, əbanın altına yığdığı zaman bu ayə nazil olmuşdur.[1]
Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən nəql olunan səhih rəvayətlərdə deyilir ki, Peyğəmbər öz Əhli-beytini yalnız onlarda həsr etmiş və bu ayə nazil olan zaman belə dua etmişdir:

[1] "Səhihi Müslüm", "Fəzailus-səhabə" kitabı, "Fəzailu Həsən və Hüseyn" bölümü; "Müstədrəküs-səhiheyn", 3-cü cild, səh. 14; "Sünəni Beyhəqi", 2-ci cild, səh.149 və səh.çoxlu mənbələr.



اَللَّهُمَّ هٰؤُلاءِ اَهْلُ بَيْتِي، مُشِيرًا لِعَلِيٍّ وَفَاطِمَةَ وَالْحَسَنِ وَالْحُسَيْنِ، فَاَذْهِبْ عَنْهُمُ الرِّجْسَ وَطَهِّرْهُمْ تَطْهِيرًا فَقَالَتْ اُمُّ سَلَمَةَ وَاَنَا مَعَهُمْ يَا نَبِيَّ اللهِ؟ قَالَ: اَنْتِ عَلَى مَكَانِكِ اَنْتِ عَلَى خَيْرٍ

*"Pərvərdigara! Bunlar mənim Əhli-beytimdir* (bu zaman Əli, Fatimə, Həsən və Hüseyn (əleyhimus-salam)-a işarə edirdi). *Bunlardan hər növ aludəliyi aradan aparıb, onları pak-pakizə qərar ver."*
Ümmü-Sələmə deyir ki, mən soruşdum: "Mən də onlardanammı, ya Rəsuləllah?!" Həzrət buyurdu: *"Sən öz yerində dayan, sən xeyir üstündəsən!"*[1]
Əhli-beyt (əleyhimus-salam)-ın beş pak kimsənədə həsr olunmasını (və onlardan qeyrisinə aid olmamasını) göstərən rəvayətlər olduqca çoxdur və onların çoxu da səhih rəvayətlərdir, onun Tirmizi, Təhavi, İbni Əsir Cəzəri, Hakim, Süyuti və s. şəxslərin çoxlu yollarla nəql etməsi burada münaqişənin yaradılmasının qarşısını alır və bu da, Əhli-beytin – Peyğəmbəri-Əkrəmin öz əbası altına yığdığı şəxslərin ayırd edilməsində səhih və aşkar rəvayətlərdir...
Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) altı ay müddətində sübh namazına gedərkən, Fatimə (əleyha-salam)-ın qapısının önündə dayanıb *"Əs-səlatu ya Əhləl-beyt!"* – deyər, sonra "Təthir" ayəsinin tilavət edərdi.[2] Süyuti "Durrul-mənsur" kitabında *"Və'mur əhləkə bis-səlat"* – ayəsinin təfsirində Əbu Xudridən nəql edir ki, "Təthir" ayəsi nazil olan zaman Peyğəmbəri-Əkrəm səkkiz ay müddətində sübh namazında Əlinin qapısına gələr və *"Əssəlatu rəhiməkumullah"* – deyər, sonra bu ayəni tilavət edərdi.[3]

[1] "Səhihi Tirmizi", 2-ci cild, səh.309.
[2] "Səhihi Tirmizi", 2-ci cild, səh.209.
[3] "Əd-Durrul-Mənsur" təfsiri, "Taha" surəsi, 132-ci ayə.

Bütün bu işlər Peyğəmbər səhabələrinin hüzurunda baş verir və Peyğəmbər istəyirdi ki, bununla Əhli-beytdən məqsədinin kim olduğunu bəyan etsin və buyursun ki, Əhli-beyt (*əleyhimus-salam*) o kəslərdir ki, Allah-təala onlardan hər növ çirkinliyi aparıb, pak-pakizə qərar vermişdir. Əhli-beytdən olan bu dörd nəfəri tanıdıqdan, Allah-təalanın hər növ çirkinliyi onlardan aparıb, onları pak-pakizə qərar verdiyini bildikdən sonra, onların vasitəsilə imamət və fiqhi mərcəiyyətin tarixinin sonuna qədər davam etməsinə səbəb olan şəxsləri də tanımaq olar. Çünki bu beş nəfərdən Allah-təala Qur'anın şəhadət verdiyi kimi, hər növ çirkinliyi aradan aparmışdır. Onlar doğru şeydən başqa heç nə deməzlər, Qur'anın şəhadət verdiyinə əsasən. İmamət, fiqhi, mədəni və maarif mərcəiyyəti zəncir halqaları kimi bir-birilə əlaqəli olaraq, əvvəlki imamın vəsiyyəti əsasında sonrakı imama keçir və bu zəncirlərin əvvəli imam Əli ibni Əbi Talib (*əleyhis-salam*)-a çatır. Bununla da, Peyğəmbər hədisində işarə olunan on iki imamın kim olması mə'lum olur.